# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

## SCIENTIFIC WORK

International scientific journal

aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

## BEYNƏLXALQ ELMİ KONFRANS

# ZƏNGƏZURUN

## TARİXİ VƏ COĞRAFİYASI

## INTERNATIONAL SCIENTIFIC CONFERENCE
## HISTORY AND GEOGRAPHY OF ZANGAZUR

19.05.2023

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 2.255**


---

## BEYNƏLXALQ ELMİ KONFRANS

# ZƏNGƏZURUN

## TARİXİ VƏ COĞRAFİYASI


DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1



# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 2.255**


---

## INTERNATIONAL SCIENTIFIC CONFERENCE

## HISTORY AND GEOGRAPHY OF ZANGAZUR

**19.05.2023**


**Bakı – Baku**
**2023**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 99 809 67 68
+ 994 12 510 63 99

**e-mail**
elmmerkezi@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

ISSN International Centre · StrikePlagiarism.com · Crossref · Copernicus · Mendeley · International Scientific Indexing · ASOS indeks · Zenodo · Scilit · WorldCat · Publons · idealonline · Academic Resource Index ResearchBib · doi · OpenAIRE · Semantic Scholar · OAmg · Academia.edu · CiteFactor · Internet Archive · ORCID

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA Tarix İnstitutu / Azərbaycan

## Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə

**Assoc. Prof. Dr. Əziz ƏLƏKBƏRLİ,** Qərbi Azərbaycan İcması / Azərbaycan

**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan

## Məsul katib

**Gülnar ƏLİYEVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Bəyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Seyfəddin RZASOY,** AMEA Folklor İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya

**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə. Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Karim SHUKUROV**, The Institute of History of ANAS / Azerbaijan

### Deputy chairman

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan

**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey

**Assoc. Prof. Dr. Aziz ALAKBARLI,** West Azerbaijan Community / Azerbaijan

**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan

### Executive secretary

**Gulnar ALIYEVA**, Azerbaijan Science Center / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSHALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia

**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A. Navai / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Agshin ALIYEV**, Beijing Foreign Studies University / The Republic of Chine
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuc University / Turkey

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 7-11
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 7-11
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Tofiq Nəcəfli**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix elmləri doktoru
tofignajafli@gmail.com

# ZƏNGƏZUR BÖLGƏSİ XV ƏSRDƏ

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, qəbalə, Tatev, Vağədi*
***Keywords:*** *Azerbaijan, Zangazur, gabala, Tatev, Vaghadi*

XV əsrin başlanğıcında Əmir Teymurun ölümündən sonra onun qılınc gücünə yaratdığı nəhəng imperiya parçalandı, Azərbaycan ərazisində qədim dövlətçilik ənənələri bərpa olundu. Zəngəzur bölgəsi yeni yaranmış Azərbaycan Qaraqoyunlu dövlətinin (1410-1468) tərkibində qaldı (Nəcəfli, 2012: 44). Azərbaycan Qaraqoyunlu hökmdarlarının hakimiyyəti dövründə baş verən siyasi hadisələrdə Zəngəzur bölgəsinin Qafan qalası tez-tez xatırlanır. Qara Yusifin 1408-ci ildə Təbriz yaxınlığında Teymuri Əbu Bəkr üzərində əldə etdiyi qələbə Teymurilərin Azərbaycandakı ağalığına son qoydu. Azərbaycanın əksər əraziləri kimi, Zəngəzur bölgəsi də Qara Yusifin nəzarətinə keçdi. Qara Yusifin Azərbaycanda möhkəmlənməsi və paytaxtı Təbriz şəhəri olan öz dövlətini yaratması Teymuri Sultan Şahruxun yürüşlərinə yol açdı. 1420-ci ilin payızında Sultan Şahrux ordusunu qarşılamağa gedən zaman Uçan yaylağında Qara Yusifin ölməsi ilə Azərbaycan Teymuri Şahruxun nəzarətinə keçdi. Lakin Teymuri hökmdarının Azərbaycanı tərk etməsindən istifadə edən Qara İsgəndər hakimiyyəti ələ alaraq Azərbaycanı işğal etməyə çalışan Sultan Şahruxa qarşı mübarizə apardı. Onun hakimiyyəti dövründə Zəngəzur diyarı Qaraqoyunlu dövlətinin tərkibində idi.

Naxçıvandakı Əlincə qalası ilə yanaşı, Zəngəzurda əlverişli strateji mövqeyə malik olan Qafan qalası Qaraqoyunlu Qara İsgəndərin başlıca sığınacaq yerlərindən biri olmuşdur. Əsas xəzinə Əlincə qalasında saxlandığı kimi, çətin dövrlərdə Qafan qalası Qara İsgəndərin ailə üzvlərinin ən etibarlı sığınacaq yeri

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

olmuşdur. Belə ki, Sultan Şahruxun Azərbaycana üçüncü yürüşü zamanı (1435) Qaraqoyunlu hökmdarı öncə Əlincə qalasına çəkilmiş, sonra isə ailə üzvlərini daha etibarlı olan Qafan qalasında yerləşdirmişdi (Aka, 2001: 23). Teymuri ordusu Əlincə qalasını mühasirədə saxladığı zaman Cahanşah Sultan Şahruxdan İsgəndərin Əlincə qalasından sonra sığındığı Qafan qalasını ələ keçirmək üçün icazə almış, Əmir Çakmaq və Kunaşiri ilə birlikdə qala üzərinə hərəkət etmişdir. İsgəndərin vəziri Seyid Mahmud, yaxın bəylərindən Bushaq, Yasaq, Aydoğmuş, Seyid Əhməd, Ərəb Əhməd və qaynatası Bayram oğlu Şah Əli Qafan qalasında idi. Qalanın müdafiəçiləri öncə savaşmağa qərar versə də, müqavimətin bir nəticə verməyəcəyini nəzərə alaraq Seyid Mahmudun qardaşı Əmir Seyidi Əmir Çakmaqla görüşə göndərmişdi. Əmir Çakmaq təslim olacaqları təqdirdə onlara zərər verilməyəcəyinə təminat verdiyi üçün qaladakılar təslim olmağa razılıq vermişdilər. Qaladakılar, o cümlədən İsgəndərin xanımı Şahım və oğlu təslim olmuşdular (Aka, 2001: 24).

Bunlar bir daha təsdiq edir ki, Zəngəzur diyarı Azərbaycan Qaraqoyunlu dövlətinin strateji cəhətdən ən önəmli bölgələrindən biri olmuşdur. Ən çətin dövrlərdə Qaraqoyunlu hökmdarlarının mühüm sığınacaq yeri olmuşdur. Qaraqoyunlu Qara İsgəndər dövründə olduğu kimi, Cahanşah dövründə də Zəngəzurda yaşayan xristian əhaliyə qarşı dözümlülük nümayiş etdirilmiş, o cümlədən Tatev monastrının vəqf mülklərinin genişləndirilməsinə razılıq verilmiş və ətraf kəndlər satın alınaraq onun nəzarəti altına alınmışdır. Bu baxımdan 1450-ci il tarixli 1 dekabr qəbalə sənədi xüsusi maraq doğurur. Bu qəbalə kağızı Zəngəzurdakı Tatev monastırının baş keşişi (vardapeti) Əngəlyurdlu Şmavon tərəfindən Svari, Tanzatap, Toşu və Ağa adlı kəndlərin Bişkin oğlu əmirzadə Rüstəmdən, Kosmakot kəndini Qəzənfər Cahan oğlundan və Urud kəndinin qarşısında yerləşən bağı Pirqulu Səncər bəy oğlundan satın alaraq Tatev monastırına bağışlamasını təsbit edir (Papazyan, 1968: 275-279). Qəbalə kağızını Seyid Rumi Məhəmməd, habelə Urud kənd sakinləri Söhrab və Rüstəm yazmış, Naxçıvan qazısı Zəməddin imzalayaraq möhürlə təsdiq etmişdir (Papazyan, 1968: 278-279).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Göründüyü kimi, Qaraqoyunlu hökmdarı Cahanşahın dövründə Zəngəzurdakı Tatev monastırının nüfuzunun daha da güclənməsi baş keşiş Əngəlyurdlu Şmavonun Zəngəzurlu Əmir Rüstəmdən bəzi kəndləri satın alaraq kilsə mülklərinə qatmasına imkan vermişdir. Cahanşahın 1449-cu il 23 may tarixli fərmanı ilə Tatev və Vağədi monastırları vergidən azad edilmiş, ətraf kəndlərdə istehsal olunan məhsullardan monastıra xüsusi pay ayrılması əmr edilmişdi. Urud nahiyəsinin darğa, məlik və kəndxudalarına monastırların fəaliyyətinə hər hansı şəkildə qarışmaq qəti surətdə qadağan edilmişdir (Papazyan, 1956: 163). Maraqlıdır ki, Cahanşahın digər fərmanı ilə (tarixi oxunmur) Vağədi və Tatev monastırlarının vergi immuniteti bir daha təsdiq edilir və Göyçə vilayətinin ruhanilərinin Tatev monastırına tabe edilməsi rəsmiləşdirildi (Papazyan, 1956: 164-165). Cahanşahın fərmanından aydın olur ki, həmin dövrdə Tatev monastırı erməni kilsəsindən asılı olmadan fəaliyyət göstərmişdi. Fərmanda əmir əl-mülklərə, hakim və darğalara əmr edilirdi ki, Tatev monastırından vergi tutmasınlar. Monastırın başçısı “xristianların başçısı vardapet Şmavon” adlanırdı. Fərmanda ermənilər barədə bircə kəlmə də yoxdur. Göyçə vilayətinin ruhanilərinə və rahiblərinə tapşırılır ki, “əvvəlki kimi onu öz başçıları saysınlar”. Sənədin özündə ermənilər barədə bircə kəlmə yazılmadığı halda, A.D.Papazyan sənədin mündəricatına “Göycə vilayətinin erməni ruhanilərinin Şmavon vardapetə tabe edilməsi” sözlərini əlavə etməklə, faktiki olaraq fərmanın mahiyyətini təhrif etmişdir.

Qeyd etmək lazımdır ki, 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahanşahın razılığı ilə erməni katolikosluq mərkəzi Kilikiyadan İrəvan yaxınlığındakı Üçmüədzinə köçürüldü. Bu, erməni tarixçilərinə Azərbaycanın xristian alban əhalisinin yaşadığı Zəngəzur (Sünik) vilayətini ərazi baxımından öz torpaqlarına qatmaq üçün bəhanə vermişdir. Bu vilayətin əhalisinin bir hissəsi xristian olduğundan (albanlar ərazi və siyasi vahidliyini itirməmişdilər), monofizit ermənilərlə konfessional (din) yekdilliyini hələ də saxlayırdı. Bundan məharətlə istifadə edən erməni tarixçisi A.D.Papazyan Matenadaranda saxlanılan ərəb-farsdilli sənədləri çapa hazırlayan zaman həmin sənədlərdə öz əksini tapmış “rahib”

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

və “xristian” ifadələrinin önünə “erməni” sözünü əlavə etməklə onu saxtalaşdırmaqdan çəkinməmişdir.

1468-cil martın 28-də Qaraqoyunlu hökmdarı Həsən Əli Tatev və Vağədi monastırlarına vəqf torpaqları bağışlanması haqqında fərman imzalamışdır. Fərmana görə daha on kənd Tatev monastırının tabeçiliyinə verilmiş, Tatev və Vağədi monastırları daha bir sıra vergilərdən (mal, ixracat, avariz), monastırın vəqf torpaqlarında yaşayan kəndlilər isə biyar ödəmələrindən azad edilmişdilər. Həmin fərmanla baş keşiş Şmavonun Bişkin oğlu Əmir Rüstəmdən aldığı 10 kəndin Tatev monastırına bağışlanması və həmin kəndlərin monastırın vəqf torpaqları siyahısına salınması təsdiq edilmisdir (Papazyan, 1956: 167-168).

Qaraqoyunlu hökmdarları Qara İsgəndərin, Cahanşahın və Həsən Əlinin Tatev kilsəsi ilə bağlı fərmanları və dövrün qəbalə sənədlərindən görünür ki, həmin dövrdə Zəngəzurun Urud-Qapanat nahiyəsini Orbelilər nəslindən olan Əmir Rüstəm idarə etmiş, Tatev monastrının baş keşişi də həmin nəsildən olan Əngəlyurdlu Şmavon olmuşdur.

Zəngəzur bölgəsi XV əsrin 60-cı illərinin sonlarında mərkəzi Təbriz şəhəri olan Azərbaycan Ağqoyunlu dövlətinin tərkibində olmuşdur. Fəzlullah ibn Ruzbihan Xuncinin verdiyi məlumata görə, Ağqoyunlu Sultan Yaqub çətin Şirvan yürüşündən sonra orduya dincəlmək imkanı vermək üçün qışı Təbrizdə keçirməyə qərar verdi. Lakin şəhərdə taun xəstəliyinin yayıldığını nəzərə alaraq şəhəri tərk edərək Araz sahillərinə gəldi və Bərgüşadda öz düşərgəsini qurdu. O, 1488-ci ilin noyabrın 12-də Bali-Darğalı yolu ilə Qara-Ağaca gələrək Tall-Sultanın ətəklərində öz ordusu ilə qışı keçirdi (Xunci, 1987: 101). Göründüyü kimi, Elxanilər və Teymurilər dövründə olduğu kimi, Azərbaycan Ağqoyunlu dövlətinin tərkibində olan Qarabağ bölgəsi, o cümlədən Zəngəzurun Bərguşad mahalı başlıca qışlaq yeri kimi öz əhəmiyyətini qoruyub saxlamışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan hökmdarlarının ağır vergi siyasəti də bölgədə ciddi demoqrafik proseslərin baş verməsinə gətirib çıxarmışdı. Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının qeyri-müsəlmanlara, xüsusilə də Zəngəzur və

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Qarabağın xristian din xadimlərinə liberal münasibəti bölgədə nəzərəçarpacaq dərəcədə etno-konfessional dəyişikələrlə müşayiət olunmuşdur. Məhz bu dövrdə yenidən dirçəlmiş olan Alban kilsəsi öz əvvəlki qüdrətini bərpa etmək üçün əhalinin mülklərini, torpaqlarını satın alaraq kilsənin mülkiyyətinə çevirməyə çalışmışdır.

## Ədəbiyyat

1. Nəcəfli, T.H. (2012). Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı: Şərq-Qərb.
2. Aka, I. (2001). Turkmen domination in Iran (The period of Karakoyunlular). Ankara.
3. Persidskiye dokumenty Matedarana II. (1968). Kupchie, Vypusk pervy (XIV-XVI vv.). Sostavil A.D.Papazyan. Yerevan: Isd-vo Akademii Nauk Armyanskoy SSR.
4. Persidskiye dokumenty Matedarana I. (1956). Ukazı, Vypusk pervy (XV-XVI vv.). Sostavil A.D.Papazyan. Yerevan: Isd-vo Akademii Nauk Armyanskoy SSR.
5. Xundzhi Fazlulah ibn Ruzbihan. (1987). Tarix-i alam-ara-yi Amini. Perovod s angliyskogo na russkiy T.A.Minorskoy. Baku: Elm.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 12-16
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 12-16
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Məhəmməd Abduyev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
coğrafiya elmləri doktoru
abduyevm@gmail.com.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR ƏRAZİSİ ÇAYLARININ SÜLB AXIMINA DAİR MÜŞAHİDƏ MƏLUMATLARININ TƏHLİLİ

***Açar sözlər:*** *Qarabağ, Şərqi Zəngəzur, sülb axımı, çay gətirmələri, kimyəvi axım*

***Keywords:*** *Karabakh, Eastern Zangazur, salub flow, river flow, chemical flow*

Sülb axımının tərkib hissəsini təşkil edən çay gətirmələrinə aid mövcud məlumatların təhlili göstərir ki, ümumiyyətlə Azərbaycanın çaylarında asılı gətirmələr sərfi üzərində müşahidələr 1994-cü ilədək aparılmışdır. Təəssüflər olsun ki, 1994-cü ildən başlayaraq çaylarda gətirmələr sərfi üzərində stasionar müşahidələrin aparılmaması səbəbindən hazırda bu problemə aid tədqiqat işlərinə yetərincə diqqət yetirilmir.

Mövcud stasionar müşahidə məlumatlarının təhlili göstərir ki, çayların hidroloji parametrləri arasında ən mükəmməl öyrənilən su sərfidir. Məlumdur ki, çayların gətirmələr axımının öyrənilməsi əsasən su sərfinə əsaslanır. Əgər su sərfinə dair məlumatlar yoxdursa, gətirmələr axımı dolayı yollarla müəyyən olunur ki, bu da çox vaxt reallıqdan kəskin fərqlənən nəticələrə gətirib çıxarır. Ermənistan tərəfindən işğal ilə əlaqədar 1988-ci ildən başlayaraq Qarabağ və Zəngəzur çaylarında fəaliyyət göstərən hidroloji məntəqələrdə müşahidələr dayandırılmışdır. 1993-cü ilə qədər su sərfi üzərində fasiləsiz müşahidə aparılan illərin sayı 4 illə 48 il arasında, asılı gətirmələr sərfi üzərində müşahidələr isə 4-27 il arasında dəyişir. Bununla belə əgər su sərfi üzərində stasionar müşahidələr 19 çayın 32 məntəqəsində aparılıbsa, asılı gətirmələr sərfi üzərində müşahidələr bundan iki

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

dəfə az, yəni 10 çayın 14 məntəqəsində aparılmışdır. Yerdə qalan 9 çayın 18 məntəqəsində isə asılı gətirmələr sərfi üzərində ümumiyyətlə müşahidələr aparılmamışdır. Yəni ərazidən axan 10 çayın 14 məntəqəsində həm su, həm də asılı gətirmələr sərfinə dair müxtəlif davamiyyətli və fasiləli müşahidə sıraları mövcuddur. Hidroloji ədəbiyyatlarda (Lopatin, 1952; Xmaladze, 1978; Axundov, 1978 və s.) su sərfi üzərində daha etibarlı məlumatlara malik olan məntəqənin məlumatları dayaq məlumatları kimi qəbul edilərək, qısasıralı çay məntəqələrinin paralel illərinin orta aylıq və orta illik su sərfləri arasında qurulmuş əlaqələrə ($Q_{qısa,\ ay}=f(Q_{uzun,\ ay})$); ($Q_{qısa,\ il}=f(Q_{uzun,\ il})$) və alınmış reqresiya tənliklərinə əsasən qısa sıraların uzadılması metodundan istifadə olunur. Əvvəlki tədqiqatımızda (Abduyev, 2021: 2027) qeyd edilən metodla tədqiq olunan çayların su sərfi sıraları uzadılaraq 57 illik (1962-2018) eyni dövrə gətirilmişdir. Həm su, həm də asılı gətirmələr sərfi üzərində stasionar müşahidə məlumatlarına malik olan çay məntəqələrində (belə məntəqələrin sayı 14-dür) asılı gətirmələrin sərf sıraları $R_{ay}=f(Q_{ay})$ və $R_{ay,qısa}=f(R_{ay,uzun})$ əlaqələrinə və həmin əlaqələrdən alınmış reqresiya tənliklərinə əsasən uzadılmışdır (Şəkil 1).




**Şəkil 1. Su və asılı gətirmələrin orta aylıq sərfləri arasında qurulmuş əlaqə qrafikləri**

Su rejiminin tədqiqi ilə müəyyən olunmuşdur ki, müxtəlif yamacların və təbii regionların çayları axımın formalaşmasına

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

görə analoq hesab olunurlar (Abduyev, 2022: 7-18). Odur ki, asılı gətirmələr və su sərfi arasında qurulmuş əlaqələr gətirmələr axımının ümumiləşdirilməsi və baxılan ərazi üzrə ümumi qanunauyğunluğun dəyişilməsinin müəyyən edilməsində perspektivli hesab olunur (Şəkil 2).







**Şəkil 2. Qısa və uzun sıralı çayların orta aylıq asılı gətirmələr sərfləri arasında qurulmuş əlaqə qrafikləri**

İşğalla əlaqədar son 30 ildə tədqiq olunan ərazi çaylarının həll olmuş maddələr axımı da öyrənilmir. Odur ki, təqdim olunan tədqiqat işi dolayı metodlardan istifadə edilməklə yerinə yetirilmişdir. Hidrokimyəvi tədqiqatlarda minerallaşma sıralarının

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bərpası zamanı əsasən korrelyasiya, xətti interpolyasiya və analogiya metodlarından istifadə olunur (Abduyev, 2006: 3-9). Bu metodlardan istifadə edilməklə tədqiq olunan çayların minerallaşma sıraları paralel illər üçün su sərfinin və minerallaşmanın orta aylıq qiymətləri arasında qurulmuş əlaqələrə (Şəkil 3) görə uzadılaraq davamiyyəti 68 ilə (1950-2018) bərabər olan eyni dövrə gətirilmişdir.







Qarqarçay-Xankəndi Tərtərçay-Kəlbəcər

**Şəkil 3. Orta aylıq su sərfi ($Q_{ay}$, $m^3/s$) ilə minerallaşma (C, mq/l) arasında əlaqə**

Uzadılmış sıralara əsasən xarakterik çaylar üçün əsas ionların və minerallaşmanın çoxillik orta qiymətləri hesablanmışdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Abduyev, M.A. (2021). Qarabağ çaylarının axım sıralarının bərpası. S.H.Rüstəmovun 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan hidrometeorologiyası və ətraf mühit" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, s.20-27.
2. Abduyev, M.A. (2022). İşğaldan azad olunmuş ərazi çaylarının asılı gətirmələr axımının hesablanması. Su problemləri: elm və texnologiyalar. Bakı, №2 (20), s.7-18.
3. Abduyev, M.A. (2006). Azərbaycanın dağ çaylarının kimyəvi axım sıralarının statistik təhlili. Su ehtiyatlarının səmərəli və kompleks istifadəsinin müasir problemləri. Bakı, №3, s.3-9.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Camal Mustafayev**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
tarix elmləri doktoru
mustafayev1954@list.ru

# ZƏNGƏZUR QƏZASINDA XALÇA MƏMULATI İSTEHSALI TARİXİNDƏN

***Açar sözlər:*** *Zəngəzur, qəza, qoyunçuluq, yun, boyaqçılıq, istehsal, xalça*

***Keywords:*** *Zangazur, distract, sheep breeding, wool spinning, carpet*

Çar hökumətinin sərəncamı ilə 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində yaradılmış Zəngəzur qəzası həm də Azərbaycanın mühüm xalçaçılıq bölgələrindən biri idi. Qəzada xalçaçılığın inkişafında qoyunçuluğun geniş yayılması xüsusilə mühüm rol oynamışdı. K.Xatisovun XIX əsrin sonlarına aid məlumatına görə, qəzada 250 min baş qoyun və keçi saxlanılırdı (Khatisov, 1894: 265). Lakin XX əsrin əvvəllərində burada qoyunçuluğun dərin tənəzzülə uğradığının şahidi oluruq. Belə ki, çar məmurlarının 1908-ci ildə tərtib etdikləri "Yelzavetpol quberniyası kəndli əhalisinin iqtisadi vəziyyəti" adlı sənəddə qəzada 52 070 baş qoyun saxlanıldığı göstərildiyi halda (Ekonomicheskoye sostoyaniye, 1910: 139), bu göstərici 1912-ci ildə iki dəfə azalaraq 26 576 başa düşmüşdü (Prilozheniye k pamyatnoy knige, 1910−1914: 96).

Qəzada xalça məmulatı istehsalı üçün əsas xammal olan yun tədarükü qoyunçuluğun inkişaf səviyyəsi ilə uyğunluq təşkil edirdi. Belə ki, XIX əsrin sonlarında qəzada 250 min baş qoyundan ildə 25 553 pud yun əldə edildiyi halda, XX əsrin əvvəllərində bu göstərici kəskin şəkildə aşağı düşərək 1908-ci ildə 4098 pud (Ekonomicheskoye sostoyaniye, 1910: 139), 1912-ci ildə isə cəmisi 3601 pud təşkil etmişdi (Prilozheniye k pamyatnoy knige, 1910−1914: 96).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Yelizavetpol quberniyasının digər qəzalarında olduğu kimi, Zəngəzur qəzasında da yunun əsas hissəsi yerlərdə xalça məmulatı istehsalına yönəldilirdi. İstehsal edilən yun xalça məmulatına çevrilənədək bir neçə mərhələdən ibarət olan ilkin emal prosesindən keçirdi. Bu mərhələlər sırasına yunun yuyulması və növlərə ayrılması, didilməsi və təmizlənməsi, daranması və kələflənməsi daxil idi (Khatisov, 1894: 270-271). Yunun ilkin emalının bütün bu mərhələləri xalçaçı qadınların özləri tərəfindən həyata keçirilirdi. Bununla belə, qəzada ancaq yunun ilkin emalı ilə məşğul olan sənətkarlar da fəaliyyət göstərirdi. 1897-ci il məlumatına görə qəzada onların sayı 15 nəfərə çatırdı (Pervaya vseobshaya perepis, 1904: 158-159). Yun ipliklərin boyanması ilə də daha çox xalçaçı qadınların özləri məşğul olurdular. Bu zaman onlar bitki və heyvan mənşəli təbii boyaq vasitələri ilə yanaşı, anilin və alizarin kimi süni boyaq vasitələrindən də istifadə edirdilər. Boyaqçıdan daha çox bilik və səriştə tələb edən göy rəngin alınması ilə "boyaqçı" adlanan ayrıca sənətkarlar məşğul olurdu. XIX əsrin sonlarında qəzada belə sənətkarların sayı 20 nəfərə çatırdı (Pervaya vseobshaya perepis, 1904: 159).

Əldə olan məlumatların müqayisəsi göstərir ki, Zəngəzur qəzasında xalça məmulatı istehsalı XIX əsrin sonlarında daha yüksək inkişaf səviyyəsinə çatmışdı. Heç də təsadüfi deyildir ki, K.Xatisov Yelizavetpol quberniyasında xalçaçılıq sənətinin geniş yayıldığı qəzalar arasında, ilk növbədə, Qazax və Zəngəzur qəzalarının adlarını çəkir (Khatisov, 1894: 269). 1897-ci ildə keçirilmiş Ümumrusiya siyahıya alınmasında verilmiş statistik materiallar əsasında apardığımız hesablamalara görə qəzada yundan müxtəlif növ məmulatların hazırlanması ilə 3220 nəfər sənətkar məşğul olurdu ki, onların da əksəriyyətini, daha doğrusu 2231 nəfərini xalçaçılar təşkil edirdi (Pervaya vseobshaya perepis, 1904: 159).

Lakin XX əsrin əvvəllərində qəzada qoyunçuluğun dərin tənəzzülə uğraması xalça məmulatı istehsalının da həcminin kəskin şəkildə aşağı düşməsi ilə nəticələnmişdi. Bu tənəzzül özünü həm xalçaçılıqla məşğul olan kəndlərin sayının, həm də

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

istehsal edilmiş xalça məmulatının həcminin azlmasında aydın göstərir. Belə ki, 1908-ci ildə qəzanın 140 yaşayış məntəqəsində xalça məmulatı istehsal ediliyi halda, 1912-ci ildə onların sayı iki dəfə azalaraq 68-ə düşmüşdü. Oxşar vəziyyət həmin illərdə qəzada istehsal edilmiş xalça məmulatlarının həcmi üçün də xarakterik idi. Qəzada 1908-ci ildə 19 029 rubl dəyərində xalça istehsal edildiyi halda, 1912-ci ildə bu göstərici cəmisi 9960 rubl təşkil etmişdi (Ekonomicheskoye sostoyaniye, 1910: 86-141; Prilozheniye k pamyatnoy knige, 1910−1914: 66-96).

Azərbaycanın digər xalçaçılıq bölgələrində olduğu kimi, Zəngəzur qəzasında da xovlu və xovsuz xalçalar toxunurdu. Ümumiyyətlə, Zəngəzurda xalçaçılıq sənəti Qarabağ xalçaçılıq məktəbinin ciddi təsiri altında inkişaf edirdi. Bu təsir özünü istər xalçaların forma və ölçülərində, istərsə də xovun hündürlüyündə göstərirdi. Qarabağda olduğu kimi, Zəngəzurda da xalçalar kvadrat formada toxunurdu. Əgər Qarabağ xalçaları 2,4-3 m x 1,4-1,8 m ölçüdə toxunurdusa, Zəngəzur xalçalarında bu ölçü 2,10-3,10 m x 1,40-2 m təşkil edirdi. Bununla belə, Zəngəzur xalçalarında xovun hündürlüyü daha çox olub, bəzən 20 mm-ə çatırdı (Isayev, 1932: 181-182). Bu vəziyyəti hər şeydən əvvəl Zəngəzurda qışın Qarabağa nisbətən daha sərt keçməsi ilə əlaqələndirmək lazımdır.

## Ədəbiyyat

1. Khatisov, K. (1894). Kustarnyye promysly Zakavkazskogo kraya.Otchety i issledovaniya po kustarnoy promyshlennosti Rossii. T.I, S-Pb., s.259-271.
2. Ekonomicheskoye sostoyaniye krestyanskogo naseleniya Yelisavetpol'skoy gubernii po svedeniyam Mirovikh Posrednikov za 1908 god. (1910). Pamyatnaya kniga Yelisavetpol'skoy gubernii na 1910 god. Pod redaktsiyey I.P.Babenko. Otd. IV. Tiflis: Tipografiya Kantselyarii namestnika Ye.I.V na Kavkaze, s.1-268.
3. Prilozheniye k pamyatnoy knizhke Yelisavetpol'skoy gubernii na 1914 god. (1910−1914). Tablitsa ob ekonomicheskom sostoyanii gorodskogo i krest'yanskogo naseleniya,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

svidetel'stvam, otnosyashchimsya k 1912 godu, sobrannym Nachal'nikami politsii i Mirovymi Posrednikami Yelisavetpol'skoy gubernii. Pod redaktsiyey I.P.Babenko Tiflis: Yelisavetpol. Kub. stat. kom., 177 s.

4. Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii 1897 g. kv. t. LXIII. (1904). Yelizavetpol'skaya guberniya. Izdaniye Tsentral'nogo Statisticheskogo Komiteta MVD Rossii, 183 s.
5. Isayev, M.D. (1932). Kovrovoye proizvodstvo Zakavkaz'ya. Tiflis: Izd-vo Nauchno-issledovatel'skogo Instituta Kavkazovedeniya AN SSSR, 224 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Tariyel Talıbov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Naxçıvan)
biologiya elmləri doktoru
t_talibov@mail.ru
**Ənvər İbrahimov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Naxçıvan)
biologiya elmləri doktoru
enver_ibrahimov@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKA FLORASININ (ZƏNGƏZUR MİLLİ PARKI) ÇƏYİRDƏKLİ MEYVƏ BİTKİLƏRİ

***Açar sözlər:*** *təbii sərvətlər, çəyirdəkli meyvələr, növ tərkibi, yayılma zonası, nadir növlər*

***Keywords:*** *natural resources, stone fruits, species composition, distribution zone, rare species*

Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri içərisində çəyirdəkli meyvə bitkiləri iqtisadi əhəmiyyətinə görə önəmli yerlərdən birini tutur.

Yerli əhali tərəfindən həm təzə halda, həm də müxtəlif sərinləşdirici içkilərin hazırlanmasında geniş istifadə edilən meyvələr qidalılığına görə qiymətli məhsul hesab olunurlar.Naxçıvan MR ərazisində aparılan tədqiqatlara və ədəbiyyat məlumatlarına (Talıbov və b., 2021: 124-130) əsaslanaraq, çəyirdəkli meyvə bitkilərinin növ tərkibi araşdırılmış və yayılma zonaları dəqiqləşdirilmişdir. Müəyyən olunmuşdur ki, ərazidə əriyin (*Armeniaca* Mill.) bir, alça-əriyin (*Armeniaco - prunus* Cinovskis) bir, albalının (*Cerasus* Mill.) 6, meşə albalısının (*Padellus* Vass.) bir, meşə gilasının (*Padus* Mill.) bir, şaftalının (*Persica* Mill.) bir, alçanın (*Prunus* L.) 5, iydənin (*Elaeagnus* L.) 3, çaytikanının (*Hippophae* L.) bir, zoğalın (*Cornus* L.) isə 1 növü yayılmışdır. Bunlardan *Padellus mahaleb*

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

(L.) Vass. (LR), *Hippophae rhamnoides* L. (NT) növlərinin nadir və nəsli kəsilməkdə olduğu nəzərə alınaraq, Naxçıvan MR-in "Qırmızı Kitab"ına (Talıbov və b., 2010: 364, 484), *Padus avium* Mill. (CR A2abc;C1), *Prunus divaricata* Ledeb. (NT), *Hippophae rhamnoides* L. (VU D2) növlərinin isə Azərbaycan nadir ağac və kol bitkiləri kitabına (Məmmədov və b., 2016: 75, 301, 305) salınmış və qorunma yolları göstərilmlşdır.

Çəyirdəkli meyvə bitkiləri həm də dərman əhəmiyyətlidirlər və xalq təbabətində müxtəlif xəstəliklərin sağaldılmasında müvəffəqiyyətlə istifadə olunur. Onlardan *Armeniaca vulgaris* Lam., *Cerasus vulgaris* Mill., *Prunus divaricata* Ledeb., *P. domestica* L., *Padus avium* Mill., *Persica vulgaris* Mill. növləri Naxçıvan "Muxtar Respublikasının dərman bitkiləri" (Talıbov, İbrahimov və b., 2014: 194, 195, 217-231, 226) kitabına salınmış və istifadə yolları göstərilmişdir.

*Armeniaca vulgaris* Lam. - Adi ərik. Mədəni halda bütün rayonlarda becərilir.

*Armeniaco − prunus dasycarpa* (Ehrh.) Cinovskis - Tükcüklü alça − ərik. Mədəni halda becərilir. Ordubad rayonunda yabanılaşmış formalarına rast gəlinir.

*Cerasus araxina* Pojark. - Araz albalısı. Şərur rayonunun Axura, Havus, Qaraquş, Şahbuz rayonunun Biçənək, Qızılqışlaq, Nursu kəndləri ətrafında meşələrdə, quru daşlı və qayalı yamaclarda, kolluqlar arasında yayılmışdır.

*Cerasus avium* (L.) Moench − Quş albalısı (Gilas). Ordubad rayonunun Gilançay, Biləv, Behrud, Culfa rayonunun Kırna, Göy-dərə, Əlincə, Kəngərli rayonunun Qarabağlar kəndlərinin həyətyanı sahələrində və fərdi bağlarda becərilir.

*Cerasus incana* (Pall.) Spach − Boz albalısı. Ordubad rayonunun Gilançay, Vənənd, Culfa rayonunun Göydərə, Kırna, Ərəfsə, Şahbuz rayonunun Biçənək, Keçili, Kolanı kəndləri ətrafında quru daşlı, çınqıllı və qayalı yamaclarda yayılmışdır.

*Cerasus microcarpa* (C.A.Mey.) Boiss. − Xırdameyvə albalısı. Aşağı və orta dağ qurşaqlarında quru daşlı-çınqıllı yamaclarda, kolluqlar arasında yayılmışdır.

*Cerasus austera* (L.) Borkh. - Mədəni halda becərilir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

*Cerasus vulgaris* Mill. − Gilənar albalı. Mədəni halda demək olar ki, bütün rayonlarda düzənlikdən başlamış yuxarı dağ qurşağına qədər əkilib-becərilir.

*Padellus mahaleb* (L.) Vass. [*Cerasus mahaleb* (L.) Mill.] Mahaleb meşə albalısı. Şərur rayonunun Axura, Havus, Şahbuz rayonunun Biçənək, Nursu kəndləri ətrafında meşələrdə, kolluqlarda, dağ yamaclarında, çay dərələrində yayılmışdır.

*Padus avium* Mill. (*Padus racemosa* (Lam.) Gilib.) - Adi meşə gilası. Şahbuz rayonunun Biçənək, Batabat, Ordubad rayonunun Parağa, Bist, Tivi, Nəsirvaz, Xurs, Nürgüt, Şərur rayonunun Qaraquş, Ayı dərəsi, Lizbirt dərəsi ərazilərində yayılmışdır.

*Persica vulgaris* Mill. − Adi şaftalı. Mədəni halda bütün rayonlarda becərilir.

*Prunus serasifera* Ehrh. – Alça. Mədəni halda əksər rayonlarda becərilir.

*Prunus divaricata* Ledeb. – Alça gavalı. Ordubad rayonunun Gilançay, Dırnıs, Culfa rayonunun Kırna, Göydərə, Əlincə, Kəngərli rayonunun Qarabağlar, Babək rayonunun Vayxır, Şahbuz rayonunun Qarababa, Külüs və s. kəndləri ətrafında, meşələrdə, kolluqlarda, talalarda, dağ yamaclarında, çay dərələrində yayılmışdır.

*Prunus nachichevanica* Kudr. − Naxçıvan gavalısı. Şahbuz rayonunun Biçənək kəndi ətraf ərazilərində meçələrdə rast gəlinir.

*Prunus spinosa* L. − Göyəm gavalı. Mədəni halda əksər rayonlarda becərilir.

*Prunus domestica* L. − Ev gavalısı. Mədəni halda bütün rayonlarda becərilir.

*Elaeagnus angustifolia* L. − Daryarpaq iydə. Aşağı və orta dağ qurşaqlarında quru daşlı-çınqıllı dağ yamaclarında, çay vadilərində, kolluqlar arasında yayılmışdır.

*Elaeagnus argentea* Pursh − Gümüşü iydə. Mədəni halda becərilir.

*Elaeagnus orientalis* L. − Şərq iydəsi. Mədəni halda becərilir.

*Hippophae rhamnoides* L. − Adi çaytikanı. Şərur rayonunu Arpaçayın yuxarı hissəsində, Şahbuz rayonun Biçənək kəndi və

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zərnətün ərazisində, Ordubad rayonun Parağaçay, Tiviçay ətrafında daşlı - çınqıllı yamaclarda tək-tək yayılmışdır.

*Cornus mas* L. − Adi zoğal. Mədəni halda bəzi rayonlarda becərilir.

Ümumiyyətlə, çəyirdəkli meyvə bitkiləri təbii sərvət olmaqla, həm də dəyərli ehtiyat mənbəyidir və qədim zamanlardan başlayaraq insanların qidasında xüsusi yer tutmuşdur. Hazırda əhali bu təbii sərvətlərdən çox az miqdarda istifadə edir, yüz tonlarla məhsul isə istifadəsiz qalır. Həmçinin çəyirdəkli meyvə bitkilərinin yabanı növləri arid və seyrək meşələrin əmələ gəlməsində əsas subdominant bitkilərdəndir.

## Ədəbiyyat

1. Talıbov, T.H., İbrahimov, Ə.Ş., İbrahimov, Ə.M. (2021). Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Bakı: Şirvannəşr, 426 s.
2. Talıbov, T.H., İbrahimov, Ə.Ş. (2010). Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabı. Naxçıvan: Əcəmi, II c, 678 s.
3. Məmmədov, T.S., İsgəndər, E.O., Talıbov, T.H. (2016). Azərbaycan nadir ağac və kol bitkiləri. Bakı: Elm, 380 s.
4. Talıbov, T.H., İbrahimov, Ə.Ş., İbrahimov, Ə.M., İsmayılov, A.H., Ələkbərov, R.Ə., Quliyev, V.B., Qurbanov, Ə.K. (2014). Naxçıvan Muxtar Respublikasının rəsmi dərman bitkiləri. Naxçıvan: Əcəmi, 466 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 25-36
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 25-36
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Şikar Qasımov**
Azərbaycan Texniki Universiteti
tarix elmləri doktoru, professor
shikarqasimov@mail.ru

# ZƏNGƏZURUN TARİXİ, ONUN ƏZƏLİ AZƏRBAYCAN TORPAĞI OLMASINA SÜBUTDUR

***Açar sözlər:*** *Qəza, mahal, toponim, dəhliz, köçürmə*
***Keywords:*** *Accident, district, toponym, corridor, relocation*

Tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində müəyyən edilmişdi. Belə ki, parçalanan qədim ərazilərimizdən biri olan Zəngəzur torpağı, Azərbaycanın zəngin tarixi keçmişə malik olmasını göstərən yurd yerlərimizdən biridir. Hətta, müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə bölünübdü. XX əsrin əvvəlində Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi nəticəsində Naxçıvanın, Azərbaycanın əsas hissəsindən ayrı salınması ilə xalqımıza qarşı tarixi ədalətsizlik edilmişdi.

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi Qərbi Zəngəzur adlanır. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli “Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili” adlı qərarı ilə Zəngəzur mahalı iki yerə-qərb və şərq hissələrinə bölünür. 7824 kv.km. sahəsi olan Zəngəzurun 4505 kv.km ərazisi (Qafan, Gorus, Qarakilsə, Mehri və s.) Azərbaycandan qoparılaraq Ermənistana verilir. 1933-cü ildə isə rəsmi Moskvanın qərarı ilə Ermənistan SSR-in ərazisi rayonlara bölündü və Zəngəzur adı xəritədən silindi. Yerində Qafan, Gorus, Sisian (Qarakilsə) və Mehri rayonları yaradıldı, Naxçıvan Azərbaycanı digər torpaqla-rından ayrı salındı. Zəngəzurun

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Azərbaycanda qalan hissəsində əvvəlcə Kürdüstan qəzası, sonra Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı (1).

Azərbaycanın qədim mahallarından olan Zəngəzur 7824 kv.km ərazisi ilə indiki Ermənistan Respublikasının Gorus, Sisian (Qarakilsə), Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını əhatə edir (Qənimətoğlu, 2004: 15-86).

"Zəngəzur" sözü təmiz türk mənşəli toponimdir. "Zəngi"- qədim türk tayfasının adıdır və bu gün, bu ərazidə yerləşən bir çox coğrafi adların – Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan, Zəncan, Zəngilli və s. kimi kənd, çay, dağ adlarının qaynağıdır. Tarixi mənbələrdə, qədim səyyahların memuar və tədqiqatlarında da Zəngəzur türklərin yurd yeri kimi təqdim edilir. Qədim türk eposu "Kitabi-Dədə Qorqud" dastanındakı hadisələrdən bəziləri Zəngəzurda cərəyan edir. Kitabdakı xeyli yer, şəxs, tayfa adı indi də bu ərazidə mövcuddur. Azərbaycan tədqiqatçılarının fikrincə, Zəngəzur öz adını ərəb qoşunlarının Azərbaycana yürüşünün qarşısında əlçatmaz divar (ərəbcə "sur" daş divar, qala, hasar deməkdir) kimi durmuş Zəngi tayfasının adından alıb (Urud, 2013: 400). Göstərilən kimi, Cənubi və Şimali Azərbaycan ərazisində bu tayfanın adı ilə əlaqəli çoxsaylı toponimlər mövcuddur Zəngəzur toponiminin adına Osmanlı imperiyasının Bəyazid sancağı və Qacarlar dövlətinin Maku xanlığı ərazisində yerləşən mənbələrdə də rast gəlinir. XIX əsrin sonlarında Qafqazda torpaq quruculuğu işlərinə rəhbərlik etmiş rus tətqiqatçı M.Skibiskinin topladığı materiallara əsasən də göstərilir ki, keçmiş Dağlıq Qarabağ ərazisi də Zəngəzurun bir hissəsi olmuşdur (3).

Mənbələrə məhəl qoymadan Zəngəzuru tarixi Ermənistan ərazisi hesab edən erməni müəllifləri, "Zəngəzur" adının əmələ gəlməsini istədikləri kimi izah edirlər. Göstərirlər ki, "Zəngə" sözünün mağara, "zur" sözünün güclü səslənən mənasına malik olması ilə bağlıdır. Bu müddəanı izah edərkən onlar deyirlər ki, guya qədim Zəngəzur ərazisində çoxsaylı mağaralar olub ki, onların girişində güclü səslər eşidilirmiş. Sonra ermənilər musiqi aləti olan "zurna"nın adının mənşəyini də "zur" sözü ilə əlaqələndirirlər. Ancaq araşdırmalara

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

əsasın demək olur ki, zurna alətinin Zəngəzur tarixi və adı ilə heç bir əlaqəsi yoxdur. Erməni müəlliflərinin digər bir versiyaları da "Zəng" sözü ilə bağlıdır. Zəng, "zor", güclü və ya "dzor", dərə anlamı ilə izah etmək istəyirlər. Ancaq tarixi həqiqət göstərir ki, onların müxtəlif yollarla Zəngəzuru özününküləşdirmək vərdişi heç bir elmi və tarixi əsaslara malik deyildir (4).

Tarixilik baxımından məlumdur ki, Zəngəzurun ərazisi antik dövrdə və erkən orta əsrlərdə Mada şahlığının, İskit çarlığının, Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olmuşdu. Moisey Kalankatlı "Albaniya tarixi" əsərində VII əsrin əvvəllərində müstəqil Sünik knyazlığının mövcud olduğunu qeyd edir. Qədim dövr mənbələrində bu region Sisakan, yaxud Sünik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı olduğunu yazırlar (5). "Albaniya tarixi" əsərində həmdə bu ərazidə yaşayan alban tayfa birlikləri barəsində, eyni zamanda qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları haqqında da məlumat verir. VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb işğalından sonrakı dövrdən tarixi Azərbaycan torpaqları Səlcuq türkləri tərəfindən işğal edilənədək qədim Alban çarlığı kiçik knyazlıqlar şəklində yenidən dirçəlməyə başlamışdı. Keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdı. Monqolların hökmranlığı dövründə (XIII-XIV əsrlərdə) Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninə və Arran əyalətinin tərkibinə daxil olmuşdur. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk Səfəvilər dövründə davam etmişdir (6).

"Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. "Zəngəzur" toponimi bu ərazilərdə yaşayan, öz igidliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır (Urud, 2013: 13-10). Ərəbcə "sur" daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən olan bu tayfa ərəblərə qarşı sonadək mübarizə aparmışlar. Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat (Qafan) və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat (Qafan) Zəngəzurun Bərgüşad

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan (Qarakilsə) isə Naxçıvan əyalətinə daxil idi. Zəngəzurun Gorus və Laçın (Keştaq) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi. 1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı Azərbaycanın böyük hissəsini ələ keçirən osmanlılar Naxçıvan əyalətini Sisyan və Qapanat (Qafan) mahalları ilə birlikdə Çuxur-səd bəylərbəyiliyinin tərkibinə keçirmişlər. Qapanat mahalı Bərgüşad və Urud nahiyyələrinə bölünmüşdü. Sisyan mahalından isə Kiçik Bazarçay nahiyəsi ayrılmışdı. Qapanat (Qafan) və Zəngəzur əraziləri Çuxursədin Bayazid və Alaşkert vilayətləri ilə birlikdə ayrıca Bayazid nahiyyəsini təşkil etdilər. Laçın (Keştaq) və Həkəri mahalları Qarabağ (Gəncə) əyalətinin tərkibinə daxil olur (7). I Şah Abbas XVII əsrin əvvəllərində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat (Qafan) və Bərgüşadı yenidən Azərbaycanın tərkibinə daxil edilir. Bazarçay nahiyəsi isə Sisyana birləşdirilir. XVII əsrin 30-cu illərinin sonuna yaxın Naxçıvan və Sisyan mahalları Çuxursəd bəylərbəyinin tərkibinə qatılmışdı. XVIII əsrin 20-ci illərində yenidən Osmanlı Türkiyəsi Azərbaycanın xeyli hissəsini ələ keçirirrlər. Əsrin 30-cu illərinə qədər Zəngəzur torpaqlarının bir hissəsi-Sisyan (Qarakilsə) və Meğri (Mehri) Çuxur-səd bəylərbbyiliyinə, Bərgüşad, Həkəri, Keştaq (Laçın), Guləndər nahiyələri və Keştakın (Laçın) bir hissəsi Gəncə-Qarabağ əyalətinin tərkibinə daxil olur. Nadir Əfşar 1735-ci ilədək bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alır. Zəngəzur ərazisi isə Nadir şah Əfşarın 1736-1747-ci illər hakimiyyəti dövründə Azərbaycan inzibati vahidinin tərkibində olur. 1747-ci ildə Nadir şahın ölümündən sonra inzibati bölgü sisteminə (bəylərbəyiliyinə) də son qoyulur (Ələkbərli, 2002: 36). Azərbaycan ərazisi xanlıqlara bölündükdən sonra, Zəngəzur ərazisi Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığının tərkibinə daxil olmuşdu. A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır ki, xanlıqlarası çəkişmələr dövründə Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir XVIII əsrin 50-ci illərində Qaradağa aid Meğri (Mehri) və Güney mahallarını, Naxçıvana aid Tatev və Sisyanı (Qarakilsə), Təbrizə aid olan Zəngəzur və Qafanı tutmuşdu. Beləliklə, bir neçə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

əsr əvvəl olduğu kimi Zəngəzur yenə də bir siyasi-inzibati vahidin sərhədləri çərçivəsində birləşmiş olmuşdu.

XIX əsrin əvvəlindən başlayaraq çar Rusiyasının işğalçılıq siyasətinin nəticəsi olaraq, 1805-ci il mayın 14-də Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında Kürəkçay müqaviləsi bağlanır. Xanlığın 21 mahalından 9-nu əhatə edən Zəngəzur ərazisi rusların himayəsinə keçir. Sisyan (Qarakilsə), Tatev, Qaraçorlu, Püsiyan, Bərgüşad, Qafan, Mehri-Güney və Çavundur/ Çuldur mahallarını əhatə edən bu əraziyə, Həkəri və Bərgüşad çayları hövzəsindən başlayaraq Zəngəzur dağ silsiləsinədək olan torpaqlar daxil idi (12).

İnzibati-ərazi vahidi kimi, Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxmışdır. 1813-cü il Gülüstan müqaviləsinə əsasən Zəngəzur da Rusiyanın işğal etdiyi ərazilərə sırasında olmuşdu. 1822-ci ildə Qarabağ xanlığını ləğvindən sonra, Zəngəzur yaranmış eyni adlı əyalətin bir hissəsinə çevrilmişdir. 1831-ci ildə bu əyalətin tərkibində 9 minbaşılığı birləşdirən Zəngəzur mahalı təşkil olunur. Mahalın tərkibinə Sisyan (Qara kilsə), Tatev, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Meğri-Güney və Çavundur (Çuldur) nahiyələri və naibllikləri daxil idi (12). Beləliklə Qarabağ xanlığı rus komendantının rəhbərlik etdiyi Qarabağ əyalətinə çevrildi. Bu üsul-idarə 1840-cı ilədək qüvvədə qaldı. Çarizmin müstəmləkə əsarətinə qarşı yerlərdə baş verən narazılıqları və üsyanları görən Çar höküməti komendant üsul-idarə sisteminin ləğvi və yeni inzibati idarə üsulu haqqında fərman verir. 1840-cı il 10 aprel tarixli fərmana əsasən Komendant üsul-idarəsi ləğv edilir. 1840-cı il aprelin 10-da İmperator I Nikolay tərəfindən təsdiq edilmiş yeni inzibati islahatlar, 1841-ci il yanvarın 1-dən etibarən bütün Cənubi Qafqazda tətbiq edilməyə başladı. 1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə, Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində olan Zəngəzur mahalı iki yerə- Zəngəzur və Meğri (Mehri) ərazilərinə bölünür (Mehdiyev, 2022: 5).

1840-cı ildə aprel islahata əsasən, Cənubi Qafqaz iki vilayətə: Gürcüstan-İmeretiya və Kaspi-Şamaxı vilayətinə bölünür. İslahata görə keçmiş əyalətlər qəzalara və dairələrə çevrilir. Belə ki, Qarabağ əyaləti Şuşa qəzasına çevrilir və Kaspi vilayətinə tabe edilir. Şuşa qəzasının tərkibində Zəngəzur 2 dairəyə - Zəngəzur və Mehri

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

dairələrinə bölünür. 1846-cı il tarixli yeni inzibati-ərazi bölgüsünə əsasən Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. Şuşa qəzası, Kaspi vilayəti ləğv edildikdən sonra yaradıl-mış Şamaxı quberniyasına daxil edilir. 1849-cu ildə İrəvan quberniyasının yaradılması ilə Zəngəzurun cənub hissəsi Mehri darəsi (Qafan, Güney-Mehri, Çuldur və Püsiyan) ona verilir. Mehri dairəsi 1849-1867-ci illər aralığında İrəvan quberniyanın Ordubad qəzasının tərkibində qalır. 25 fevral 1868-ci ildə Yelizavetpol quberniyasının yaradılır (Urud, 2013: 22). Şuşa qəzası yeni yaranmış quberniyanın tərkibinə daxil olur. 1874-cü ildə Şuşa qəzasının, Bakı və İrəvan quberniyasının Naxçıvan qəzasının ərazilərinin bir hissəsi hesabına Zəngəzur qəzası yaradılır. İrəvan quberniyasının tərkibində olan Mehri dairəsi isə Zəngəzurun tərkibinə geri qaytarılır (Qasımov, 2009: 43). Sonradan Zəngəzur qəzası dairələrə bölünmüş və sovet hakimiyyəti qurulanadək bu formada mövcud olmuşdu. Zəngəzur qəzası, İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı ilə, İranla həmsərhəd idi. Yelizavetpol quberniyasına daxil olan qəzalar içərisində ərazicə ən böyüyü Zəngəzur qəzası idi. XIX əsrin sonlarında Zəngəzur qəzasının ərazisi 7,83 min kv.km olmuşdu. Zəngəzur tarixən 4 yerə – Güney (Meğri), Qafan, Gorus və Sisyan (Qarakilsə) mahallarına bölünmüşdü. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdi.

Müsəlmanların yaşadığı torpaqlarda ermənilərin timsalında güclü sosial dayaq yaratmağa çalışan çarizm, XIX əsrdən başlayaraq XX əsrin əvvəllərinədək köçürmə siyasətini həyata keçirməyə başlamışdı. Bu proses Zəngəzur qəzasında etnik və dini tərkibin dəyişməsinə səbəb olmuşdu. Bu dəyişikliyi XIX əsrdən XX əsrin əvvəllərinədək Rusiya imperiyasındakı siyahıyaalmaların və statistik məcmuələrin məlumatları vasitəsi ilə asan görmək olar. Köçürmə prosesi bir əsrədək uzandığına görə Zəngəzur qəzasının etnik-demoqrafik vəziyyətinə əsaslı təsir göstərmişdi. 1874-cü ildə aparılan siyahıyaalmaya görə Zəngəzur qəzasındakı 268 dövlət kəndinin 5-i qarışıq kənd olmuş, 208 kənddə tatarlar

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

(azərbaycanlılar) 42-də ermənilər, 12-də kürdlər, 1-də isə ruslar (malakanlar) yaşayırdılar. Ümumiyyətlə XIX əsrin sonunda yaşayış məntəqələrinin 72 də ermənilər yaşayırdılar ki, onların da tam əksəriyyəti 1828-ci ildən sonra İran və Türkiyədən bölgəyə köçürülənlər idi (Urud, 2013: 25). Sonralar, 1893-cü ildə Qafqaz hərbi dairəsinin baş komandanının göstərişi ilə dərc olunmuş 1886-cı il siyahıyaalmasının məlumat-larına əsasən Zəngəzur əhalisinin 53,3%-ni müsəlmanlar, 46,3%-ni ermənilər təşkil edirdi. XX əsrin əvvəllərindək isə mahalın 326 kəndinin 149 türk, 91 kürd və 81 isə erməni kəndi idi (Axundova, 2017: 8).

Bunlara baxmayaraq Azərbaycan torpaqlarına göz tikən və öz havadarlarından güc alan ermənilər, Zəngəzur ərazisinin böyük bir hissəsini 1918-1920-ci illərdə işğal etmişlər. 1921-ci ildə isə tarixi qəzanın qərb hissəsində Ermənistanın inzibati-ərazisinə daxil edilən Zəngəzur qəzası yaradılmışdı. Hazırda Qərbi Zəngəzur, Ermənistanın Sünik vilayətinin ərazisinə daxil olan, Sisian (Qara kilsə), Qafan, Gorus və Meğri (Mehri) rayonlarının ərazilərini əhatə edir. Azərbaycan SSR-in tərkibində qalan Zəngəzurun Şərq hissəsi isə, inzibati ərazi bölgüsünə görə Azərbaycanın Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarının ərazilərindən ibarətdir.

Olanlardan şirniklənən və “Boyük Ermənistan” xülyası ilə yaşayan ermənilər Sovet hakimiyyətinin qurulmasından istifadə edərək yeni ərazilər ələ keçirmək planını işə saldı. 1920-ci il avqustun 10-da İrəvan şəhərində Sovet Rusiyası ilə Ermənistan arasında müqavilə imza-lanarkən Azərbaycanının milli, dövlət mənafelərinə qəsdlər edilərək Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırıldı. Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxartdı. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. Bununla da İrəvandakı danışıqların protokolu tərəfləri gələcəkki sülh müqaviləsini imzalamağa məcbur edirdi. Həmin sazişlə Ermənistan Qarabağdan imtina etməli, Zəngəzur isə Ermənistana verilməli idi (Mehdiyev, 2022: 12). Əslində toraqların Ermənistana ədalətsiz olaraq verilməsi razılığını V.İ.Lenin vermiş, bu iş İ.V.Stalin tərəfindən həyata

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

keçirilmişdir. 1920-ci il noyabrın 4-də İ.Stalin, S.Orconikidze, Qabrelyan, Leqan, Ə.Qarayev və başqalarının iştirakı ilə keçirilən iclas, qəbul edilən qərar Azərbaycan torpaqlarının hərraca qoyulması demək idi. Hətta V.İ.Lenindən sonra, İ.V.Stalin "Mən Azərbaycan torpaqlarının müstəqilliyinin tərəfldarı deyiləm" (Xalq qəzeti, 2008) deməsi düşmən münasibətin açıq təzahürü idi.

Beləliklə, Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzasına və Şərqi (guya ki, əhalisinin kürdlərdən ibarət olmasına görə) Kürdüstan qəzasına bölmək təklif edilirdi. Əslində Qəzanın Şərqində kürdlər çoxluq təşkil etmirdi. Onlar ərazinin sakinləri olaraq fərq qoyulmadan yaşayırdılar, yerli əhali ilə qohumlaşmışlar və illərlə belə də yaşayırlar. Əsas olan əslində məqsədlərinə çatmaq üçün kürdlərdən istifadə etmək idi. Nəticədə ədalətsizlik edilərək Zəngəzur qəzasının 6.742 kv. verstlik (7,83 min kv.km) ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi (10).

Zəngəzurun ermənilərə verilməsi istiqamətində daha bir addım 1920-ci il dekabrın 1-də atıldı. "İ.V.Stalin Bakı sovetinin 1 dekabrda qəbul eitdiyi qərara münasibətini belə bildirmişdir. Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli ərazilərdən könüllü olaraq əl çəkir, Zəngəzur, Naxçıvan və Qarabağın Sovet Ermənistanına verilməsini elan edir". Göründüyü kimi XI Qırmızı ordunu Azərbaycanı işğal etmək üçün A.Mikoyan dəvət etmişdirsə, Azərbaycan torpaqlarının siyasi hərraca qoyan İ.V.Stalin olmuşdur. Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi elan edilən kimi həyata keçirilmədi. N.Nərimanov V.İ.Leninə yazdığı məktubda "Azərbaycanın tamamilə mübahizəsiz ərazilərini Ermənistana güzəştə gedilməsi mümkün olmayan səhvdir" deyə etiraz etmişdir. Bunun qarşısında Ermənistanın Zəngəzuru ələ keçirməsini asanlaşdırmaq və sürətləndirmək məqsədilə Zəngəzuru parçalayıb, onun bir hissəsində yeni qəza yaratmaq fikrini irəli sürmüşlər (Mehdiyev, 2022: 13). Əslində əsas məqsəd Azərbaycanı parçalamaq, Rusiyanın mövqeyini möhkəmlətmək və işğalı asanlaşdırmaq idi.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

1921-ci il yanvarın 12-də Az. KP MK-si siyasi və təşkilat bürolarının iclasında Zəngəzurun müsəlman hissəsinin (əslində Zəngəzurun bütün hissəsində Türk-müsəlmanlar çoxluq təşkil edirdi) inzibati cəhətdən təşkili haqqında qərar çıxarıldı. Uzun müzakirədən sonra Zəngəzurun könüllü inzibati sərhədləri daxilində saxlanması qərara alınır. Bura ilə bağlı qeyri müəyyənlik 1927-ci ilə qədər davam edir.

Ermənistan SSR 1921-ci ildə yaradılanda tarixi Zəngəzurun Qərb əraziəri-Sisian (Qara-kilsə), Gorus, Mehri, Qafan məqsədli şəkildə yaradılaraq, Ermənistan dövlətinə bağışlanılır. 1923-cü ildə isə Qarabağın dağlıq hissəsinə muxtariyyat verildi. Bura Cavanşir qəzası, Şuşa və Cəbrayıl qəzalarının dağlıq hissələri daxil edildi. Zəngəzur qəzasının tərkibində olan Laçın rayonunun bəzi kəndləri-Məzməzək, Fərəcan, Suarası, Bayramuşağı, Köhnəkənd, Qışlaq (3,s.15) və b kəndlər Şuşa qəzasının tərkibinə daxil edilir. Lakin, elə həmin ili DQMV-nin təşkili ilə əlaqədar olaraq Şuşa Qəzası ləğv olunur və onun əvəzində Ağdam qəzası təşkil olunur. Bundan sonra mərkəzdən ucqarda olmaqla, geniş bir ərazini əhatə edən Qubadlı, Laçın və Kəlbəcər torpaqlarının vahid qəza kimi birləşməsi məsələsi yenidən  ortaya çıxır. Ermənistana verilməsi vəd edilmiş – tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzurun bütünlüklə Ermənistana birləşdirilməsini asanlaşdırmaq məqsədilə yeni planlar cızılır. Ədalətsiz olmasına  baxmayaraq Zəngəzur qəzasını parçalayıb, Qərb hissəsini Ermənistana verilməsi, erməniləri şirnikləndirir. Sovet Rusiyasının ermənipərəst siyasətinin gücü ilə 1923-cü il avqust ayının 6-da Qubadlı qəzasının Şimal və Cavanşir qəzasının qərb hissəsində Kürdüstan qəzasının təşkil edilməsinə dair Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsində qərar qəbul olunur. Bundan şirniklənən ermənilər bir sıra əraziləri də ələ keçirdilər. Belə ki, Zaqafqaziya MİK. Rəyasət Heyətinin 1927-ci il 1 yanvar tarixli iclasında Mehri-Cəbrayıl qəzasında 24 kəndin, 1927-ci ilin 20 iyun tarixli iclasında isə Zəngəzur qəzasının Şərq hissəsindən 1.065 desaytin ərazisinin bu və ya digər qəzalara aid edilməsi məsələləri müzakirə edilir (Xalq qəzeti, 2008).

1929-cu il fevralın 18-də Saakyanın sədrliyi, D.Bünyatzadə, M.C.Bağırov və S.Yaqubovun iştirakı ilə keçirilən iclasda Mehridə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

erməni rayonu yaratmaq adı altında Zəngilan rayonunun– Nüvədi, Ernəzir və Tuğut kəndəlri Ermənistana verildi. Qars müqaviləsinə məhəl qoyulmayaraq Zaqafqaziya Sovetləri MİK Rəyasət Heyətinin 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi Ermənistana verilir. 1938-1939-cu illərdə isə Nüvədi Ernəzirə Tuğut isə Astazura birləşdirilir (Xalq qəzeti, 2008). Beləliklə, Zəngəzurun cənub-qərb hissəsindəki torpaqlar da ermənilərə bağışlanılır. Mehri rayonunun təşkili ilə Azərbaycan tərkib hissəsi olan Naxçıvandan ayrı salınır. Türkiyə ilə əlaqə kəsilir.

Bu məkirli siyasət sonrakı illərdə də mərhələ-mərhələ davam etdirilmişdi. Yolverilməzi və ən dəhşətlisi o olmuşdur ki, zəngəzurluların öz doğma torpaqlarından sıxışdırılıb qovulması siyasəti Sovet hakimiyyəti illərindədə davam etdirilmişdir. Belə ki, 1918-ci ildə Zəngəzurda 50 min nəfərdən çox azərbaycanlı yaşadığı halda, 1926-cı ilin siyahıya alınmasına görə bu say 5 min nəfərə çatmırdı (Axundova, 2017: 8). Bunun müqabilində isə, Ermənistanda yalançı xalqlar dostluğundan dəm vurulurdu. Əslində isə çox incəliklə Azərbaycan kəndləri yox edilirdi. Millət Vəkili Musa Urudun yazdığına görə 1931-ci ildən 1988-ci ilədək Zəngəzurda 61 azərbaycanlı kəndi erməni kəndlərinə birləşdirilmiş, 104 kəndi sə tamamilə erməniləşdirilmişdi (Urud, 2013: 24).

XX əsrin 80-ci illərinin ortalarından başlanan bədnam yenidən qurma siyasəti ermənilərin əl-qolunu açdı. Ermənistanın Azərbaycan ərazilərinə qarşı torpaq iddiaları başladı. Sovet hakimiyyətinin olmasına baxmayaraq, Ermənistan Respublikası xristian təssübkeşliyindən istifadə edərək 1992-1993-cü illərdə Şərqi Zəngəzur adlandırılan torpaqlarımızı, Qarabağ ətrafı 7 rayonla birlikdə işğal etdilər. Şərqi Zəngəzurun ərazisi 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qaldı. Bu müddət ərzində işğalçılar bölgənin kənd və şəhərlərini qarət etməklə yanaşı, xalqımıza məxsus tarixi yadigarları da məhv etdilər. Bu yerlərdə təkcə insanlar deyil, tarixi abidələrimiz, mədəniyyətimiz, mənəviyyatımız məhf edildi. Belə ki, Zəngəzur bölgəsi Alban irsi ilə zəngin olduğuna görə, erməni vandalları alban xristian məbədlərini dağıtmış, ya da onları özününküləşdirməyə çalışmışlar. Kütləvi şəkildə viran edilən İslam mədəniyyəti abidələ-rindən daha çox

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

məscidləri, qəbirüstü türbələri, daşlarını və epiqrafik yazıları göstərə bilərik.

28 il işğal altında qalan Şərqi Zəngəzur əraziləri Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin rəhbər bacarığı, ordumuzun qəhrəmanlığı və qardaş Türkiyənin mənəvi-siyasi dəstəyi sayəsində 2020-ci ilin 10 noyabrında Ermənistanı kaputuliyasiyaya mməcbur etməklə işğaldan azad olundu. Şərqi Zəngəzur torpağı öz əzəli sahiblərinə qovuşdu. Azərbaycan Ordusunun 44 günlük ikinci Qarabağ müharibəsində qazandığı tarixi qələbə, 30 ilə yaxın keçən müddətdən sonra haqq-ədaləti bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu yaradıldı (11). Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu tarixi Fərman qədim Zəngəzur adını coğrafi, inzibati ərazi vahidi olaraq yenidən xəritələrə qaytardı. 2021-ci ilin 26 oktyabrında isə bütün Türk dünyasını birləşdirən, Azərbaycanda və bölgədə yeni reallıq yaradan Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlinin qoyulması (9), ədalətin bərpası istiqamətində atılan növbəti bir addım olmasıılə tarixə yazıldı.

Erməni vandallarının sonuncu tör-töküntüləri 2022-ci il avqust ayının 26-da Laçın şəhərindən, Zabux və Sus kəndlərindən təmizlənildi. Artıq indi Zəngəzur ərazilərində sürətli bərpa-quruculuq işləri gedir. Zəngilanda ağıllı Ağalı kəndi salınmış və kəndin əhalisi öz yeni evlərinə köçürülmüşlər. Laçında, Həkəri çayının üzərində 2023-cü ilin 23 aprelində keçid yoxlama məntəqəsi qurulmuşdur. May ayının 28 də Laçın şəhərinə ilk qaydış başladı. Cənab Prezident İlham Əliyev öz əli ilə 20 nəfər Laçın sakininə yaşadıqları evlərin açarlarını verməsi böyük sevincə səbəb oldu. İlin sonuna qədər Laçın və Zabux kəndlərinə altı min nəfərə qədər sakinin köçürülməsi gözlənilir

Mətn boyu Zəngəzurun qədim zamanlardan, bu günkü günümüzə qədər tarixini izlədikcə bu qənaətə gəlmək olur ki, bu yerlər heç bir vaxt ermənilərə məxsus olmamışdır. Zəngəzurun müfəssəl tarixi də onun əzəli Azərbaycan torpagı olmasının sübut edir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. https://azertag.az/xeber/).
2. Urud, M. (2013). Zəngəzur toponimləri. Bakı, 400 s.
3. İqtisadi rayonların yeni bölgüsü Qarabağın ve Şərqi Zəngəzurun inkişafını surətləndirəcək.
4. Qədim dövrdən başlayaraq Zəngəzur tarixi. Biz onun haqqında nə bilirik. I-hissə.
5. https://1news.az/az/news/
6. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsindən 100 il keçir.
7. http://zengezur.com/index.php/9-xbrlr/
8. Ələkbərli, Ə. (2002). Qərbi Azərbaycan. 10 cilddə, II cild. Bakı, 736 s.
9. https://azertag.az/xeber)
10. Mehdiyev, S. (2022). Tarixin zəfər yolu. Bakı, 216 s.
11. Qasımov, Ş.M. (2009). Xalq qəhrəmanı Sultan bəy. Bakı, 43-385.
12. Axundova, E. (2017). Ağrım, canım mənim Zəngəzur 525-ci qəzet, 8 aprel, 8 s.
13. “Xalq qəzeti”. (2008). 08 fevral.
14. Qənimətoğlu, R. (2004). Həkərinin qəm nəğməsi. Bakı, s.15-86.
15. Azərbaycan ve Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər.
16. “Xalq qəzeti”. (2008). 10 fevral.
17. Şahinoğlu, A. Zəngəzur tarixi Azərbaycan torpağıdır https://www.yeniazerbaycan.com/

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 37-44
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 37-44
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Cəbi Bəhramov**
AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
djabibaxramov@mail.ru

# XX ƏSRİN II YARISINDA QƏRBİ AZƏRBAYCANIN QƏRBİ ZƏNGƏZUR BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI (1946-1991-Cİ İLLƏR)

***Açar sözlər:*** *Qərbi Zəngəzur, Qafan, Qarakilsə, Mehri, Gorus*
***Keywords:*** *West Zangezur, Gafan, Garakilsa, Mehri, Gorus*

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən (Qərbi Azərbaycan) deportasiyasından sonra, Azərbaycan SSR ərazisinə Ermənistan SSR-dən 9875 təsərrüfat, 42190 nəfər əhali köçürülmüşdü ki, onların içində Zəngəzurun Qarakilisə (Sisyan), Qafan, Gorus və Mehri rayonlarından azərbaycanlılar da var idi (Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, 2013: 683). Lakin bütün bunlarla bərabər öz doğma torpaqlarını tərk etmək istəməyən Zəngəzurun bu rayonlarının əhalisi keçmiş SSRİ hökumətinin səssiz razılığı ilə Ermənistan SSR rəhbərliyinin qəsdən hazırladığı yeni sosial-iqtisadi siyasətin yaratdığı çətinliklərlə üz-üzə qaldı. XX əsrin 50-ci illərinin ortalarından başlayaraq Zəngəzurun Ermənistan SSR tərkibində olan Qarakilsə, Qafan, Gorus və Mehri rayonlarının azərbaycanlı əhalisinə qarşı yaradılan siyasi-ideoloji və mənəvi-psixoloji şərait heç də ürəkaçan deyildi. Qeyd etmək lazımdır ki, Zəngəzur iqtisadiyyatının əsasını kənd təsərrüfatının müxtəlif sahələri təşkil edirdi. Maldarlıq, əkinçilik, bağçılıq və digər sahələr burada yaşayan yerli əhalinin əsas məşğuliyyət sahələri idi. Zəngəzurun Mehri rayonunda bu sahələrə xüsusi fikir verilirdi. Bu rayonda meyvəçilik və maldarlıq sahələri çox inkişaf etmişdi. Rayonun kəndlərində istehsal edilən kənd təsərrüfatı məhsulları rayon mərkəzində yerləşən şərab zavoduna təhvil verilir və burada müxtəlif təyinatlı məhsullar istehsal olunurdu. Bu dövrdə rayon ərazisinin dağlıq region olması faktını bəhanə edərək burada olan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

dağ kəndlərinin iqtisadiyyatını inkişaf etdirmək adı altında əksər azərbaycanlı kəndlərinin kolxoz təsərrüfatlarını erməni kəndlərinin kolxoz təsərrüfatları ilə birləşdirərək onların idarə olunması əsasən ermənilərə həvalə olunurdu. Qeyd etmək lazımdır ki, bu siyasəti həyata keçirən Ermənistan SSR rəhbərliyi SSRİ hökumətinin bu məsələ ilə bağlı qəbul etdiyi qərarları (Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, 2013: 683) əsas götürən Ermənistan SSR hökuməti bu qərarı Ermənistan SSR-in azərbaycanlılar yaşayan ərazilərə, o cümlədən bütün ərazisinin demək olar ki, dağlardan ibarət olan Qərbi Zəngəzurda da tətbiq etməyə başladı. Həyata keçirilən siyasət dağ kəndlərinin iqtisadiyyatını inkişaf etdirmək, bu ərazilərdə yaradılmış kolxoz təsərrüfatlarının perspektivliyini artırmaq adı altında aparılırdı və burada əsas məqsəd bu ərazilərdə yerli əhali olan azərbaycanlıları sosial-iqtisadi çətinliklərlə üz-üzə qoyaraq onların bu əraziləri tərk etmək məcburiyyəti qarşısında qoymaq idi. Bu məqsədyönlü siyasət nəticəsində azərbaycanlıların yaşadıqları kəndlərin kolxoz təsərrüfatlarını ermənilərin yaşadıqları təsərrüfatlara birləşdirərək, onlara rəhbərləri yalnız ermənilərdən təyin etməklə, yerli azərbaycanlı əhalinin yaşadıqları kəndlərin təbii olaraq boşalması və dağılması üçün qəsdən şərait yaradılırdı. Nəticədə 30 ilə yaxın bir müddət ərzində Qərbi Zəngəzurda yetişmiş azərbaycanlı kadrların təsərrüfatlara rəhbərlikdən uzaqlaşdırılması və onların fəaliyyətlərinə yol verilməməsi onların bu əraziləri tərk etmələri ilə müşayiət olunmağa başladı. Lakin bu da bir faktdır ki,Qərbi Zəngəzurun Ermənistan SSR tərkibində olan hissəsinin azərbaycanlı əhalisi yeridilən bu ayrı-seçkilik siyasətinə qarşı öz etirazını bildirirdi. Məsələn, Zəngəzurun Qarakilsə (Sisyan) rayonun Urud kolxozunu və kəndir sovetliyini 1960-cı ildə Vağədi kolxozuna birləşdirildi. Bu qərara etiraz edən Urud kəndinin əhalisi 1962-ci ildə kolxozun ayrılmasına nail olsalar da, sovetliyin Vağədi sovetliyinin tabeliyindən çıxarılmasına nail ola bilmədilər. Sisyan rayonunun azərbaycanlı əhalisinə olan münasibət Qafan, Gorus və Mehri rayonları azərbaycanlı əhalisinə olan münasibətdən heç də fərqlənmirdi. 1950-ci illərdən başlayaraq Qafan rayonun Açağu kəndinin şəhərcik kolxozuna

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Aşağı Gödəkli kəndinin Sunik sovxozuna, Acıbacı və Baharlı kənd kolxozlərını Gıǧı sovxozuna Bəkdaş kəndinin Gödəkli kəndinə, Qovşud kəndinin Kürdükan kəndinə birləşdirilməsi (2) bu fikri təsdiq edir. Diqqəti cəlb edən məqam olur ki, rayonun kəndlərinin təbii-coğrafi şəraitini nəzərə almadan həyata keçirilən bu siyasət nəticəsində yerli azərbaycanlı əhalinin idarə olunması da ermənilərin ixtiyarına verilmişdi. Buna görə də azərbaycanlı kadrların böyük əksəriyyəti rayonları tərk edərək əsasən Azərbaycan SSR-in şəhər və kəndlərinə köçürdülər. Ermənistan SSR rəhbərliyinin azərbaycanlı əhaliyə, o cümlədən Qərbi Zəngəzurda yaşayan azərbaycanlılara qarşı ayrı-seçkilik siyasəti 1965-ci ildən sonra daha açıq şəkildə özünü büruzə verməyə başladı. Bu 1965-ci ildə SSRİ hökumətinin qondarma «ermənilərin soyqırımı» günün Ermənistan SSR ərazisində qeyd olunmasına rəsmi icazənin verilməsi ilə bağlı idi. İrəvan şəhəri yaxınlığında bu saxta gün üçün abidənin ucaldılması SSRİ dövlətinin türk-müsəlman xalqlarına ilk növbədə Azərbaycan xalqına qarşı düşmən münasibətinin açıq təzahürü idi. 1961-1975-ci illərdə Mehri rayon PK-də müxtəlif vəzifələrdə çalışan Həsən Musayev 200-ci ildə nəşr etdirdiyi «Nüvədi örnək dərsidir» kitabında yuxarıda deyilən fikri təsdiq edən bir faktdan bəhs edir. O yazır: «1973-cü ilin oktyabr ayında Ermənistan EA-nın prezidenti, akademik Viktor Ambarsumyan bir qrup həmkarı ilə Mehri rayonuna qonaq gəlmişdi. Onlar rayonda 3 gün qaldılar. Mən də onları müşayiət edənlərin içində idim. Azərbaycan kəndlərindən keçərkən birinci katib tez-tez məndən soruşur, Ambarsumyan verdiyi məlumatı dəqiqləşdirdi. Bunu görən V.Ambarsumyan mənə sarı xoş təbəssümlə baxır, məlumatlı olduğumu, doğma yurdumun Təkə qayası, Maraldüzü, Nüvədi, Maralzəmi və başqa yerləri haqqında təfərrüfatı ilə maraqlanırdı. Rəğbət hissi ilə yurda bağlı olduğumu bir neçə dəfə qeyd etdi. Yol boyu birinci katib məni tez-tez sorğu-suala tutanda, adımla məni çağıranda, o, «Həsən müəllim» sözünü eşitcək, üzündəki bütün xoş təbəssüm, rəğbət hissi bir anda yox oldu. Akademik bir qədər əsəbi halda birinci katibdən soruşdu: «Türkdür?». Birinci katib isə cavab verdi: «Mehri rayon Partiya Komitəsinin II

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

katibidir, azərbaycanlıdır, yaxşı adamdır» – deyə cavab verdi. Ambarsumyan sanki inanmadı, şübhəsini yox etmək üçün birbaşa özümdən soruşdu: «Turkes?». Mən ona: «Bəli, türkəm» – deyə iftixarla cavab verdim. Mənim bu cavabım onun qanını tamam qaraltdı və onun mənə göstərdiyi xoş rəğbətdən əsər-əlamət artıq yox idi» (2). Bu, erməni elm və dövlət nümayəndəsinin yerli Azərbaycan əhalisinə nasist münasibətinin bariz nümunəsi idi.

SSRİ hökumətinin tapşırığı ilə azərbaycanlıların yaşadıqları rayonların partiya komitələrinin adətən II və III katibləri, rayon icraiyyə komitələrinin heç bir səlahiyyəti olmayan müavinlərindən biri azərbaycanlılardan təyin edilirdi (2). Ermənistan SSR Ali Sovetinə seçkilər keçirilən zaman isə azərbaycanlı əhali içərisindən kolxozçu-kəndli və yaxud da sovxoz fəhləsi seçilirdi ki, bu insanlar da ali qanunvericilik orqanında xalqının dərdlərini deyə bilmirdi. Bu isə öz növbəsində yerli azərbaycanlı əhali arasında ümidsizlik əhvali-ruhiyyəsi yaradaraq, onların bu əraziləri tərk etmələrinə səbəb olurdu. Qərbi Zəngəzurun iqtisadi həyatında bu ərazidən keçən nəqliyyat yolları – dəmir yolu və avtomobil yollarının Qafan və Mehri rayonları ərazilərində XX əsrin 50-60-cı illərində istifadəyə verilmiş mis-molibden kombinatları xüsusi yer tuturdular. Qafan, Sisyan və Gorus rayonlarının iqtisadiyyatında maldarlıq və dağ-mədən sənaye sahəsi üstünlük təşkil edirdi. Qafan rayonunda fəaliyyət göstərən Qacaran Mis-molibden mədəni Ermənistan SSR metallurgiya sənayesinin əsas sahələrindən biri idi. Zəngəzur ərazisi faydalı qazıntılar baxımından çox zəngin olduğu üçün Sisyan və Gorus rayonları ərazilərində də filizçıxarma sahələri fəaliyyət göstərirdi (Urud, 2016: 269). Qeyd etmək lazımdır ki, Zəngəzur Mis-Molibden Kombinatının tikintisinə 1940-cı ildə başlanılıb və 1951-1952-ci illərdə istifadəyə verilib. İstehsal olunan mis və molibden elektrik və aviasiya sənayesində istifadə olunurdu. Digər eyni adlı mis-molibden kombinatı Mehri rayonunun Qərçivan qəsəbəsi yaxınlığında istifadəyə verilmişdi. Bu sənaye müəssisələrinin əsas işçi qüvvəsini yerli azərbaycanlı əhali təşkil edirdi. Bu mədənlərdə çox ağır iş şəraiti mövcud idi. Burada istehsal olunan mis və molibden filizləri emal edilərkən

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

istifadə olunan kimyəvi qatqılar təkcə burada çalışan fəhlələrin deyil, həm də ətraf mühitə zərər vururdu. Bu kombinatların fəaliyyəti nəticəsində Qafan rayonunun ərazisindən axaraq Zəngilan rayonu ərazisindən keçən Oxçu çayı Qacaran mis-molibden kombinatının bütün zərərli tullantılarını Araz çayına qədər axıdaraq ətraf mühitin ekologiyasına ağır zərbə vurmuşdu. Qərçivan qəsəbəsi yaxınlığında yerləşən kombinatın tullantıları isə birbaşa eyni adlı çay vasitəsi ilə Araz çayına axıdılırdı və bu iki çay vasitəsi ilə axıdılan zərərli tullantılar birbaşa Azərbaycan Respublikası ərazisinə axıdılırdı. Qərbi Zəngəzurun yerləşdiyi ərazilərdən Azərbaycan SSR ərazisindən Ermənistan və İran İslam Respublikasına gedən nəqliyyat – dəmir və avtomobil yolları keçirdi. Dəmir yolu ilə paralel olaraq avtomobil yolu Azərbaycan SSR-in Zəngilan rayonunun Ermənistanla sərhəddə olan Ağbənd kəndindən keçərək Naxçıvan MR-nın Kotan kəndinə qədər 46 km-lik hər iki yol xətti muxtar respublika ərazisindən keçərək İrəvan şəhərinə qədər uzanırdı. Digər belə bir yol xətti isə Azərbaycan SSR-in Zəngilan rayonunun ərazisindən keçərək Qafan şəhərinə və onun kəndlərinə gedirdi. Üçüncü bir yol isə avtomobil yolu idi ki, bu yol Azərbaycan SSR-in Ağdam-Şuşa-Laçın rayonları ərazilərindən keçərək Gorus-Sisyan-İrəvan şəhərlərini birləşdirirdi. Zəngəzurun azərbaycanlı əhalisi 1988-ci ilin sonunadək bu yoldan istifadə edərək Azərbaycan SSR-in paytaxtı Bakı və digər şəhər və rayonları ilə əlaqə saxlayırdı (Musayev, 2000: 25-26). Qeyd etmək lazımdır ki, 1988-ci ilin sonuna qədər Bakı-İrəvan, Bakı-Naxçıvan, Bakı-Qafan qatarları və Bakı-Sisyan, Gəncə-Sisyan şəhərlərarası nəqliyyatdan Zəngəzur əhalisi istifadə edirdi. 1982-ci ilin noyabrında Ümummilli lider Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildikdən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavin təyin edildikdən sonra, onun bilavasitə təşəbbüsü ilə Mincivan-Ordubad-Culfa avtomobil yolunun yenidən qurulması ilə bağlı işlərə başlanıldı və 1987-ci ilin oktyabrınadək Mincivan qəsəbəsindən Mehri rayonun Aldərə kəndinə qədər olan hissəsi əsasən çəkilib başa çatdırıldı. Lakin 1987-ci il oktyabrın 20-də H.Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması ilə bu strateji

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

yolun tikintisi dayandırıldı. 1988-ci il noyabrın 22-23 tarixlərində isə Mehri rayonunun azərbaycanlı əhalisi sovet ordusu bölmələrinin iştirakı ilə erməni faşistləri tərəfindən bu yolla Azərbaycan SSR ərazisinə deportasiya olundular (Məmmədov, Əsədov, 1992).

XX əsrin 50-80-cı illərində bütün Qərbi Azərbaycanda (Ermənistan SSR) və o cümlədən Qərbi Zəngəzurun Qarakilsə (Sisyan), Qafan, Gorus və Mehri rayonlarında orta təhsil almış gənclərin tam əksəriyyəti Azərbaycan SSR ali məktəblərini bitirdikdən sonra geri – öz doğulduqları torpağa qayıtmırdılar. Azərbaycan SSR-in ali təhsil ocaqlarında oxuyub diplom alan gənc mütəxəssislər isə geri qayıdarkən onlar yenidən öz yaşadıqları yerlərdə qeydiyyata düşə bilmir və əlacsız qalaraq geri – Azərbaycan SSR-ə qayıtmalı olurdular. Qərbi Zəngəzurun Ermənistan SSR tərkibində olan hissəsində yaşayan azərbaycanlı əhalinin digər bir problemi də ondan ibarət idi ki, buranın 4 rayonunda erməni dili ilə yanaşı Azərbaycan dilində də qəzet nəşr olunurdu. Qafan rayonunda nəşr olunan rayon partiya komitəsinin və icraiyyə komitəsinin qəzeti erməni dilini bilən Fərzəli Ata oğlu Bayramov tərəfindən Azərbaycan dilinə tərcümə olunurdu. Qeyd etmək lazımdır ki, digər üç rayonda: Qarakilsə (Sisyan), Gorus və Mehri rayonlarında qəzet yalnız erməni dilində nəşr olunurdu. Bu rayonlarda Azərbaycan dilində mətbu orqanın olmaması Ermənistan SSR rəhbərliyinin antiazərbaycan siyasətinin təzahürü idi. Hətta rus dilini bilən yerli azərbaycanlı rayon mərkəzlərinə gedərkən müxtəlif məmurlarla görüş zamanı onlara rus dilində müraciət edəndə onlar: «Siz Ermənistandasınız, bizimlə dövlətin dilində danışın» – deyə cavab verirdilər. 1945-ci ildən sonra Zəngəzurun 4 rayonunda 42 Azərbaycan məktəbi mövcud olmuş və onlar öz fəaliyyətlərini 1988-ci il noyabrın 21-nədək davam etdirmişlər. Burada çalışan 500-dən çox müəllimin əksəriyyəti öz ali təhsillərini Azərbaycan SSR ali məktəblərində almışdılar. Bu müəllimlərin 13-ü Ermənistan SSR əməkdar müəllimi adını almışdı ki, onlardan 4 Mehri rayonunun Səməd Vurğun adına Aldərə kənd orta məktəbinin müəllimləri idi. Bunlar Həsənqulu Hacıyev, Səfərəli İbrahimov, Məmməd Bağır İbrahimov və Həsən

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Məmmədov idi. Bu ziyalıların Zəngəzur torpağında dünyaya göz açmış və Azərbaycan xalqının fikrinə çevrilmiş dövlət xadimlərinin, alimlərin, həkimlərin, mühəndislərin, öz davamçıları olan müəllimlərin yetişməsində böyük zəhmətləri vardır. Bu zəhmətin nəticəsi olaraq Zəngəzurun 7 bölgəsindən çoxsaylı böyük şəxsiyyətlər – dövlət xadimləri, elm və təhsil nümayəndələri, neftçilər, hərbçilər yetişmişlər. Onlardan Həsən Əliyev, Hüseyn Əliyev, Bilal Kərimov, Kamran Hüseynov, Oqtay Əsədov, Akif Muradverdiyev, Hidayət Orucov, İsrafil Məmmədov, Həsən Əhmədov, Ataş Rəsulov, Məmmədxan Rəsulov, Eldar Abbasov, Teymur Bünyadov, Valeh Bərşadlı, Vahid Əliyev, Məhəmməd Əsədov, Əyyub Abbasov, Əziz Şərif, Hafiz Baxış, Hüseyn Zəngili, Ramiz Rövşən və başqalarını göstərmək olar. Zəngəzurun bu rayonlarının mədəni həyatında o dövrdə diqqəti cəlb edən bir məqam da o idi ki, onların tabeliyində olan kəndlərin hər birində sakinlərin təşəbbüsü ilə mədəniyyət evləri, klub və kitabxanalar fəaliyyət göstərirdi. Bu kəndlərin mədəniyyət evləri və klubları nəzdində teatr və musiqi dərnəkləri təşkil olunurdu. Kəndlərin hər birində ümumi kitabxanaları ilə bərabər həm də orada fəaliyyət göstərən məktəblərin kitabxanaları var idi. Məsələn, Mehri rayonunun Aldərə kəndində mədəniyyət evi ilə bərabər klub, kitabxana və məktəbin böyük kitabxanası fəaliyyət göstərirdi. Qeyd etmək lazımdır ki, İrəvan şəhərində fəaliyyət göstərən C.Cabbarlı adına İrəvan Azərbaycan Dram Teatrının aktyorlarının Zəngəzurun Sisyan, Qafan, Gorus və Mehri rayonlarının Azərbaycan kəndlərinə qastrolları təşkil olunmuş və qastrol səfərlərində teatrın direktoru Azərbaycanın tanınmış dövlət xadimi yazıçı Hidayət Orucov özü iştirak edirdi. Bu qastrollar zamanı Azərbaycan ədiblərinin əsərləri tamaşaya qoyulur və əhali tərəfindən çox böyük rəğbətlə qarşılanırdı. Bütün bu tarixi faktlar müqabilində Qərbi Zəngəzurun azərbaycanlı əhalisi XX əsrin II yarısında keçmiş SSRİ və Ermənistan SSR rəhbərliyinin həyata keçirdiyi antiazərbaycan siyasətinin yaratdığı çətinliklərə baxmayaraq özünü müdafiə etməyi bacarmış və öz hüquqları uğrunda ardıcıl mübarizə aparmışdır. Sovet imperiyasının süqutu ərəfəsində

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

keçmiş SSRİ dövlətinin birbaşa razılığı ilə Ermənistan SSR rəhbərliyi tərəfindən həyata keçirilən antiazərbaycan siyasəti nəticəsində 1988-ci il noyabrın sonunda bütün azərbaycanlı əhali, o cümlədən Qərbi Zəngəzurun azərbaycanlı əhalisi öz tarixi torpaqlarından deportasiya olundu.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. (2013). Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər) (sənədlər toplusu). Bakı, 683 s.
2. PQANU f.2, siyahı 1, vahid saxlama qovluğu 824-46-61, 1953, 62-89, 90-109, 1954.
3. Urud, M. (2016). Zəngəzur. Uzaq keçmişindən müasir dövrə qədər. Bakı: Nurlar, 269 s.
4. Musayev, H. (2000). Nüvədi örnək dərsidir. Bakı, s.25-26.
5. Məmmədov, İ., Əsədov, S. (1992). Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 45-48
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 45-48
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Hacı Həsənov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
hacihasanov@mail.ru
**Zeynəb Qafarova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
zeynabqafarova@gmail.com
**Elmar Məhərrəmov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
elmarmaharram@mail.ru

# ZƏNGƏZURUN İNZİBATİ-ƏRAZİ QURULUŞU

***Açar sözlər:*** *Zəngəzur, Mehri, Bərgüşad, Qapan, Sisian*
***Keywords:*** *Zangazur, Mehri, Bargushad, Gapan, Sisian*

Rusiya çarizmin bütün müstəmləkə ucqarlarında olduğu kimi, Şimali Azərbaycanda da yerli aborigen xalqlarının milli özgünlüyünü unutdurmağa, onların əzəli torpaqlarını parçalayıb paylaşdırmağa yönəli müstəmləkəçi inzibati-ərazi siyasəti yürütmüşdü. XIX əsrin 30-cu illərinin əvvəllərində Rusiya hakimiyyət orqanları Qarabağ əyalətində keçmiş 9 minbaşılığı, mahalı özündə birləşdirən yeni bir iri Zəngəzur mahalını yaratdı. Həkəri və Bərgüşad çaylarının vadilərindən Zəngəzur sıra dağlarınadək ərazini əhatə edən bu mahallar aşağıdakılar idi: Sisiyan, Tatev, Zəngəzur, Qaraçorlu, Püsyan, Bərgüşad, Qapan, Mehri-Güney və Çavundur (Çuldur).

1840-cı il 10 aprel tarixli inzibati-ərazi islahatına görə Güney Qafqaz iki yerə (Xəzər vilayəti və Gürcüstan-İmeretiya quberniyasına) bölünərkən 1841-ci il yanvarın 1-dən etibarən keçmiş Zəngəzur mahalı Xəzər vilayətinin Qarabağ qəzasının tərkibində iki sahəyə – Zəngəzur və Mehri mahallarına parçalandı. 1846-cı ildə Cənubi Qafqazın yeni inzibati-ərazi islahatının gedişində Xəzər vilayəti Bakı Quberniyası, Qarabağ

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

qəzası isə Şuşa qəzası adlandırıldı. 1849-cu ildə İrəvan quberniyası yaradılarkən Zəngəzur mahalının cənub hissəsi (Qapan, Mehri-Güney, Çuldur və Püsyan) bu quberniyanın Ordubad qəzasının tərkibinə verildi. Bu hal 1850-1867-ci illərdə davam etdi. 1867-ci ildə Yelizavetpol quberniyası təşkil olunarkən yeni qəzalar da yaradıldı. Şuşa qəzasının tərkibindən Zəngəzur qəzası ayrıldı, Mehri sahəsi isə İrəvan quberniyasının Ordubad qəzasından ayrılıb yeni yaradılan Zəngəzur qəzasının tərkibinə qatıldı (Safarov, 2010). Zəngəzurun da daxil olduğu Sünik bölgəsi tarixən 12 mahala bölünürdü (MIEBGKZK, t.IV, ch.I:1). Sünikin bir hissəsi olan Zəngəzur vaxtilə Qarabağ xanlığının tərkibində idi (MIEBGKZK, t.IV, ch.I: 2). “Zəngəzur qəzası XIX əsrin 50-ci illərində Şamaxı və İrəvan quberniya-larının, 60-cı illərdə isə Bakı və İrəvan quberniyalarının tərkibində idi. Cənubi Qafqaz diyarının yeni inzibati, məhkəmə və mərz quruluşu haqqında layihənin təsdiqindən sonra 1868-ci il fevralın 25-də Tiflis, Bakı və İrəvan quberniyalarının hissələrindən Yelizavetpol quberniyası yaradılmış, Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberniyasının keçmiş Ordubad qəzasının hissələrindən yaradılmış indiki Zəngəzur qəzası onun tərkibinə daxil edilmişdir” (MIEBGKZK, t.IV, ch.I:1). Rusdilli qaynaqların birində deyilirdi ki, “Zəngəzur qəzası çoxdan bəri dörd müstəqil sahəyə – yerlilərin dedikləri kimi, mahala bölünür: Mehri-Güney, Qapan, Zəngəzur və Sisian” (MIEBGKZK, t.IV, ch.I: 8). XIX əsrin 80-ci illərinin ortalarında inzibati cəhətdən 3 sahəyə (Mehri, Zəngəzur və Sisian) bölünürdü. İlk 2 sahəni pristavlar, sonuncunu isə qəza rəisinin köməkçisi – müavini idarə edirdilər. Qapan sahəsi qəzanın orta hissəsini təşkil edirdi. Bu sahə Zəngəzur sahəsindən şimalda və şərqdə Bərgüşad çayının orta axını ilə həmsərhəd idi, cənubda Mehri sahəsinə, qərbdə isə Sisian sahəsinədək uzanırdı. Sisian sahəsindən onu Lutsən çayının dərəsi, Məcidli Gəzbel və Almeras dağları ayırırdı. Yerlilər arasında bu sahə altı kiçik mahala bölünürdü: Oxçu (eyniadlı dərədə Bacıdağ və Cibənd sıra dağlarının arasında yerləşirdi); Qığıçayın vadisində yerləşən Qığıdərəsi; Acanantürk (Acananҫayın dərəsi); Kəpəz (Qapanın

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

şimalını təşkil edib bərgüşadçayın orta və aşağı axarına söykənirdi): Çaundurçay və Bəsitçay. Çaundurçay öz başlanğıcını Qavart və Qapan Misəritmə zavodlarından, Bəsitçay isə Şıxauz kəndindən götürürdü (MIEBGKZK, t.IV, ch.I: 8-9). Qəzanın şimal-şərq hissəsi Zəngəzur sahəsi adlanırdı. Zəngəzur sahəsi 4 dairəyə (mahala) bölünürdü: Hacısamlı, Əliyanlı, Bərgüşvad və Həkəri (MIEBGKZK, t.IV, ch.I: 1). Sisian sahəsi qəzanın şimal-qərbində yerləşib Cavanşir, Şərur-Dərələyəz və Naxçıvan qəzaları ilə həmsərhəd idi. Relyefinin xarakterinə görə bu sahə iki hissəyə bölünürdü: qəzanın başlıca yaylaqları yerləşən şimali-şərq və əhalinin məskunlaşdığı cənub-qərb hissə. Zəngəzur qəzasının Zəngəzur və Qapan sahələrində tərəkəmə Azərbaycan türkləri və kürdlər yaşayırdılar. Onlar məhdud yaz əkinləri və barama yığılmasından sonra mal-qara ilə birlikdə yaylaqlara qalxıb əkinlərini muzdurlara tapşırırdılar. Mehri və Sisian sahələrində azərbaycanlıların əksər hissəsi (bu sahələrdə kürd yox idi) yaylağa köçmürdülər: onlar öz mallarını çobanlarla və ailənin tarla işlərinə yararsız üzvləri ilə yaylağa göndərirdilər (MIEBGKZK, t.IV, ch.I: 1).

Strebelskinin məlumatına görə, 1886-cı ildə Yelisavetpol quberniyasının Zəngəzur qəzasının ümumi ərazisi 6829,7 min kv. verst idi. Qəzada ən hündür zirvə Qapıcıq dağı (12855 fut) sayılırdı. Qəza ərazisində Arazın hövzəsinə daxil olan Bərgüşad (Bazarçay), Çaundur, Bəsit, Mehri və Həkəri çayları axırdı. 1890-cı ilin məlumatına görə, qəza ərazisinin 22,4%-ni (155000 des.) meşələr təşkil edirdi. “Qafqaz təqvimi”nin məlumatından məlum olur ki, həmin il bu qəza dörd polis sahəsinə bölünürdü. I Qarakilsə sahəsində (ərazisi 2050,1 km$^2$) 15 kənd cəmiyyətində birləşmiş 52, Dağ sahəsində (2407,46 km$^2$) 22 kənd cəmiyyətində 76, Arsevənik sahəsində (1230,52 km$^2$) 19 kənd cəmiyyətində 109 və nəhayət sonuncu – Qafar sahəsində (2049,3 km$^2$) 19 kənd cəmiyyətində birləşmiş 83 kənd var idi.

Bunlarla yanaşı, 7827,38 km$^2$ ərazisi olan Zəngəzur qəzasında 75 kənd cəmiyyətinin (326 kənd) heç birinə daxil olmayan 6 oba da qeydə alınmışdı (Kavkazskiy kalendar na 1891 god, 1890:10-11). 1900-cü ildə də bu inzibati ərazi bölgüsündə heç bir

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

dəyişiklik olmamışdır (Kavkazskiy kalendar na 1900 god, 1899:30-31). 1909-1920-cu illərdəki dəyişikliklərdən sonra ərazi baxımından quberniyada ancaq Yelizavetpol qəzasından (8624 kv verst) geri qalan Zəngəzur qəzasının 6742,92 kv verstlik ərazisi 6 polis sahəsinə bölünmüşdü (1910, otd. II. 2). 1913-cü ilin məlumatlarında belə bir maraqlı faktı müşahidə etmək mümkündür: Qəzadakı 75 kənd cəmiyyətindən ancaq 15-nin (ən çoxu 17-nin) adı müasir Azərbaycan türkcəsində deyildi (Volostnaya, 1913).

## Ədəbiyyat

1. Safarov, R.K. (2010). Voprosy ob istoricheskoy geografii Zangezura. Konferentsiya na temu «Karabakh vchera, segodnya, zavtra». http://Karabakh-doc.azerall.info
2. Materialy dlya izucheniya ekonomicheskogo byta gosudarstvennykh krest'yan Zakavkazskogo kraya, t.IV, ch.I, s.1 (MIEBGKZK).
3. Kavkazskiy kalendar na 1891 god. (1890). Otd. statistiki, ss.10-11.
4. Kavkazskiy kalendar na 1900 god. (1899). Otd. III, s.30-31.
5. Pamyatnaya knizhnaya Yelizavetpol'skoy gubernii na 1910 qod. (1910). Otd. II.
6. Volostnaya, stanichniy sel'skiy, gminniya pravleniya i upravleniya, a takzhe politseyskiye stany vsey Rossii s oboznacheniye mesta ikh nakhozhdeniya. (1913). Kiyev, izd. t-va. L.M. Fish.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 49-53
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 49-53
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Ənvər Məmmədov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
mammadovanvar1969@mail.ru

# ZƏNGƏZUR QƏZASINDA SOVET HAKİMİYYƏTİNƏ QARŞI MÜQAVİMƏT HƏRƏKATI (1924-1925-Cİ İLLƏR)

***Açar sözlər:*** *Zəngəzur qəzası, Əliyanlı rayonu, Qəza İcraiyyə Komitəsi, silahlı üsyan, sovet hakimiyyəti, siyasi vəziyyət*

***Keywords:*** *Zangazur district, Aliyanli region, District Executive Committee, armed rebellion, Soviet power, political situation*

Sovet hakimiyyətinin ilk illərində bolşevik işğalının törətdiyi çətinliklər, eləcə də daşnak dəstələrinin yerli silahsız müsəlman əhaliyə qarşı hücumları Zəngəzur qəzasında vəziyyətin kəskinləşməsinə səbəb olmuşdu. 1924-cü ilin yayında Əliyanlı rayonunun ağsaqqalı Kərbəlayı Məmmədin iki oğlunun Xozaberd erməniləri tərəfindən öldürülməsi qəzada həyəcanların başlanmasına səbəb olur. Hakimiyyət orqanları tərəfindən günahkarların cəzalandırılması üçün tədbirin görülməməsinə cavab olaraq əliyanlılar, 1925-ci ilin sentyabrında xozaberdlilərdən 5 nəfəri öldürərək vergiləri ödəməkdən imtina edir, hakimiyyət orqanlarının çağırışlarına məhəl qoymur, bir dəstə isə silahlanaraq Babaş və Kəbilin başçılığı altında müdafiəyə hazırlaşmağa başlayırlar (Dokladnaya zapiska pred. AzCHK M.Bagirova: 51). Onların 25 nəfərlik dəstəsinin (Raport nach. Kurdistanskogo informpunkta: 8) başladığı üsyan tezliklə bölgənin digər ərazilərinə də yayılır. Əliyanlı üsyançılarının rəhbərlərindən İsgəndərbəy və Şamilbəy qardaşları Arazboyu köçlər arasında təbliğat apararaq, Naxçıvanda sovet hakimiyyətinin devrildiyi, onun türklər tərəfindən tutulduğunu bildirərək onları üsyana qoşulmağa çağırırlar. Bu təbliğat nəticəsində hakimiyyət orqanları tərəfindən leqallaşdırılmış

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

qaçaqlardan Muradxan, Süleyman, Teymur və digərləri də üsyançılara qoşulmuşdular (Doklad Karyaginskogo uyezdnogo ispolkoma: 4). Artıq sentyabrın 14-ə olan məlumatda Sultanov qardaşları və Bəhlul Əfəndinin də öz dəstələri ilə üsyançılara qoşulmasından sonra onların sayının 100 nəfərə çatdığı, həmin gün Əlinin başçılıq etdiyi dəstənin isə Dağtumas kəndini tutduğu bildirilirdi (Telegramma narodnomu komissaru vnutrennikh del. 15.09.1925: 8).

Həyəcanların genişlənməsinin qarşısının alınması, bu dəstənin məhv edilməsi məqsədilə təcili olaraq bura Bakıdan Mircəfər Bağırovun başçılığı ilə Azbriqadanın bir eskadronu və Sumbatovun komandanlığı altında Baş Milis İdarəsinin kursantlarından ibarət dəstə göndərilir (Nedelnaya razvedyvatelnaya operativnaya svodka: 18). 1925-ci il sentyabrın 14-də 45 nəfərlik dəstə ilə Laçına gələn Sumbatovun həmin gün Azərbaycan Fövqəladə Komitəsinin sədri M.Bağırova göndərdiyi məktubunda 25 nəfərlik üsyançı dəstənin Qacar kəndində mövqe tutduğu və qonşu kəndlərin də onlara qoşulmağa hazır olduğu bildirilirdi (Raport Sumbatova: 6). Azərbaycan Fövqəladə Komitəsində olan məlumata görə Kərbəlayı Məmməd və Kəbirin başçılığı altındakı 60 nəfərlik dəstənin 3 qrupa bölünərək, bir-birindən 2 verstlik məsafədə olmaqla Qacar, Qulamlı, İsgəndərli, Qat, Aşağı Qat kəndlərində mövqe tutduğu göstərilirdi (Prikaz po svodnomu otryadu: 1).

Yerində vəziyyətlə tanış olan M.Bağırov 1925-ci il sentyabrın 14-də Azərbaycan K(b)P MK-ya, Kirova göndərdiyi məruzəsində Sultanov qardaşları və Hacı Dadaş Sultanov tərəfindən himayə olunan Əliyanlı üsyançılarının Nuxa, Gəncə, Ağdam qəzalarındakı antisovet qüvvələrlə, eyni zamanda İran sərhədboyu hakimiyyət orqanlari ilə də əlaqələrinin olduğu göstərilirdi. Əliyanlı üsyançılarına qarşı əməliyyatların başlanacağı təqdirdə bölgədəki leqallaşdırılmış qaçaqların da onlara qoşulacağını istisna etməyən Bağırov sərəncamında olan qüvvələrlə genişlənməkdə olan üsyanın qarşısını almağın mümkün olmayacağını, bunun üçün əlavə qüvvəyə ehtiyacın olduğunu bildirirdi (Doklad narodnogo komissara vnutrennikh del: 1).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Bundan sonra əlavə olaraq bölgəyə 60 atlıdan ibarət əlahiddə kavaleriya eskadronu, üç pulemyot, ehtiyat milis məktəbinin 45 atlısı, 30 atlıdan ibarət Kürdüstan milis dəstəsi, Petrosyanın komandanlığı altında kommunistlərdən təşkil olunmuş piyada və süvari dəstələr gətirilir (Dokladnaya zapiska pred. AzCHK M.Bagirova: 52). İlk əvvəl üsyançıların Cənubi Azərbaycana keçməsinin qarşısını almaq məqsədilə Arazboyu sərhəd məntəqələri, əsasən Maşanlı, Xələfli və Xudafərindən Mincivana qədərki ərazilərin mühafizəsi gücləndirilir, bölgəyə yeni gətirilmiş və qəfildən üsyançıların üzərinə hücuma keçməli olan qüvvələr isə Xozaberd, Laçın, Muradxanlı və Mərcanlı kəndlərində yerləşdirilir.

Komandanlıq üsyançıların qüvvələri barədə dəqiq məlumat almaq məqsədilə leqallaşdırılmış qaçaq Musa Bəşir oğlunu onların dağlardakı iqamətgahına göndərir. Üsyançıların yanında iki gün qaldıqdan sonra kənddən ailəsini götürmək bəhanəsi ilə geri dönən Musa bildirir ki, üsyançılar iki dəstəyə bölünüblər. Kəbillə Babaşın başçılığı altında olan 30 nəfərlik dəstə Kyax, Bəhlul Əfəndinin başçılıq etdiyi digər dəstə isə Qoturbulaq adlanan yerdə mövqe tutub. Onlar bir nəfər kimi son nəfəslərinə qədər vuruşacaqlarına and içiblər (Pismo M.Bagirovu o Aliyanlinskikh sobytiyakh: 4). Eyni zamanda sentyabrın 16-da Əliyanlı ağsaqqalları komandanlıq tərəfindən danışıqlar üçün ermənilərin yaşadığı Xozaberd kəndinə çağırılırlar. Kənd ağsaqqallarından silahı yerə qoymaq üçün üsyançıları dilə tutmaq tələb olunsa da bu tədbir bir nəticə verməmişdi (Dokladnaya zapiska pred. AzCHK M.Bagirova: 52).

Həlledici əməliyyat öncəsi hazırlıq işlərini tamamlayan bölgədəki hərbi qüvvələrin komandanlığının 1925-ci il 16 sentyabr tarixli əmrində deyilirdi: “Sentyabrın 18-də 3 pulemyotla Xozaberd kəndindən hərəkətə başlayacaq Abdulla Bəyovun başçılığı ilə 60 atlıdan ibarət Xüsusi Qafqaz eskadronu Qədir kəndində mövqe tutaraq ayın 19-da Qacar kəndindəki üsyançılara qarşı əməliyyata başlamalı; Sumbatovun başçılığı altında Laçında yerləşməli olan 45 atlıdan ibarət ehtiyat milis məktəbinin dəstəsi sentyabrın 18-də buradan hərəkət edərək ayın 19-da Xüsusi

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Qafqaz eskadronuyla əlaqə yaradaraq Xanəli kəndi istiqamətində hərbi əməliyyatlara başlamalıdır; 30 atlıdan ibarət kürd milisi Sarıcallı kənd milis rəisi Muradxanlının rəhbərliyi altında Qalalı istiqamətindən, Petrosyanın başçılığı altında bir bölük atlı və yarım bölük piyadadan ibarət kommunist dəstəsi sentyabrın 18-də cənub istiqamətdən əməliyyatlara başlamalıdır” (Prikaz po svodnomu otryadu: 1).

Tərəflər arasında ilk toqquşmaların baş verdiyi sentyabrın 17-də Əliyanlı üsyançıları Kəbilin başçılığı ilə səhərin alatoranlığında hücuma keçir, Qumlaq tərəfdən Diridağın şimal-qərb hissəsini ələ keçirərək burada mövqe tuturlar. Həmin gün gecə 12-də üsyançıların sərhəd mühafizə dəstəsi və milislə baş verən atışmada hökumət qüvvələri xeyli itki verirlər (Telegramma narodnomu komissaru vnutrennikh del. 17.09.1925: 10). Sentyabrın 17-də Cəbrayıl qəzasında Darıdağ yaxınlığında üsyançıların sərhəd mühafizə dəstəsi ilə baş verən atışmada bu dəstənin komandiri öldürülmüş, yerdə qalanlar isə canlarını qaçaraq qurtara bilmişdilər.

Lakin çoxsaylı hökumət qüvvələri ilə mübarizədə müvəffəqiyyət qazanmağın mümkün olmayacağını anlayan üsyançıların bir qrupu ilk uğurlardan sonra sentyabrın 18-də gecə ailə üzvləri ilə Darıdağdan enərək İrana keçirlər (Dokladnaya zapiska pred. AzCHK M.Bagirova: 52). Bu hadisə demək olar ki, üsyanın sonrakı taleyinə ciddi təsir göstərir və o, getdikcə zəifləməyə başlayır.

## Ədəbiyyat

1. Dokladnaya zapiska pred. AzCHK M.Bagirova v prezidium TSK AKP(b). 1925 g. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), Fond. 27, siyahı. 4, iş 91.
2. Raport nach. Kurdistanskogo informpunkta AzCHK Muzaffarova pred. AzCHK M.Bagirovu, ot 13-go sentyabrya 1925 g. ARDA, F. 27, s.4, iş 91.
3. Doklad Karyaginskogo uyezdnogo ispolkoma Mamedkhanova o politicheskom polozhenii v Karabage. 14.09.1925. ARDA, F. 27, s.4, iş 91.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

4. Telegramma narodnomu komissaru vnutrennikh del ASSR M.Bagirovu o polozhenii v Aliyanlinskom uchastke. 15.09.1925. ARDA, F. 27, s.4, iş 92.
5. Nedelnaya razvedyvatelnaya operativnaya svodka AzCHK po sostoyaniyu na 15.09.1925 g. ARDA, F. 27, s. 4, iş 89.
6. Raport Sumbatova pred. AzCHK M.Bagirovu, ot 14-go sentyabrya 1925 g. ARDA, F. 27, s.4, iş 91.
7. Prikaz po svodnomu otryadu, ot 16-go sentyabrya 1925 g. ARDA, F. 27, s.4, iş 93.
8. Doklad narodnogo komissara vnutrennikh del ASSR M.Bagirova pervomu sekretaryu TSK AKP(b) Kirovu o polozhenii v Aliyanlinskom uchastke. 14-ye sentyabrya 1925 g. ARDA, F. 27, s.4, iş 91.
9. Pismo M.Bagirovu o Aliyanlinskikh sobytiyakh. 16.09.1925. ARDA, F. 27, s.4, iş 87.
10. Telegramma narodnomu komissaru vnutrennikh del ASSR M.Bagirovu o polozhenii v Aliyanlinskom uchastke. 17.09.1925. ARDA, F. 27, s.4, iş 92.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 54-57
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 54-57
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Elçin Qarayev**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
elchin_garayev@mail.ru

# ZƏNGƏZUR QƏZASININ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ. İDARƏÇİLİK SİSTEMİ

***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, qəza, inzibati-ərazi bölgüsü, mahal, kənd*

***Keywords:*** *Azerbaijan, Zangazur, district, administive-terriorial division, county, village*

Zəngəzur qəzası Yelizavetpol quberniyasının tərkibində, Azərbaycanın əzəli və ayrılmaz tərkib hissələri olan Zəngəzur vilayətində yaranmışdır. Qeyd etmək lazımdır ki, Yelizavetpol quberniyası yaranana qədər Cənubi Qafqazda bir neçə dəfə inzibati-ərazi bölgüsü islahatı keçirilmiş, bu islahatlar çar Rusiyasını qane edənə qədər davam etdirilmişdir (Piriyev, 2002: 112; Qarayev, 2016: 313-316).

Nəhayət, çarın 1867-ci il dekabrın 9-da imzaladığı “Qafqaz və Cənubi Qafqaz diyarının idarəsinin dəyişdirilməsi haqqında” fərmanı təsdiq etdikdən sonra 1868-ci ildə Şimali Azərbaycanda yeni bir quberniya Yelizavetpol quberniyası yaradıldı. Yaradılan yeni quberniya Bakı, Tiflis və İrəvan quberniyalarının hesabına yaradılmışdı (Polnoe sobraniye zakonov Rossiyskoy imperii, 1971: 382-386).

Yelizavetpol quberniyasının tərkibinə daxil olan 8 qəzadan biri Zəngəzur qəzası idi. Bu qəza quberniyanın cənubunda yerləşmişdi. Zəngəzur qəzası şimaldan Cavanşir qəzası, şimal-qərbdən İrəvan quberniyasının Şərur-Dərələyəz qəzası, qərbdən Naxçıvan qəzası, şərqdən Şuşa qəzası, cənub-şərqdən Qaryagin qəzası, cənubdan isə Araz çayı boyu Qacar dövləti ilə həmsərhəd olmuş, onun sahəsi 7371,5 kv.verst (1 verst =1,05 km) mərkəzi isə Gorus şəhəri idi (Kavkazskiy kalendar na 1870 god, 1869: 402).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur qəzası dağlıq ərazi olmaqla digər qəzalardan fərqlənmişdi. Onun demək olar ki, düzənlik hissəsi yox idi. Qəza dəniz səviyyəsindən (həmin illərdə Qara dənizdən hesablanırdı) 7-13 min fut (1 fut = 30,479 sm-ə) hündürliyündə üç tərəfdən hündür dağlarla əhatə olunaraq, cənub və cənub-şərq tərəfə uzanmaqla Araz çayı boyu çökəklikdə birləşirdi (Obzor Yelizavetpolskoy gubernii za 1910 g, 1911: 4; Obzor Yelizavetpolskoy gubernii za 1813 g, 1914: 4; Obzor Yelizavetpolskoy guberni na 1914 g, 1915: 71).

Zəngəzur qəzası inzibati-ərazi bölgüsünə görə bir neçə mahala və yaxud sahəyə bölünmüşdü. Mahallar bunlar idi: Mehri, Qapan, Zəngəzur və Sisyan. Hər bir mahal görkəminə görə bir-birindən fərqlənirdi. Mehri mahalı qəzanın cənubunda yerləşmiş, özünün çılpaq dağları, qumluq və daşlıqla örtülmüş kiçik talası və susuz düzənliyi ilə diqqəti cəlb edirdi. Qapan mahalı qəzanın orta hissəsində yerləşmişdi. O da digər mahallar kimi dağlıq olsa da, başdan-başa meşə ilə örtülmüşdü. Zəngəzur mahalı şimal-şərqdə yerləşmiş, böyük hissəsi meşəliklərlə örtülmüş, digər hissəsi kiçik sahələrə bölünmüş münbüt torpaqdan ibarət idi. Sisian mahalı isə qəzanın şimal-şərq hissəsində yerləşmişdi. Bu mahalın bir hissəsi mal-qara örüşü üçün yaylaq rolunu oynayırdı. Digər mahalardan fərqli olaraq burada dağlıq və daşlıq az olduğundan torpaqlarının bir hissəsi əkinçilik üçün əlverişli idi (Obzor Yelizavetpolskoy gubernii za 1913 g, 1914: 4; Obzor Yelizavetpolskoy gubernii za 1914 g, 1915: 71-72).

Azərbaycanın digər quberniyalarında olduğu kimi Yelizavetpol quberniyasında qəzalar sonralar inzibati-ərazi bölgüsünə görə polis sahəsinə, sahələr isə kənd cəmiyyətlərinə və onlar da kəndlərə bölünmüşdü. 1865-ci ildə çar Rusiyası tərəfindən verilən "Kənd Cəmiyyətlərinin təsis edilməsi, onların ictimai idarəsi, dövlət və ictimai mükəlləfiyyətləri haqqında" əsasnamə ilə bəylər, ağalar və məliklər kəndlərin inzibati məhkəmə işlərindən uzaqlaşdırıldılar. Kəndlərdə idarəçiliyi həyata keçirmək və burada qayda-qanun yaratmaq üçün kənd kollegial idarə orqanları yaradılmışdı (ARDTA, f.12/31, iş.29. vv.ob: 22). Bu əsasnamənin qərarı Yelizavetpol quberniyası

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

yarandıqdan sonra burada da tətbiq edilmişdi.

XIX əsrin 70-ci illərindən başlayaraq inzibati-ərazi bölgüsünə görə Zəngəzur qəzası bir şəhərdən, əvvəl 4, sonra isə 5 polis sahəsindən, kənd cəmiyyətlərindən və kəndlərdən ibarət olmuşdur. 1886-cı il siyahıyaalınmasına görə, Zəngəzur qəzasında 4 polis sahəsindən I sahəyə (sahə rəisi 1-ci Qarakilsə kəndində yerləşmişdi) 15 kənd cəmiyyəti (51 kənd daxil idi), II sahəyə (sahə rəisi Dığ kəndində yerləşmişdi) 22 kənd cəmiyyəti (76 kənd daxil idi), III sahəyə (sahə rəisi əvvəl Ərçevanik kəndində, sonra isə Dondarlı kəndlərində yerləşmişdi) 19 kənd cəmiyyəti (111 kənd daxil idi) və IV sahəyə (sahə rəisi Qatar kəndində, mənbədə zavod adı gedir yerləşmişdi) 19 kənd cəmiyyəti (83 kənd daxil idi) daxil idi. Ümumilikdə isə Zəngəzur qəzası 75 kənd cəmiyyətindən və bu cəmiyyətlərin tərkibinə daxil olan 267 kənddən ibarət olmuşdur (Svod statisticheskikh dannykh o naseleniye Zakavkazskoe kraya na 1886 g, 1893: 482-501).

Lakin XX əsrin əvvəllərində olan məlumata görə, Zəngəzur qəzasında 5 polis sahəsi və 31 kənd cəmiyyəti olmuşdur. 1917-ci il məlumatına görə Zəngəzur qəzasının polis sahələri və pristavın yerləşdiyi iqamətgahın adı bunlar idi: I polis sahəsi (sahənin polis pristavının iqamətgahı Qarakilsə kəndində idi); II polis sahəsi (sahənin polis pristavının iqamətgahı Dığ kəndində idi): III polis sahəsi (sahənin polis pristavının iqamətgahı Dondarlı kəndində idi); IV polis sahəsi (sahənin polis pristavının iqamətgahı Kiçikli kəndində idi); V polis sahəsi (sahənin polis pristavının iqamətgahı Qatar kəndində idi.

Mənbədə bu Qatar zavodu kimi getmişdir) (Obzor Yelizavetpolskoy gubernii na 1914 g, 1915: 10; Kavkazskiy kalendar na 1917 g, 1916: 139).

Zəngəzur qəzasının inzibati idarəsinə qəza rəisi başçılıq etmişdi. Qəza idarəçiliyinə bir qəza köməkçisi, bir katib, 2 kargüzar və yaxud mirzə, 1 polis pristavı, 1 tərcüməçi, 1 qeydiyyatçı (o həm də arxivə baxırdı), 1 həbsxana baxıcısı və 1 zemski mühafizə dəstəsinin distansiya rəisi daxil idi (Kavkazskiy kalendar na 1880 g, 1879: 41).

Beləliklə, Yelizavetpol quberniyasının qəzalarından biri olan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur qəzası inzibati-ərazi bölgüsünə görə, mahallara, polis sahələrinə, kənd cəmiyyətlərinə və kəndlərə bölünmüşdü. Qəzanın inzibati idarəsinə qəza rəisi başçılıq etmiş, onun yanında müxtəlif vəzifələri icra edən müxtəlif şəxslər fəaliyyət göstərmişdir.

## Ədəbiyyat

1. Piriyev, V. (2002). Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Araz.
2. Qarayev, E. (2016). Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında. Bakı: Mütərcim.
3. Polnoye sobraniye zakonov Rossiyskoy imperii. (1871). Sobraniye vtoroye. T.XLII, otdeleniye 2-e, SPb.
4. Kavkazskiy kalendar na 1870 god. (1869). Tiflis: Otdeleniye 2-e.
5. Obzor Yelizavetpolskoy gubernii za 1910 g. (1911). Tiflis.
6. Obzor Yelizavetpolskoy gubernii za 1913 g. (1914). Tiflis.
7. Obzor Yelizavetpolskoy gubernii za 1914 g. (1915). Tiflis.
8. ARDTA, f.12/31, iş.29. vv.ob, 22
9. Kazımbəyli, İ. (2017). Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri). Bakı: Turxan.
10. Kavkazskiy kalendar na 1917 g. (1916). Tiflis: Otdeleniye stasticheskoye.
11. Svod statisticheskikh dannykh o naseleniye Zakavkazskoe kraya na 1886 g. (1893). Tiflis.
12. Kavkazskiy kalendar na 1880 god. (1879). Tiflis: Adres kalendar.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 58-61
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 58-61
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Əsəd Qurbanlı**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
qurbanli.68@mail.ru

# AZƏRBAYCANIN NÜVƏDİ VƏ BİR SIRA KƏNDLƏRİNİN SSRİ TƏRƏFİNDƏN ERMƏNİSTANA VERİLMƏSİNİN SİYASİ NƏTİCƏLƏRİ

***Açar sözlər:*** *Azərbaycan, SSRİ, Zəngəzur, Meğri, Nüvədi*
***Keywords:*** *Azerbaijan, USSR, Zangazur, Meghri, Nuvedi*

Azərbaycan Respublikaslı prezidenti İ.H.Əliyevin qətiyyəti nəticəsində 30 il ərzində Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımız işğaldan qurtarılması Sovet dönəmində Ermənistana verilmiş torpaqlara bizlərin yenidən qayıtmaq və tarixi varisliyimizin bərpa ediləcəyinə ümüdlərimizi artırmışdır.

Zəngəzur ələ keçirən və Yuxarı Qarabağın muxtariyyətinə nail olan ermənilər Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirməkdə israrlı olmuş, Azərbaycan torpaqları hissə-hissə kəsilərək RK (b)P Zaq.Diyar Komitəsi tərəfindən Ermənistan SSR-ə verilmişdi.

Zaqafqaziya MİK RH-nin qərarı ilə 1927-ci ildə və xüsusən də, 1929-cu il fevralın 18-də Azərbaycan SSR-nin Naxçıvan MR-dən Ordubad rayonundan isə Qərçivan və Kilid kəndinə məxsus torpaqlar (Meğriyə verilib) kəndləri ilə Ermənisan SSR-nin tərkibinə keçirilmişdi (3, v.2).

Azərbaycanın Cəbrayıl qəzasına aid Aldərə və Astazurun, 1926-cı ildən əvvəl, Qərçivanın, Ernəzir, Tuğut və Nüvədinin 1929-cu ildə Ermənistana verilməsi ilə Azərbaycanla Naxçıvan arasında 46 km-lik dəhlizin yaradılması və bu torpaqların bir-birindən təcridi ilə nəticələnir.

Azərbaycan SSR-nin Cəbrayıl qəzasından daha 3 kənd, Nüvədi, Ernəzir, Tuğut kəndləri Zaq.MİK-in 1929-cu il 18 fevral qərarı ilə Ermənistan SSR-ə verilmiş və bu kəndlərin bazasında 1930-cu ildə Meğri qəzası yaradılmışdır (3, v.2).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyev bildirirdi ki, Ermənilərin bundan əsas məqsədi Naxçıvanı Azərbaycandan ayrı salmaq, onun anklavını genişləndirmək və gələcəkdə Ermənistanın tərkibinə birləşdirmək idi (“Xalq” qəzeti, 1991). Ermənistan SSR-ə verildikdən sonra 1939-cı ildə Emənistan hökuməti Tuğut və Ernəzir kəndləri “perspektivsiz” kəndlər adı altında ləğv edilmiş, Tuğut erməni kəndi Şvanidzorla, Ernəzir isə Nüvədiyə birləşdirilmişdi (Kərimli, 1996: 10).

1927-1929-cu illərdə haqqında danışdığımız bu kəndlər və bir sıra torpaqlar Ermənistan SSR-ə verilsə də, iki respublika arasındakı bu ərazilər “mübahisəli” hesab edilir, Azərbaycan SSR hökuməti tərəfindən tanınmamışdı.

“Sov. İKP MK-nın 23 iyun 1968-ci il tapşırığına uyğun olaraq SSRİ Nazirlər Soveti 10 və 20 iyun 1968-ci ildə Azərbaycan SSR və Ermənistan SSR arasında torpaq mübahisəsi məsələsini nəzərdən keçirmiş, 1968-ci ilin 5 noyabrında isə D.Polyanskinin, Azərbaycan KP MK-nın I katibi V.Axundovun, Ermənistan MK-nın I katibi A.Koçinyanın, SSRİ Kənd Təsərrüfatı Naziri V.Maskeviçin iştirakı ilə “Azərbaycan SSR və Ermənistan SSR-nin ayrı-ayrı mübahisəli kolxozlar arasındakı yoxlamaların və qəbul edilmiş qərarların nəticələri haqqında” məsələni müzakirə etmişdi. Sov.İKP MK eyni zamanda 1927-1929-cu illərdə iki respublika arasında çəkilmiş sərhədlərə Ermənistan SSR və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətlərində bir daha yenidən baxılması və təsdiq olunması tapşırılırdı (1, v.245-246).

1968-ci ilin 26 noyabrında Azərbaycan KP MK bürosu “Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədlər haqqında” Azərbaycan KP MK Azərbaycan SSR və Ermənistan SSR arasında, iki respublikanın kolxozları arasında mübahisəli sərhədlər məsələsini müzakirə etmiş, Zaq.MİK-in 1927-1929-cu illər qərarların təsdiq olunması üçün müvafiq sənədlərin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə təqdim edilməsi tapşırığını vermişdi (1, v.241).

Azərbaycan KP MK bürosunun 1968-ci il 26 noyabr tarixli qərarına əsasən Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli fərmanı ilə Zaq. MİK tərəfindən 1927-

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

1929-cu illərdə Azərbaycandan alınaraq Ermənistana verilmiş, torpaqları ratifikasiya etmişdi. Sov.İKP MK katibliyinin göstərişi ilə 1969-cu ilin noyabrın 17-də Azərbaycan KP MK-in I katibi H.Əliyev, Ermənistan KP MK-in I katibi A.Koçinyan və SSRİ Kənd Təsərrüfatı Naziri V.Maskeviç arasında bu "mübahisə" ilə bağlı sənəd imzalanmışdı (2, v.132).

Yenidənqurma illərində ermənilər imperiyanın tərkibindən böyük bir ərazi ilə çıxmaq istəyir, bu məqsədlə Azərbaycanın tarixi hissəsi Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün mübarizəyə başladılar.

1988-ci ilin əvvəlindən dekabrın 5-nə qədər 250 000 mindən çox azərbaycanlı türk Ermənistandan deportasiya edilsə də, Nüvədi kəndi yaşayış yerini tərk etməyərək ermənilərə qarşı mübarizə aparır, müdafiə olunurdu. Ermənistan tərəfindən əhaliyə daim təzyiq başlamış, 1989-cu il oktyabrın 10-da beş kənd sakini girov götürülmüş, yük maşınları qənimət olaraq ələ keçirilmiş, kəndə elektrik verilməsi və ərzaq göndərilməsi dayandırılmışdı (Musayev, 2000: 22).

1989-cu ilin oktyabrın 11-də kənd əhalisi keçmişdə olduğu kimi Azərbaycan Respublikası tabeliyinə keçməsi haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət etsə də, cavabsız qalmış, strateji əhəmiyyətli kəndin müdafiəsi üçün Azərbaycan hökuməti tərəfindən zəruri tədbirlər görülməmişdir.

Azərbaycan KP MK-nin II katibi V.Polyaniçko 1991-ci il avqustun 7-də Nüvədidə kəndin nümayəndələri ilə görüşmüş, və bundan sonra kəndin boşaldılması əməliyyatı həyata keçirilmişdi. Azərbaycan DTK yaymış olduğu məlumatda əməliyyatına Ermənistan Daxili İşlər Nazirinin müavini Q.Qriqoryanın rəhbərlik etdiyi bildirilirdi (Nüvədi hadisələrinə dair, 1991).

Beləliklə, Nüvədinin işğalı ilə Naxçıvanı Azərbaycanla birləşdirən yeganə dəmiryol xətti daralmış, buradan keçən Bakı-Şərur sərnişin qatarı daim atəş altında saxlanmış, bölgə əhalisi bu günə qədər blokada şəraitində yaşamağa məcbur edilmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Azərbaycan Respublikası DA: f.379, siy.3, iş 2035.
2. "Xalq" qəzeti. (1991). Bakı, №15.
3. Kərimli, A. (1996). Zəngəzurun qeyrət qalası − Nüvədi. Bakı: Azərbaycan, s.76.
4. Azərbaycan Respublikası PİİSSA: f 1, siy.55, iş 69.
5. Azərbaycan Respublikası PİİSSA: f.1, siy.56, iş 72.
6. Musayev, H.Ə. (2000). Nüvədi örnək dərsidir. Bakı: Xatirə kitabı, 21 s.
7. Nüvədi hadisələrinə dair. (1991). "Həyat" qəzeti, 10 avqust, № 153.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 62-64
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 62-64
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Sahibə Budaqova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
sahiba_ibrahim@yahoo.com

# ZƏNGƏZURUN TARİXİ COĞRAFİYASI VƏ BU GÜNÜ

***Açar sözlər:*** *Zəngəzur, mədəniyyət, ərazi, kənd, abidə*
***Keywords:*** *Zangazur, culture, territory, village, monument*

**Zəngəzur** − Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin kiçik bir hissəsini əhatə edən tarixi qəzadır. Zəngəzur qəzası Qafan, Gorus, Qarakilsə (Sisian), Megri (Mehri), Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur qəzasında 406 kənd olmuşdur ki, bunların 314-də türk-müsəlman əhali, 92-də isə ermənilər yaşamışdır.

Qarabağın və Zəngəzurun demək olar ki, hər yerində Azərbaycan türklərinin qədim tarixini əks etdirən xeyli sayda memarlıq abidəsi mövcud olmuşdur. Erkən Orta əsrlər dövrünə aid farsdilli və ərəbdilli mənbələrdə verilən məlumatlardan aydın olur ki, Azərbaycanın tarixi-coğrafiyası şərqdə Xəzər dənizi sahillərindən, qərbdə Şərqi Anadoluya, şimalda Dərbənddən cənubda Zəncana və Həmədan yaylaqlarınadək geniş ərazini əhatə edirdi. Azərbaycan xalqı məhz bu coğrafiyanın daxilində əsrlər boyu dövlətlər qurmuş və zəngin mədəniyyət yaratmışdır. Ermənilərin isə bu ərazilərdə yaşadığını sübut edən heç bir mənbə mövcud deyil.

Zəngəzur Çar Rusiyası dövründə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu qəzada təxminən yarım milyon yerli əhali həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 10068 nəfər, o cümlədən 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur ərazisi Osmanlı imperiyası ilə bağlanan müqaviləyə görə Bolşevik inqilabından sonra yaranan Ermənistan Respublikası ərazisinə daxil deyil idi, ancaq bu müqaviləni tanımayan Andranik Ozanyan Osmanlı ordusundan qaçaraq özünün yaratdığı qaçaq-quldur dəstələri ilə bölgəni işğal etdi, dəhşətli qırğınlar törətdi, yerli azərbaycanlı əhalini soyqırımına məruz qoydu.

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR-in hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi.

1920-ci il 10 avqustda Rusiya KP-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında “mübahisəli ərazilər” elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu, hərçənd bölgələrdə daşnak hökuməti hələ tam süqut etməmişdi.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur və Şərqi Zəngəzur qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycanın tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Zəngəzur Ermənistana veriləndən sonra Naxçıvanı Azərbaycanın ayrılmaz bir hissəsi kimi saxlamaq üçün böyük nailiyyət əldə edilmiş, Naxçıvana muxtariyyət verilmişdir. Əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur qəzasının vaxtilə Ermənistana verilməsi olmasaydı, bəlkə də heç Naxçıvanın muxtariyyəti də lazım deyildi, Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi. Ancaq Zəngəzur qəzasının, o cümlədən onun bir hissəsi olan Mehri,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Qafan rayonlarının – Azərbaycan torpaqlarının 1920-ci ildə Ermənistana verilməsi bizim tariximizdə Azərbaycan torpaqlarının əldən getməsinin çox ağır bir hadisəsidir. Ancaq tək bu deyil. Amma bu tərəfdən – indiki Zəngilan, Qubadlı rayonları tərəfindən də torpaqlar verilibdir. Məsələn, məlumdur ki, Mehri rayonunda böyük bir Nüvədi kəndi var. O, çoxminlik əhalisi olan bir kənddir, sırf azərbaycanlı kəndidir. Nüvədi Arazın sahilində Naxçıvanla Azərbaycanın böyük torpağını ayıran, indi Ermənistanın olan Mehri rayonunda, həmin məsafənin düz ortasında yerləşir. Həmin Nüvədi kəndi də 1929-cu ildə Azərbaycanın tərkibindən Ermənistana verilibdir. Azərbaycanın başqa hissələrindən də torpaqlar, təəssüflər olsun ki, əldən gedibdir. İndi bizi Naxçıvandan ayıran, sərhəddən dəmir yolu ilə getsək, təxminən 46 kilometr məsafə – Ermənistanı İrana bağlayan məsafə əldən gedibdir.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 65-68
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 65-68
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Dilruba Əliyeva**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Dendrologiya İnstitutu
biologiya üzrə fəlsəfə doktoru
adilruba@mail.ru

# ZƏNGƏZURUN TARİXİ, COĞRAFİYASI, BİTKİLİYİ VƏ BİTKİLİYİNƏ MƏNSUB BƏZİ NÖVLƏRİN TƏDQİQİ

***Açar sözlər:*** *Ortaboy acılıq, Qafqaz dağdağanı, Efedrin, Bəsitçay Dövlət Təbiət Qoruğu, Adı qoz, Azərbaycanın Qırmızı Kitabı*

***Keywords:*** *Ephedra intermedia, Celtis caucasica, ephedrine, Besitchay State Nature Reserve, Juglans regia, The Red Book of Azerbaijan*

Ən qədim tarixi mənbələrlə yanaşı, bir çox dünya alimləri tərəfindən aparılan tədqiqat və araşdırmalar Zəngəzurun IV-IX əsrlərdə Alban dövlətinin, daha sonra Sasani İmperiyası və Ərəb xilafətinin, IX-XI əsrlərdə ərəb xilafətinə qarşı müharibələrdə qalib gəlmiş qədim Azərbaycan dövlətlərinin – həmin ərazilərdə əsrlər boyu müxtəlif adlar altında hakimiyyətdə olmuş Sacilər, Salarilər və Rəvvadilərin, XII-XIII əsrin əvvəllərində Atabəylərin, XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrdə Cəlalilərin, daha sonra Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrin başlanğıcında qüdrətli Səfəvi dövlətinin, XVIII, XIX əsrin 20-ci illərində Qarabağ xanlığının tərkibində olduğunu təsdiq edir.

Zəngəzurun tarixini araşdıran digər tədqiqatlarda 1905–1907 və 1918–1920-ci illərdə silahlı erməni dəstələrinin təcavüzünə məruz qalmış Zəngəzurun 115 müsəlman kəndinin talan edildiyi, yandırılaraq yer üzündən silindiyi, 4472 qadın və uşağın erməni silahlıları tərəfindən xüsusi amansızlıqla öldürüldüyü tarixi sənədlər və faktlarla təsdiqi sübuta yetirilmişdir.

Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi tərəfindən 1920-ci il noyabrın 30-da keçirilən iclasın qərarı ilə Zəngəzur sovet Ermənistanının tərkibinə verilir. Bu

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

qərarın nəticəsi olaraq Azərbaycanın Naxçıvan bölgəsi ölkə ərazisindən ayrı salınır və beləliklə, Azərbaycanın Türkiyə ilə, eləcə də bütün türk dünyası ilə quru əlaqələri kəsilir.

Müzəffər Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı tarixi qələbə, nəhayət ki, haqq-ədaləti bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması təsbit olundu. Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq bu tarixi Fərman qədim Zəngəzur adını coğrafi, inzibati ərazi vahidi olaraq yenidən xəritələrə qaytardı. 2021-ci ilin 26 oktyabr tarixi – ədalətin bərpası istiqamətində atılan daha bir addımla – bütün Türk dünyasını birləşdirən, Azərbaycanda və bölgədə yeni reallıq yaradan Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlinin qoyulması ilə tarixə yazıldı.

Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Zəngəzur torpağında Bazarçay axır. Zəngəzur dağ silsiləsi ilə Qarabağ yaylası arasında yerləşir. Ona görə də bu əraziyə "zəngi dərəsi" də deyirlər. Bütün Zəngəzur mahalı boyu uzanan bu dağ silsiləsi Tərtər və Arpa çaylarının yuxarı axınlarından Araz çayınadək gedib çıxır. Uzunluğu təqribən 130 km, hündürlüyü isə 3904m-dir.

Zəngəzurun landşaftı dəniz səviyyəsindən 450 metr (Yazı düzü) hündürlükdən 4000 metr (Qapıçıq dağı) hündürlüyə qədər dəyişir və hər hündürlük zolağı öz bitki aləmi ilə zəngindir. Zəngəzurun təbiəti heyvandarlıq, əkinçilik, bağçılıq, ipəkçilik və tütünçülük üçün çox əlverişlidir. Həmin ərazilərdə Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilən 24 fauna və 70-dən çox flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilmişdir. Ümumilikdə, monitorinqlərin nəticəsində Bəsitçay Dövlət Təbiət Qoruğunda 27 növ ağac, 18 kol və 11 ot bitki növü qeydə alınmışdır. Bunlardan 17 ağac, 3 kol, 3 ot bitki növü nadir və nəsli kəsilməkdə olan bitkilər, 6 ağac 2 kol bitkisi isə relikt və endemik bitkilər olaraq müəyyən olunmuşdur. Monitorinq zamanı ərazidə meşəliyin I yarusunu tutan çinar ağacı ilə adi qozun (*Juglans regia*L.) qarışıq ağaclıq yaratdığı müşahidə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

olunur. II yarusda Qafqaz dağdağanı (*Celtis caucasica*), çaykənarında isə qovaq (*Populus* L.), qarağac (*Ulmus* L.), uzunsaplaq palıd (*Quercus longipes* L.) növlərinə rast gəlindiyi müşahidə edilmişdir. Qoruğun ərazisində "Qırmızı kitab"a daxil olan 5 növ – *Platanus oriaentalis* L., *Pyracanthacoccinea* M.Roem., *Iris paradoxa* Steven., *Crocus adami* J.Gay., *Ophrys caucasica* Woronow müşahidə edilmişdir. Monitorinq nəticəsində ərazinin dağlıq hissəsinin meşə örtüyündə İberiya palıdı (*Quercus iberica*) və Qafqaz vələsinə (*Carpinus caucasica*), ardıcın 2 növünə – ağıriyli ardıc (*J.foetidissima*), alçaqboylu ardıc (*Juniperus depressa* Stev.) və kütyarpaq saqqızağacına (*Pistacia mutica*) rast gəlinmişdir. Quru daşlı yamaclarda Araz palıdı (*Q.araxina*), Qafqaz dağdağanı (*Celtis caucasica* Willd), Şərq vələsi (*C.orientalis*), kütyarpaq saqqızağacı (*P.mutica*), İberiya ağcaqayını (*Acer iberica*), Araz qarağacı (*Ulmus araxina*), söyüdyarpaq armud (*Pyrus salicifolia*), ardıc ilə seyrək meşəlikləryaradır. Bu meşəliklərdə kserofit kollardan tikanlı dəvəqıran (*Atraphaxis spinosa*), İberiya doqquzdonu (*Lonicera iberica*), xırdameyvə albalı (*Cerasus microcarpa*), ortaboy acılıq (*Ephedra intermedia* Schrenk. et. C.A.Mey.), kol jasmini (*Jasminum fruticans*), pallas murdarçası (*Rhamnus pallasii*) və qaratikan (*Paliurus spina-christi*) təbii halda yayılmışdır.

Qafqaz dağdağanı (*Celtis caucasica*Willd.) İranda, Əfqanıstanda, Orta Asiyada, Rusiyada və Qafqazda, o cümlədən Azərbaycanda yayılmışdır. Vətənində hündürlüyü 15-20 m-ə çatan, çətiri kürə formalı, gövdəsinin qabığı hamar, boz rəngli ağacdır. Yarpaqları növbəli, sıx yerləşmiş, kənarları dişli və ya tamkənarlı, yumurtavari və ya yumurtavari-neştər formalı, uc tərəfdən qısa, sivri, uzunluğu 4-10 sm, eni 2,5-5 sm-ə qədərdir. Aprel ayında çiçəkləyir. Çiçəklər ikicinslidir. Meyvələri sentyabr-oktyabr aylarında yetişir. İstisevən, istiyə, quraqlığa, şaxtayadavamlı və torpaq münbütlüyünə az tələbkar bitkidir. Dağdağan çiçəkləmə və meyvələrinin yetişmə dövründə çox dekorativ görünüş alır. Uzunömürlü, dekorativ xüsusiyyətlərə malik olduğundan meşəsalmada, yaşıllaşdırmada, canlı çəpərlərin

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

salınmasında, xiyabanlarda, bağlarda, parklarda, tək və qrup əkinlərində istifadə olunması məqsədəuyğundur.

Ortaboy acılıq (*Ephedra intermedia* Schrenk.et.C.A.Mey) Çoxillik kol bitkisi olub, hündürlüyü 1,5 m, gövdəsinin diametri isə 4 sm-ə bərabərdir. Yerüstü orqanları sarı rəngli çoxillik odunlaşmış gövdədən və çoxillik (1-2 illik) odunlaşmış budaqcıqdan ibarətdir. Gövdəsi yaşıl düz, hamar, nazikşırımlı, qarşı-qarşıya, bərabər və düyünlü olub, uzunluğu 1,5-3 sm-dir. Aşağı budaqcıqları çiçək köbəsinə bərabər, yuxarı budaqcıqları isə həmişə qarşı-qarşıya yerləşir. Yarpaqları qarşı-qarşıya, 1/3 hissəsi bölünmüş, yuxarı tərəfi kiçik üçbucaqlı və dişciklidir. Çiçəkləri açıq-yaşıl olub, iysizdir. İkievlidir, kolun birində erkəkciyi olan çiçəklər, digərində isə dişicikli çiçəklər olur. Yetişmiş meyvələrinin (yalançı meyvələr) uzunluğu 6-7 sm, qırmızı və ya narıncı, lətli və birtoxumludur. Acılıqotu əsasən köklərinin artıb çoxalmasına görə 10-50 gövdəciyi olan çiçək əmələ gətirir. Efedrin adrenomimetik olub, dolayısı ilə təsir edirək α və β-adrenoreseptorları stimullaşdırır. Belə ki, tənəffüs sistemini stimullaşdırır, dərinləşdirir, qan təzyiqini artırır, ürəyin qidalanmasını və həcmini yaxşılaşdırır, periferik damarların tonusunu artırır, bronxların saya əzələsinin tonusunu azaldır. Qaraciyərin qan dövranını yaxşılaşdırır. Bəbəkləri genişləndirərək gözdaxili təzyiqi aşağı salır. Yerüstü orqanlarından dərman vasitəsi kimi istifadə olunur.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 69-72
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 69-72
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Emiliya Əliyeva**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
mustafayev1954@list.ru

# ZƏNGƏZUR QƏZASI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

***Açar sözlər:*** *Zəngəzur, qəza, əhali, milli tərkib, əkinçilik, maldarlıq, xalça*

***Keywords:*** *Zangazur, district, population, national strukture, farming, cattle buading, carpet*

Qədim Azərbaycan torpağı olan Zəngəzurda qəza inzibati ərazi vahidi 1861-ci ildə yaradılmış və 1868-ci ildə yeni yaradılmış Yelizavetpol quberniyasının tərkibinə daxil edilmişdir. Qəza Naxçıvan, Şərur-Dərələyəz, Cavanşir, Şuşa və Qaryagin qəzaları ilə həmsərhəd idi (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2005: 459-460).

XX əsrin əvvəllərində Zəngəzur qəzasının inzibati ərazi quruluşu, əhalisinin sayı və milli tərkibi, mövcud torpaq fondunun həcmi və təyinatı, eləcə də əhalinin təsərrüfat fəaliyyətinin müxtəlif sahələri haqqında "1908-ci ildə Elizavetpol quberniyasının kəndli əhalisinin iqtisadi vəziyyəti" və "Yelizavetpol quberniyasının 1914-cü ilə dair yaddaş kitabına əlavə" adlı mənbələrdə zəngin məlumat cəmlənmişdir. Hər iki mənbədə verilən məlumatdan aydın olur ki, Zəngəzur qəzası XX əsrin əvvəllərində inzibati cəhətdən 4 kənd şöbəsinə, şöbələr isə öz növbəsində kənd cəmiyyətlərinə və kəndlərə bölünürdü. 1908-ci ilə aid məlumata görə qəzada qeydə alınmış 320 kənddə 156 456 nəfər əhali yaşayırdı. Bu əhalinin 51 821 nəfəri birinci şöbədə, 39 105 nəfəri ikinci şöbədə, 32 785 nəfəri üçüncü şöbədə, 39 836 nəfəri isə dördüncü şöbədə yaşayırdı (Ekonomicheskoye sostoyaniye, 86-141). Maraqlı burasıdır ki, 1908-ci ildən 1912-ci ilə qədər qəzada kəndlərin sayı artaraq 337-yə çatdığı halda, əhalinin sayı cüzi də olsa (533 nəfər) azalaraq 155 923 nəfərə düşmmüşdü (Prilozheniye k pamyatnoy knige, 97).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Göstərilən mənbələrdə Zəngəzur qəzasında yaşayan əhalinin milli tərkibi haqqında verilən məlumatlar da xeyli maraq doğurur. 1908-ci ilə aid mənbədəki məlumatlar əsasında apardığımız hesablamalar göstərir ki, həmin il qəzada mövcud olan 320 kənddən 241-də ancaq azərbaycanlılar, 77-də ancaq ermənilər, birində ruslar, birində isə kürdlər yaşayırdı. Qəzanın 6 kəndində azərbaycanlılarla ermənilər qarışıq şəkildə yaşayırdı. Əhalinin qarışıq yaşadığı kəndlərdə qeydə alınmış 5167 nəfər əhalinin ən azı yarısının azərbaycanlı olduğunu güman etmək olar. Ümumilikdə həmin mənbədə əhalinin milli tərkibinə dair verilmiş statistik məlumatlar əsasında apardığımız hesablamalar qəzada əhalinin milli tərkibinin aşağıdakı kimi olduğunu göstərir: azərbaycanlılar – 81 714 nəfər, ermənilər – 79 842 nəfər, ruslar – 1047 nəfər, kürdlər – 785 nəfər (Ekonomicheskoye sostoyaniye, 86-141).

Göstərilən mənbələrdə XX əsrin əvvlələrində Zəngəzur qəzasında mövcud olan torpaq fondu və əhalinin təsərrüfat fəaliyyəti haqqında da xeyli statistik məlumatlara rast gəlmək mümkündür. Bu məlumatlardan aydın olur ki, qəzanın ümumi torpaq fondu 162 734 desyatin təşkil edirdi. Həmin torpaqların 2246,1 desyatini malikanələrin, 1629,5 desyatini bağların, 486,1 desyatini isə üzümlüklərin payına düşürdü. Ümumi torpaq fondunun, təxminən yarısı əkin dövriyyəsinə cəlb edilmişdi ki, onun da 4087,5 desyatinini suvarılan, 82401,1 desyatinini dəmyə torpaqları təşkil edirdi (Prilozheniye k pamyatnoy knige, 96).

Yelizavetpol quberniyasının əksər qəzalarında olduğu kimi, Zəngəzur qəzasında da əhalinin əsas məşğuliyyətini əkinçilik, ilk növbədə, dənli bitkilər istehsalı təşkil edirdi. Əkin sahələrinin əsas hissəsində buğda, arpa və çəltik yetişdirilirdi. Bununla belə, suvarılan torpaqların azlığı taxılçılıqda məhsuldarlığın yüksək olmasına imkan vermirdi. Bunu 1912-ci ildə bütün qəzada səpilmiş 241 246 pud buğda toxumunun müqabilində 686 055 pud, yəni birə üç məhsul götürülməsi də təsdiq edir. Qəzada suvarılan torpaqların əsas hissəsi çəltik əkinləri üçün ayrılmışdı. Ümumiyyətlə, çəltikçilik Zəngəzur qəzasında qədim və zəngin ənənələrə malik idi. Tədqiq olunan dövrdə qəzanın Dondarlı,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Xocaqan, Mollaburan, Zəngilan, Ördəkli və Rabadan kənd cəmiyyətlərinə daxil olan 62 kənddə çəltik əkilib becərilirdi. Digər taxıl məhsulları ilə müqayisədə çəltikçilikdə məhsuldarlıq nisbətən yüksək olub, təxminən birə beş təşkil edirdi. Belə ki, 1912-ci ildə qəzada səpilmiş 3.874 pud çəltik toxumunun müqabilində 19.234 pud məhsul götürülmüşdü (Prilozheniye k pamyatnoy knige, 80-96).

Zəngəzur qəzasında yaşayan əhalinin təsərrüfat fəaliyyətində maldarlıq da mühüm yer tuturdu. Qəzada mövcud olan ümumi torpaq fondunun təxminən yarısının maldarlıq üçün istifadə edilməsi də bunu təsdiq edir. Belə ki, qəzada 9269 desyatin torpaqdan biçənək, 82 401 desyatin torpaqdan isə otlaq kimi istifadə edilirdi. 1912-ci ilə aid statistik məlumata görə qəzada 10 741 baş at, 75 444 baş iribuynuzlu, 62 004 baş xırdabuynuzlu mal-qara, 1966 baş donuz saxlanılırdı. Həmin il qəzada 6329 pud pendir, 898 pud yağ istehsal edilmişdi. Qoyunçuluqdan əldə edilən yun qəzada geniş yayılmış xalçaçılıqda əsas xammal kimi istifadə edilirdi. Cənubi Qafqazda sənət istehsalının vəziyyətini tədqiq etmiş K.Xatisov Zəngəzur qəzasını hələ XIX əsrin sonlarında Yelizavetpol quberniyasının ən inkişaf etmiş xalçaçılıq rayonlarından biri kimi xarakterizə edirdi (Khatisov, 1894: 269). Qəzada istehsal edilən müxtəlif növ xalça məmulatları – xalça, palaz, kilim, şəddə, vərni, namazlıq və s. daxili və xarici bazarlarda yüksək qiymətləndirilirdi. 1912-ci ildə burada ancaq bazar üçün 9960 rubl dəyərində xalça məmulatı istehsal edilmişdi (Prilozheniye k pamyatnoy knige, 96).

## Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. (2005). İki cilddə, II c. Bakı.
2. Ekonomicheskoye sostoyaniye krestyanskogo naseleniya Yelizavetpolskoy gubernii po svedeniyam Myrovykh posrednikov za 1908 god., otd. IV.
3. Prilozheniye k pamyatnoy knige Yelizavetpolskoy gubernii na 1914 god. Tablitsa ob ekonomicheskom sostoyanii gorodskogo i krestyanskogo naseleniya, po svedeniyam,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

otnosyashimsya k 1912 godu, sobrannym Nachalnikami politsiy i Mirovymi Posrednikami Yelizavetpolskoy gubernii.
4. Khatisov, K. (1894). Kustarnyye promysly Zakavkazskogo kraya. Otchety i issledovaniya po kustarnoy promyshlennosti v Rossii. t. I, S-Pb.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 73-76
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 73-76
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Hacı Həsənov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
hacihasanov@mail.ru
**Zeynəb Qafarova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
zeynabqafarova@gmail.com
**Ruqiyə Talıbova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
talibovarugiyya@gmail.com

# ZƏNGƏZUR TORPAQLARININ RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

***Açar sözlər:*** *Zəngəzur, Qarabağ, Abbas Mirzə, Gülüstan, Türkmənçay*

***Keywords:*** *Zangazur, Karabakh, Abbas Mirza, Gulustan, Turkmanchay*

Tarixən Quzey Azərbaycanın Qarabağ bölgəsinin cənub-qərbində yerləşən Ulu Zəngəzurun Rusiya tərəfindən işğalı 1805-ci ilə təsadüf edir. İşğalçı general P.D.Sisianovun hədələrinin təsiri altında 1805-ci il mayın 14-də İbrahimxəlil xan Şuşalının Kürəkçay müqaviləsini imzalaması ilə (Azərbaycan tarixi, IV c., 2000: 22) Qarabağ xanlığı, eləcə də Zəngəzur Rusiya imperiyasına qatılsa da, rusların buradakı hakimiyyəti ilk illərdə şərti xarakter daşıyırdı. Rusiya hələ ki, burada prosesləri nəzarət altında saxlaya bilmirdi. 1806-cı il dekabrın 13-də podpolkovnik Kotlyarevski Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviçə şikayətlənirdi ki, (AKAK, t.III, dok. 622: 340) "Qarabağ qəzasının Sisian mülkündə yaşayan Abbasqulu xan Naxçıvanski" Təbriz, Ordubad, Naxçıvan və b. yerlərdən gələn erməni tacirlərini soyub-talayır, vəliəhd Abbas Mirzə ilə yazışır.

Həmin podpolkovnik Qudoviçə ünvanlandığı 6 oktyabr 1807-ci il tarixli digər bir raportunda (AKAK, t.III, dok. 622: 340)

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Mehdiqulu xan və rus orqanlarının Mehri kəndindən 1000 çervon, Güney mahalından 200 çervon məbləğində təzminat haqqının yığılmasında aciz qaldıqlarından bəhs edirdi.

Azərbaycanın digər yerlərinin işğalı və müstəmləkəyə çevrilişində olduğu kimi, Zəngəzurun da hakimiyyət altına alınmasında imperiya qüvvələri erməni "kartından" gen-bol istifadə edirdilər. Məsələn, bunu qraf Qudoviçin polkovnik Aselyevə ünvanlandığı 1808-ci il 19 sentyabr tarixli 139 saylı tapşırığından da görmək olur. Qraf polkovnikə bərk-bərk tapşırırdı ki, rus qoşunlarına meyllərinə görə Mehdiqulu xan tərəfindən incidilib mülkiyyəti əllərindən alınmış "hörmətli məliklər" Ağarza bəy və Lala bəyi mükafatlandırdığı gizli medallara əlavə olaraq onların hər birinə 100 gümüş rubl verilsin (AKAK, t.III, dok. 638: 340). Onlardan əlavə "Sisian məliyi Mikirtiçə, habelə Poqos və Kosa kovxalara bildirilsin ki, cəhd və sadiqliklərinə görə çardan onların mükafatlandırılmasını xahiş edəcəyəm" (AKAK, t.III, dok. 638: 340). Təəssüf ki, bütün səylərə, Gəncə, Car-Balakən, Şirvan, Quba, Bakı, Lənkəran və b. bölgələrdə göstərilən müqavimətə, Azərbaycanın igid oğlu Abbas Mirzənin bütün cəhdlərinə baxmayaraq, qüvvələr nisbətinin qeyri-bərabərliyi, siyasi pərakəndəlik ucbatından Rusiya müstəmləkəçiləri bu cəngi udaraq İrəvan və Naxçıvan istisna olunmaqla Quzey Azərbaycanı işğal edə, bu işğalları Qacarlara (12 oktyabr 1813-cü il Gülüstan müqaviləsi ilə) (Azərbaycan tarixi, IV c., 2000: 33) və Osmanlılara (may 1812-ci il Buxarest müqaviləsi ilə) (Azərbaycan tarixi, IV c., 2000: 34) qəbul etdirə bildilər. Ancaq xalq bu məğlubiyyətlə razılaşmır, müxtəlif yollarla mübarizəni davam etdirirdi. 1826-cı ilin ümummüsəlman antirusiya üsyanı bu müqavimətin zirvə nöqtəsi oldu (Qurbanov, 2006: 83). Yeni müstəmləkəçi hakimiyyət orqanlarının bütün cəhdlərinə baxmayaraq işğalçılar bu torpaqlarda, o cümlədən də Zəngəzurda özlərini rahat hiss edə bilmirdilər. Təsadüfi deyildir ki, işğaldan 20 il sonra belə, yəni 1826-1828-ci illər rus-Azərbaycan müharibəsi ərəfəsində Qafqazdakı rus qoşunlarının baş komandanı general Yermolovun 2 iyun 1825-ci il tarixli 9 saylı əmrinə (AKAK, t.VI, ch.I, dok. 719: 516) əsasən general-

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 73-76
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 73-76
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

mayor Mədətov Nuxa və Şirvandan gətirilmiş yeni hərbi qüvvələr hesabına Mehri-Perxut-Çuğundurçay, Oxçu-Qızılvəng, Qirnant-Ərikli, Kilsəli və digər Zəngəzur bölgələrində rus hərbi kontingentinin gücləndirilməsi üçün genişmiqyaslı tədbirlər gördürürdü (AKAK, t.VI, ch.I, dok. 719: 516). Təbii ki, işğalçılar belə bir zəngin diyardan, onun gəlirlərindən faydalanmaq üçün hər şeyə getməyə hazır idilər. Müstəmləkəçilərin hesablamalarına görə, 1820-ci illərin ortalarında Qarabağ əyalətinin ancaq icarəyə verilə biləcək gəlir qaynaqlarından ildə xan pulu ilə 132 min rubl, rus pulu ilə 32433 rubl götürmək ümidində idilər (AKAK, t.VI, ch.I, dok. 1308: 858). Bunlardan əlavə əyalətin 9073 vergiödəyən və 9490 vergidən azad həyətindən 9506 çervon təzminat pulu, 1551 rubl otaq xərci bütövlükdə xan pulu ilə 185592 rubl 88 qəpik (rus pulu ilə 30364,10 rubl) toplamaq mümkün idi (AKAK, t.VI, ch.I, dok. 1308: 858). Təkcə Sisian mahalından xan pulu ilə 5221,96 rubl toplamaq nəzərdə tutulurdu. Təsadüfi deyildir ki, Qacarlar və ruslar arasındakı sərhəd mübahisələrində Mehri və Qafan əsas "alver" subyektlərindən olmuş (AKAK, t.VI, ch.I, dok. 1308: 891), 1826-cı ilin hərbi kampaniyasında Abbas Mirzə özü bu bölgəyə böyük önəm verərək Təbriz ordu hissələrini məhz Qafana yollamışdır (AKAK, t.VI, ch.II, dok. 1370: 349). Bu müharibənin gedişində də ermənilər ruslara gen-bol xidmət etməkdə davam edirdilər. Artıq 1826-cı il iyunun 27-də Təbrizdən Qazar Məliknübarovun Abbas Mirzənin hərbi hazırlıqları barədə məlumatı bircə həftədən sonra Tatev arxiyepiskopu Martiros vasitəsi ilə polkovnik Reutta çatdırılmışdı (AKAK, t.VI, ch.II, dok. 635: 350). Bu müharibədə hər iki tərəf Zəngəzur bölgəsinə ciddi önəm verirdi. Məsələn, 1826-cı ilin sonlarında Mehri-Bərgüşad bölgələrində ruslarla Abbas Mirzənin qoşunları arasında kəskin çarpışmalar getmişdi (AKAK, t.VI, ch.II, dok. 701, 702: 387). Qarabağ xristianları bu əməliyyatlarda ruslara yaxından yardım edirdilər (AKAK, t.VI, ch.II, dok. 635: 350). 1827-ci ilin əvvəllərində Ağoğlan, Gorus, Həkəri və Zəngəzurun başqa bölgələrində də ciddi hərbi əməliyyatlar gedirdi (AKAK, t.VI, ch.II, dok. 715: 397).

Lakin bütün cəhdlərə baxmayaraq işğalçılar bu dəfə də qalib

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

gəlib Cənubi Qafqazda mövqelərini daha da möhkəmləndirdilər. Qacarlar Türkmənçay (10 fevral 1828-ci il) (Azərbaycan tarixi, IV c., 2000: 48) Osmanlılar isə Ədirnə (2 sentyabr 1829-cu il) (Azərbaycan tarixi, IV c., 2000: 52) müqavilələri ilə bu məğlubiyyətlərlə barışmalı oldular. Quzey Azərbaycan torpaqları təxminən 200 il əvvəlcə Romanovlar, 23 aylıq AXC dövründən sonra isə Sovetlər Rusiyasının müstəmləkəsi olaraq qaldı.

Əsasən Qarabağ xanlığının tərkibində olmuş Zəngəzur torpaqları sonralar eyniadlı əyalətin və daha sonra qəzanın tərkibində bir neçə mahal olaraq qaldı.

## Ədəbiyyat

1. Azərbaycan tarixi: 7 cilddə, IV cild (XIX əsr). (2000). Bakı: Elm, 508 s.
2. Akty, sobrannyye Kavkazskoy arkheograficheskoy komissiyey: v 12 tomakh. (1869). Tiflis: Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazskogo, T.3, 766 s.
3. Qurbanov, R.M. (2006). XIX əsrin I yarısında Şimali Azərbaycanda xalq azadlıq hərəkatı. Bakı: Nurlan, 192 s.
4. Akty, sobrannyye Kavkazskoy arkheograficheskoy komissiyey: v 12 tomakh. (1874). Tiflis: Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazskogo, T. 6, Ch. 1, 957 s.
5. Akty, sobrannyye Kavkazskoy arkheograficheskoy komissiyey: v 12 tomakh. (1875). Tiflis: Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazskogo, T. 6, Ch. 2, 954 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 77-80
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 77-80
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Həmidə Seyidova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Naxçıvan)
biologiya üzrə fəlsəfə doktoru
hemide_seyidova@mail.ru

# AKADEMİK HƏSƏN ƏLİYEV ADINA ZƏNGƏZUR MİLLİ PARKINDA YAYILAN YEMƏLİ GÖBƏLƏKLƏR

***Açar sözlər:*** *yeməli göbələklər, növ tərkibi, yayılma zonası, nadir növlər, qida əhəmiyyəti*

***Keywords:*** *edible mushrooms, species composition, distribution zone, rare species, food importance*

Canlılar aləminin müstəqil qrupu hesab olunan göbələklər, öz xeyirli və ziyanlı cəhətləri ilə həmişə insanların diqqət mərkəzində olmuşdur. Ona görə də göbələklərin təbiətdə və insan həyatında rolu daim araşdırılmış, nəticədə insanlar göbələklərin həm ziyanlı təsirlərini müəyyən qədər aradan qaldırmağa müvəffəq olmuş, həm də ondan öz məqsədləri üçün istifadə etməyin yollarını müəyyən edə bilmişlər.

Müasir dövrdə əhalinin maddi rifah halını daha da yaxşılaşdırmaq, onların artan tələbatını maksimum dərəcədə ödəmək üçün, hər bir ölkənin iqtisadi yüksəlişi, digər faktorlarla bərabər onun təbii ehtiyatlarının hərtərəfli öyrənilməsi və səmərəli istifadəsindən də asılıdır. Bu baxımdan yeməli göbələklərin elmi əsaslarla kompleks öyrənilməsinin təşkili və onlardan istifadə edilməsi dövrün əsas məsələlərindən biridir.

Ərazidə yayılan yeməli göbələklər təbii sərvət olmaqla yanaşı, həm də qidalılığına görə qiymətli məhsul hesab olunurlar. Bu növlərin çoxu qədim zamanlardan başlayaraq bu günə qədər insanların qidasında xüsusi yer tutmuşdur. Hazırda əhali yeməli göbələklərdən yalnız dombalandan (*Terfezia leonis*), sarıcadan (*Cantharellus cibarius*) və şampinyonlardan *Agarisus* cinsinə daxil olan, yerli əhali tərəfindən isə “ağ göbələk” və ya adam göbələyi adlandırdığı növlərdən istifadə edir, lakin əksər növlər

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

isə istifadəsiz olaraq qalır. Buraya xüsusilə, bazidiomisetlərdən olan papaqlı, lətli göbələklər və qismən də askomisetlərdən olan lətli göbələklər aiddir.

Göbələklərin qida kimi qəbulu məsələsi çox qədimdən məlumdur. Eramızdan əvvəl IV əsrdə yaşamış Aristotelin tələbəsi qədim yunan filosofu Teofrast öz əsərində şampinyon, tryufel və quzu qarnı kimi göbələklər haqqında məlumat vermişdir. Antik dövrdə qədim romalılar və yunanlar keserov göbələyindən və dombalandan hazırlanmış yeməkləri delikates hesab edirdilər (1).

Azərbaycanda papaqlı göbələklərin qida əhəimiyyəti ilk dəfə olaraq A.S.Sadıqov tərəfindən sistemli olaraq öyrənilmişdir. Müəllif tərəfindən aparılan tədqiqat işləri nəticəsində Azərbaycan Respublikasının meşə və çöllərində 130-dan çox yeməli göbələk növünün yayıldğı haqqında məlumat vermişdir (Sadıqov, 2007: 5).

Naxçıvan Muxtar Respublika ərazisndə aparılan çoxillik tədqiqat işləri nəticəsində (2005-2020) 93 növ papaqlı göbələk müəyyənləşdirilmişdir ki, onlardan da 50 növünün qida əhəmiyyəti dəqiqləşdirilmişdir. Bunlar, *Terfezia leonis* Tul., *Morchella esculenta* (L.) Pers, *Agaricus campestris* L., *A.silvaticus* Schaeff., *A. abruptibulbus* Peck., *Macrolepiota procera* (Scop.) Singer, *M. excoriata* (Schaeff.), *M. mastoidea* (Fr.) Singer, *M. fuliginosa* (Barla) Bon., *Amanita vaginata* (Bull.) Lam., *Leucoagaricus leucothites* (Vittad.) Wasser, *Coprinus comatus* (O.F.Mill.) Pers, *Lycoperdon perlatum* Pers., *Calvatia gigantea* (Batsch) Lloyd, *Calvatia utriformis* (Bull.) Jaap, *Lycoperdon giganteum* Batsch), *Volvariella bombycina* Schaeff.:Fr.) Singer, *Pleurotus ostreatus* (Jacq.) P. Kumm., *P.eryngii* (DC.) Quel., *Gymnopus dryophilus* (Bull.) Murrill, *Armillaria mellea* (Vahl) P. Kumm., *Cortinarius tabularis* (Fr.) Fr., *Psatrella. candolleana* (Fr.) Maire, *P. spadiceogrisea* ( Fr.) Maire., *Coprinellus micaceus* (Bull.) Vilgalys, *Hyqrocybe ceracea* (Wulfen) P.Kumm., *Marasmius. oreades* (Bolton) Fr., *M.scorodonius* (Fr.) Fr., *M. collinus* (Scop.) Singer, *Ampulloclitocybe clavipes* (Pers.) Redhead, Lutzoni, Moncalvo & Vilgalys, *Flammulina velutipes* (Curtis) Singer, *Neolentinus*

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

*lepideus* (Fr.) Redhead & Ginns, *Panus conchatus* (Bull.) Fr., *Polyporus squamosus* (Huds.) Fr., *Cantharellus cibarius* Fr., *Boletus regius* Krombh., *B. luridis* Shaeff.: Fr., *Xerocomus subtomentosus* (L.) Quel., *Lyophyllum decastes* (Fr.) Singer, *Clitocybe brumalis* (Fr.) Kumm., *Lepista nuda* (Bull.) Cooke, *Russula* fellea Fr. növləridir (Seyidova, 2017: 132-133).

Bunlardan da *Terfezia leonis* Tul. (VU A2c+3cd) növünün nadir və nəsli kəsilməkdə olduğu nəzərə alınaraq, Azərbaycan Respublikasının Qırmızı Kitabına (2013: 598-599) salınmış və qorunma yolları göstərilmlşdır.

Yeməli göbələklər tərkibinə, qidalılıq və dad keyfiyyətinə görə şərti olaraq 4 kateqoriyaya bölünürlər (5). Tədqiqat apardığımız ərazidə I kateqoriyalı göbələyə rast gəlinməmişdir. Şampinyonlar, kilkəli peyinər II, sarıca, payız kötükcəsi, bir sıra alkövrəklər III, hündür çətirgöbələk, asılqal, dişcikli tozanaq, pulcuqlu qov göbələyi IV kateqoriyaya aid edilir.

Göbələklərin qidalılıq dəyərinə görə qiymətləndirərkən hər şeydən əvvəl onların meyvə cisimlərinin ölçülərini də nəzərə almaq lazımdır. Belə ki, *Collybia*, *Marasmius* və *Mycena* cinslərinə daxil olan bəzi növlərin yeməli olmasına baxmayaraq onların meyvə cisimləri kiçik olduğundan tədarükləri çətin və zəhmət tələb edəndir. Ona görə də onları az miqdarda toplayıb salat kimi yeməklərdə istifadə etmək olar.

Tədqiqat apardığımız ərazidə I kateqoriyalı göbələyə rast gəlinməmişdir. Şampinyonlar, kilkəli peyinər II, sarıca, payız kötükcəsi, bir sıra alkövrəklər III, hündür çətirgöbələk, asılqal, dişcikli tozanaq, pulcuqlu qov göbələyi IV kateqoriyaya aid edilir.

Göbələklərin əmələ gəlmə vaxtı, inkişaf müddəti və sonu hər növün bioloji xüsusiyyətlərindən, mühitin iqlim şəraitindən, xüsusən torpaq və havanın rütubətindən çox asılıdır. Naxçıvan Muxtar Respublika ərazisində yeməli göbələklər, demək olar ki, mart-oktyabr aylarında, müəyyən fasilələrlə, daha doğrusu mövsümlərlə əmələ gəlirlər. Onların məhsuldarlığı müəyyən illərdə bol olduğu halda, növbəti ildə nisbətən azalma müşahidə olunur. Sonralar yağışların başlaması və havaların qızması ilə əlaqədar olaraq yeməli göbələklərin sürətli inkişafı başlayır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. https://nuhcixan.az/news/cemiyyet/24698-gobeleklerin-faydali-xususiyyetleri
2. Sadıqov, A.S. (2007). Azərbaycanın yeməli və zəhərli göbələkləri. Bakı: Elm, 124 s.
3. Seyidova, H.S. (2017). Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yayılan papaqlı göbələklər. Bakı: “Ləman” nəşriyyat poliqrafiya” MMC, 168 s.
4. Azərbaycan Respublikasının Qırmızı Kitabı. (2013). Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri. İkinci nəşr. Bakı: Qərb-Şərq, 676 s.
5. https://gribowiki.ru/tips/klassifikaciya-sedobnyx-gribov-kategorii-pishhevoj-cennosti-gribov.html

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 81-84
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 81-84
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**İradə Əliyeva**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
aliyevairada72@gmail.com

# ÇAR RUSİYASININ ZƏNGƏZUR QƏZASINDA APARDIĞI MÜSTƏMLƏKƏÇİ PRAVOSLAVLAŞDIRMA SİYASƏTİNƏ DAİR

***Açar sözlər:*** *Zəngəzur qəzası, Ordubad şəhəri, Gürcüstan ekzarxı, pravoslav kilsəsi, cəmiyyət, keşiş*
***Keywords:*** *Zangazur district, Ordubad city, Georgian exarch, orthodox church, society, priest*

Çarizmin Qafqaza hərbi-siyasi müdaxiləsi ilə çar Rusiyasının bu diyarda həyata keçirdiyi müstəmləkəçi tədbirlərdən biri də müsəlman əhalinin zorakı xristianlaşdırılması və pravoslavlaşdırılması siyasəti olmuşdur. Bu məqsədlə hələ XVIII əsrin ikinci yarısından başlayaraq bir sıra dini siyasi cəmiyyətlər təşkil edilmişdir. Bu məqsədlə qarşısına yerlərdə kilsələrin tikintisi, onların nəzdində məktəb və maarifçilik mərkəzlərinin təşkil olunması, yerli əhalidə rus mədəni dəyərlərinin aşılanması, pravoslavlığın islam təsirlərinə qarşı qoyulması kimi vəzifələr qoyulmuş, 1745-ci ildə yaradılmış Osetin Ruhani Komissiyasının (Nemashkalov, 2020: 151) işini davam etdirmək üçün 1859-cu ildən Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyəti təşkil olunur (Ustav obshchestva vosstanovleniya pravoslavnogo khristianstva na Kavkaze, 1909: 316).

Çarizm hesab edirdi ki, Şimali Qafqaz dağlılarının azadlıq hərəkatının yatırılması ilə Qafqazın müsəlman əhalisi arasında xristianlığın yayılması üçün münbit şərait yaranmışdıır. Məhz belə bir missiyanın həyata keçirilməsi Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin üzərinə qoyulmuşdu. Bu cəmiyyətin dini-missionerlik fəaliyyətinin əsasını Qafqazda kilsələrin tikintisi və onların nəzdinkə kilsə-prixod məktəblərinin yaradılması təşkil edirdi ki, (Ustav obshchestva vosstanovleniya

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 81-84
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 81-84
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

pravoslavnogo khristianstva na Kavkaze, 1909: 324) təqdim olunan tezisdə 1868-ci il fevralın 25-də Yelizavetpol quberniyasının yaradılması ilə təşkil edilmiş Zəngəzur qəzasına daxil edilmiş Ordubad qəzasında (həmin vaxta kimi Ordubad qəzası İrəvan quberniyasına daxil olmuşdur – İ.Ə.) (3) aparılmış kilsə tikintisi, oraya dini ayinlərin həyata keçirilməsi üçün xristian ruhanilərinin təyin olunması və onların maddi təminatının təşkili kimi məsələlərdən bəhs olunacaq.

Ordubad şəhərində yeni tikilmiş pravoslav kilsəsinin nəzdində pritçin (pritça Rus Pravoslav Kilsəsində hər hansı bir kilsədə xidmət edən, müxtəlif kilsə ayinlərini yerinə yetirən ruhanilər qrupudur – İ.Ə.) yaradılması və onun Zaqafqaziya diyarının yerli gəlirləri hesabına dəstəyinin təmin edilməsi haqqında Rusiya Dövlət Tarix Arxivindən əldə olunmuş sənəddə göstərilir ki, bu tədbir müsəlman əhali arasında xristian dəyərlərinin yayılmasına yardım edəcək (Otnosheniye Kavkazskogo Namestnika pred-yu Kavkazskogo Komiteta: 1).

Bu barədə Qafqaz canişininin Qafqaz Komitəsinin sədrinə yazdığı 12 mart 1865-ci il tarixli məktubunda qeyd olunurdu ki, İrəvan quberniyasının Ordubad qəzasının hər iki cinsdən olmaqla 200 nəfərə kimi olan pravoslav əhalisinin son vaxtlara kimi ibadət etmək üçün kilsəsi yox idi, onlar dini ayinlərin yerinə yetirilməsi üçün din xadimlərinə malik deyildilər. Akulis kəndinin nüfuzlu sakinlərindən olan erməni Arasxanov qardaşlarının təşəbbüsü ilə 1859-cu ildə Ordubad şəhərində tikintisinə başlanılmış kilsənin inşası 1864-cü ildə başa çatmış, həmin ilin oktyabrın əvvəllərində Gürcüstan ekzarxının qərarı ilə kilsəyə böyük knyaz Aleksandr Nevskinin adı verilmişdir (Otnosheniye Kavkazskogo Namestnika pred-yu Kavkazskogo Komiteta: 1-2 arxa).

Canişin məktubunda daha sonra qeyd edir ki, arxiyepiskop Yevseviy kilsənin nəzdində bir keşiş, iki priçetnikdən ibarət ruhani idarəçiliyin, pritçin təyin olunması, xəzinədən keşiş üçün 300 rubl, priçetniklərin hər biri üçün 100 rubl, kilsəyə lazımi avadanlıqların alınması üçün 50 rubl, cəmi 550 rubl vəsaitin ayrılmasını xahiş edir. Canişin də öz tərəfindən bunu çox gərəkli bir iş hesab etdiyini bildirməklə qeyd edir ki, bu kilsəyə gələnlər

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

az olduğundan oradakı keşiş və priçetniklərin kilsəyə gələnlərin hesabına saxlanması mümkün deyil, o səbəbdən də Zaqafqaziya diyarının yerli gəlirlərindən məvacib üçün lazım olan bu vəsaitin ayrılmasına icazə verməyini xahiş edirdi (Otnosheniye Kavkazskogo Namestnika pred-yu Kavkazskogo Komiteta: 1-2 arxa).

Nəticədə Qafqaz canişininin 12 mart 1865-ci il, Müqəddəs Sinodun ober-prokuroru, general-adyutant Axmetovun 20 may 1865-ci il tarixli məktublarında göstərilən Ordubad şəhərində yeni açılmış kilsənin nəzdində pritçin açılması və onun Zaqafqaziya diyarının vəsaiti hesabına saxlanması barədəki təklifləri müzakirə edən Qafqaz Komitəsi bunu təsdiq etmişdi. İmperator tərəfindən 1865-ci ilin iyunun 29-da Qafqaz Komitəsinin bu qərarının təsdiq olunması ilə onun icrasına başlanılmışdır (Vypiska iz zhurnala Kavkazskogo Komiteta: 6-6 arxa).

Lakin qeyd etmək lazımdır ki, çarizmin dini-missionerlik siyasəti yerlərdə müsəlman əhalinin ciddi müqaviməti ilə rastlaşdığından istənilən nəticəni verməmişdi.

## Ədəbiyyat

1. Nemashkalov, P.G. (2020). Stanovleniye i funktsionirovaniye yeparkhialnoy sistemy upravleniya Russkoy Pravoslavnoy tserkvi na Severnom Kavkaze (konets XVIII – 60-ye gody XIX veka). Dissertatsiya na soiskaniye ucheney stepeni doktora ist. nauk. Stavropol, 555 s. http://ncfu.net/export/uploads/dokumenty-dissertacii/disser_pv_nemashkalov.pdf.
2. Ustav obshchestva vosstanovleniya pravoslavnogo khristianstva na Kavkaze. (1909). Otchot obshchestva vosstanovleniya pravoslavnogo khristianstva na Kavkaze za 1906-1907 gg. Tiflis, elektropechatnoye tov-tvo Tsiskari, 337 s.
3. Zəngəzurun tarixi coğrafiyası. https://files.preslib.az/ projects/ zangazur/az/a1.pdf

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

4. Otnosheniye Kavkazskogo Namestnika pred-yu Kavkazskogo Komiteta, ot 12-go marta 1865 goda. Rusiya Dövlət Tarix Arxivi, fond, 1268, siyahı 10, iş 61.
5. Vypiska iz zhurnala Kavkazskogo Komiteta, ot 15-go iyunya 1865 goda. Rusiya Dövlət Tarix Arxivi, fond 1268, siyahı 10, iş 61.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 85-88
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 85-88
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Gültəkin Allahverdiyeva**
Gəncə Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
gultekin-allahverdiyeva@mail.ru

# ZƏNGƏZURUN ARXEOLOJİ ABİDƏLƏRİ

***Açar sözlər:*** *Zəngəzur, arxeologiya, Azərbaycan, Qarabağ, tarix, abidə, Qafqaz*

***Keywords:*** *Zangazur, archeology, Azerbaijan, Karabakh, history, monument, The Caucasus*

Dünyanın ən qədim insan məskənlərindən birinin Qafqaz olması məlumdur. Əlverişli coğrafi mühit, şirin su qaynaqları ibtidai insanların Azərbaycanda məskunlaşmasına şərait yaradır. Naxçıvan, Qarabağ, Qazax bölgəsi ilk Azərbaycan məskənləri olmuşdur. Azərbaycanın qədim insan məskənlərindən biri Zəngəzur olmuşdur. Zəngəzurun ilk insan məskənlərindən olmasını sübut edən tarixi abidələr, arxeoloji tapıntılar kifayət qədərdir.

Zəngəzurun qədim insan məskəni olmasını, bu insanların mənşəcə kimliyini bir daha təsdiq edən qiymətli maddi abidələrdən biri də Nüvədi kəndinin Qarqadaşı dağında tapılan daş kitabələridir. Nüvədi "Qarqadaşı abidəsi" Azərbaycan xalqının ən qədim əcdadlarından olan, Cənubi Zaqafqaz və Orta Asiya ərazilərində məskunlaşmış qarqarlara məxsusdur. Kitabənin dili türk − şumer mənşəlidir. Yazılarda Şumer sözü də işlənmişdir. Bu da kitabənin qədimliyinə dəlalət edir. Zəngəzurun qədim tarixindən və mədəniyyətindən xəbər verən dəyərli abidələrdən biri də Qoşundaş abidə-məzar kompleksidir. Qoşundaş abidəsi eramızdan öncə ikinci minilliyə aid olub Sisyan rayonunda, köhnə Qarakilsə kəndi ilə Qızılcıq kəndinin arasındakı yastı təpəlikdə yerləşir. Qoşundaş abidəsi çoxlu sayda yerə bitili və dik dayanmış nəhəng daşlardan ibarətdir. Sisyan azərbaycanlıları arasında yayılmış bir rəvayətə görə bu yerlərdə vaxtilə çox nəhəng və güclü insanlar yaşamışlar. Bu insanlar

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

oğuzların ulu babaları imişlər. Qoşundaş isə bir döyüşdə həlak olmuş əsgərlərin qəbirləridir. Daş dairənin içərisindəki kurqanlar isə qoşun başçılarına məxsusdur. Qoşundaş abidəsinin ətrafında aparılan qazıntı zamanı burada müxtəlif insan sümükləri, məişət və döyüş alətləri tapılmışdır. Ümumiyyətlə, Şərqi və Qərbi Zəngəzurun tarixi abidələri olduqca çox və əhəmiyyətlidir.

Urud qalası qədim Zəngəzurun Qarakilsə nahiyəsinin Urud kəndində Bazarçayın sağ sahilindəki təpəlikdə VI-VII əsrlərdə inşa edilmişdir. Qala 1075-1094-cü illərdə Sünikin hökmdarı I Senikərimə məxsus idi. Qalanı 1104-cü ildə Səlcuq türkləri ələ keçirmişlər. XIII əsrin əvvəllərində Xəzərin şimalından gələn qıpçaq Orbelilər nəsli Zəngəzurda məskunlaşaraq xristianlığı qəbul etmişlər. Orbelilər nəsli sonradan erməniləşmişlər. Əmir Teymurun qoşunları 1386-cı ildə Süniki işğal edərkən Urud qalasını da zəbt etmişdir. Qaraqoyunlu hökmdarı Qara Yusif 1407-ci ildə Urud qalasını almış və yerli feodal məlik Bağırı qalanın hakimi təyin etmişdir. Qaraqoyunlu feodallarından olan Məlik Bağırın tayfası üç yüz ilə yaxın bir müddətdə Urud qalasının hakimi olmuşlar. Məlikbağırlılar XX əsrin əvvəllərinə kimi Urudda yaşamış, yüksək dini təhsil görmüş, dini rütbə daşımış, savadlı, sayılıb seçilən bir nəsil kimi tanınmışlar. Urud qalası indi uçulub-dağılmış haldadır, qalanın yuxarıdan görünüşü şimal-qərb və cənub-şərqə doğru uzanan yəhər formasındadır. Qala hər üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Yalnız cənub-qərb tərəfdən qoşa hasar divarlarının qalıqları görünür. Hasar iri, yonulmamış bazalt daşlarla və gəc məhlulla hörülmüşdür. Urud qalasının Bazarçaya baxan divarında çaya doğru gedən yeraltı yolun qalıqları indiyədək saxlanılmaqdadır. Urud körpüsü Zəngəzur mahalının Qarakilsə nahiyəsinin Urud kəndində XIX əsrə aid memarlıq abidəsidir. Bazarçayın sağ və sol sahilini birləşdirən bu birtağlı körpünün üzərindəki kitabədə 1849-cu ildə inşa olunması qeyd edilmişdir. Körpü hər iki tərəfdən möhkəm bazalt qayanın üzərində çay daşı və yonulmuş qayalarla əhəng və qumla tikilmişdir. Yerli sakinlərin söylədiyinə görə körpünün tikintisinə yüz min yumurta işlənmişdir (Musa Urud, 2005: 22).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Ağudi qəbirüstü abidəsi Qarakilsə nahiyəsinin Ağudi kəndində, Sisian şəhərindən 5 km məsafədə, Ağudi Sisian yolunun kənarında yerləşir. Ağudi qəbirüstü abidəsi VII əsrdə tikilmişdir. Ağudi abidəsi üç mərtəbəli quruluşa malikdir. Abidənin birinci mərtəbəsi geniş meydançanı xatırladır. Bu meydançanın altında iki giriş qapısı olan tağvari kiçik mağara diqqəti cəlb edir. İkinci mərtəbə yanlarda dördbucaq şəkilli iki sütundan və ortada səkkizbucaqlı bir sütundan ibarətdir. Hər iki kənar sütun tağvari hörgü vasitəsilə orta sütunla birləşmişdir. Abidənin üçüncü mərtəbəsi gözəl memarlıq quruluşuna malik üç sütundan ibarətdir. Ağudi kəndi Sisian rayonunun ən qədim azərbaycanlı kəndlərindən biri idi. Hazırda ermənilər bu abidəni qədim erməni abidəsi kimi qələmə verməyə çalışırlar. Tatev monastır kompleksi Qarakilsə nahiyəsinin Gorus şəhərinin yaxınlığında, Oxçu çayının sahilində yerləşir. Monastır Tatev kəndi yaxınlığındakı böyük bazalt qayanın üzərində inşa olunmuşdur. Bu monastır XI əsrdə alban monastırı kimi tikilmiş, sonradan erməniləşdirilmişdir. Monastırın adı Moisey Kalankatuklunun “Alban tarixi” əsərində çəkilir. Albanlar xristianlığın diofizit məzhəbinə mənsub olduğu üçün erməni kilsəsi tərəfindən sıxışdırılmışdır. 1286-cı ildə monastır Orbelilər nəslinin nəzarəti altına keçmişdir. XVI-XVIII əsrlərdə Səfəvilərin hakimiyyəti dövründə kompleksdə bərpa işləri həyata keçirilmiş və bir neçə yeni bina inşa olunmuşdur. XVIII əsrin əvvəllərinə aid erməni mənbələrində Tatev monastırının Eçmiədzin kilsəsinə qarşı mübarizə apardığı qeyd edilir. 1822-ci ildə Qarabağ xanlığının Çar Rusiyasının tərkibinə qatılmasından sonra, 1836-cı ildə alban həvari kilsəsinin müstəqilliyinə son qoyulmuş və Tatev monastırı yeparxiya kimi Eçmiədzin katolikosluğuna tabe etdirilmişdir (2, 8).

Zəngəzurda müdafiə-istehkam xarakterli qalalardan biri də analoqu olmayan Mığrı qalası idi. Meğri şəhərinin şimal hissəsində dağ təpələri üzərində nal formasında inşa edilmiş qalanın divarları yonulmamış, hamarlanmamış qranit daşlardan və gil palçıqla hörülmüşdür. Qalanın bir hissəsini də sıldırımlı qayalar, dağlar təbii hasar kimi qoruyurdu. Altıbürclü bu qala

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

haqqında ilk dəfə 1083-cü ildə məlumat verilmişdir. XVIII əsrdə qala tamamilə yenidən bərpa olunmuşdur. Qalanın 6 bürcü (dördü dairəvi, ikisi düzbucaqlı) Meğri şəhərinin "Böyük məhlə" deyilən hissəsinin şimalında, dağın zirvələri üzərində nal formasında düzülərək, sanki şəhəri dövrələmişdir (Musa Urud, 2005: 28).

Ağoğlan məbədi Laçın-Minkənd şose yolunun 30-cu kilometrliyində, Həkəri çayının sağ sahilində, Kosalar kəndinin yaxınlığında yerləşir. Ağoğlan məbədi V-VI əsrlərə aid alban monastırıdır (3). Abidə müxtəlif dövrlərdə uçqun və dağıntılara məruz qaldığından IX əsrdə bu abidə yenidən inşa edilərək forma etibarı ilə kilsə üslubuna − monastıra uyğunlaşdırılıb. Ağoğlan məbədinin uzunluğu 25, eni isə 12,5 metrdir. 1992-ci ildə Laçın rayonunu işğal etdikdən sonra ermənilər qeyri-qanuni olaraq Ağoğlan monastırının memarlıq quruluşunda və interyerində dəyişikliklər edib, abidənin divarları üzərində olan bir neçə daş yazıları, eləcə də alban dövrünə məxsus xeyli sayda ornament və simvolları tamamilə silib, onlardan bir çoxunun isə formalarını dəyişdirərək tanınmaz hala salıblar. 2006-cı ildə ermənilər bu abidəni ikinci dəfə təmir etdirmək bəhanəsi ilə abidənin divarlarının müxtəlif yerlərinə erməni qriqorian məzhəbinə məxsusluğunu göstərən lövhələr yerləşdiriblər. 2020-ci il dekabrın 1-də Laçın rayonu işğaldan azad edildikdən sonra Azərbaycanın alban-udi xristian icmasının nümayəndələri "Ağoğlan" məbədini ziyarət edirlər.Bu yuxarda qeyd edilən abidələr hələ tədqiq edilmiş abidələrdir, Zəngəzur abidəsi hələ öyrənilməmiş abidələrlə zəngindir (Əliyev, 2004: 23).

## Ədəbiyyat

1. Musa Urud. (2005). Zəngəzur. Bakı.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Zəngəzur.
3. https://modern.az/qerbi-azerbaycan/364989/zengezuru-taniyaq-ve-tanidaq/
4. Əliyev, V. (2004). Zəngəzurda qalan izimiz. Bakı.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 89-94
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 89-94
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Taleh Əliyev**
AMEA Arxeologiya, Etnoqrafiya və
Antropologiya İnstitutu
tarix üzrə fəlsəfə doktoru
taleh.ali@mail.ru

# ZƏNGƏZURUN ALBAN DÖVRÜ XRİSTİAN MƏBƏDLƏRİ

***Açar sözlər:*** *Qafqaz Albaniyası, məbəd, Xristianlıq, Zəngəzur, arxeologiya*

***Keywords:*** *Caucasian Albania, temple, Christianity, Zangazur, archaeology*

Qafqaz Albaniyasının tarixi əyalətlərindən biri olan Sünik-Sisakan əyaləti Azərbaycanın tarixi torpaqları olmuşdur (Kalankatlı, 2006). İlk orta əsrlərdə Albaniyada xristianlığın yayılması ilə sözügedən ərazidə məbədlər inşa edilirdi. Məhz Zəngəzur torpaqları da alban məbədlərinin geniş formada yayıldığı tarixi Azərbaycan torpaqlarıdır.

***Xudavəng monastır kompleksi*** – Kəlbəcər rayonunun şərqində, Ağdərə-Kəlbəcər magistral yolunun kənarındakı Bağlıpəyə kəndindən aşağı, yəni Ağdərə tərəfdə, Kəlbəcər rayonunun 29 km-liyində yerləşir. VI-VII əsrlərdə Alban knyazı tərəfindən tikilib. XV əsrə qədər bu abidə albanların əsas dini məbədlərindən olmuşdur. Məbəd bir neçə dəfə təmir edilib, əlavələr olunub. Alban müəllifi Mixtar Qoş Dadivəng müqəddəs monastırının əsasının apostol tərəfindən qoyulması haqqında məlumat vermişdir (Qoş, 1993). Alban hökmdarı Həsən Cəlal tərəfindən əsaslı bərpa edilib. Məlumatlar göstərir ki, Həsən Cəlalın arvadı Minə Xatun burada dəfn olunub, anası Arzu Xatun və dövrün görkəmli ziyalısı Mxitar Qoş bu məbəddə olmuş və xatirə üçün nişan daşları qoymuşdur. Kompleksin əsas tikililəri Alban bazilikası (Müqəddəs Məryəm ana baziliksaı) və Arzu xatun kilsələridir. Həmçinin kompleksə sonradan əlavə edilmiş Müqəddəs Qriqoris məbədi və Həsən Cəlal kilsəsi də diqqətə layiq memarlıq nümunələridir (Şəkil. 1-10).



1



2



3



4



5



6

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1



7



8



9



10

***Ağoğlançay monastırı.*** Xaçın knyazları tərəfindən IX əsrdə inşa edilmiş və uzun müddət fəaliyyət göstərmiş Ağoğlan monastır kompleksi Laçın rayonunun ərazisində yerləşir (Məmmədov, Məmmədzadə, 2022).

Möhkəm bazalt daşdan tikilmiş bu möhtəşəm monastır məharətli konstruktiv həllinə görə alban xristian memarlığ abidələri içərisində görkəmli yer tutur (Şəkil. 11-18). Monastır binasının daxili həcmi üç hissədən ibarətdir. Daşlardan hörülmüş ağır dam örtüyünü saxlayan hündür daş sütunlar silindirik formalı tağbəndlərlə tamamlanır. Məbədin daxili sahəsini işıqlandırmaq üçün divarlarda ensiz və uzunsov pəncərələr vardır. Üçnefli binanın daxili sahəsi sütunlarla üç hissəyə bölünmüş düzbucaqlı bazilikanın − kilsəsinin ölçüləri xeyli böyükdür. İki sıralanan kvadratşəkilli səkkiz dayaq sütunları binanın içərisini üç nefə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bölür. Mərkəzi dördmetrlik nef yan neflərdən iki dəfə enlidir. Bütün neflər silindrik tağbəndlə örtülmüşdür. Tağbənd yonulmuş daşdan səliqə ilə hörülmüşdür (Məmmədov, Məmmədzadə, 2022).



11



12



13



14



15



16



17



18

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

***Amağu məbədi*** − Dərələyəz mahalının Keşişkənd rayonunun Amağu kəndindən 2 km-liyində, Arpa çayı ilə Amağu çayı arasında qədim alban xristian məbədidir. Məbədin əsası 1221-ci ildə Sünik hakimi Libarit Orbeli tərəfindən qoyulmuş, sonra knyaz Darsaiç 1275-ci ildə burada qardaşı Sumbat üçün sərdabə, daha sonralar Darsaiçin oğlu Burtel ikimərtəbəli məbəd ucaltmışdır. Bura türksoylu Orbelilərin nəsil sərdabəsi olmuşdur (Əliyev, 2017).

Elxanilər dövründə Arpa xan (1335-1336) abidəni bərpa etmiş, Satıbəy xatun (1339-1340) ikinci mərtəbəni yenidən qurmuş, qadınlarla kişilərin bir qapıdan daxil olmaması üçün ikinci mərtəbəyə ayrıca pilləkənlər əlavə etmişdir (Əliyev, 2017).

***Xatirəvəng monastırı*** − Kəlbəcər rayonunun Qozlu kəndində, Xudavəng monastırından cənub-şərq tərəfə, Tərtər çayının sahilində yerləşən tarix-memarlıq abidələri kompleksi. İnşaat kitabəsində verilən məlumata görə, Xatirəvəng monastırının başkilsəsi 1204-cü ildə İohann Xaçınlı tərəfindən inşa edilmişdir (Məmmədov, Məmmədzadə, 2022).

***Tatev monastırı*** − IX əsrin monastır kompleksi əsrlərdir ki, Oxçu çayının sahilində ucalmaqdadır. Sünik kilsəsinin mərkəzi olan Tatev bölgənin tarixində mühüm rol oynamışdır (Tuncay, 2013).

Tatev monastırı Qərbi Azərbaycanda Gorus şəhəri yaxınlığında yerləşir. Tatev yaylağı hələ xristianlıqdan əvvəl məskunlaşmış və burada bütpərəst məbədi mövcud olmuşdur. IV əsrdə bölgədə xristianlığın yayılmasından sonra bütpərəst məbədinin yerində kiçik xristian kilsəsi inşa edilmişdi (Tuncay, 2013).

IX əsrdə Tatevin yepiskop qərargahı elan edilməsindən sonra Tatev monastırının inşasına başlanmışdır. Tatev monastırı tarixi Sünik ərazisində inşa edilmiş alban mənşəli əhaliyə məxsus xristian məbədi olmuşdur (Şəkil. 19-20).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1



19



20

Monastırın qala divarlarından kənarda, şimal-şərqdə zeytun istehsalı yeri vardır. Həmin məkan dörd istehsal otağından ibarətdir ki, onların da ikisi qübbəli saxlama kamerası, ikisi isə tağlı tavanlı istehsal otaqlarıdır. Bu dəyirman bütün Cənubi Qafqazda dövrümüzə çatmış ən yaxşı dəyirmanlardan birdir ki, orta əsrlərin zeytun istehsalı haqqında ətraflı təəssürat yaradır. Tatev monastırındakı məktəb binaları memarlıq baxımından orta əsrlərin monastır məktəblərinin memarlığına uyğundur (Tuncay, 2013; Əliyev, 2017). Abidələrin erkən orijinal formalarının alban elementlərini özündə daşıması aydın şəkildə görünür.

## Ədəbiyyat

1. Kalankatlı, M. (2006). Alban tarixi. Bakı: Avrasiya press, 378 s.
2. Qoş, M. (1993). Alban salnaməsi (XI-XII əsr). Bakı, s.239-264.
3. Məmmədov, A.M., Məmmədzadə, H.A. (2022). Qarabağ və Şərqi Zəngəzur III-XVIII əsrlərdə. Bakı, 282 s.
4. Əliyev, T.V. (2017). Göyçə-Zəngəzur bölgəsində alban dövrü xristian məbədləri. Tarix və onun problemləri. Bakı, № 3, s.260-264.
5. https://bextiyartuncay.wordpress.com/2013/02/22/das-gafanvank-kloster-und-die-kirche-der-heiligen-maria-in-mittelaltrichen-albanien/ Bakhtiyar Tundschaj. Das Gafanvank Kloster und die Kirche der Heiligen Maria in mittelaltrichen Albanien.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 95-98
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 95-98
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Elza Orucova**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
elza qudretqizi@ gmail.com

# ZƏNGƏZUR TARİXİ – GEOQRAFİK MAHALDIR!

***Açar sözlər:*** *Şərqi Zəngəzur, Qərbi Zəngəzur, Ermənistan, Laçın, Gorus, Meğri, tarixi ədalətsizlik, Zəngi tayfaları, Zəngəzur dəhlizi, Naxçıvan, Gəncə quberniyası, II Qarabağ müharibəsi*

***Keywords:*** *Eastern Zangazur, Western Zangazur, Armenia, Lachin, Gorus, Meghri, historical injustice, Zangi tribes, Zangazur corridor, Nakhchivan, Ganja qovernorate, II Karabakh War*

“XX əsrin 20-ci illərində, yəni sovet hakimiyyəti qurulan zaman Qafqazda respublikaların sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və Zəngəzurun Araz çayı sahilində olan Mehri rayonu da Ermənistana verilibdir” − H. Əliyev.

Məlum olduğu kimi, indiki Ermənistanda (“tarixi olmayan ölü ölkədə”), əslində tarixi Azərbaycan ərazilərində 1867-ci il tarixdə Zəngəzur qəzası yaradılmış və bu qəza Yelizavetopol (Gəncə) quberniyasının tərkibinə daxil olmuşdur. Zəngəzur qəzasını indiki Qafan, Gorus, Meğri, Sisian (Qarakilsə), Zəngilan, Qubadlı rayonları və Laçının bir hissəsi əhatə edirdi, mərkəz də Gorus qəsəbəsi sayılırdı. XX əsrin əvvələrində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulmasından dərhal sonra ermənilərin ərazi iddiaları daha kəskin forma aldıı. Belə ki, 1920-ci il noyabrın 29-da Sovet Rusiyasının hərbi və siyasi dəstəyi ilə sahəsi 9 min kv. km olan Ermənistan Sovet Sosialist Respublikası yaradıldı.

Həmin ilin sonlarında (1920-ci il, 1 dekabr) Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra ermənilər əsrlərlə arzusunda

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

olduqları Zəngəzuru daha asanlıqla ələ keçirdilər. Azərbaycanın Zəngəzur mahalının böyük bir hissəsi Qafan, Meğri, Gorus və Sisyan rayonları Moskva rəhbərliyinin qərarı ilə "qonşu və qardaş" Sovet Ermənistanına pay verildi ("torpaqdan pay verilməz). Beləliklə, Naxçıvan Azərbaycandan ayrı düşdü. Zəngəzurun qərb hissəsinin torpaqları itirildi, burada yaşayan Azərbaycan türkləri taleyin axarına, hökmünə, ümidinə buraxıldı. Nəticədə, Zəngəzur Azərbaycan torpaqları üzərində formalaşmış və ya bərqərar olmuş indiki Ermənistanın tərkib hissəsi kimi leqallaşdırıldı.

1921-ci ilin iyulun 20-də Ermənistan SSR Xalq Komussarları Soveti respublikanın ərazi bölgüsünü 9 qəzadan ibarət olmaqla təsdiq etdi. 9-cu qəza indiki Sisyan, Qafan, Gorus və Megri rayonu ərazisindn ibarət olan Zəngəzur qəzası elan olundu.

Çoxsaylı deportasiyaların sonuncusu olan 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlılar elliklə, o cümlədən də qərbi zəngəzurlular da ata-baba yurdlarından zorla çıxarıldı. Son nəticədə böyük tarixi ədalətsizlik baş verdi. Zəngəzur mahalımız həqiqi mənada tarixin tilsiminə düşdü!

Bütövlükdə, Zəngəzur bölgəsi 2 yerə ayrılır: Qərbi Zəngəzur (Gorus, Qafan, Sisian, Qafan, Meğri) və Şərqi Zəngəzur (Laçın, Qubadlı, Zəngilan). Məlum olduğu kimi, Şərqi Zəngəzur 30 ildən artıq müddətdə məkrli erməni işğalı altnda olmuş, azərbaycanılar öz doğma yurdlarından uzaq düşmüş və nəhayət ki, 2020-ci ilin noyabr ayında bu torpaqlar işğaldan azad olmuşdır. Lakin əfsuslar olsun ki, qədim, əzəli-əbədi Azərbaycan torpaqları olan Qərbi Zəngəzura hələ ki, dönə bilməmişik.

Zəngəzur elə bir diyar ki... Zəngəzur – tarixdə igidliyi və cəngavəriyi ilə seçilən, görkəmli qoşun başçıları ilə və dövlət xadimləri ilə məşhur olan, tarixi mənbələrdə türklərin yurd yerləri kimi təqdim edilən, qədim türk boyu Zəngi tayfalarının adı ilə bağlı, "zəngilərin qalası" mənasını daşıyan, çoxsaylı qiymətli maddi abidələri ilə zəngin, qədim insan məskənlərindən biri, Bəzz qalasından və ərazisindəki adını daşiyan beş qaladan addm səsərinin eşidildiyi Babək kimi qüdrətli sərkərdə yetişdirən, 101 il bundan öncə ermənilərə verilən və verildikdən sonra yaddan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

çıxan, unudulan, az öyrənilən, tarixçilərin hələ çox diqqətini çəkəcək uludan ulu, tarixdən ulu, sirli-möcüzəli bir diyar...

Tarixi mənbələrdə türklərin yurd yerləri kimi təqdim edilən, Zəngi türklərinin at oynatdığı, təbii istekamlı (mağaralı, kahalı), qalalı, tarixi-mahaldır Zəngəzur!

Bizim minilliklərə söykənən çox qədim tariximiz var. Xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb. Yer adlarının hamısı sırf türk mənşəli coğrafi adlardır, toponimlərdir, qədim türk əraziləridir, "odda yanmaz, suda batmaz" tutarlı dəlillərimiz var. Yer adlarını dəyişmək istəsələr də, tarix qalandır, dəyişmir, necə deyərlər, "tarixdə tarixi yaradan durur, tarixi hadisələri dəyişdirmədən olduğu kimi göstərilməlidir, hətta tanrılar keçmişi dəyişə bilməzlər". Əfsuslar olsun ki, bizim bu əzəli torpaqlarımız tarixin qurbanlarına çevrilmişdir. Doğma Azərbaycanımızdan qoparılıb ermənilərə verilib. Halbuki burdan hərəkətə gələn ticarət karvanlarımız birbaşa, maneəsiz olaraq Təbrizə, Ərdəbilə, Yaxın Şərq ölkələrinə gediblər. Zəngəzur həqiqətən ağrılı yerimizdir. Yekparə Azərbaycanımızın ən qədim güşəsi olan oğuz elimiz – Zəngəzurumuz xəyanətin, erməni məkrinin qurbanı olub.

İnkaredilməz faktdır, başqa sözlə ifadə etsək, bu bir aksiomadır ("sübuta yetirilmişləri sübur etmirlər") ki, Zəngəzurun şərqi də, qərbi də bizimdir. II Qarabağ müharibəsi zamanı sözügedən mahalın şərq hissəsi işğaldan azad olmaqla alınmışdır. Qərb hissəyə münasibətdə isə qarşımızda böyük tarixi missiya durur. Bu nöqteyi-nəzərcə "qondarma, saxta" Ermənistanda yerləşən Qərbi Zəngəzurun Azərbaycana məxsus olması və bu torpaqların geri qaytarılması üçün hazırda müvafiq tarixi-siyasi situasiya yetişmişdir.

II Qarabağ müharibəsinin xüsusi diqqətəlayiq nəticələrindən biri Zəngəzur dəhlizinin yaradılması və onun 3 müstəvidə prioritet kəsb etməsidir: lokal, regional və interkontinental.

Zəngəzur dəhlizinin açılması bu müqəddəs tarixi missiyanın yerinə yetirilməsinin əsas zəminidir, rəhnidir. Zəngəzur dəhlizi – Azərbaycanın əsas hissəsini, onun bir parçası olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirməli olan nəqliyyat dəhlizidir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Azərbaycan Respublikasının regional və beynəlxalq hüquqi əlaqələrində mühüm rol oynayan Zəngəzur dəhlizi bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. “Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınan Zəngəzura qayıdacaqdır” – İ. Əliyev. Üstəlik, “tarix hər şeyi öz yerinə qoyur və heç nəyi silmir”.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 99-102
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 99-102
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Təhminə Əliyeva**
ADPU Quba filialı
tarix üzrə fəlsəfə doktoru
tehmine.eliyeva@quba.adpu.edu.az
https://orcid.org/0009-0001-2520-4371

# AZƏRBAYCANIN ƏZƏLİ TORPAQLARI OLAN ZƏNGƏZUR CÜMHURİYYƏT DÖVRÜNDƏ

***Açar sözlər:*** *Qafqaz, Azərbaycan, Ermənistan, Zəngəzur, ərazi, mübahisə*

***Keywords:*** *Caucasus, Azerbaijan, Armenia, Zangazur, territory, dispute*

Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman İrəvan və onun ətrafındakı 9 min kv. kilometr ərazini Azərbaycandan qoparmağa nail olmuş və özlərinə paytaxt etmiş ermənilərin Qafqazda dövlət yaratmaq şansları çoxaldı. Bu fürsətdən istifadə edən ermənilər ilk öncə beynəlxalq təşkilat və konfranslarda ərazi iddası ilə çıxış etsələrdə, sonralar "ərazi məsələsini" özlərinə məxsus şəkildə milli münaqişə və işğal yolu ilə həll etməyə çalışmışdırlar. Məhz 1918-1920-ci illərdən işğal olunması nəzərdə tutulan Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur.

1918-ci ilin yazında Andranik Erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu ərazi Ermənistan Respublikasına daxildir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdilər. Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanır. Dağıdılan bu 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

uşaq yaralanmışdır. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir (Qafarov, 2015: 116). Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşiliklər haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərini qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Adranikin əsl cəllad siması 1918-ci ilin yayında özünü büruzə verdi. Bu vaxt türk, ingilis və almanlar arasında Cənubi Qafqaz respublikalarına münasibətdə baş verən ziddiyyətlərdən istifadə etməyə çalışan, Bakıda Şaumyanın erməni hökumətinin ağır vəziyyətə düşməsindən sonsuz dərəcədə məyus olan Andranik öz quldur dəstələri ilə Azərbaycan sərhədlərini keçərək qəflətən Zəngəzura hücum etdi (Arzumanlı, Həbiboğlu, Muxtarox, 1995: 37).

Gürcüstandakı Azərbaycan diplomatik heyətinin rəhbəri M.Y.Cəfərov, Tiflisdəki Ermənistan diplomatik heyətinin rəhbəri A.Camalyana 15 avqust 1918-ci il tarixində verdiyi notada Andranikin Ermənistan sərhədindən Azərbaycan ərazisinə keçdiyini, Şuşa yolunun və Zəngəzurun bir hissəsini işğal etdiyini diqqətə çatdırır və bu cür təcavüzlərə son qoymağı tələb edirdi (3, v.180).

Ermənistan hökuməti özünün 1919-cı il 21 yanvar tarixli iclasında Zəngəzuru və Qarabağın ermənilər yaşayan dağlıq hissəsini Ermənistanın ayrılmaz hissəsi elan etmiş və həmin ərazilərdə müvəqqəti olaraq ali hakimiyyət funksiyasını həyata keçirməyi Erməni Milli Şurasına tapşırmışdı. Ermənistan hökuməti bölgədə vəziyyətə nəzarət etmək üçün hətta ali komissar vəzifəsini təsis etmiş və bu vəzifəyə Arsen Şaxmazyanı təyin etmişdi. Öz növbəsində Erməni Milli Şurası 1919-cu fevralın 4-də Böyük Britaniyanın Bakıdakı hərbi təmsilçisi general Tomsona göndəryi müraciətdə Paris sülh konfransının yekunlarına kimi, Zəngəzurun və Qarabağın ermənilər yaşayan dağlıq hissəsində müvəqqəti erməni idarəçiliyinin yaradılması təklifi ilə çıxış edirdi. Həmin təklif əsasında 19-21 fevral 1919-cu il tarixində keçirilən

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Qarabağ ermənilərinin IV qurultayında xüsusi sənəd də qəbul olunmuşdu. Bu sənədə əsasən Zəngəzurun və Qarabağın ermənilər yaşayan hissəsinin idarə olunması üçün mərkəzi Şuşada yerləşən Vilayət Şurası təşkil olunmalı, onun tərkibinə yerli əhalidən 7 erməni və 3 müsəlman daxil olmalı idi. Buraya daimi üzv kimi Şuşadakı ingilis qoşunlarının nümayəndəsi seçilməli və bölgənin strateji yerlərində ingilis qoşunları yerləşdirilməli idi (Nagornyy Karabakh v 1918-1923 gg, 1992: 80).

1919-cu il dekabrın 30-da Azərbaycanın xarici işlər naziri Ermənistan və Gürcüstanın xarici işlər nazirlərinə aşağıdakı məzmunda teleqram göndərdi: “Bakıdakı Azərbaycan-Ermənistan konfransı Azərbaycan nümayəndələrinin təşəbbüsü ilə yaradılması təklif edilən müstəqil respublikaların konfederasiyası məsələsini hökumətlərin müzakirəsinə çıxarılmasını uyğun görür. Cənubi Qafqaz xalqları arasında möhkəm əlaqələrin qurulmasının vacib amil olduğunu nəzərə alan Azərbaycan hökuməti bu ideyaya tam həssaslıqla yanaşır. Bunları nəzərə alaraq sizdən xahiş edirəm, hökumətinizin mövqeyini mənə bildirməkdən imtina etməyin və prinsipial razılıq olduğu təqdirdə konfransın keçirilmə yeri və vaxtı barədə öz mülahizələrinizi bildirin” (Vekilov, 1998: 25). Lakin bu konfransda ərazi mübahisələri öz həllini tapmadı, cəmi bir ay sonra ermənilər yenidən Zəngəzura soxularaq yerli əhaliyə divan tutmağa başladılar. Bu dövrdə bolşevik rejiminin Azərbaycan xalqına qarşı həyata keçirdiyi ən ağır cinayət əzəli Azərbaycan torpaqlarının işğal olunmasında ermənilərə kömək göstərməsi idi. Yüz minlərlə azərbaycanlı əhali öz yurd-yuvalarından didərgin salındı. Ermənilər sovetləşməni və bolşevik hakimiyyətini qəbul etmək müqabilində bütün Qərbi Azərbaycana yiyələnməyə çalışırdılar. Bu cür sövdələşmə bolşevik işğalçılarından ötrü də sərfəli idi.

Zəngəzur mədəni və tarixi əhəmiyyətindən əlavə, Azərbaycan və İranla sərhəddə yerləşdiyinə görə də ermənilər üçün strateji əhəmiyyət kəsb edirdi. Bölgəyə nəzarət Ermənistanın təhlükəsizliyini və suverenliyini qorumaq üçün vacib hesab olunur. Bu səbələrdən dolayı AXC istila olunandan sonra sovet hakimiyyəti tərəfindən ermənilərə verilməsi rəsmiləşdirilmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat


1. Qafarov, V.V. (2015). 1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi soyqırım cinayətləri Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində. Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1918-ci illər). II Beynəlxalq elmi konfransın materialları. AMEA Tarix İnstitutu, Elmi əsərlər № 52, 53, 54, 55. Bakı.
2. Arzumanlı, V., Həbiboğlu, V., Muxtarox, K. (1995). 1918-ci il qırğınları. Bakı: “Öyrətmən” nəşriyyatı, 59 s.
3. ARDA, f. 897, siy.1, iş 11.
4. Nagornyy Karabakh v 1918-1923 gg.: Sbornik dokumentov i materialov. (1992). Otv.red. V.A.Mikaelyan. Yerevan: AN Armenii, 762 s.
5. Vekilov, R.A. (1998). Istoriya vozniknoveniya Azerbaydzhanskoy Respubliki. Red. Guliyeva Dzh. Baku: Izdatel'stvo "Elm", 32 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 103-106
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 103-106
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Teyyub Paşayev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Naxçıvan)
biologiya üzrə fəlsəfə doktoru
teyyubpashayev@ mail.ru

# NAXÇIVAN MR-DƏ ZƏNGƏZUR SİLSİLƏSİNİN ŞİBYƏ FLORASININ COĞRAFİ YAYILMASI

***Açar sözlər:*** *Zəngəzur, Kiçik Qafqaz, şibyə, coğrafi yayılma, iqlim*

***Keywords:*** *Zangazur, Lesser Caucasus, lichen, geographical distribution, climate*

Kiçik Qafqazın cənub-qərb qurtaracağında yerləşən Naxçıvan MR-in ərazisi, əsasən düzənlik və dağlıq hissədən ibarətdir. Ərazinin orta yüksəkliyi 1400 m-ə bərabərdir. Ərazinin mütləq yüksəkliyinin amplitudası 600 metr ilə 3906 metr arasında tərəddüd edir. Arazboyu düzənlik Naxçıvan MR ərazisinin üçdə bir hissəsini təşkil edir. Orta hündürlüyü 3200 metr olan Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək hissəsidir. Ən yüksək zirvəsi olan Qapıcıq (3906) həm də Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsidir. Zəngəzur silsiləsi Naxçıvan MR ilə Ermənistan arasında təbii sərhəd təşkil etməklə bərabər, həm də şimal-qərbdən cənub-şərq istiqamətində tədricən ucalaraq Qapıcıq dağında öz maksimum səviyyəsinə çatır. Bundan sonra yenidən Araz çayı vadisinə doğru alçalmağa başlayır. Bu ərazidə sıldırım pillələr formasında, uçurumlu qayalı yamaclarla Araz çayının yatağına kimi uzanır (Babayev, 1999: 298).

Mürəkkəb relyef, ərazinin iqlim amilləri və regionun su hövzələrindən uzaqda yerləşməsi burada özünəməxsus bitki örtüyünün formalaşmasına səbəb olmuşdur. Azərbaycanda yeganə tam kontinental sahə Naxçıvan MR ərazisidir. Mürəkkəb səth quruluşu ərazidə yerli xarakter daşıyan kiçik miqyaslı hava dövranı proseslərinin də inkişafına əlverişli şərait yaradır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Naxçıvan MR ərazisi yüksək termik şəraiti və az rütübətlənməsi ilə respublikanın digər fiziki-coğrafi vilayətlərindən kəskin fərqlənir və cənubi Qafqazda müstəsnalıq təşkil edir. Naxçıvan MR-in müasir florasının formalaşmasında əsas rol oynayan faktorlar ərazinin relyefi, iqlimi, edafik, biotik və antropogen amillərdir. Respublikanın hazırkı bitki örtüyü şiddətli surətdə quru, kontinental iqlimin təsirini daşıyır və əsasən kserofit formasiyalarla xarakterizə olunur. Akad. V.C.Hacıyev tərəfindən Naxçıvan MR ərazisi 3 botaniki-coğrafi rayona bölünmüşdür: 1. Naxçıvan düzənliyi; 2. Naxçıvan dağlıq sahəsi; 3. Naxçıvan yüksək dağlıq sahəsi (Gadzhiyev, 1970: 282). Naxçıvan MR-in bitki örtüyü öz genezisi, struktur və formasiya qurluşu etibarı ilə Ön Asiya florasına yaxındır. Ön Asiya formasiyalarına daha çox uyğun olan düzənlik, aşağı və xüsusən orta dağ zonalarında yayılmış kserofit, friqana tipli senozlardır. Friqanoid bitkiliyi aşağı və orta dağ qurşaqlarının quru yamaclarını tutmuşdur.

Naxçıvan MR-in şibyə florasının öyrənilməsi zamanı Zəngəzur silsiləsinin Ordubad rayonu ərazisində olan hissəsinin zəngin növ müxtəlifliyinə malik olduğu müəyyən edilmişdir. Naxçıvan MR şibyə florasının sistematik strukturunun, növ tərkibinin, şaquli zonalar üzrə yayılma qanunauyğunluqlarının, ekobiomorfoloji və coğrafi təhlilinin verilməsi, nadir növlərin mühafizəsinin nəzəri və praktiki əsaslarının işlənib hazırlaması qarşıya məqsəd qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikasının lixenoflorasının öyrənilməsi məqsədilə aparılan kompleks tədqiqatlar zamanı floranın botaniki-coğrafi analizinin müəyyən edilməsi üçün də müəyyən qədər cəhd edilmişdir.

Ali bitkilərdən fərqli olaraq Naxçıvan MR-də şibyələr müxtəlif zona və bitkilik tiplərində, 4000 m-ə qədər olan yüksək dağlıq zonanın sərt qayalıqlarında, meşə və meyvə bağlarında, torpaqda və s. yerlərdə yayılmaqla geniş areala malikdir. Lakin bəzi növlər vardır ki, onlar ciddi olaraq müəyyən botaniki-coğrafi zonalara uyğunlaşmışlar. Ordubad rayonunun Zəngəzur silsiləsi bölgəsində aparılan tədqiqat işləri zamanı toplanmış şibyə nümunələrinin coğrafi elementlər üzrə təhlili aparılmışdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Bunlardan Arktoalp elementi − Arktikada yayılmış və kütləvilik mərkəzinə malik şibyələr bu elementə daxildir. Meridional qanunauyğunluqdan başqa bu növlər Holarktikanın yüksək dağ, eləcə də meşəsiz qurşaqlarında və ondan kənar zonalarda yayılmışdır. N.A.Minyayev və X.X.Trass qeyd edirlər ki, boreal zonada relikt yayılma əraziləri vardır və ya burada şibyələr özlərini reilktoid kimi aparırlar (Novruzov, 1990: 323). Ordubad rayonunun Zəngəzur silsiləsi bölgəsində arktoalp elementi 23 növlə təmsil olunmuşdur. Onlar 2 subelement Evarktoalp (11 növ) və Omniarktoalp (12 növ) arasında paylanmışlar. Arktoalp elementinə Holarktikada yayılmış növlər daxil edilmişdir.

Evarktoalp subelementinə daxil olan növlərdən 3-ü Avropaqrenland, 4-ü Avroasiya, 4 növ isə Panholarktika areal tipinə aiddir. Digər Omniarktoalp subelementinə 12 növ daxildir ki, bunlardan da 2-si Arktoalp − Antarktika, 2 növ Paleoneotropik, 8 növ isə Multiregional areal tipinə daxildir.

Tədqiqatlar zamanı Hipoarktomontan elementinə daxil olan növlər *Caloplaca stillicidiorum* Ordubad rayonunun Nürgüt kəndi ətrafında ağac gövdəsində, *Physconia muscigena* Ordubad rayonu Xurs kəndi yaxınlığında yemişan ağacında, Boreal elementi növləri Ordubad rayonu Nürgüt və Biləv kəndləri ətrafında daşlar üzərində, Nemoral elementin multiregional areal tipinə aid *Arthonia radiata* Ərəfsə kəndi ətrafında, *Ramalina farinasea* Batabat meşəsində, *R. fraxinea*, Xəzinədərə dağlıq sahəsində, Montan elementi növlərinə *Aspicila transbaicalica* Şahbuz rayonunun Kükürdağ ərazisində, *Verrucaria submersella* isə Salvartı dağında, Kserokontinental elementi *Cladonia subrangiformis* Xoşkeşin kəndi ətrafında, *Cladonia pocillum* isə Biçənək kəndində, Evriholarktika elementinin avroasiya areal tipinə aid *Lecanora subradiosa* növü Şahbuz rayonunun Batabat gölü ətrafında qayalar üzərində rast gəlinmişdir. *Caloplaca tetraspora Acarospora peliocypha Aspicilia perradiata Umbilicaria cylindrica* (Ərəci dağında), Omniarktoalp coğrafi elementinə daxil olan növlər olaraq qeyd edilmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Babayev, S.Y. (1999). Naxçıvan Muxtar Respublikasının Coğrafiyası. Bakı: "ELM" redaksiya – nəşriyyat və poliqrafiya mərkəzi, 298 s.
2. Gadzhiyev, V.D. (1970). Vysokogornaya rastitelnost Bolshogo Kafkaza i ee narodhokhozyaystvennoe znacheniye. Baku: Elm, 282 s.
3. Novruzov, V.S. (1990). Florogeneticheskiy analiz lishaynikov Bolshogo Kavkaza i voprosy ikh oxrany. Baku: Elm, 323 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 107-110
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 107-110
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Xatirə İlyasova**
Gəncə Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
xatire_ilyasova@mail.ru

# ŞƏRQİ ZƏNGƏZURDAKI TARİXİ-MEMARLIQ ABİDƏLƏRİNƏ DAİR

***Açar sözlər:*** *məbəd, abidə, mənəvi sərvət, memarlıq, mənbələr*
***Keywords:*** *temple, monument, spiritual wealth, architecture, sources*

Zəngəzur xalqımızın daş muzeylər diyarıdır. Bol suyu, münbit torpağı, əkinçilik və maldarlıq üçün əlverişli iqlim şəraiti olan Zəngəzurda xalqımızın çox zəngin mənəvi sərvətləri qalmışdır. Bu mənəvi sərvətlər içərisində dünya memarlığının nadir inciləri olan tarixi abidələr xüsusi yer tutur. Ermənilər bu abidələri viran qoymuşlar.

Zəngəzurda tarixən mövcud olan və günümüzədək mövcudluğunu qoruyub saxlayan tarixi-memarlıq abidələrinin əksəriyyəti dini inanclarla və qəbirüstü abidələrlə bağlıdır. Birsütun, Ağoğlan, Məlik-Əjdər abidələri ulu keçmişlərdən bugünkü nəslə yadigar qalmış ən qiymətli mənəvi sərvətlərdir. Memarlıq sənətinin ən mürəkkəb, ən düyünlü həlqələri bu abidələrdə açılmamış qalmaqdadır. Qədim müdrik dünya hansı alətlərlə sıldırımlı qayaların döşündə bu yonma, yapma "şəhərləri" salmışdır? Yonulmuş bu ağır daşları nə ilə göylərə qaldırıb bir-birinə geyindirməklə ortası sütunsuz imarətlər tikmişlər? Ayrı-ayrı yonma daşlardan tutmuş abidələrin bütün quruluşuna qədər hamısı böyük sirdi.

Birsütun abidəsi Laçın rayonunun Güləbird kəndindən üzü Araz çayına tərəf 1200 metr aralıda, Həkəri çayının sağ sahilində Məmmədölən dərənin yuxarı hissəsindədir. Burada iki abidə diqqəti daha çox cəlb edir.

Birincisi, əjdahanın açıq ağzına oxşayan abidə, ikincisi qayanın döşündə dərin quyusu olan dəhliz və ondan ikinci otağa

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

keçiddir (bu keçid strateji əhəmiyyətlidir). Burada dağın altına tərəf gedən daha dərin quyuya bənzər yol, həmçinin böyük xəzinələr saxlamaq üçün hündürlüyə qalxan bir adamlıq keçid, açıq havaya çıxış, uzaq yerləri seyr etmək üçün xüsusi dəhliz, bu dəhlizdə qayaya həkk olunmuş qadın şəkli və gedilməsi qorxulu olan sirli kaha var. Burada bəzən yandırılan ağac, cındır, şam, kibrid sönür, nə qədər çalışsan da onları yandırmaq olmur. Abidənin ətrafında çoxlu dərin kahalar var.

Güləbird kəndi 9 noyabr 2020-ci ildə işğaldan azad edilmişdir.

Ağoğlan məbədi Laçın-Minkənd şose yolunun 30-cu kilometrliyində, Həkəri çayının sağ sahilində, Kosalar kəndinin yaxınlığında yerləşir. Ağoğlan məbədi V-VI əsrlərə aid alban monastırıdır. Abidə müxtəlif dövrlərdə uçqun və dağıntılara məruz qaldığından IX əsrdə bu abidə yenidən inşa edilərək forma etibarı ilə kilsə üslubuna − monastıra uyğunlaşdırılıb. Ağoğlan məbədinin uzunluğu 25, eni isə 12,5 metrdir. Abidə ətrafında qədim binaların xarabalıqları qalmaqdadır. Ağoğlan abidəsindən böyük bir zal qalmışdır. Bu zalın istər bünövrə, istərsə də üst döşəmə yonma daşlarının hər biri bir neçə tondur. Bu abidənin memarlıq quruluşu bu yerlərdə yaşayan insanların tikinti sahəsində böyük səriştələri olduğunu sübut edir. Abidənin qapı və pəncərələrinin ətrafına yonma daşlardan qövsvari haşiyələr qoyulmuşdur. Böyük zalın hər tərəfindən havanı dəyişmək üçün xüsusi yerlər var. Yerli sakinlərin dediyinə görə, abidənin müxtəlif yerlərindən qarşıdan axan çaya tərəf müxtəlif yeraltı yollar və keçidlər qalmaqdadır.

Ağoğlan abidəsindən üzü Çalbayır dağlarına tərəf, eləcə də Zabıx çayı axarındakı qədim yaşayış məskənləri bu yerlərdə insan nəslinin çox qədimlərdən böyük inkişaf yolu keçdiyini yada salır. Bu abidədəki oyma daşlar ən çox həndəsi ölçülü xətlərdir. Bu xətlər çox güclü təfəkkürün məhsuludur.

2020-ci il dekabrın 1-də Laçın rayonu işğaldan azad edildikdən sonra Azərbaycanın alban-udi xristian icmasının nümayəndələri "Ağoğlan" məbədini ziyarət edirlər.

Məlik-Əjdər türbələri dünya memarlığının nadir incilərindəndir. Məlik-Əjdər abidələri Laçın rayonunun Cicimli

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

kəndinin yaxınlığındakı məzarlıqda tikilib. Buradakı qədim yaşayış yerləri, qəbirstanlar tariximizin qəhrəmanlıq və müdrik keçmişindən xəbər verir. Abidə haqqındakı rəvayətlərin birində deyilir ki, Səlahəddin Əyyubi yüzillik Səlib müharibəsini məğlub etdikdən sonra, Qafqazda xristianlarla müharibələr zamanı böyük qəhrəmanlıq göstərmiş sərkərdələr Məlik və Əjdərin şərəfinə tikdirmişdir.

Bu yerlərin müdrik qocaları Şah İsmayıl Xətainin Gəcavə yolu ilə İrəvan çökəkliyinə gedərkən həmin abidələrdə qaldığından, abidəddən bir qədər aralıda (1989-cu ildə ermənilər iki dəfə partladıb sındırdıqları Lələ abidəsindən) tikilmiş memarlıq incisinin qədim günbəzindən danışırdılar. Nankor ermənilər abidələrin üstündəki yazıları qaşımışlar. Xeyli daş kitabələri çıxarıb aparmışlar.

Məlik Əjdər türbəsinin içərisi dairəvi, bayır tərəfdən isə səkkizbucaqlı formadadır. Türbəyə düzbucaqlı aşırımı olan giriş qapısı korpusun şimal üzündə yerləşir. Qapı gözünün üstü sivri tağ forması verilmiş bütöv bir arxitrav daş ilə örtülmüşdür. Onun haşiyəsi içərisində yonma atlı fiqurun izləri müşahidə olunur. Tədqiqatçılar Cicimli türbəsinin XII-XIII əsrlərdə tikildiyini ehtimal edirlər. Məlik-Əjdər abidələri Azərbaycan memarlığının tədqiq olunmamış böyük mənəvi sərvətidir. 2020-ci ildə Azərbaycanın müzəffər ordusu işğalda olan torpaqları azad etdikdən sonra, türbənin dağıdılmış, yarımçıq halda qalıqları qalmışdır.

Mənəvi sərvət oğruları olan ermənilər bu yerlərdə onlarla, yüzlərlə tarixi abidənin yazılı lövhələrini vurub sındırmışlar. Bəzən iz itirmək üçün abidələrin özlərini də uçurub dağıtmışlar. Qiymətli abidələrin zirzəmilərini qazıb, erməni əlifbası ilə yazılmış saxta lövhələr basdırmışlar.

Tarixi-memarlıq abidələrinin bir qismi erməni vandalları tərəfindən dağıdılmış, bir qismi də erməni irsi kimi qələmə verilir. 1993-cü ildə Şərqi Zəngəzurun işğalından sonra oradakı yüzlərlə qoç heykəllər də erməni vandallağı nəticəsində məhv edilmişdir. Şərqi Zəngəzurun Ermənistan ordusunun işğalı dövründə tarixi-memarlıq abidələrinə qarşı törədilən vandalizmin nəticələri qısa

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

müddətdə aradan qaldırılacaq, hər bir abidə, bütün məscidlər yenidən bərpa olunacaq. Lakin erməni cinayətkarlarının törətdikləri vandallıqlar foto və videolar vasitəsilə gələcək nəsillərə tarixin ibrət dərsləri kimi çatdırılacaq.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 111-114
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 111-114
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Yaqub Səmədov**
ADPU Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
yaqub.semedov63@mail.ru

# ZƏNGƏZUR TARİXİ AZƏRBAYCAN TORPAĞIDIR

***Açar sözlər:*** *Zəngəzur toponiminin mənşəyi, Zəngəzur mahalı, istila, erməni vilayəti, etnik tərkib*
***Keywords:*** *origin of Zangazur toponym, Zangazur area, invasion, armenian province, ethnic composition*

Azərbaycanın qədim mahallarından olan Zəngəzur 7824 kv. km ərazisi ilə indiki Ermənistanın Gorus, Sisian (Qarakilsə), Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarını əhatə edir. "Zəngəzur" sözü təmiz türk mənşəli toponimdir. "Zəngi" – qədim türk tayfasının adıdır və bu gün bu ərazidə yerləşən bir çox coğrafi adların – Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngan, Zəncan, Zəngilli və s. kimi kənd, çay, dağ adlarının qaynağıdır. Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Abbasqulu ağa Bakıxanov və digər bu kimi dünya şöhrətli tarixçilərin əsərlərində bu türk tayfasının adına tez-tez rast gəlinir. "Zəngəzur" sözünün ikinci leksemi olan "zur" – qədim türk dillərində dağlıq, yarğanlıq, qayalıq kimi anlamları ifadə etməklə, zəngilərin yaşadığı dağlıq ərazinin relyefini səciyyələndirir (1). "Qarabağ sənədlərdə" kitabında göstərilir ki, F.Sümər zəngilər haqqında yazır: "Zəngilər türk məmlük ailəsindən idilər. Məmlük türkləri isə qıpçaq tayfalarıdır" (Şahinoğlu, 2014).

Cənubi Qafqaz regionunda daimi möhkəmlənmək məqsədi güdən çar Rusiyasının 1827-ci ildə işğal etdiyi İrəvan və Naxçıvan xanlığının ərazilərində çar I Nikolayın əmri ilə "Erməni vilayəti" adlı yeni inzibatı ərazi vahidi yaradıldı. Belə bir inzibati vahidin yaradılmasında əsas məqsəd işğal olunmuş Şimali Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ xanlıqları ərazilərinə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Qacarlar İranı və Osmanlı İmperiyasından köçürülən ermənilərin və digər qeyri-müsəlman əhalinin hesabına bölgənin etnik mənzərəsinin dəyişdirilməsi idi.

Ermənilərin köçürüldüyü ərazilər içərisində Qarabağ xanlığının cənub qərb hissəsini təşkil edən Zəngəzur mahalı da var idi (Nacı, 2018: 3).

Zəngəzur mahalının əsas yerli əhalisini tarixən azəri türkləri təşkil etmişdi. XIX əsr ərzində böyük köç axınlarından sonra belə 1897-ci siyahıya alınmasına görə Zəngəzur qəzasının 137.871 nəfər əhalisinin 71.216 nəfəri (52,3 faizi) azərbaycanlı, 63.622 nəfəri (46,4 faizi) isə erməni idi (4). Bu mahalda 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. Zəngəzur mahalı çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibinə daxil edilmişdi (5).

1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni quldur dəstələrinin törətdiyi qırğınlar nəticəsində Zəngəzur mahalında təxminən yarım milyon yerli əhali öldürülmuş, 115 müsəlman kəndi yer üzündən silinmişdi. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirildi (5).

1920-ci ilin aprelin 28-də Sovet Rusiyası tərəfindən Şimali Azərbaycan işğal ediləndən sonra türk dünyasının, o cümlədən Türkiyə ilə Azərbaycan arasında sədd çəkmək üçün məhz Zəngəzur mahalının qərb hissəsi Azərbaycan xalqının iradəsi əleyhinə olaraq zorla qoparılıb Ermənistan SSR-ə verildi (6). 1828-1917-ci illərdə çar Rusiyası, 1921-1922-cü illərdə bolşevik Rusiyası və 1988-1991-ci illərdə SSRİ dövləti tərəfindən həyata keçirilən planlı deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində Zəngəzur bölgəsi azərbaycanlı əhalidən tamamilə təmizləndi (Nacı, 2018: 3).

Sovet Ermənistanı Zəngəzuru ələ keçirdikdən sonra ilk əvvəl onun inzibati-ərazi bölgüsünü dəyişdirməyə başladı. Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il 31 avqust qərarı ilə onun torpaqları əsasında Zəngəzur (Gorus, Sisyan və Qafan) və Mehri qəzaları təşkil edildi.

Sovet rayonlaşdırılması zamanı isə 1930-cu ildə həmin qəzaların ərazisi Gorus, Sisyan, Qafan və Mehri rayonlarına

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bölündü (İskəndərov, 2022) və Zəngəzur adı xəritədən silindi. Yerində Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində isə əvvəlcə Kürdüstan qəzası, sonra isə Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı (8).

Ulu öndərin 1997-ci il dekabrın 18-də imzaladığı "1948-1953-cü il illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlar tarixi tədqiqatlar üçün hüquqi əsas yaratdı (Quliyev, 2015).

Yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, Zəngəzur Azərbaycan tarixinin mühüm tərkib hissəsidir və onun tarixinin daha dərindən tədqiqi və təbliğinə zəruri ehtiyac vardır.

## Ədəbiyyat

1. https://aztc.gov.az/az/posts/id:1310.
   Zəngəzur tarixi Azərbaycan torpağı (baş məqalə)
2. Şahinoğlu, A. (2014). "Zəngəzur tarixi Azərbaycan torpağıdır". "Yeni Azərbaycan" qəzeti, 10 aprel.
3. Nacı, A. (2018). Azərbaycanın Zəngəzur bölgəsinin demoqrafik vəziyyətində dəyişikliklər (XIX–XX əsrin 20-ci illəri). Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı.
4. https://pia.az/amp/?id=368640
5. https: //femida. az/az/news/95724/ zengezuru- ermenilere-kimler-ve-nece-bagisladi-- 98- illik-tarix. Nəzərli A. Zəngəzuru ermənilərə kimlər və necə "bağışladı?" – 98 illik tarix.
6. Dünya azərbaycanlılarının III qurultayında Prezident İlham Əliyevin nitqi. (2011). "Azərbaycan" qəzeti, 6 iyul.
7. İskəndərov, A. (2022). "Azərbaycanın Zəngəzur mahalı". "Yeni Həyat" qəzeti. 14 may.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

8. https://axar.az/news/kult/560419.html Əliyev Zaur. Zəngəzuru ermənilərə kim və necə verdi? Şok sənədlər.
9. Quliyev, M. (2015). Ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərman çox mühüm sənəddir. “Yeni Azərbaycan” qəzeti, 29 mart.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 115-118
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 115-118
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Məhəmməd Hüseynov**
ADPU Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
sahibanasirova1963@mail.ru

# ZƏNGƏZURDA ERMƏNİ VƏHŞİLİKLƏRİ VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI

***Açar sözlər:*** *Xalq Cümhuriyyəti, Fövqəladə Təhqiqat Komissiyası, soyqırım, qətliam, qəza, vandal*

***Keywords:*** *People's Republic, Extraordinary Investigation Commission, genocide, massacre, accident, vandal*

Azərbaycanın tarixi ərazisi olan Zəngəzur ən qədim dövrlərdən Azərbaycanın tərkib hissəsi olmuşdur. Zəngəzur Nadir şahın ölümündən (1747) sonra yaranmış Azərbaycan xanlıqlarından biri olan İrəvan xanlığının (bir hissəsi Qarabağ xanlığının) tərkibində olmuşdur. Rusiya-İran müharibələrindən (1804-1813; 1826-1828) sonra Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya qatılmışdır. Bu zamandan etibarən çar hökümətinin himayəsi altında Zəngəzura – Türkiyə və İrandan kütləvi şəkildə erməni ailələrinin köçürülməsinə başlanmış, beləliklə, qədim Azərbaycan torpağı olan Zəngəzurda süni surətdə erməni əhalisinin sayca çoxaldılması siyasəti yeridilmişdir. Zəngəzur 1829-cu ildən Qarabağ əyalətinə qatılmış, 1861-ci ildən isə ayrıca qəzaya çevrilmişdi. Fevral inqilabı (1917) nəticəsində çar hökümətinin devrilməsindən sonra Zəngəzurda məskunlaşmış ermənilər azərbaycanlılara qarşı qırğınlar törətməyə, qəzada say baxımından üstünlüyə nail olmaqla bu torpaqlara yiyələnməyə cəhd edirdilər.

1917-ci ilin martından 1918-ci ilin mayınadək Zəngəzurda daşnaklar türk müsəlman əhalisinə qarşı soyqırımları həyata keçirmiş, yüzlərlə kənd yerlə-yeksan edilmiş, on minlərlə insan məhv edilmiş, doğma yurdlarından didərgin salınmışdır. 1918-ci ilin mayında Cənubi Qafqazda 3 müstəqil dövlət elan edildikdən sonra Ermənistandakı daşnak höküməti azərbaycanlılara qarşı

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 115-118
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 115-118
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

soyqırımını dövlət siyasəti səviyyəsində həyata keçirməyə başladı. Andronikin, Njdenin, Dronun erməni quldur dəstələrinin Zəngəzura basqınları nəticəsində təkcə 1918-ci ildə 115 Azərbaycan kəndi viran qoyulmuş və yandırılmış, yüz minlərlə insan qətlə yetirilmiş, yaxud yaralanmış, 40 mindən artıq dinc azərbaycanlı sakin öz yurdunu tərk etməyə məcbur olmuşdur (Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası, 2005).

Azərbaycan Xalq Cumhuriyyəti Hökuməti Zəngəzur qəzasında vəziyyəti sabitləşdirmək, əhalinin müdafiəsini təşkil etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Hökümətin 1918-ci il 27 iyul tarixli qərarı ilə Zəngəzur komendantına qayda-qanunun bərpası üçün 50 min manat ayrılmışdı. 1919-cu il yanvarın 13-də Cavanşir, Şuşa və Cəbrayıl qəzaları ilə birgə Zəngəzur qəzasının da daxil olduğu Qarabağ general-qubernatorluğu yaradılmışdı. Ermənilərin Zəngəzur qəzasının azərbaycanlı əhalisinə qarşı qırğınları 1919-1920-ci illərdə də davam etdirilmişdi. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı zorakılıq aktları hərdən səngisə də, zaman-zaman daha qəddarlıqla təkrar olunmuşdur. Qəzanın müsəlman əhalisinin vəziyyəti Azərbaycanın başqa əyalətlərinə nisbətən ona görə ağır oldu ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı, bu qəzada Andronikin mütəşəkkil erməni əsgər və zabitlərindən ibarət nizami qoşun hissələri var idi. Andronik Ermənistan daşnak hökümətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxulub müsəlman əhalidən ya Ermənistan hakimiyyətinə tabe olmağı, ya da guya “Ermənistan Respublikasına daxil olan” bu qəzanın ərazisindən çıxmağı tələb edirdi. Qəzanın xarici aləmdən təcrid olunmuş və çox zəif silahlanmış müsəlman əhalisi Andronikin bu tələblərini rədd etdikdə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətmiş, kütləvi soyqırımlar həyata keçirmişdilər.

Fövqəladə Təhqiqat Komissiyasının şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri cinayətlər haqqında ətraflı məlumat verilmişdir. Göstərilirdi ki, Zəngəzur qəzasında 115 müsəlman kəndinin dağıdıldığı, həmin kəndlərdə 3257 kişi, 2776 qadın və 2196 uşaq öldürülmüş, 1060

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Vaqudi kəndində erməni vandalları 400-dən yuxarı azərbaycanlı əhalinin sığındığı məscidə əvvəlcə əl qumbaraları atmış, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırmışlar (Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası, 2005).

Qaniçən quldurlar həmin kənddən qaçıb canını qurtarmaq istəyən uşaq və qadınların başlarını qılınc və xənvərlərlə üzmüş, İmişli kəndini qarət edərkən südəmər uşaqları süngülərə taxaraq göyə qaldırmış, öldürülənlərin meyidlərini tikə-tikə doğramışlar.

Quldur dəstələri bütün müdafiəsiz müsəlman kəndlərini talan etdikdən sonra hər yeri, hər şeyi oda qalayırdılar. Kəndlərdən hansısa biri müdafiə olunmağa cəhd göstərdikdə erməni quldur dəstələri tərəfindən mühasirəyə alınır və yerlə yeksan edilirdi.

Bu hadisələrin bilavasitə iştirakçısı olan A.Lalayan yazırdı: “Türk qadınlarının və uşaqlarının, qocaların və yeniyetmələrin məhv edilməsində daşnak dəstələri ... maksimum “şücaət” göstərdilər. Daşnak dəstələrinin ələ keçirdiyi kəndlər canlı insanlardan “azad olunur” və eybəcərləşdirilmiş meyitlərlə dolu xarabazarlığa çevrilirdi” (Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası, 2005).

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cinayətləri və onlara layiqli cavab verilməməsi azərbaycanlı əhali arasında ümidsizlik doğururdu. 1920-ci il yanvarın 23-də yerli sakin, müəllim Hüseyn Axundzadənin Azərbaycan Parlamenti və hökümətə göndərdiyi teleqramda deyilirdi: “İkinci dəfə olaraq teleqraf edirik Zəngəzur müsəlmanları sarıdan başınız sağ olsun. Zəngəzurlular nə qədər ağladılarsa da, naləələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı... Qızlar və gəlinlər ermənilərin əlinə keşmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmən müqabilində bir az kişi qalıb. Lakin onlar da ümidsiz vəziyyətdədirlər. Heç bir tərəfdən kömək gəlməmişdir. Ermənilərin nizami orduları on min nəfərə çatmışdır və qüvvələri hər an artmaqdadır” (Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası, 2005).

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra (1920, 28 aprel) ermənilərin Zəngəzuru Azərbaycandan qoparmaq

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

siyasəti daha da fəallaşmış, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bunu həyata keçirmək mümkün olmuşdu. Aprel işğalından (1920) sonra Sovet Rusiyasının Zəngəzur məsələsi ilə bağlı yeritdiyi siyasət Ermənistanda Sovet Hakimiyyəti qurulduqdan sonra (noyabr, 1920) köklü şəkildə dəyişdi. 1920-ci ilin dekabrında Sovet rəhbərliyi tərəfindən Azərbaycan Qərbi Zəngəzuru Ermənistana "bağışlamağa" məcbur edildi (Azərbaycan tarixi, 2001). Bu o zamanki Azərbaycan rəhbərliyinin bağışlanmaz səhvi idi. Bu Sovet Rusiyasının bölgədə yeritdiyi yeni müstəmləkəçilik siyasətinin təzahürü idi. 20-ci illərin sonlarından həyata keçirilən rayonlaşdırma zamanı həmin ərazilərdə Qafan, Görüs, Mehri və Sisiyan rayonları təşkil edilmiş, Zəngəzur bir tarixi vilayət kimi ləğv edilmişdir. Tarixi Azərbaycan torpaqları olan Zəngəzur qəzasının böyük bir hissəsinin Ermənistana ilhaq edilməsi ilə Azərbaycana daha bir zərbə vurulmuş, Naxçıvan Azərbaycandan ayrı salınmışdı (Azərbaycan tarixi, 2001). Ötən əsrin 80-ci illərinin sonunda SSRİ rəhbərliyindəki himayədarlarının köməyi ilə ermənilər əzəli Azərbaycan torpağı olan Qərbi Zəngəzurdan azərbaycanlıları son nəfərinə kimi çıxarmış, 90-cı illərin əvvəllərində isə Azərbaycan Respublikasının tərkibində olan Şərqi Zəngəzurdakı ərazilər mənfur düşmən tərəfindən işğal edilmişdir. Prezident Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi nəticəsində Şərqi Zəngəzurdakı torpaqlarımız işğaldan azad olunmuş, hal-hazırda Şərqi Zəngəzur iqtisadi rayonunda bərpa və yenidənqurma işləri böyük vüsətlə həyata keçirilir.Biz əminik ki, vaxtı ilə Ermənistandan qovulmuş azərbaycanlılar da öz tarixi torpaqlarına – Qərbi Zəngəzura qayıdacaq, oranın tam hüquqlu sakinləri olacaqlar.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. (2001). V cild, Bakı.
2. Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası. (2005). II cild, Bakı.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 119-121
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 119-121
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Namiq Abbasov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Naxçıvan)
biologiya üzrə fəlsəfə doktoru
namiq-araz@mail.ru
**Arzu Məmmədov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu (Naxçıvan)
biologiya üzrə fəlsəfə doktoru
yarasa 65@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASININ (ZƏNGƏZUR MİLLİ PARKI) NADİR NÖVÜ - *TANACETUM KOTSCHYİ* (BOİSS.) GRİERSON

***Açar sözlər:*** *Milli park, flora, nadir, Asteraceae, "Qırmızı kitab"*

***Keywords:*** *National park, flora, rare, Asteraceae, "Red Book"*

Akademik Həsən Əliyev adına Azərbaycan Respublikası Ordubad Milli ərazisi Azərbaycan Respublikasının Şahbuz Dövlət Təbiət Qoruğu (3139,0 hektar), habelə Naxçıvan Muxtar Respublikasının Culfa, Ordubad rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu (396,4 hektar) və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazilərində yerləşən yay otlaqlarının (27131,0 hektar) torpaqları hesabına 30666,4 hektar genişləndirilmişdir. 2009-cu il 25 noyabr tarixinədək akademik Həsən Əliyev adına Ordubad Milli Parkı adlanmış, həmin tarixdən Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə adı dəyişdirilərək akademik Həsən Əliyev adına Azərbaycan Respublikası Zəngəzur Milli Parkı adlandırılmışdır (Talıbov, Seyidov, 2019: 6-7).

Son aparılan tədqiqatlar və ədəbiyyat məlumatlarına əsasən *Tanacetum* L. − Dağtərxunu cinsinin Naxçıvan MR florasında 15

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

növü olduğu müəyyən edilmişdir (Talıbov, İbrahimov, 2021: 211-212).

Bu cinsin yerli florada rast gəlinən nadir növlərindən biri də *Tanacetum kotschyi* (Boiss.) Grierson − Koçi dağtərxunudur. Bu növ Azərbaycanda ancaq Naxçıvan MR-də alp qurşağının daşlı − çınqıllı qayalıqları və yamaclarında yayılmışdır. Soyuqdağ, Gəmiqaya Səfərdərə və Göy-göl ərazisində rast gəlinir. Kiçik ərazilərdə tək-tək bitdiyindən ehtiyatı azdır (Seyidov, 2019: 174).

Alçaq boylu yarımkolcuqdur. Əsası güclü və qısa budaqlanmışdır, 10-15 sm hündürlükdədir. Yarpaqları uzun saplaqlıdır, 4-4,5 sm uzunluqdadır, ayası demək olar ki, dəyirmidir, barmaqvari bölümlüdür, seqmentləri xətvari sivriləşmişdir, 5-10 mm uzunluqdadır, ən yuxarıdakı yarpaqları çox xırdadır, bütövdür və xətvaridir. Çiçək səbəti tək-təkdir. Sarğısı yumurtaşəkillidr, sarğı yarpaqcıqları tükcüklüdür. Xaricdəkilər yumurtavari − uzunsovdur, kənarları qəhvəyi pərdəvari − haşiyəlidir, daxildəkilər uzunsovdur, uc hissəsi enli ağ pərdəvari − haşiyəlidir. Dişicik çiçəkləri ağdır, 7-8 mm uzunluqdadır, qulaqcıqşəkillidir və tacı azca dişciklidir. İyun ayında çiçəkləyir, iyun-iyul aylarında toxumcaları yetişir. Kserofit bəzək bitkisidir. Atropatan coğrafi areal tipinə daxildir. Populyasiyasının azlığı, ekoloji, zooloji və antropogen amillərin mənfi təsiri çnəticəsində təbii ehtiyatı azlmışdır.

Məhdud areal və ya sahələrdə yayılmış, mənfi təsirlərə məruz olan həssas növ kimi Naxçıvan MR-in "Qırmızı Kitabına" daxil edilmişdir (Talıbov, İbrahimov, 2010: 575).

Aşağıda *Tanacetum kotschyi* (Boiss.) Grierson − Koçi dağtərxunu növünün adlandırılması son müasir beynəlxaq təsnifat sistemlərinə görə verilmişdir (4, 5).

**Regnum** − *Plantae*
**Divisio** − *Tracheophyta*
**Classis** − *Magnoliopsida*
**Ordo** − Asterales
**Familia** − *Asteraceae*
**Genus** − *Tanacetum*
**Species** − *Tanacetum kotschyi*

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Qəbul edilmiş beynəlxalq adı:
*Tanacetum kotschyi*
**Sinonomləri:**
*Chrysanthemum kotschyi* (Boiss.) Nabelek
*Pyrethrum kotschyi* Boiss.
*Pyrethrum ordubadense* Manden.
*Tanacetum ordubadense* (Manden.) K. Bremer & C. J. Humphries

Məhdud sahələrdə yayılmış, mənfi təsirlərə məruz olan həssas növ kimi akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində yayıldığı sahələr xüsusi nəzarət altına alınmalı və təbii populyasiyaları mühafizə olunmalıdır.

## Ədəbiyyat

1. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı. (2019). Naxçıvan: Əcəmi NPB, 286 s.
2. Talıbov, T.H., İbrahimov, Ə.Ş. (2021). Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örülütoxumlu bitkilər). II nəşr. Bakı: Şirvannəşr, 426 s.
3. Talıbov, T.H., İbrahimov, Ə.Ş. (2010). Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). Cild 2. Naxçıvan: Əcəmi, 678 s.
4. https: // www.catalogueoflife.org/annual-checklist/2019
5. http: // www.worldfloraonline.org

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 122-125
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 122-125
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Nurlana Həmzəyeva**
Gəncə Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
hemzeyeva_nurlana@mail.ru

# ZƏNGƏZUR MAHALI: AZƏRBAYCANLILARIN QƏDİM TARİXİ-ETNOQRAFİK BÖLGƏSİ

***Açar sözlər:*** *Zəngəzur, deportasiya, soyqırım, toponim, işğal*
***Keywords:*** *Zangazur, deportation, genoside, toponym, occupation*

*"Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir. Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır".*

**İlham Əliyev**

Zəngəzur mahalı azərbaycanlıların qədim tarixi-etnoqrafik bölgəsidir və müasir Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan və Ermənistan Respublikasının Mehri, Qarakilsə, Gorus və Qafan rayonlarını əhatə edir. Azərbaycan coğrafiyasının mühüm tərkib hissəsi olan Zəngəzurun tarixi qədim daş dövründən başlayır. Zəngəzur ərazisində Böyük İşıqlı və Dəvəboynu dağlarında qədim türk tayfalarına aid qayaüstü rəsmlər, Nüvədi kəndində Qarqadaşı dağında qədim türk yazılı kitabələri, Qubadlı, Zəngilan, Laçın, Qarakilsə, Qafan, Meğri və Gorus rayonlarında qədim yaşayış məskənləri, kurqanlar, dini təyinatlı abidələr, o cümlədən at və qoç heykəlləri aşkar edilmişdir (Əlizadə, 2022: 6). Yazılı mənbələrdə Zəngəzurun yer adlarından ilk dəfə Mehri yad olunur. Ehtimal edilir ki, eramızdan əvvəl 323-cü ildə Azərbaycanın cənub torpaqlarında Atropatena şahlığı meydana gələndə Zəngəzurun ərazisi "Vaspuran" adı ilə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bu dövlətin tərkibində olmuşdur (İsgəndərov, 2021: 1,6). Lakin Zəngəzur müəyyən müddətdən sonra Sünik adı ilə Albaniyanın tərkibinə keçir. Aşkarlanan arxeoloji materiallar da Sünikin Albaniyanın inzibati-ərazi subyekti olduğunu təsdiq edir. Bütövlükdə, XI əsrin birinci yarısınadək qədim türk yurdu olan Zəngəzur bir müddət müstəqil hakimlik kimi idarə edilmiş, sonra uzun müddət Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuşdur. Zəngəzur toponimlərinin bir hissəsi də peçeneq türk tayfasının adı ilə bağlı olaraq meydana gəlmişdir. Zəngəzur silsiləsində Biçənək aşırımının adı da məhz bu türk boyunun adı ilə bağlıdır.

Zəngəzur bu regiona orta əsrlərdə verilən bir addır. İstər Zəngəzur, istərsə də mahalın digər toponimik adları türk mənşəli olması ermənilərin Zəngəzurda heç bir zaman aborigen əhali olmamasını təsdiqləyir. XIII-XIV əsrlərdə Hülakülər dövlətinin hakimiyyəti dövründə Zəngəzur bölgəsi inzibati cəhətdən Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Arran əyalətinə daxil olmuşdur (F.Rəşidəddin "Asar və əhya"). Səfəvilər dövləti dövründə də Zəngəzur Azərbaycanın tərkib hissəsi olub. 1508-ci il noyabrın 8-də tərtib edilmiş qəbalə sənədin müxtəlif yerlərində beş dəfə "Azərbaycan ölkəsinin Urut-Qafanat nahiyəsi" ifadəsi işlənmiş, üç yerdə isə Sisəcan mahalının Azərbaycan ölkəsinin Naxçıvan tüməninə daxil olduğu öz əksini tapmışdır. Şah I Abbasın 1620-ci ilin oktyabr ayında imzaladığı fərmanda Zəngəzur diyarının Quştasif və Qafan vilayətlərinin Azərbaycana mənsubluğunu təsdiq edən çox mühüm məlumat vardır. XVII əsrin sonlarında Zəngəzur Azərbaycan Səfəvi dövlətinin Kür və Araz çayları arasındakı geniş torpaqlarını əhatə edən Qarabağ (Gəncə) bəylərbəyliyinin tərkibinə daxil idi. XIX əsrin əvvəllərində çar Rusiyasının işğalçı ordusu Qacar və Osmanlı dövlətləri ilə apardığı müharibələr zamanı Zəngəzurun da yerli əhalisi Azərbaycan türkləri olan kəndlərini viran qoydular. 1813-cü il Gülüstan müqaviləsindən sonra Qarabağ xanlığının Zəngəzurun tarixi ərazisinə daxil olan bir hissəsi, Mehri dairəsinin Çonqur (Çuləndər) və ya Qapan çayının sol sahilində yerləşən hissəsi Qacarlar dövlətinin tərkibinə keçmişdi. Çar Rusiyasının 1828-ci ildə Qacarlar dövləti ilə imzaladığı Türkmənçay

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

müqaviləsinin 15-ci maddəsinə əsasən İrandan 40-50 min ermənilərin Azərbaycanın şimalına köçürülməsindən sonra Azərbaycan xalqının tarixində faciəli dövr başlandı. 1831-1833-cü illərdə isə Sisyan, Tatev, Qaraçorlu, Püsyan, Bərgüşad və s. mahalların əsasında daha böyük Zəngəzur mahalı təşkil edilmişdi. 1861-ci ildə Şimali Azərbaycan torpaqlarında Zəngəzur qəzası Rusiyanın yaratdığı ilk inzibati ərazi vahidlərindən biri olmuşdu (1867-ci ildə Gəncə quberniyasının tərkibinə verilmişdir). Ermənilər tərəfindən 1905-1906-cı illərdə və 1918-1920-ci illərdə İrəvanda, Qarabağda, Zəngəzurda, eləcə də Azərbaycanın müxtəlif yerlərində yerli dinc əhali olan azərbaycanlılara qarşı soyqırımılar törədilib (Mustafa, 2022: 203).

Azərbaycanda 1920-ci ildə Sovet hakimiyyəti qurulduqdan sonra SSRİ hökuməti Zəngəzur qəzasının Dərələyəz, Qafan, Mehri, Gorus və Qarakilsə bölgələrini yenicə yaradılan Ermənistan vilayətinə birləşdirilməsi haqqında qərar verdi. M.Skibitskinin hesablamasına görə Qarabağ general-qubernatorluğunun tərkibinə daxil olan Zəngəzur qəzası ərazisindən (6742,96 kvadratverst) 3637 kvadratversti Ermənistana verilmişdi. Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il 31 avqust qərarı ilə onun torpaqları əsasında Zəngəzur (Gorus, Sisyan və Qafan) və Mehri qəzaları təşkil etmişdi. Sovet rayonlaşdırılması zamanı isə 1930-cu ildə həmin qəzaların ərazisi Gorus, Sisyan, Qafan və Mehri rayonlarına bölünmüşdü. Zəngəzurun Ermənistana verilmiş hissəsində sovet dövlət rəhbərliyinin bilavasitə iştirakı ilə Ermənistan tərəfindən respublikanın azərbaycanlı əhalisinin 1948-1953-cü illərdə deportasiyası oldu. 1987-ci ilin noyabrında Qafan və Mehri rayonlarının azərbaycanlılarına qarşı yenidən deportasiya başlamışdır. Sonuncu azərbaycanlı kəndi – Zəngəzurun Nüvədi kəndinin əhalisi 1991-ci ilin avqustunda deportasiya edilib.

Azərbaycanın tarixi Zəngəzur bölgəsinin bir hissəsinin Sovet Rusiyası tərəfindən Ermənistana verilməsi, digər hissəsinin isə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsilə tarixi Zəngəzur torpaqlarının ələ keçirilməsi başa çatdırılmışdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Əlizadə, R. (2022). Zəngəzur azərbaycanlıların ulu yurd yeridir. Nazir Əhmədlinin kitabi tarixi faktlarla zəngindir. Şərq qəzeti. 22 fevral, № 33, s.6.
2. İsgəndərov, A. (2021). Tarixin dərinliyindən boylanan Zəngəzur. Xalq qəzeti. 20 noyabr, № 251, s.1,6.
3. Mustafa, N.Y. (2022). Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar. (1905-1906). Bakı: “Elm və təhsil”, s.203.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 126-129
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 126-129
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Rahibə Əliyeva**
AMEA Memarlıq və İncəsənət İnstitutu
memarlıq üzrə fəlsəfə doktoru
rahibe_eliyeva@mail.ru

# İRƏVANDA AZƏRBAYCANIN TARİXİ MƏDƏNİ İRSİNİN MƏHVİ

***Açar sözlər:*** *İrəvan, memarlıq, mədəi irs, Təpəbaşı, məhəllə*
***Keywords:*** *Iravan, architecture, cultural heritage, Tepebashi, neighborhood*

İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı, onun əsas məhəllələrindən olan Təpəbaşı məhəlləsinin taleyi Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərin silinməsi kimi qiymətləndirilə bilər. Şəhərin Təpəbaşı məhəlləsində yerləşən Azərbaycan xalqının milli-mədəni, tarixi irsinə qarşı Ermənistanın həyata keçirdiyi mədəni soyqırım prosesi ilə bağlı Azərbaycanın bir qrup elm xadimi və ictimaiyyət nümayəndələri tərəfindən UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlanmışdır. Müraciəti imzalayan 102 nəfər tanınmış elm və ictimaiyyət xadimi UNESCO-nu xalqımızın zəngin tarixi-mədəni irsinin ermənilər tərəfindən məhv edilməsinin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırmışdır. Müraciəti ünvanlayanlardan biri də məhz məqalənin müəllifi olmuşdur.

1728-ci ildə Osmanlı dövlət məmurları tərəfindən tərtib olunmuş “İrəvan əyalətinin müfəssəl dəftəri”nə görə, bu dövrdə İrəvan şəhəri 4 məhəllədən – Köhnə şəhər, Dəmirbulaq, Dərəkənd və Təpəbaşı məhəllələrindən ibarət olmuşdur. “Təpəbaşı” məhəlləsi şəhərin qərb hissəsində yerləşirdi. Şəhri məhəlləsi ilə Təpəbaşını çoxlu bağlar ayırıb. Ümumiyyətlə, XVIII-XIX əsrin əvvəllərində – xanlıqlar dövründə İrəvan yaşıllıqlara qərq olmuş bir şəhər olmuşdur. Həm də burada – Təpəbaşı məhəlləsində İrəvan xanı Hüseynqulu xana məxsus Xan bağı da yerləşib (Hüseynov, 2022: 141).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Təpəbaşı məhəlləsinin Azərbaycan xalqına məxsusluğuna dair tarixi faktlar Təpəbaşı məhəlləsindəki məscidlər, hamamlar, islam memarlıq nümunələri sübut edir. Təpəbaşı məhəlləsi İrəvanın qərb hissəsini əhatə edirdi. Sahəsi 19 kv.m olan məhəllə özü də 6 coğrafi səciyyəli ərazilərə bölünmüşdür:

1. Kənəkir yolundan solda yerləşən Abihəyat məhəlləsi;
2. Zəngi çayının solunda, Kənəkir kəndindən aşağıda yerləşən Qızılqala məhəlləsi;
3. Zənginin həmin tərəfində, Qızılqala məhəlləsindən aşağıda yerləşən Dərəbağ məhəlləsi;
4. Körpüdən yuxarıda, həmin yerdə yerləşən Dərəkənd məhəlləsi;
5. Zənginin digər tərəfində, Dərəbağla üz-üzə yerləşən Dəlmə məhəlləsi;
6. Noraguğ məhəlləsi.

1831-ci ildə İrəvan şəhərinin Təpəbaşı hissəsində tatarlardan, yəni Azərbaycan türklərindən ibarət 594 ailə, 1333 kişi, 1264 qadın, cəmi 2537 nəfər qeydə alınmışdı. Kameral təsvirdə 1831-ci ildə Təpəbaşı məhəlləsində Hüseynəli xan məscidi və Hacı İmamverdi məscidi göstərilib. Bu məscidlərdən başqa, bir neçə də uçmuş məscidlər var ki, onlar burada qeyd olunmayıb.Təpəbaşı məhəlləsində 1831-ci ildə 5 hamam olmuşdur: 1) Hacı Bəyim hamamı; 2) Hacı Əli hamamı; 3) Qafar və Hacı Fətəli hamamı; 4) Kərim bəy hamamı; 5) Şeyxülislam hamamı (2).

XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar (3). Hazırda Ermənistan milli arxivində saxlanılan kameral təsvirlər həmin küçə və məhəllələrin 190 il öncə inventarlaşdırılmasını və etnik tərkibini göstərən sübutlardır. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edirdi. Dini tikililərdən Göy məscid bu gün İrəvanda salamat qalan yeganə məsciddir. Bu məscid də Təpəbaşının ərazisindədir. Göy məscid Hüseynəli xan tərəfindən inşa edilib. Son araşdırmalarda Hüseynəli xanın məhz Göy məsciddə dəfn olunduğu barədə məlumatlara da rast gəlinir. Göy

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

məscidin həyətindəki 1790-cı ilə aid daş kitabə xanın ailəsindən olan qadınlardan birinə aiddir. Göy məscidlə bağlı bütün sənədlər Azərbaycan arxivindədir. Ermənilər Azərbaycanın izini bu yerlərdən silmək məqsədilə, Göy məscidi fars məscidi kimi dünyaya təbliğ edir. İran tərəfindən Göy məscidin İran məscidi adlandırılması qəbuledilməzdir. Ermənistan dövləti Təpəbaşıda yerləşən Hacı İmamverdi məscidinin tarixini saxtalaşdıraraq fars məscidi kimi dövlət qeydiyyatına alsa da, abidənin qorunması ilə bağlı heç bir tədbir görülmür və onun uçulub dağılmasına şərait yaradılır. İrəvanda Göy məscid fars məscidləri kimi qələmə verilərək İran İslam Respublikası mütəxəssislərinə, Naxçıvan memarlıq məktəbinin bariz nümunəsi olan İrəvan ərazisində inşa olunmuş Əmir Səəd türbəsi isə türkmən türbəsi kimi Türkmənistan Respublikası tərəfindən bərpa olunmuşdur. Bununla onlar özlərini "tolerant" ölkə kimi dünyaya təqdim edirlər. İrəvan şəhərində azərbaycanlılara məxsus tikililər, məhəllələr dağıdılmış, son Təpəbaşı məhəlləsinin dağıdılması sahəsində işlər planlaşdırılır. İndi ərazisinin 16 hektarı qalan Təpəbaşındakı abidələrin qalıqları da buranın Azərbaycan xalqının tarixi-mədəni irsinin bir parçası olduğunu sübut edir (Guseynov, 2017).

Ümid edirik ki, UNESCO-nun rəhbərliyi ona ünvanlanan müraciətə etinasız qalmayacaq və tarixi, memarlıq və hüquqi aspektlərdə Azərbaycan xalqına məxsus Təpəbaşı məhəlləsinin bərpasına, erməni vandalizmindən xilas olmasına öz köməyini göstərəcək.

## Ədəbiyyat

1. Hüseynov, S. İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi: Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi. Albom, 141 s.
2. https://www.azerbaijan-news.az/az/posts/detail/ermenistan-terefinden-irevan-seherinin-sonuncu-tarixi-numunesi-de-mehv-edilmekdedir-1657142349

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

3. https://azertag.az/xeber/Irevanin_Tepebasi_mehellesi_Umumdunya_irsi_kimi_qorunmalidir-2245190
4. Guseynov, R. (2017). Istoricheskiy tsentr Yerevana. Khronologiya unichtozheniya i prisvoyeniya. Nauchnyye doklady, Baku.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 130-133
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 130-133
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Ramil Niftəliyev**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
ramil.niftaliyev.67@mail.ru

# QAÇAQ NƏBİNİN DƏSTƏSİ HAQQINDA

***Açar sözlər:*** *Şimali Azərbaycan, Zəngəzur, Mollu kəndi, qaçaq dəstəsi, qaçaq Nəbi, "Qafqaz" qəzeti*
***Keywords:*** *Northern Azerbaijan, Zangazur, Mollu village, fugitive gang, fugitive Nabi, the newspaper "Gafgaz"*

Şimali Azərbaycanın işğalının gedişində və işğaldan sonrakı illərdə baş qaldıran xalq-azadlıq hərəkatı 1917-ciılədək müxtəlif formalarda təzahür etmişdir. İşğal olunmuş Şimali Azərbaycanın bütün bölgələrində xalq-azadlıq hərəkatının ən geniş yayılmış formalarından biri də ayrı-ayrı dəstələrdə birləşərək mübarizə aparan qaçaq-partizan hərəkatı idi. Qaçaq-partizan hərəkatında xalqımızın bütün zümrələrin nümayəndələri təmsil olunurdu. Belə qaçaq-partizan dəstələrindən biri də qaçaq Nəbinin dəstəsi olmuşdur.

Nəbi erkən yaşlarında qaçaq dəstəsi təşkil edərək, partizan hərəkatına qoşulmuşdu. 1895-ci il 5 may 117 saylı "Qafqaz" qəzeti "Zəngəzur qəzasının Mollu kənd sakini olan Nəbi 5-6 il əvvəl quldurluğa görə İrəvan qəza məhkəməsinin qərarı ilə katorga işlərinə təhkim olunmuşdu. Naxçıvandan Şuşaya Yelizavetpol qəza məhkəməsinə digər cinayətləri ilə bağlı mühakimə edilmək üçün göndərilən Nəbi yolda qaça bilmişdi" yazırdı (Kavkazskiye vesti. 5 maya 1895 goda). 1874-cü ilin Zəngəzur qəzasının kameral təsvirinə görə Mollu kənd sakini Alməmməd Köçəri oğlunun 29 yaşlı Məhərrəm və 6 yaşlı Nəbi adlı iki oğlu olmuşdur (Əhmədli, 2021:467). "Qafqaz" qəzeti axtarışa verilən qaçaq Nəbinin əlamətlərini belə təsvir edirdi: "Orta boylu, dolu bədən quruluşlu, enli kürək, qarabuğdayı, qəhvəyi gözlü, alnı çıxıntılı, sifəti təmiz, nazik və qısa bığlı, başın sağ tərəfində diş ətinin altında və arxa tərəfində, eləcə də

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bədənində onurğada sağalmış yara izləri vardır". (Kazennyye obyavleniya. 18 yanvarya 1895 goda). Qaçaq Nəbi dəfələrlə həbs olunmuş və silahdaşlarının köməyi ilə həbsxanadan qaça bilmişdi (Əliyev, 1858:170).

1892-ci ildə qaçaq Nəbinin dəstəsi qaçaq Əkbər kərbalayi Əskər oğlunun dəstəsi ilə birləşərək qüvvələrini səfərbər edir. Bu zaman Nəbinin dəstəsinə qaçaq Əkbərin dəstəsinin üzvləri, Əkbərin qardaşı Məmməd, kərbalayi Riza kərbalayi Ağa kişi oğlu və Abbas İrzaqulu oğlu kimi qaçaqlar qoşulmuşdular. 1895-ci ilin iyulun 12-15-də keçirilən məhkəmənin qərarı ilə ələ keçirilən Məmməd, kərbalayi Riza dar ağacından asılmış, Abbas isə katorga sürgününə göndərilmişdi (Sudebnaya khronika. 23-go avgusta 1895 goda). Nəbinin dəstəsinə ilk qoşulanlardan biri xalq arasında onun qardaşı kimi tanınan Mehdi oldu. Mehdi bütün əməliyyatlarda onunla birlikdə olmuşdu. O, 1894-cü ildə iyulun 20-də Mehdi Qarçıvan kəndində erməni hampaları tərəfindəndən öldürülmüşdü (Bəhcət, 2011:226).

Dəstədə Nəbinin ən çox güvəndiyi qaçaqlardan biri sofulu Balakişi idi. Dağtumaşlı Allahverdi Nəbinin köhnə dostlarından idi. Bundan başqa Xıdır, Lətif, Atakişi, Telli Qara, Tuzvəlli, İsgəndər, Mollu Kərim, Qoca dəstənin daimi üzvləri idilər (Bəhcət, 226). Nəbi Əbrəqunis dağlarına gəldiyi zaman, həmin bölgənin Başkənd sakini Şahhüseyn və onun qardaşları da hökumət tərəfindən təqiblərə məruz qaldığından Nəbinin dəstəsinə qoşulmuşdular. Onun dəstəsinə qoşulmuş Şahhüseyn və onun qardaşları olan Ağahüseyn, Məmmədhüseyn və Gülhüseyn kimi qaçaqlar hökumət qüvvələrinə qarşı böyük şücaət göstərmişdilər (Əliyev, 1858:171). Onun dəstəsində döyüşən Yelizavetpol qəzasınım Qalakənd-Əyrisli kəndindən olan İmamqulu Allahverdi oğlu, Naxçıvan qəzasınım Disar kəndindən olan Mahmud bəy Murad bəy oğlu daha çox axtarışda hallanırdı (Kazennyye obyavleniya. Kavkaz, 18 yanvarya 1895 goda).

Dəstəsi seçilmişlərdən təşkil olunduğu üçün sayca dəfələrlə üstün olan hərbi və ya polis dəstələrinin mühasirəsindən müvəffəqiyyətlə qurtula bilirdi (Iz Zangazurskogo uyezda nam pishut. 9-go iyunya 1893 goda). Nəbinin həyat yoldaşı Həcər də

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

onunla birlikdə çar hərbi hissələrinə qapşı vuruşmalarda yaxından iştirak etmiş və xalq arasında tanınmışdı. Qori müəllimlər seminariyasının məzunu, uzun müddət Gorus məktəbinin müdiri olmuş P.Vostrikovun yazdığına görə "Həcər xanım da Nəbi kimi çox cəld silah işlədir, atının sürətli çapacağında belə gülləsi hədəfdən yayınmırdı. Həcər həm də Nəbinin ən birinci köməkçisi idi" (Vostrikov, 1912:38).

Hökumət dairələri Nəbinin adını eşidəndə canlarına qorxu düşdüyü üçün çox vaxt Borçalı qaçağı Nəbi Süleyman oğlunu (Kazennyye obyavleniya. 1-go sentyabrya 1893 goda), Quba bölgəsində mübarizə aparan qaçaq Ləzgi Nəbini onunla səhv salırdılar (Razboynik Nabi. 11-go iyulya 1895 goda).

Qaçaq Nəbi öldürüldükdən sonra silahdaşlarının bir neçəsi ələ keçirilməklə məhv edildilər. Şahhüseyn, Məmmədhüseyn və digərləri Dırnıs dərəsində öldürüldülər. Nəbinin yaxın dostu Musa Məhəmmədhəsən oğlu həbs edilib hərbi məhkəməyə verildi (Cəfərov, 2003:165). 1898-ci ildə Qaçaq Nəbinin dəstəsindən olan qaçaq Hüseyn Cənubi Azərbaycanda ələ keçirildi (Mestnaya letopis. 13-go fevralya 1898 goda). Nəbinin silahdaşları Söyün, Dəli Alı, Məmməd Abuzər oğlu öldürüldülər (Korrespondentsiya «Kaspiya». 19-go fevralya 1898 goda). Lakin onun dəstəsində döyüşən Həsən Qara və kərbalayi Gülməmməd Pirməmməd oğlu sonralar da qaçaq-partizan mübarizəsini davam etdirmişdilər (Kazennyye obyavleniye. 11-go yanvarya 1900 goda).

Beləliklə, dövrünün ən yaxşılarını ətrafına yığaraq özbaşınalığın baş alıb getdiyi bir cəmiyyətin ədalətsiz rejiminə, çarizmin çərçivəsiz müstəmləkə zülmünə qarşı mübarizə aparan qaçaq Nəbinin dəstəsi az müddət fəaliyyət göstərməsinə baxmayaraq xalqımızın qaçaq-partizan müqavimət hərəkatı tarixində qəhrəmanlıq səlnaməsini yazdı. Qaçaq Nəbi və onun dəstəsinin üzvləri Azərbaycanımızın həm şimalında, həm də cənubunda xalq tərəfindən ən sevimli qonaq kimi qarşılanır və onlarla fəxr edilirdi. Elə buna görədir ki, qaçaq Nəbi xalq qəhrəmanı səviyyəsinə yüksəlmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Kavkazskiye vesti. Sel. Gerusy, Zangezurskogo uyezda, 26-go aprelya. Kavkaz, 5 maya 1895 goda.
2. Əhmədli, N. (2021). Zəngəzur qəzasının kameral təsviri. 1874-cü il. Bakı: Elm və təhsil, 800 s.
3. Kazennyye obyavleniya. Kavkaz, 18 yanvarya 1895 goda.
4. Əliyev, Ə. (1858). Qaçaq Nəbi. Azərbaycan, № 11, s.167-178.
5. Sudebnaya khronika. Delo o razboyakh. Kavkaz, 23-go avgusta 1895 goda.
6. Bəhcət, B. (2011). Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə). Bakı: Çıraq, 296 s.
7. Iz Zangazurskogo uyezda nam pishut. Kavkaz, 9-go iyunya 1893 goda.
8. Vostrikov, P. (1912). Muzyka i pesni u aderbeydzhanskikh tatar. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. Vypusk 42. Tiflis: Tipografiya kantselyariy namestnika yego imperatorskogo velichestva na Kavkaze, Otdel II, s.1-39.
9. Kazennyye obyavleniye. Kavkaz, 1-go sentyabrya 1893 goda.
10. Razboynik Nabi. Kavkaz. 11-go iyulya 1895 goda.
11. Cəfərov, F. (2003). XIX əsrin axırları XX əsrin əvvəllərində polis orqanlarının fəaliyyəti və kəndli-qaçaq hərəkatına qarşı mübarizə. Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri. Bakı, № 4, s.163-166.
12. Mestnaya letopis. Poimka razboynika. Kaspiy, 13-go fevralya 1898 goda.
13. Korrespondentsiya «Kaspiya». Yelizavetpol. Kaspiy, 19-go fevralya 1898 goda.
14. Kazennyye obyavleniye. Kavkaz, 11-go yanvarya 1900 goda.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Zülfiyyə Salayeva**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bioresurslar İnstitutu
biologiya üzrə fəlsəfə doktoru
zulfiyyasalayeva@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASININ (ZƏNGƏZUR MİLLİ PARKI) NADİR NÖVÜ - *MERENDERA RADDEANA* REGEL

***Açar sözlər:*** *Milli park, geofit, nadir, danaqıran, vaxtsızotu, mühafizə*
***Keywords:*** *National park, geophyte, rare, merendera, colchicum, protection*

*"Ətraf mühitə insani münasibət göstərilməsi, biomüxtəlifliyin qorunub saxlanılması bizim gələcəyimiz üçün çox vacibdir. Biz təbiətdən təcrid olunmuş şəkildə yaşaya bilmərik".*

**Heydər Əliyev**

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, biomüxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi sahəsində mühüm əməli işlər aparılır. 2009-cu ilin noyabr ayından Naxçıvan yüksək dağlığı, o cümlədən Şahbuz Dövlət Təbiət Qoruğu və Ordubad Milli Parkının əraziləri birləşdirilərək akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı elan edilmişdir. Ərazidə təbiət qayğı ilə qorunur və burada coğrafiya, biologiya elmləri, eləcə də ekologiya sahəsində elmi-tədqiqat işləri aparılır. Milli Parkında 110 növ nadir bitki yayıldığı müəyyən edilmişdir (Talıbov, Seyidov, İbrahimov, Qasımov, Ələkbərov, 2019: 426). O cümlədən *Colchidales* sırasına daxil olan nadir və itmək təhlükəsində olan növlər araşdırılmış, onların qorunması və bərpasında müəyyən əməli işlər görmüşdür (İbadullayeva, Salayeva, 2009: 99-104; Salayeva, 2001: 93-98; Talıbov, İbrahimov 2021: 67-68).

*Colchicaceae* DC. − Vaxtsızotukimilər fəsiləsinin 70

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

növündən Qafqazda 13, Azərbaycada 9 növünə rast gəlinir. Naxçıvan Muxtar Respublikası florasında isə fəsilənin iki *Colchicum L. və Merendera* Ramond cinlərinə daxil olan 5 növü yayılmışdır.

*Merendera* Ramond − Danaqıran cinsinin növləri çoxillik və soğanaqlı yumrusu olan geofit bitkilərdir. Çiçəkyanlığı iri, qıfvari və sərbəst ləçəkli, büküş payı uzunsov, ensiz, əsası sapşəkilli və ya dişcikli əlavəli, dırnaqcıq uzun, xətti-sapvaridir. Erkəkcikləri büküşün əsasına birləşibdir. Yumurtalıq 3 yuvalı, sütuncuq 3 ədəd və sərbəstdir. Meyvələri qutucuqdur. Cinsinin Avropada, Aralıq dənizi və İran-Turan floristik rayonlarında 15, Azərbaycanda 3, muxtar respublikada isə 2 növü yayılmışdır (Talıbov, İbrahimov, 2021: 52).

*Merendera raddeana* − Radde danaqıranı. Soğanağı zərif, qəhvəyi pərdəli qınla örtülü, hündürlüyü 7-13 sm olub, geofit bitkidir. Yarpaqları xətti-neştərvari, küttəhər və çiçək yatağından uzun və ya ona bərabərdir. Çiçək yatağının lövhələri xətti-elliptik, küt, uzun, bəzən sapşəkilli dişciklidir, açıq çəhrayı rənglidir. Erkəkcikləri büküşdən qısa, tozluqları mavidir. Bitki mart ayında çiçəkləyir, aprel ayında toxum verir. Mezofit bitkidir. Atropatan coğrafi areal tipinə daxildir.

Alp qurşağın otlu yamaclarında Salvardı, Qapıcıq, Soyuqdağ, Göygöl ərazilərinin mezofit çəmənlərində rast gəlinir. Erkən yaz bitkisi olub, qar əriyəndə çiçəkləyir. -20°C şaxtaya davam gətirə bilir. Bəzək bitkisidir.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 134-137
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 134-137
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1



**Radde danaqıranı − *Merendera raddeana* Regel**

Təbiətdə kiçik soğanaqlarla vegetativ yolla və toxumla çoxalır. Əlverişsiz hava şəraitində (yağış, duman) əksəriyyət çiçəklər mayalanmadığı üçün bitki bəzən tək bir toxum belə əmələ gətirmir. Bu səbəbdən bitkilərin toxumla çoxalması zəif olur. Ərazilərin mal-qara tərəfindən nizamsız otarılması, bəzək bitkisi olduğundan çiçək və soğanaqlarının əhali tərəfindən kütləvi toplanması, müxtəlif ekoloji amillərin mənfi təsiri Radde danaqıranın azalmasına və tədricən məhv olmasına səbəb ola bilər. Məhdud ərazilərdə yayıldıqlarından təbii ehtiyatı çox azdır.

***Zəruri mühafizə tədbirləri:*** Növ “Qırmızı Kitab”a yeni daxil edilmişdir. Bitdiyi sahələrdə populyasiyalarının vəziyyəti öyrənilməli Radde danaqıranı nəzarət altına alınmalıdır. Yayıldığı ərazilərdə monitorinqlər aparılmalı, bitkinin toplanmasına nəzarət olunmalı.

Ərazidə mövcud olan nadir bitki növlərinin çoxluğunu və gələcəkdə az-çox dərəcədə bu növlərin tədricən yox olma ehtimalını nəzərə alaraq, Milli parkda ətraf mühitin ekoloji tarazlığının qorunması məqsədi ilə nadir və nəsli kəsilmək təhlükəsində olan yerli bitki növlərinin seçilməsi, reintroduksiyası və onların bioekoloji xüsusiyyətlərinin öyrənilməsi daim müntəzəm olaraq həyata keçirilir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

“*Azərbaycanda təbiətin qorunması bizim gələcəyimizlə bağlı məsələdir. Azərbaycanın çox gözəl təbiəti, iqlimi vardır. Biz hamımız bu təbiəti qorumalıyıq”...*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

## Ədəbiyyat

1. Talıbov, T.H., İbrahimov, Ə.Ş. (2021). Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örülütoxumlu bitkilər). II nəşr. Bakı: Şirvannəşr, 426 s.
2. İbadullayeva, S.C., Salayeva, Z.K. (2009). Naxçıvan MR florasında məhv olma təhlükəsi altında olan bəzi bitkilərin mühafizəsi haqqında “İnsan və Biosfer” (MaB YUNESKO) Azərbaycan Milli Komitəsinin Əsərləri, Buraxılış 5, Bakı, s.99-104.
3. Salayeva, Z.K. (2001). Ordubad rayonunun bəzi geofit bitkiləri və onların mühafizəsi Naxçıvan Regional Elm Mərkəzinin əsərləri, VI buraxılış, s.93-98.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 138-141
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 138-141
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Sevda Abdullayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
tarix üzrə fəlsəfə doktoru
sevda.abdullayeva.1986@mail.com
https://orcid.org/0000-0003-1656-0945

# ZƏNGƏZUR BÖLGƏSİNİN TARİXİNƏ DAHA BİR BAXIŞ

***Açar sözlər:*** *Zəngəzur, ərazi, bölgə, tayfa, köçürülmə*
***Keywords:*** *Zangazur, territory, region, tribe, resettlement*

“Zəngəzur” toponimi bu bölgələrdə yaşayan zəngi tayfalarının adı və ərəblərin bu torpaqlara gəlişi ilə bağlıdır. Ərəb dilində “sur”, “daş”, “divar”, “qala”, “qüllə” deməkdir. Zəngi tayfalarının vətəni Orta Asiya, daha dəqiq desək, indiki Özbəkistanın torpaqlarıdır. Eramızın əvvəllərindən daha geniş ərazilərə yayılmış Zəngi tayfalarının ən qədim yaşayış məskənlərindən biri də Cənubi Azərbaycanda Zəncan bölgəsidir. Ona görə də Zəngəzur toponimi bu yerin geniş əraziyə yayılmış və tarixi qeydlərdə güclü tayfa kimi tanınan Zəngilərlə bağlı olduğunu göstərir.

Zəngəzur torpağı eramızdan əvvəl IV əsrdən eramızın VIII əsrinə qədər Qafqaz Albaniyası dövlətinin və Sasani imperiyasının, müntəzəm olaraq, VII-IX əsrlərdə Ərəb xilafəti, IX-XI əsrlərdə Saci, Salari və Rəvvadilər dövlətləri, XII-XIII əsrin əvvəllərində Azərbaycan Atabəylər dövləti, XIII-XIV əsrlərdə Hülakülər dövləti, XIV əsrin sonu-XV əsrin əvvəllərində Cəlairilər dövləti və XV əsrdə Böyük Teymurilər dövləti, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, XVI əsrin əvvəllərində Səfəvilər dövlətinin tərkibində olmuşdur. XVI əsrdə baş vermiş Səfəvi-Osmanlı müharibələri və XVII-XVIII əsrlərin qovuşduğu dövrdə (1590−1612 və 1724−1735) Osmanlı hakimiyyəti altında olan Zəngəzur torpaqları xanlıq dövründə Qarabağ xanlığına məxsus idi. 19-cu əsrin əvvəllərində Cənubi Qafqazın Rusiya çarlığı tərəfindən işğalı başa çatdı. 1850-ci illərdə Zəngəzur

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Şamaxı quberniyasının, 1860-cı illərdə Bakı və İrəvan quberniyalarının tərkibinə daxil edilmişdir.

1861-ci ildə Zəngəzur qəzası ayrıca inzibati vahid kimi yaradılmışdır. Mərkəzi Gorus olan Zəngəzur şəhəri 1867-ci ilin dekabrında yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. Zəngəzur rayonu Araz çayı boyunca cənubdan Cavanşir, Şuşa, Naxçıvan qəzaları və İranla əhatə olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti (1918−1920) dövründə Qarabağ quberniyasının dörd mahalından biri olan Zəngəzur torpağı 7824 $km^2$ idi. 1920-ci il aprelin 28-də Qızıl Ordu Azərbaycanı işğal etdi və burada sovet rejimi quruldu. Eynilə, 1920-ci il noyabrın 29-da Ermənistanda sovet rejimi quruldu. 1920-ci il noyabrın 30-da Azərbaycan KP MK-nın Siyasi və Təşkilat Komitəsinin iclasında Ermənistanla əlaqələr məsələsi müzakirə edildi və aparılan danışıqlar nəticəsində Zəngəzur rayonunun Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd olmadığını əsas gətirərək Ermənistan ərazisi tərkibinə daxil edilməsi qərara alındı. 1920-ci ilə qədər, yəni Ermənistan SSR ərazisinə keçənədək Zəngəzur qəzası dörd müstəqil vilayətdən ibarət idi: Mehri, Qafan, Zəngəzur (qəzanın mərkəzi Gorus şəhəri idi) və Sisyan. 1930-cu ildə Mehri rayonunun torpağında Ermənistan SSR-in tərkibinə daxil olan Mehri quberniyası və Azərbaycan SSR-in tərkibinə daxil olan Zəngilan quberniyası yaradıldı. Yenə 1930-cu ildə Qafan rayonunun bir hissəsi Qafan quberniyası kimi Ermənistan SSR-ə birləşdirildi. Qalan hissədə isə 1933-cü ildə yaradılmış Qubadlı quberniyası Azərbaycan SSR-in sərhədlərinə daxil edilmişdir. Eynilə, Zəngəzur qəzasında yerləşən və eyniadlı Zəngəzur quberniyası 1930-cu ildə iki yerə bölünərək Gorus və Laçın quberniyalarını, Gorus quberniyasını Ermənistan SSR, Laçın quberniyasını isə Azərbaycan SSR sərhədlərinə daxil etdi. Beləliklə, Zəngəzur bölgəsinin qərb hissələri Ermənistan torpaqları ilə birləşdirildi, nəinki Azərbaycanla Türkiyə arasında quru əlaqəsi aradan qaldırıldı, həm də Azərbaycanın əsas payı olan Naxçıvan, Naxçıvan və Türkiyə arasında quru əlaqəsi kəsildi. 1932-ci ildə Tehranda imzalanan Türkiyə-İran Sərhəd Müqaviləsi

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

müddəalarına uyğun olaraq Ağrı dağı bütövlükdə Türkiyəyə verilsə də, Van ətrafındakı (Kotur mahalı və ətrafı) bir qədər torpaq İrana buraxıldı. Bu müqavilə çərçivəsində Mustafa Kamal Atatürkün birbaşa təşəbbüsü ilə İranla torpaq mübadiləsi aparıldı və İğdır vilayətinin şərqində yerləşən Aralıq mahalının Dilucu bölgəsi Türkiyə sərhədlərinə daxil edildi. Türkiyə ilə Naxçıvan arasında isə 17706 km sərhəd əldə edilib. Bu gün Zəngəzur rayonunun ərazisi əsasən indiki Ermənistan Respublikasının Gorus, Sisian, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan vilayətlərini əhatə edir. Rayon zəngin mis və duz mədənləri, karxanaları, sulu torpaqları, geniş meşə sahələri, əkinçilik və heyvandarlıq torpaqları ilə tanınır. Rayonun müəyyən hissələrinin dağlıq torpaqlarla örtülməsi burada sulu və axar çayların əmələ gəlməsini təmin edən ən mühüm amillərdəndir. Digər tərəfdən, Zəngəzur Böyük İpək Yolu üzərində yerləşdiyinə görə sənətkarlığın və ticarətin inkişaf etdiyi, rifah səviyyəsinin yüksək olduğu bölgələrdən biri kimi tanınır. Zəngəzur rayonunun strateji yerləşməsi və münbit torpaqları onun tarix boyu hakimiyyət davalarının mərkəzində olmasına səbəb olmuşdur. Bu münaqişələr bölgədə zərdüştilik, xristian və islam dinlərinin yayılmasına şərait yaratdı. Zəngəzurun Böyük Səlcuqlular, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər kimi türk dövlətlərinin idarəsində qalması nəticəsində burada dini inanc və etnik mənsubiyyət baxımından türk-islam kimliyi üstünlük təşkil edirdi. Şərqdən qərbə uzanan Böyük İpək Yolunun əsas nöqtələrinə nəzarət etmək, Qafqaz və Orta Asiya kimi böyük xammal ehtiyatlarına sahib olmaq və sərhədlərini isti dənizlər üzərində qurmaq istəyən Rusiya çarlığı, daha sonra isə dini və SSRİ-nin apardığı etnofederalizm siyasəti nəticəsində Zəngəzurun etnik kimlik strukturu əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Rus çarı bu torpaqlarda erməni əhalisinin sayını artırmaq üçün İran və Osmanlı torpaqlarından minlərlə erməni köçürüb bölgəyə yerləşdirdi. 19-cu əsrin əvvəllərində Rusiya Çar administrasiyası işğal olunmuş ərazilərdə əhalinin sayını qeyd edərkən müsəlmanlardan fərqli olaraq erməniləri iki ayrı qrup kimi qeydə almışdır. Birinci qrup “keçmiş sakinlər”, ikinci qrup isə “yeni

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

gələnlər" adlanırdı. Bu "yeni gələnlər" hesabına keçmiş Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının torpaqlarında etnik mənzərə tədricən ermənilərin xeyrinə dəyişdi. Ona görə də strateji planlarına uyğun olaraq Zəngəzurda hökmranlıq etməyi qarşısına məqsəd qoyan ruslar üçün bölgə əhalisi arasında tərəfdarlar böyük əhəmiyyət kəsb edirdi. Zəngəzuru və bütün Cənubi Qafqazı öz nəzarəti altına alan Rusiya regionda digər iki böyük ənənəvi gücə – İran və Türkiyəyə nəzarət etməyi qarşısına məqsəd qoymuşdu. 20-ci əsrin əvvəllərində Romanovlar sülaləsi Rusiya çarlığı daxilində sosial gərginliyi aradan qaldırmaq, ictimaiyyətin diqqətini problemlərdən başqa məsələlərə yönəltmək üçün milli qarşıdurmaları qızışdırmaqdan da çəkinmirdi. Belə siyasətin ən bariz nümunələrindən biri 1905–1906-cı illərdə Zəngəzurda baş vermiş erməni-müsəlman münaqişəsidir. Bu dövrdə Rusiya çarının təxribatı ilə ermənilər bölgədə əhali üstünlüyünü təmin etmək məqsədilə müsəlman əhaliyə qarşı qırğınlar həyata keçirmişlər. Oktyabr inqilabının mürəkkəb dövründə – 1917–1922-ci illər arasında Zəngəzurun müsəlman əhalisi ikinci dəfə bolşevik Rusiyası tərəfindən erməni qırğınına və sürgünə məruz qalmış, bundan sonra əhalinin böyük hissəsi öz vətənlərinə dönə bilməmişdir. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəlini əhatə edən SSRİ dövründə Ermənistan açıq şəkildə Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək hərbi əməliyyata başlayıb. 1988–1992-ci illərdə Dağlıq Qarabağda baş vermiş münaqişə nəticəsində Zəngəzurun şərqi də ermənilər tərəfindən işğal edilmiş və bundan sonra baş vermiş etnik təmizləmə nəticəsində 1 milyondan çox müsəlman Azərbaycanın sərhədlərində yaşamışdır.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 142-145
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 142-145
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Leyla Majidova**
Lankaran State University
Ph.D in history
kamelia-76@mail.ru
https://orcid.org/0000-0001-9165-5114
**Khanim Ahadli**
Lankaran State University
master student
xanimehedli@gmail.com
https://orcid.org/0000-0001-5205-0040

# HISTORICAL MONUMENTS OF ZANGAZUR

***Keywords:*** *Azerbaijan, Zangazur, epigraphic, cave, rocky*
***Açar sözlər:*** *Azərbaycan, Zəngəzur, epiqrafik, mağara, qayalı*

Epigraphic monuments have an important place in the study of the history of medieval Azerbaijan. By writing many historical stories on stone tablets and engraving inscriptions on the monuments, the people have left very rich and valuable chronicles related to a number of socio-economic problems and cultural history. Throughout the Middle Ages, the caravan trade routes connecting the Eastern world with Europe passed through Azerbaijan.

Stone carvings have left an indelible mark on Azerbaijani culture. In recent years, researchers have been studying the ancient writings existing in Azerbaijan in more detail. Every writing, image that comes across confirms that our nation is the bearer of ancient culture.

An example of this is the Azikh cave discovered in the foothills of the Greater and Lesser Caucasus Mountains, Talish Mountains, Nakhchivan MR, Zangilan, Kalbajar, Gadabey, Goygol, Shamakhi, and finally Fuzuli region. The research conducted in such caves shows that the primitive people who lived here 1.5 million years ago had to adapt their living to the conditions in the caves, but later due to the development of

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

consciousness and the creation of some labor and construction tools, they tried to adapt the natural caves they lived in to their lifestyle.

The opening of a hole (chimney) in the ceiling to expel the smoke of a burnt furnace in the middle of the cave, or the opening of special holes in the inner wall surface of the cave to store certain necessary supplies, is a clear proof of this.

Thousands of years ago, inscriptions engraved on tombstones, rock tops, and pots are among the oldest examples of our culture. Let me also mention that the emergence of stone inscriptions has always aroused interest in science.

The territory of Azerbaijan has been inhabited by people since ancient times, and different tribes have lived in the northern and southern territories since ancient times. The clear impression that every researcher gets from ancient sources is also found in the studies and researches of a number of our outstanding scientists. Many people take spiritual pleasure in forcibly "basing" the origin of the ancient peoples in the territory of Azerbaijan on the basis of Iranian, Caucasian peoples and their languages. As an example, there are enough historical monuments and archaeological findings that prove that Zangazur is one of the first human settlements. The knowledge about the ancient history of Zangazur is either very little or non-existent. Sheki village of Sisyan region is almost two thousand years old and maybe more. The word Shaki is related to the name of the Sak (Sagat) Turkic tribe that came to the Caucasus in the 7th century BC. Petroglyphs found in Sheki village. Sheki rock paintings indicate the richness of the ancient history of Zangazur. In the Daveboynu and Tagezur mountains, which are the grasslands of Sheki and Saybali (since 1946, Sarnakunk) villages of Sisyan region (located at an altitude of 3000-3300 m above sea level), there are rock paintings with various birds, animals, arrows, and bows drawn on the large rocks from Gobustan. and Gamigaya monuments are similar. It is assumed that these monuments belong to the IV-V millennium BC.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

The petroglyphs in the village of Sheki are similar to the depictions of Gamigaya in Nakhchivan, the petroglyphs in the Kuloba mound near Kerch, Kazakhstan, Siberia-Altai, Urmia, the Volga region, etc. It is similar to the monuments related to Turkish bloodline, Turkish origin, Turkish totem found in places. One of the oldest beliefs of the Turkic tribes (ongon) is the Tibetan bull, and this image is reflected in the Sheki petroglyphs. In the IV-III millennia BC, the transition from the Bronze Age to the Iron Age began with the Turkic-speaking peoples, and the first iron tools they used were arrowheads, and rock images of those iron-tipped arrows have survived to this day in the Sheki monuments.

Stone inscriptions found on the Gargadashi mountain of Nuvedi village are one of the precious material monuments that once again confirm the fact that Zangazur is an ancient human settlement and the origin identity of these people. "The length of the largest of the inscriptions is 1 m, the width is 70 cm, the length of the smallest is 40 cm, and the width is 32 cm. It can be determined from the inscriptions of the inscriptions that the inscriptions in some of the inscriptions are written from right to left, in some from top to bottom, in others from top to right and again to the left. Nuvedi "The Gargadashi monument" belongs to the Gargars, who are the oldest ancestors of the Azerbaijani people, who settled in the South Transcaucasia and Central Asia. The language of the inscription is of Turkic-Sumerian origin. The word Sumer is also used in the inscriptions. This indicates the historical past of the inscription. This also indicates the antiquity of the inscription".

Goshundash monument-tomb complex is one of the valuable monuments that tell about the ancient history and culture of Zangazur. The Goshundash monument dates back to the second millennium BC and is located in the Sisyan district, on a flat hill between the old village of Garakilsa and the village of Kizilcik. The Goshundash monument consists of a large number of huge stones cut into the ground and standing upright. The stones are circular in shape, as if they were "pinned" into the ground by the

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

superhuman strength of giants two thousand years ago. The height of the stones is about 150-220 cm, the width is 60-80 cm. Some stones have one or more holes. Most likely, these holes were designed to pull extremely heavy stones with the force of a trailer. Inside the stone circle is a low mound. The remains of dug roofs still remain in several places in this area. The walls of the roofs are neatly built with large heavy rocks, and the top is covered with huge raft stones.

A small part of the history of Azerbaijan is written about the epigraphic monuments of its ancient lands. Hundreds of epigraphic tombstones and epitaphs on them are preserved in Karabakh and its surroundings. Epigraphic monuments will be re-registered in the near future in those sacred lands of ours, freed from enemy occupation by the historical victories of the mighty Azerbaijan state and its glorious army, and large-scale scientific research will be conducted on these monuments.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 146-148
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 146-148
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Sənubər Həsənova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
samirasalmanova1991@gmail.com

# ZƏNGƏZURUN TARİXİNDƏN

***Açar sözlər:*** *deportasiya, ərazi, faciə, qətl, türk tayfaları*
***Keywords:*** *deportation, territory, tragedy, murder, Turkish tribes*

Tarix təkrarlanır desək, yanılmarıq. XX-ci əsrin 20-ci illəri – XXI əsrin yenə də 20-ci illəri.

Qərbi Azərbaycanın tarixi, coğrafi yerləşməsi, iqtisadiyyatı, etnik tərkibi, əhalisi, maddi-mədəniyyəti ilə yaxından bələd olan hər bir şəxs yaxşı bilir ki, ermənilər zaman-zaman Azərbaycanın torpaqları, xüsusilə Zəngəzur, Göyçə, İrəvan, Qarabağ, Dərələyəz mahallarını zəbt etmiş, həmin ərazilərin Ermənistanın qədim ərazisi olduğunu saxta sənədlərlə sübüt etməyə çalışmışlar.

Zəngəzur ərazi etibarilə Araz çayı boyu Mehridən başlamış Akaraya qədər, şimala doğru isə Zəngəzurun ən yüksək zirvəsi olan Qapıcıq (hündürlüyü 3904 m), Xüsdub (hündürlüyü 3202 m), dağlarına, Zəngəzur sıra dağlarına, Bərğuşat dağlarınadək uzanan ərazini əhatə edir. Mənbələrin göstərdiyi kimi, əhalisinin 70 faizindən çoxu azərbaycanlılar olmuşdur.

Zəngəzurda ermənilər bir sıra tarixi abidələri süni surətdə saxtalaşdıraraq onları xristan kilsəsi, məbədi adlandırılmaqla bu diyarda guya ancaq ermənilərin yaşadıqlarını sübut etməyə cəhd edirlər. Ən qəribəsi budur ki, məbədlərin ermənilərə məxsus olmadığını bildikdən sonra da bunu etiraf etmək istəmir. Qafan rayonundakı Şəhərcik kəndinin 4 km məsafəsində deyilən yaşayış sahəsində bir neçə otaqdan ibarət olan bir binanın xarabalığını 1965-ci ildə Ermənistan Elmlər Akademiyasının tarixçiləri Vəng deyil, Vahanavank (Vahan kilsəsi) adlandıraraq özlərinin hesab etmiş, qeydiyyatdan keçirmişlər.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Alban tarixçisi Moisey Kalankatlı kitabında öz əsərində "Alban tarixi" və həmçinin qarqarlar, xəzərlər, hunlar və digər türk tayfaları barədə məlumat verir.

Erkən orta əsrlərdə Zəngəzur Azərbaycanın Skif imperiyası, Atropatena və həmçinin Albaniya dövlətinin tərkibində idi.

Moisey Kalankatlı VII əsrin əvvəllərində Sünik xanlığı olduğunu qeyd edir. Sünik xanlığı Albaniya ilə birlikdə ərəblər tərəfindən işğal edilib. Monqolların hakimiyyəti dövründə Zəngəzur Azərbaycanın Naxçıvan qəzasına daxil idi. Bu vəziyyət Qaraqoyunlu, Ağqoyunlu və ilk Səfəvilər dövründə mövcud idi. XIV əsrdən Zəngəzur termini yazılı mənbələrdə toponim kimi tanınırdı.

Zəngəzur toponimi bu ərazidə yaşayan qorxmazlığı və igidliyi ilə fərqlənən tayfaları ilə bağlıdır. Bu döyüşkən, azadlığı sevən tayfa sonuna kimi ərəblərlə mübarizə aparıb.

XIII-XIV əsrdən Zəngəzur torpaqları Azərbaycan vilayətinin Naxçıvan qəzası və Arran əyalətinə daxil idi.

Sünik dağılanda Zəngəzurun böyük həssəsi Qafan və Naxçıvan əyalətlərinə daxil edildi.

Tarixən Zəngəzur 4 rayona bölünürdü: Güney (Mehri), Qafan, Zəngəzur (Görus) və Sisyan. ADR zamanında Zəngəzur qəzası bütün ərazisi ilə Gəncə quberniyasının tərkib həssəsi sayılırdı.

1918-1920-ci illərdə Zəngəzurun böyuk hissəsi erməni işğalçılırı tərəfindən işğal edilmişdir.

Lakin 1921-ci ildə tarixi qəzanın qərb həssəsində Zəngəzur rayonu yaradılır və Ermənistan ərazisinə daxil edilir. Zəngəzurun şərq hissəsi isə Azərbaycanın tərkibində, Qubadlı rayonu kimi qaldı. 1925-ci ilin sənədlərində Zəngilan, Cəbrayıl rayonunun tərkibində qaldı. Ümumiyyətlə, Şərqi Zəngəzurun ərazisi Laçın, Qubadlı, Zəngilan rayonları Azərbaycan Respublikasının, amma Qərbi Zəngəzur keçmiş Sisiyan, Qafan, Gorus və Mehri rayonları isə hal-hazırda Ermənistanın Sünik vilayətinin tərkibindədir.

Əslində XX əsrin sonlarında Azərbaycanın üzləşdiyi problemlərin əsas səbəblərindən biri də, vaxtilə Zəngəzuru, digər ərazilərimizi qorumaq üçün kifayət qədər qətiyyət göstərməməyimiz olmuşdur.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur azərbaycanlıları XX əsrin əvvəllərində yaşadıqları faciələri əsrin sonunda üçüncü dəfə yaşamalı oldular. 1988-ci ildə ermənlərin və onların havadarlarının başlatdıqları "Qarabağ" fitnəkarlığı həm də Ermənistan SSR-də yaşayan azərbaycanlıların qətli və kütləvi deportasiyası ilə müşayiət olundu. Həmin il ərzində Zəngəzurun demək olar ki, bütün azərbaycanlı əhalisi öz doğma yurdlarından deportasiya olundu.

1991-ci ilin avqustunda Zəngəzurdan azərbaycan əhalisinin qovulması ilə Zəngəzur bölgəsinin "türksüzləşdirilməsi" prosesi başa çatdırıldı.

Lakin XXI-ci əsrin 20-ci illəridir və Azərbaycan artıq müstəqil inkişaf etmiş dövlətdir. Dünyada gedən qloballaşma, müstəqil Azərbaycan dövləti və onun müzəffər ordusu 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı nəyə qadir olduğunu dünyaya göstərdi. Şanlı ordumuz tarixi ədaləti bərpa edəcək, türklər öz dədə-baba torpaqlarına qayıdıb firavan yaşayacaqlar.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 149-152
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 149-152
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Nərgiz İbrahimova**
Gəncə Dövlət Universiteti
nergiz686@gmail.com

# ZƏNGƏZURDA ERMƏNİ QIRĞINLARI

***Açar sözlər:*** *Zəngəzur, erməni qırğınları, erməni məsələsi, Osmanlı, İran*
***Keywords:*** *Zangazur, armenian massacres, armenian issue, Ottoman Empire, Iran*

Rusiyanın Qafqazda möhkəmlənməsi, köhnəlmiş Osmanlı və İran imperiyalarının tənəzzülü XIX əsrin sonlarında ermənilərin separatçılıq meyillərinin daha da güclənməsinə səbəb oldu. Mifik "Böyük Ermənistan" ideyasından bir an da olsun əl çəkməyən avantürist erməni siyasətçiləri Şərqi Anadolu və Qafqaz torpaqlarında erməni dövləti yaratmaq planlarını reallaşdırmaq məqsədilə siyasi təşkilatlar yaratmağa başladılar. Təxminən bu dövrlərdə bir sıra Avropa ölkələrinin və Rusiyanın ideoloji silah kimi işləyib hazırladığı *"erməni məsələsi"* deyilən bir siyasi avantüra ortaya çıxdı. Guya ki, Türkiyə ərazisində yaşayan ermənilərin hüquqi təminatlarının yaradılması məqsədi daşıyan "erməni məsələsi" əslində Osmanlı imperiyasını dağıtmaq üçün düşünülmüşdü (Musa Urud, 2005: 7).

Erməni siyasi partiyalarının və onların silahlı dəstələrinin 1905−1906-cı illərdə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında törətdikləri kütləvi qırğınlar, çoxsaylı terror aksiyaları barədə həmin dövrün arxiv sənədləri və dövri mətbuat materialları arasında kifayət qədər məlumatlar öz əksini tapmışdır.

XIX əsrin sonlarında formalaşan "Armenakan", "Daşnaksutyun" və "Hnçak" kimi erməni siyasi-terrorçu partiyaları öz məqsədlərinə nail olmaq üçün əvvəlcə Türkiyənin Şərqi Anadolu vilayətlərində, sonra isə Cənubi Qafqazda kütləvi qırğınlar törətmiş və terror aksiyaları həyata keçirmişlər. 1895−1896-cı illərdə Şərqi Anadoluda baş qaldıran erməni üsyanları yatırıldıqdan sonra həmin iğtişaşların icraçılarının

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

əksəriyyəti Cənubi Qafqazda, əsasən də İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında yerləşmişdilər.

Erməni siyasi partiyaları öz məqsədlərinə çatmaq, yəni sənaye müəssisələrini və torpaqları ələ keçirmək üçün ciddi hazırlıq işləri görmüşdülər. 1905-ci ildə Rusiyada baş qaldıran inqilabi hərəkat və kütləvi iğtişaşlar ermənilərə fürsət vermişdi ki, öz niyyətlərini Zəngəzurda da həyata keçirsinlər. Erməni terrorçu siyasi partiyalarının əsas məqsədlərini M.S.Ordubadi "Qanlı illər" əsərində kifayət qədər dəqiqliklə ifadə etmişdir: "İrəvandan Naxçıvana qədər yol üstündə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır olan əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb, Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvələri birləşdirmək" istəyirdilər.

Arxiv sənədləri göstərir ki, erməni təşkilatları hələ 1904-cü ildə Zəngəzurun erməni və müsəlman əhalisi arasında milli zəmində qarşıdurma yaratmaq istiqamətində təbliğat işini gücləndirmişlər. Azərbaycan Respublikası Tarix Arxivində saxlanılan bir sənəddə qeyd edilir ki, 1904-cü ilin noyabrında Xınzirək erməni kəndinin sakinlərindən 8 nəfəri prokurora verdikləri ifadələrində göstərmişlər ki, onlar 80-100 nəfərdən ibarət partiyanın rəhbərliyində dururlar. Partiyanın hər bir üzvündən ayda 80 qəpikdən 2 rubladək aylıq üzvlük haqqı alırlar. Həmin pullara icma başçısı Sarkis Bağdasarov və keşiş Ter-David Ter-Arutyunov silah və güllə alırlar. Sursat keşişin anbarında saxlanır. Mədənçi Martiros Şahzadov isə xalça almaq adı ilə kəndləri gəzir, pul yığır və həmin pulla güllə alır (2).

M.S.Ordubadi "Qanlı illər" əsərində 1906-cı ildə Zəngəzur qəzasının 5-ci polis sahəsində ermənilərin törətdikləri qırğınlar haqqında müfəssəl məlumat vermişdir. Bu sahədə mis mədənləri və Oxçu dərəsindəki böyük və coğrafi mövqeyinə görə strateji əhəmiyyətli azərbaycanlı kəndləri yerləşirdi. Müasir silahlarla və toplarla təmin edilən ermənilər avqustun 14-də Oxçu-Şəbədək kəndlərini işğal edirlər. Silah-sursatı tükənən azərbaycanlılar Saqqarsu dağına çəkilirlər. Kəndi tərk edə bilməyənlərin hamısını ermənilər qətlə yetirib bir-birlərinin üstünə qalaqlamışdılar. Tək-

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

tək sağ qalanlar çıl-çılpaq Ordubada və Cəbrayıl qəzasının kəndlərinə pənah aparmışdılar. Bu qanlı cinayətin təsvirindən aydın olur ki, XX əsrin sonlarında Xocalıda törədilən soyqırımın analoqunu ermənilər həmin əsrin əvvəllərində Saqqarsudatörətmişdilər (Musa Urud, 2005: 18).

Nəhayət, Saqarsuda toplaşan 800 nəfərə yaxın Ordubadlı könüllülərin köməyi və 1000 nəfərə yaxın Oxçu-Şəbədək silahlılarının iştirakı ilə sentyabrın 16-17-də Oxçu-Şəbədək kəndləri ermənilərin işğalından azad edilir. Bundan sonra sağ qalan əhalinin yenidən öz kəndlərinə qaytarılması prosesi başlanır. Ordubad tərəfdən gələn silahlı dəstələrdən ağır zərbə alan ermənilər qırğınları dayandırmağa məcbur olmuşdular. Azərbaycanlıların təşkilatlanması, “Difai” partiyasının formalaşaraq ermənilərin terroruna terrorla cavab verməsi erməniləri qırğınlar törətməkdən əl çəkməyə məcbur etmişdi.

Ermənilər 1918-ci ildə də Zəngəzur və ətraf ərazilərdə də qırğınlar etmişdirlər. 1918-ci il iyunun 20-də Dərələyəz istiqamətindən Naxçıvana daxil olan Andranikin qoşunu orada da qırğınlar törədərək Culfa istiqamətindən Cənubi Azərbaycana daxil olmuşdur. Lakin türk qoşunları ilə qarşılaşmaqdan qorxaraq, yenidən Naxçıvana qayıtmış, avqustun əvvəlində Oxçu vadisi ilə Zəngəzura daxil olmuşdur. 1919-cu ilin aprel ayınadək Andranikin qoşunu Ərzurumdan Zəngəzuradək hərəkət trayektoriyası üzərində yerləşən 500-dən artıq türk-müsəlman yaşayış məntəqəsini viran qoymuşdur. Zəngəzuru ələ keçirməklə, Andranik, Qərb dövlətlərinin Türkiyə ilə türk dünyasının əlaqəsini kəsmək niyyətlərini reallaşdırmış oldu. Daha sonra isə Sovet Rusiyası Zəngəzurun Ermənistana verilməsini rəsmiləşdirdi, Naxçıvan Azərbaycandan, Türkiyə isə türk dünyasından ayrı salındı.

Qırğınlar 1918−1919-cu illərdə davam etdi, yüzlərlə insan qətlə yetirildi. Qırğınlara son qoymaq məqsədilə 1919-cu il noyabrın 23-də Tiflisdə keçirilən sülh konfransında Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanmışdı. Sazişə görə, Ermənistan və Azərbaycan hökumətləri razılığa gəlmişdilər ki, hərbi əməliyyatlar dayandırılacaq, Zəngəzura gedən yolların

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

açılması üçün tədbirlər görüləcək, bütün mübahisəli problemlər yalnız sülh yolu ilə həll ediləcək.

Ermənistan hökuməti Zəngəzuru azərbaycanlılardan tamamilə təmizləyib ələ keçirməklə daşnak parlamentinin 28 may 1919-cu il tarixli "Birləşmiş Ermənistan" yaradılması haqqında qərarını reallaşdırmaq niyyətində idi. Zəngəzurda etnik təmizləmə həyata keçirildikdən sonra həmin Zəngəzur 4 əksəriyyətində Türkiyədən gələn ermənilər məskunlaşdırılmışdı.

Ümumiyyətlə, 1918−1920-ci illərdə Andranik Ozanyanın, Drastamat Kanayanın və Qaregin Njdehin komandanlıqları altında erməni quldur dəstələri təkcə Zəngəzurda 166 müsəlman kəndini işğal etmiş və əhalisini soyqırıma məruz qoymuşdu.

1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutundan sonra Zəngəzurun taleyi Sovet Rusiyasının təzyiqi ilə ermənilərin istəyinə uyğun şəkildə həll edildi (3).

## Ədəbiyyat

1. Musa Urud. (2005). Zəngəzur. Bakı.
2. https://1905.az/z%C9%99ng%C9%99zur-qirginlari/
3. https://genocide.preslib.az/az_a1-4.html

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 153-156
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 153-156
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Xəyalə Əsgərova**
Gəncə Dövlət Universiteti
xayala.askerova@mail.ru

# ZƏNGƏZURUN XIX ƏSRİN 70-Cİ İLLƏRİNDƏKİ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜNƏ DAİR

***Açar sözlər:*** *Qafqaz, Azərbaycan, işğal, ərazi, qəza, toxunulmazlıq*

***Keywords:*** *Caucasus, Azerbaijan, occupation, territory, accident, immunity*

Rusiya hələ XVIII əsrdə Qafqazı təsir dairəsinə keçirməklə öz siyasi və iqtisadi maraqlarını təmin etmək istəyirdi. Cənubi Qafqazı ələ keçirmək üçün geniş hərbi əməliyyatlara başlayan Rusiya XIX yüzilin birinci yarısında buna nail oldu. Məlumdur ki, 1828-ci ildə yaradılan komendant idarə üsulu çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda siyasi dayaq möhkəmləndirilməsinə cavab vermədiyindən, 1840-cı ilin aprelin 10-da Cənubi Qafqazda inzibati islahat haqqında qanun verildi. Qanuna görə komendant üsul-idarəsi ləğv olunmuş və burada da Ümumrusiya inzibati sistemi yaradılmışdı (Milman, 1966: 132). Şimali Azərbaycanın XIX – XX əsrin əvvəllərindəki inzibati-ərazi bölgüsü, aparılmış tədbirlər nəticəsində 4 dəfə ciddi dəyişikliklərə uğramışdır:

1. Azərbaycanın XIX əsrin əvvəllərindəki inzibati bölgüsü;
2. Azərbaycanın 1840-cı ildəki inzibati bölgüsü;
3. Azərbaycanın 1846−1860-cı illərdəki inzibati bölgüsü;
4. Azərbaycanın 1867−1917-ci ildəki inzibati bölgüsü.

Qeyd edək ki, əsrin 60-cı illərində həyata keçirilən inzibati tədbirlər nəticəsində sabitləşmiş inzibati-ərazi bölgüsü, kiçik dəyişikliklərlə, XX əsrin 20-ci illərin sonuna kimi mövcud olmuşdur. Quberniyaların fəaliyyətinə inqilab illərində son qoyulsa da, qəzalar 1929-cu ilin inzibati islahatlarına kimi fəaliyyət göstərmişdir (Əliyarlı, 2009: 53-54). Yeni inzibati bölgü

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

qatı müstəmləkəçi xarakter daşıyırdı (İnzibati-ərazi vahidləri, 663).

1862-ci ildə Baryatiskini canişin vəzifəsində əvəz edən böyük knyaz Mixail Nikolayev (1862−1882) işə başlayan kimi öz sələfi tərəfindən Qafqazda yaradılmış çar inzibati aparatını ciddi şəkildə dəyişdirməyə başlayır. 1865-ci ildə yeni canişin diyar, quberniya və qəzalardakı idarələrin bütün əsasnamə ştatlarına yenidən baxmaq üçün xüsusi komitə yaratdı. Komitə tərəfindən yaradılmış layihə II Aleksandrın 1867-ci il 9 dekabr tarixli "Qafqaz və Zaqafqaziya ölkəsinin idarə olunmasının dəyişdirilməsi" fərmanı ilə təsdiq edildi (İnzibati-ərazi vahidləri: 211). Yeni quberniya və qəzalar yaradılıdı və bu zaman meydana gələn inzibati-ərazi bölgüsü keçən əsrin 20-ci illərinə kimi ciddi dəyişiklərə uğramadı. İnzibati-ərazi bölgüsündə ən ciddi dəyişiklik 1868-ci ildə mərkəzi Gəncə (Yelizavetpol) olmaqla Yelizavetpol quberniyasının yaranması oldu. Zəngəzur qəzası 1861-ci ildə yaradıldı, 1867-ci ilin dekabrında yeni yaradılan Yelizavetpol quberniyasının tərkibinə Zəngəzur da qatıldı. Bu qəza quberniyanın ən böyük ərazi-inzibati vahidi olub dörd dairəyə bölünmüşdü: Hacısamlı, Əlyanlı, Bərgüşad və Həkəri dairələri. Bu qəzanın mərkəzi Gorus idi. Gorusda 2201 nəfər − 1193 kişi, 1008 qadın cinsli əhali yaşayırdı. Püsyan mahalı da Zəngəzura qatıldı. 1823-cü ilə aid rus mənbəsində yazılırdı ki, Püsyan mahalı Qafan çayının sahilində yerləşir və Məhəmmədhüseyn Sultan tərəfindən idarə olunur. Püsyan mahalı 1840-cı ildə ləğv edilərək Zəngəzur sahəsinə qatılmışdır. Qaraçorlu mahalı da Zəngəzur qəzasına qatılmışdı.

Çarizm yerli müsəlman kadrlara bir o qədər də etibar etmədiyindən, xristianlardan rəhbərlər təyin edilirdi. Zəngəzur qəzasının ilk başçısı N.Pivaroviç olmuşdur. Qəza rəisinin baş köməkçisi Hüseyn bəy Behbudbəyoğlu Mahmudbəyov, tərcüməçi Şamxal bəy Məlikhüseynov, Hüseyn bəy Məlikabasov, Paşa bəy Səyadbəyov, polis sistemində Həbib xan Şəkinski, Bəylər bəy Həsənbəyov çalışmışlar. Onların hamısı təhsilli, savadlı idilər (Nərimanoğlu, 2019: 27). 1874-cü ilin xəzinə siyahıya alınmalarına görə, Zəngəzur qəzasında 168 xəzinə kəndi var idi. Onlardan 120-i müsəlman, 42-si erməni, 1-i rus və 5-i müsəlman

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

və xristianların birgə yaşadığı kənd idi. 1905–1907 və 1914–1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir.

1918-ci il yazın sonu yayın əvvəllərində Şimali Azərbaycanda yaranmış kəskin hərbi-siyasi durum nəticəsində AXC-nin ilk hökuməti çox az, 20 gün yaşadı. Mudros müqaviləsi əsasında Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər AXC tərkibində yaradılan Qarabağ general-qubernatorluğunu tanıdılar. Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ quberniyası yaradıldı, Xosrov bəy general-qubernator təyin edildi. Qarabağın general-qubernatoru vəzifəsinə başlayarkən onun xalqa müraciət ünvanlamışdı: “Azərbaycan hökumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general-qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir (Nərimanoğlu, 2019: 101).

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında “mübahisəli ərazilər” elan olundu. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin guya kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölündü. AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında “Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili” haqqında qərar qəbul edildi. 1921-ci ilin 3 iyununda RK(b)P MK Qafqaz Bürosu Stalinin iştirakı ilə iclas keçirib məxfi qrifli Zəngəzur məsələsini müzakirə etdi, Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərar çıxarıldı. Bu iclasda bir nəfər də olsa azərbaycanlı, müsəlman yox idi. Əsas

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

məqsəd də Azərbaycanla Osmanlını bir-birindən ayırmaq, Ermənistan ərazisini genişləndirmək idi. Zəngəzurun Azərbaycandan zorla qoparılaraq Ermənistan SSR-ə verilmiş hissəsində Qafan, Gorus, Sisian və Mehri rayonları yaradıldı. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-in tərkibində qalmış, 3.637 kv.verstlik hissəsi − 4505 kvadrat kilometr ərazisi Ermənistana verilmişdir (Nərimanoğlu, 2019: 101).

Tarixi xronologiyadan göründüyü kimi, 1920-ci ilə qədər Zəngəzurda erməni idarəçiliyinin izi-tozu belə olmamışdır! 1988−1993-cü illərdə Zəngəzur ərazisi bütövlükdə erməni işğalına məruz qaldı... 44 günlük zəfər savaşında qəhrəman oğullarımız Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etdi… Şərqi Zəngəzur İqtisadi rayonunu artıq yaratmışıq!… Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da vardır! Zəngəzur Azərbaycandır! (5)

## Ədəbiyyat

1. Milman, A. (1966). Politicheskiy stroy Azerbaydzhana v XIX – nachale XX vv. Baku.
2. Əliyarlı, S. (2009). Azərbaycan tarixi. Bakı: "Çıraq" nəşriyyatı, 861 s.
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası. İnzibati-ərazi vahidləri, 273 s.
4. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı, 182 s.
5. http://etikxeber.az/biz-n%C9%99-ist%C9%99yirik-v%C9%99-n%C9%99-etm%C9%99liyik-musa-urud-yazir/

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 157-160
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 157-160
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Gülcamal Sadıxova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
hacihasanov@mail.ru

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞUŞA ŞƏHƏRİNİN BÜDCƏSİ VƏ ABADLIQ İŞLƏRİNİN TARİXİNDƏN

***Açar sözlər:*** *Şuşa, qəza, büdcə, abadlıq, məxaric*
***Keywords:*** *Shusha, district, budget, improvement, expenditure*

Quzey Azərbaycanın başqa şəhərləri kimi, Şuşa da sovet istilasınadək davamlı olaraq maliyyə çətinlikləri yaşayırdı. Doğrudur, XX əsrin əvvəllərində Şuşa şəhər büdcəsi əhəmiyyətli dərəcədə artmışdır, lakin bu hələ də şəhərin sosial-iqtisadi ehtiyaclarını təmin etmirdi (QIA RF, f. 1263, 426; QIA RF, f. 1268, 216; QIA RF, f. 1287, 899. 17, 46, 73, 116, 48, 75, 118; QIA RF, f. 1287, 355; Obzor Yelizavetpol'skoy gub. za 1908 god, 1909; Pamyatnaya knizhka Yelizavetpol'skoy gub. na 1910 god, 1909; Sbornik statisticheskikh svedeniy po Zakavkazskomu krayu, 1902).

| İllər | Mədaxil (rublla) | Məxaric |
|---|---|---|
| 1830 | 4200 | - |
| 1840 | 6466 | 6534 |
| 1860 | 6076 | 7357 |
| 1870 | 14147 | 10804 |
| 1880 | 18549 | 19521 |
| 1890 | 28421 | 30143 |
| 1900 | 60904 | 64596 |

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

| | | |
|---|---|---|
| **1908** | **52215** | **51030** |
| **1913** | **53599** | **62849** |
| **1917** | **127743** | **76735** |

Aşağıdakı cədvəldə Şuşanın şəhər büdcəsinin müxtəlif illərdəki gəlir və xərcləri öz əksini tapıbdır. Nəzərdən keçirilən dövrdə Şuşa şəhər büdcəsinin artımını, əsasən, iki mərhələyə bölmək olar. Onlardan biri XIX əsrin 90-cı illərinə, digəri isə 90-cı illərdən 1917-ci ilə qədər dövrü əhatə edir. Hər iki dövrdə şəhər büdcəsinin artımı müşahidə olunur. Lakin XIX əsrin 90-cı illərində həm şəhərin gəlirlərinin, həm də xərclərinin kəskin artması diqqəti cəlb edir ki, bu da Azərbaycanın bir çox digər şəhərlərində olduğu kimi Şuşada da şəhər həyatının canlanması və kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar idi. Bundan əlavə, Şuşada özünüidarəetmə orqanlarının yaradılması məhz bu dövrə təsadüf edir ki, bu da şübhəsiz, şəhərin büdcəsinə təsir göstərmişdi. Diqqəti çəkən məqam odur ki, bir qayda olaraq, şəhər gəlirləri bütün xərcləri ödəməyə çatmırdı. 1917-ci ildə gəlirlər xərcləri əhəmiyyətli dərəcədə üstələsə də, görünür ki, təlatümlü 1917-ci ildə şəhərin ehtiyacları daha çox arxa plana keçmişdi.

XIX əsrin 30-cu illəri ilə müqayisədə Şuşanın şəhər büdcəsi XX əsrin əvvəllərində öz strukturuna görə də əhəmiyyətli dərəcədə dəyişmişdi. Belə ki, əgər 30-cu illərdə şəhər büdcəsinin əsas mədaxil maddələri daşınmaz əmlakdan gələn gəlirin 10%-dən, sənaye və ticarət müəssisələrinin mallarının, şərab-araq mağazalarının, təsərrüfatların əlavə mənfəətlərindən, şəhərdən çıxarılan daşınar əmlakdan əldə edilən gəlirlərdən ibarət idisə, XX əsrin əvvəllərində şəhərin daşınmaz əmlakından əldə edilən gəlirlərdən və icarədən, şəhər müəssisə və körpülərindən, ticarət və ayrı-ayrı istehsal hüququ verən sənədlərdən əldə edilən gəlirlərdən, yeməkxanaların, dükanların saxlanmasından, şəhadətnamə və müqavilə aktlarından, bir sıra yerli rüsumlardan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

və s. ibarət idi (TIEA, inv. 1716). Qeyd olunmalıdır ki, XIX əsr-XX əsrin əvvəllərində şəhər büdcəsinin əsasını, başlıca olaraq, daşınmaz əmlakdan gəlirlər təşkil edirdi. Bu dövrdə Şuşanın büdcə xərcləri nəzərəçarpacaq dərəcədə artmışdı. Şuşa büdcəsinin əsas məxaric obyektləri isə şəhər polis idarəsinin, hərbi qarnizonun, şəhər bələdiyyəsinin saxlanılması, bir sıra təmir-bərpa işləri, şəhərin abadlaşdırılması, səhiyyəyə, təhsil, şəhərin işıqlandırılması və s. idi. Xərclərin ən böyük hissəsi polis idarəsinin və şəhər bələdiyyəsinin saxlanmasına sərf olunur və bu xərclər ildən-ilə artırılırdı (Kavkazskiy kalendar' na 1917 god, 1916). Bu, xüsusən də 1917-ci il Şuşa şəhər büdcəsi xərclərini araşdırarkən daha bariz görünür. Belə ki, bu il yuxarıda göstərilən xərclər ümumi xərclərin 1/3 hissəsini təşkil edirdi (Kavkazskiy kalendar' na 1917 god, 1916). Şəhər rəhbərliyi şəhərin abadlaşdırılmasına, səhiyyə, sanitariya və təhsil sahələrinə demək olar ki, heç bir diqqət yetirmirdi. Yalnız 1905-1907-ci illərdə milli burjuaziya və demokratik ziyalıların tələbi əsasında hakim dairələr bəzi güzəştlərə getməyə məcbur oldular. 1917-ci ildə şəhərin sanitariya vəziyyətinin yaxşılaşdırılması, səhiyyə və təhsilin inkişafı üçün şəhər büdcəsindən 18060 manat, polisin və bələdiyyənin saxlanılması üçün də o qədər vəsait ayrıldı (Kavkazskiy kalendar' na 1917 god, 1916).

Quzey Azərbaycanın digər şəhərlərində olduğu kimi, Şuşada da hakim dairələr şəhər təsərrüfatına, xüsusilə abadlıq məsələlərinə çox az diqqət yetirirdilər. Onlar küçələrin abadlaşdırılmasına, ictimai binaların tikintisinə, dağılmış yolların, körpülərin təmirinə maraq göstərmirdilər. Ümumiyyətlə, şəhər abadlaşdırılması ehtiyacları uzun müddət şəhər büdcəsinin tərkibinə daxil edilmirdi. Bu məsələ yalnız XIX əsrin 90-cı illərindən sonra qaldırıldı. 1894-da şəhərin abadlaşdırılması üçün 300 manat, 1917-ci ildə isə 533 manat xərcləndi.

Beləliklə, yuxarıda göstərilən faktlardan və məlumatlardan aydın olur ki, XIX-XX əsrin əvvəllərində Şuşanın sosial həyatı və zahiri görünüşü xeyli dəyişmiş, əvvəlki dövrlərlə müqayisədə yaşayış binaları və yardımçı tikililərinin sayı xeyli artmışdı. Şəhər əhalisinin sayı da xeyli çoxalmışdı. Əhalinin artımı həm də

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

şəhərin iqtisadi inkişafı ilə bağlı idi və bu da, əsasən, yeni gələn əhalinin hesabına baş verirdi. Öz növbəsində, əhali axını Şuşanın illik büdcəsində əhəmiyyətli artımda əks olundu ki, bu da Şuşanın kapitalist şəhər kimi formalaşması ilə bağlı idi. Kapitalist münasibətlərinin yaranması və inkişafı şəhərin idarə olunmasında da bir sıra dəyişikliklər tələb edirdi və nəticədə yalnız sosial yuxarı təbəqələrin nümayəndələrinin cəlb olunduğu şəhər özünüidarəetməsinin yaradılması ilə nəticələndi.

## Ədəbiyyat

1. QIA RF, f. (1263), op. 2, d. 5553.
2. QIA RF, f. (1268), op. 25, d. 297.
3. QIA RF, f. (1287), op. 28, d. 899.
4. QIA RF, f. (1287), op 48, file 516.
5. Obzor Yelizavetpol'skoy gub. za 1908 god. (1909). Y.
6. Pamyatnaya knizhka Yelizavetpol'skoy gub. na 1910 god. (1909). Y.
7. Sbornik statisticheskikh svedeniy po Zakavkazskomu krayu. (1902). Tiflis, ch. 1.
8. TIEA, inv. 1716 (3).
9. Kavkazskiy kalendar' na 1917 god. (1915). Tiflis.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 161-163
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 161-163
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Ramin Əlizadə**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarixiramin@gmail.com

# QƏRBİ ZƏNGƏZURDAN AŞKAR EDİLMİŞ URARTU KİTABƏSİ HAQQINDATARİXİ GERÇƏKLƏRİN SAXTALAŞDIRILMASI

***Açar sözlər:*** *Azərbaycan, Urartu, Zəngəzur, Naxçıvan, Qafqaz*
***Keywords:*** *Azerbaijan, Urartu, Zangazur, Nakhchivan, Caucasus*

Urartuluların Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisinə hücumları e.ə. IX əsrin sonu – VIII əsrin əvvəllərində başlayır (Chilingiroghlu, 1997: 30-31). Şimal-şərqə doğru yönəlmiş bu işğalçı və talançı hücumlar Orta Araz hövzəsi, həmçinin Naxçıvan və Zəngəzur bölgələri üçün böyük təhlükə törədirdi. E.ə. VIII əsrin sonu – VII əsrin əvvəllərində Zəngəzur Urartu ordusunun əsas hücum hədəflərindən biri olur. Urartu hökmdarı I Rusa 714-cü ilin yayında Aşşur hökmdarı II Sarqon tərəfindən məğlub edilir (Chilingiroghlu, 1997: 42). Bu məğlubiyyətdən sonra Urartu dövləti şərqə doğru hücumlara başlayır. Zəngəzurun daha çox faydalı qazıntı yataqları urartuluları cəlb edirdi. I Rusa öləndən sonra Urartu taxtına oğlu II Argişti çıxır (Chilingiroghlu, 1997: 43). Qərbi Zəngəzurda Qarakilsə rayonu ərazisində Comardlı və Ərəfsə kəndlərinin yaxınlığında II Argiştinin hücumu haqqında məlumatın əks olunduğu kitabə tapılıb. Bu kitabə bölgənin yerli əhalisi olan azərbaycanlılar tərəfindən Qızıl kilsə adlandırılan Alban kilsəsinin tikili qalıqları içərisində aşkar edilib. XIX əsrdə erməni etnoqrafı Gevond Alişan (Kerob Alişanyan) bu kilsənin əvvəllər Anahit məbədi kimi inşa edildiyini qeyd etsə də, buradan Anahit məbədinə aid heç bir tapıntı aşkar edilməyib. Əslində G.Alişanın bu əsassız iddiası sonradan bu Alban kilsəsinin ermənilər tərəfindən Anahitin adına uyğunlaşdırılaraq Tanaat adlandırılmasına səbəb oldu.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

1975-ci ildə Qarakilsə rayonu ərazisindən aşkar edilmiş Urartu kitabəsini ilk dəfə tədqiq edən erməni tədqiqatçısı N.V.Arutyunyan olub (Arutyunyan, 2006: 248-249). N.V.Arutyunyan bu kitabədə Zəngəzurun qədim yer adlarından biri kimi bəhs edilən KUR. Çuluku toponimini ermənicə izah edir (Arutyunyan, 1985: 236). O, adı VII əsrə aid “Aşxarasuys” əsərində qeyd edilən Tsquk toponimi ilə əlaqələndirir və erməni mənşəli ad hesab edir (Arutyunyan, 2001: 327). Halbuki Çuluku və Tsquk haqqında məlumatların əks olunduğu mənbələr arasında xronoloji cəhətdən min ilə yaxın zaman fərqi var. Digər tərəfdən isə nə Urartu dönəmində, nə də VII əsrdə Qərbi Zəngəzur ərazisində hay və ya erməni adlı toplum yaşamırdı. Ermənilərin Qərbi Zəngəzura köçürülməsi tarixi yalnız son iki yüz ili əhatə edir. XIX əsrin birinci yarısında çar Rusiyası tərəfindən Osmanlı və Qacar dövlətlərindən Zəngəzura köçürülmüş ermənilər Comardlı və Ərəfsə kəndlərinin əhalisini soyqırımına məruz qoymuş, bir çox yer-yurd adlarını qondarma adlarla ilə əvəz etmişlər. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 1968-ci il 3 iyul tarixli qərarı ilə Ərəfsə kəndinin adı “Arevis” (Bayramov, 2021: 115), 1991-ci il 3 aprel tarixli qərarı ilə Comardlı kəndinin adı “Tanahat” kimi saxta adlarla əvəz edildi (Bayramov, 2021: 83). Qərbi Azərbaycan ərazisindən aşkar edilmiş Urartu kitabəsinin hər iki üzündə mixiyazılı mətn var. Ön üzündə isə Alban xaçı təsvir edilib. Bəzi erməni tədqiqatçıları isə heç bir ciddi mənbəyə əsaslanmadan bu kilsəni erməni kilsəsi kimi təqdim edir, xaç təsviri olan daş lövhəni isə erməni xaç daşı olduğunu iddia edirlər (Arutyunyan, 2001: 324). Qeyd edək ki, Urartu mixiyazılı kitabəsinin üzərində sonradan xaç təsvirinin həkk edilməsi nəticəsində yazılı mətnə də ciddi ziyan dəymişdir. Bu kitabədə bəhs edilən Etiuhi və Çuluku ölkələrinin, həmçinin İrdua və Amuşa şəhərlərinin adları Azərbaycan xalqının qədim tarixinin izlərini müəyyən etməyə imkan verir. Bu kitabədə Etuhi Uti tayfasının, Çuluku Çul (Çullu) kəndinin, İrdua Urud kəndinin, Amuşa isə Ərəmis (İrimis) kəndinin adlarının urartuca olan variantlarıdır. Qeyd edək ki, Qafqaz Albaniyasının Çola vilyətinin adı da məhz Çuluku toponimi ilə izah oluna bilər. Çul (Çullu)

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

tayfasının adı ilə bağlı olan bu toponiminin Suluku kimi oxunması yanlışdır (Qaşqay, 2006: 119; Diakonoff, 1981: 77). M.Salvininin urartuluların Qarabağın dağlıq hissəsinə irəlilədiyini və Amuşa şəhərini müasir Xankəndi şəhərinin yaxınlığında yerləşdiyini ehtimal etməsi həqiqəti əks etdirmir (Salvini, 2009: 505). İstər Xankəndi yaxınlğında olsun, istərsə də Qarabağın digər yerlərində Urartu hücumunun olduğunu təsdiq edən heç bir tapıntı aşkar edilməyib. B.B.Piotrovski arxeoloji və epiqrafik dəlillərə istinad edərək Qarabağ ərazisinin Urartu dövlətinin tərkibinə daxil olmadığını göstərir (Piotrovskiy, 2011: 117; Əlizadə, 2014: 43). O, Urartunun şərq hücumlarının müvəqqəti xarakter daşıdığını, yalnız qarşılıqlı əlaqələrin olduğunu qeyd edir (Piotrovskiy, 2011: 127).

## Ədəbiyyat

1. Chilingiroglu, A. (1997). The Urartian Kingdom: Its History and Art. Izmir.
2. Arutyunyan, N.V. (2006). Biaynili-Urartu. Voyenno-politicheskaya istoriya i voprosy toponimiki. S-Pb.
3. Arutyunyan, N.V. (1985). Toponimika Urartu. Yerevan.
4. Arutyunyan, N.V. (2001). Korpus urartskikh klinoobraznykh nadpisey. Yerevan.
5. Bayramov, İ., Mustafa, N. (1997). Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisindəki tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. Bakı.
6. Qaşqay, S. (2006). Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı.
7. Diakonoff, I.M., Kashkai, S.M. (1981). Geographical Names According to Urartian Texts. Répertoire Géographique des Textes Cunéiformes. Band 9. Wiesbaden.
8. Salvini, M. (2009). The Eastern Provinces of Urartu and the Beginning of History in Iranian Azerbaijan.
9. Piotrovskiy, B.B. (2011). Istoriya i kultura Urartu. Sankt-Peterburg.
10. Əlizadə, R. (2014). Urartu, Ararat, yoxsa Armeniya...? “Geostrategiya” jurnalı, №4 (22), s.42-46.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 164-166
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 164-166
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Sevinc Qurbanova**
Gəncə Dövlət Universiteti
sevincakifqizi@mail.ru

# ZƏNGƏZUR DƏHLİZİNİN BEYNƏLXALQ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, lokal, interkontinental, Naxçıvan tranziti, Ağbənd avtomobil yolu*
***Keywords:*** *Zangazur corridor, local, intercontinental, Nakhchivan transit, Aghband highway*

Vətən müharibəsində qazandığımız tarixi qələbə ölkəmiz üçün yeni inkişaf perspektivləri açmaqla yanaşı, həm də onun dünyadakı siyasi çəkisini daha da artırdı. Yaşadığımız əsrdə ölkələr arasında gedən rəqabətdə siyasi amillər deyil, iqtisadi maraqlar əsas rol oynayır. Azərbaycandan Naxçıvana dəmir yolu əlaqəsinin bərpası "Şərq-Qərb", "Şimal-Cənub" dəhlizləri ilə bağlı yeni şərait yaratmışdır. Prezident İlham Əliyevin bu siyasi gedişi gələcəyə hesablanmış nəhəng geosiyasi və iqtisadi layihə kimi mühüm əhəmiyyət daşıyır. Çünki marşrutun fəaliyyətə başlaması Azərbaycanın mövcud nəqliyyat ötürücü imkanlarını daha da artıracaqdır. Bu, ölkəmiz üçün geniş iqtisadi imkanlar açmaqla yanaşı, həm də siyasi cəhətdən də böyük üstünlüklər qazandırır. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan-Naxçıvan marşrutu mövcud Bakı-Tbilisi-Qars dəmir yolu marşrutundan 344 kilometr qısadır və bu həm yük göndərən, həm də yük qəbul edən tərəflər üçün çox sərfəlidir. Dövlətlərarası ticarətdə bu faktora xüsusi önəm verirlər, çünki məsafə qısaldıqca daşınma xərcləri ucuzlaşır. Bu dəhlizin açılmasının hüquqi bazasını 10 noyabr 2020-ci tarixində Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat təşkil edir (Bayramov, 2021: 1)

2021-ci ilin 26 oktyabrda Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə 123 kilometrlik Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

atmışdır (İsmayılqızı, 2022: 6). Azərbaycan-Ermənistan sərhədinədək uzanan avtomobil yolunun "Zəngəzur dəhlizi" kimi adlandırılan ölkələrarası yeni nəqliyyat bağlantısının şərq hissəsini təşkil etməsi, yaxın gələcəkdə isə siyasi məsələlər həll edildikdən sonra Ermənistan ərazisindən keçəcək hissəsi ilə birləşdirilməsi planlaşdırılmışdır.

İkinci Qarabağ müharibəsinin əsas diqqətçəkən nəticələrindən biri – Zənzəgur dəhlizinin üç müstəvidə önəm kəsb etdiyini qeyd edə bilərik: lokal, regional və interkontinental.

Dəhlizin lokal müstəvidəki əhəmiyyəti yeni nəqliyyat yolunun keçdiyi hər bir ölkədə yerli inkişafı stimullaşdırıcı faktor kimi çıxış etməsidir. Nəzərə almaq lazımdır ki, yeni dəhliz hər üç ölkənin ən zəif inkişaf etmiş bölgələrindən keçir. Belə ki, dəhlizin 30 ilə yaxın işğal altında olan və talançılığa məruz qalan Azərbaycanın cənub-qərb rayonları, Ermənistanın ən zəif inkişaf etmiş Sünik bölgəsi və onilliklərdir terrorizm səbəbilə zəif inkişaf etmiş Türkiyənin şərq vilayətlərini bir-birinə bağlaması planlaşdırılır ki, bu da hər üç bölgədəki yerli iqtisadi yüksəlişə ciddi töhfə verəcək.

Yeni dəhlizin regional müstəvidəki önəmi isə bir sıra fərqli istiqamət üzrə alternativlik təşkil etməsidir. Birincisi və ən əhəmiyyətlisi Türkiyə və Mərkəzi Asiya arasında yeni marşrutun ortaya çıxmasıdır. Xüsusilə, Türkiyə bu istiqamət üzrə regional rəqibi olan İrandan asılılığın azaldılması və Mərkəzi Asiya ilə bağlantısının daha məqbul ölkələrdən keçməsində maraqlıdır. Artıq uzun müddətdir ki, Gürcüstan-Azərbaycan vasitəsilə şimal istiqamətdən bunu təmin edən Türkiyə, analoji xəttin Ermənistan-Azərbaycan marşrutu üzrə cənub istiqamətində də əldə etmək məqsədindədir. Digər tərəfdən, yeni dəhliz türk dünyası ölkələrinin Türkiyəyə diqqətinin artmasına gətirib çıxarır ki, bunun da son aylarda siyasi nəticələrinə Türkmənistan örnəyində şahidlik edirik. Təbii ki, bu proses həm də Xəzər dənizində gəmi nəqliyyatının artmasında stimullaşdırıcı faktor kimi rol oynayacaq. İkincisi, Zəngəzur dəhlizinin gerçəkləşməsi regional siyasi konfiqurasiya çərçivəsində böyük önəm kəsb edən Azərbaycanın əsas ərazisi və Naxçıvan Muxtar Respublikası ilə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

alternativ keçid yaradacaq ki, bu da İranın Azərbaycan üzərindəki ən vacib rıçaqlarından olan "Naxçıvan tranziti" məsələsinin təsirini azaldacaq. Bundan əlavə, Zəngəzur dəhlizinin Rusiya və Türkiyə arasında Gürcüstandan yan keçən yeni istiqamət təklif etməsi dəhlizin regional müstəvidə başqa bir əhəmiyyətli dəyişikliyidir.

Zəngəzur dəhlizinin interkontinental, yəni qitələrarası əhəmiyyəti isə Çinin son illərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativlik təşkil etməsidir. Bu alternativlik Çindən gələn malların Türkiyənin şərq vilayətlərinə, oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir. Əslində, bu yenilik həm Türkiyənin, həm də Çinin nəqliyyat yollarının diversifikasiya edilməsi strategiyalarına da uyğundur.

Prezident İlham Əliyev öz nitqində bəyan edir ki, "Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir" (2). Bu bir milli hədəf və Ulu Öndərin həyata keçirmək istədiyi tarixi missiyanın davam etdirilməsi anlamına gəlir. Beləliklə də, yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya edilməsi fonunda Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialı daşıyır.

## Ədəbiyyat

1. Bayramov, V. (2021). "Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcəkdir". Xalq qazeti, 1 aprel, s.1.
2. İsmayılqızı, X. (2022). "Zəfərimizin həmrəylik simvolu: Ayırıcı deyil, birləşdirici layihə olan, bütün Türk dünyasını əhatə edəcək Zəngəzur dəhlizinin bərpası bu qardaşlığın dünya xalqlarına əməkdaşlıq töhfəsi olacaq": Türkiyə-Azərbaycan qardaşlığı. İki sahil, 6 noyabr, № 205, s.6.
3. Zəngəzur dəhlizində region ölkələrinin də marağı yüksəkdir. (2021). İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin analitiki Coşqun Cəfərovun şərhi, s.23.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 167-170
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 167-170
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Nigar Jamalova**
Institute of History named after A.A.Bakikhanov of ANAS
n.abushova@gmail.com

# ARMENIA'S MILITARY AGGRESSION AND ETHNIC CLEANSING POLICY AGAINST ZANGAZUR (1918-1920)

***Keywords:*** *Zangazur, Azerbaijan, Armenia, ethnic cleansing, genocide*
***Açar sözlər:*** *Zəngəzur, Azərbaycan, Ermənistan, etnik təmizləmə, soyqırım*

In 1918-1920, the Republic of Armenia implemented military aggression Zangazur region, and committed genocide and ethnic cleansing. The word "Zengazur" is of Turkish origin, the name of the ancient Turkic tribe "Zengi", and "zur" in the ancient Turkish language means valley, ravine, mountain, rock (the valley, place where the Zengi tribes live) (Nərimanoğlu, 2019: 4). As a result of the resettlement policy of Tsarist Russia, the number of Muslim population in the region decreased. According to the statistics of 1914, Armenians made up 52% of the population in Zangezur district, and Azerbaijanis made up 47.1% (İsmayılov, 2014: 14).

From 1918, Andranik's gangs started genocide in Zangezur. The British, who had an allied attitude towards the Armenians, already comprehended that Armenia was implementing an aggressive genocidal policy against Azerbaijan. So, Andranik released his army in March 1919 and returned to Armenia under the pressure of the British (Thomson). Before leaving Zangezur, he transmitted the region to the authorized representative of Armenia, Colonel Arsen Shahmazyan (Khachikyan, 2009: 177). This fact demonstrates that Andranik served the interests of the Armenian state.

J.Kirokasyan, referring to Armenian archives, notes that the Armenian government decided to send a military unit against Andranik's forces at the request of the Azerbaijani government.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Therefore, Andranik was forced to leave (Kirakosyan, 1989: 142). If such a decision existed, at the Paris Peace Conference, Tigron Nazaryan would not have objected to R. McDonnell, the British representative in the Caucasus, about the liquidation of Andranik's troops (Dokumenti, 2020: 260-261). Research shows that Andranik's gangs were disbanded as a result of negotiations between the Azerbaijani government and Thomson.

Noticing that the negotiations with Armenia were inefficient (Azərbaycan, 2008: 261), the government of Azerbaijan decided to retrieved Zangezur by force of arms. According to Muradyan, head of the intelligence of the Republic of Armenia, the Zangezur movement of the Azerbaijani government aimed to ensure the security of the border with Armenia in Gazakh and Yelizavetpol regions (Dokumenti, 2020: 171-172). Investigations show that Muradyan's views do not reflect the truth. The intervention in Zangezur occured due to the lack of results of negotiations and aimed to save Azerbaijan's own territory. The Muslim population in the region frightened that they would be subjected to genocide again (Dokumenti, 2020: 174).

Observing that they had lost the war, the Armenians started propaganda again. M. Aharonyan, the representative of the Republic of Armenia in Paris, who brought the issue to the Paris Peace Conference, stated that the war lasted in Nakhchivan, Karabakh and Zangezur, and that the British had to give their weapons and ammunition to 30 thousand Armenian army when they left the Caucasus. He was substantiating this for the purpose to protect the borders of Armenia from the attack of its neighbors Azerbaijan and Georgia (Dokumenti, 2020: 177-180). However, research shows that the aggressor was Armenia, who accomplished baseless territorial claims to neighboring states, and committed genocide and ethnic cleansing to facilitate the implementation of these claims.

Reconciliation efforts with the mediation of the British (Azərbaycan, 2008: 312) yielded results, and on November 23, 1919, an agreement was signed in Tbilisi between Azerbaijan and Armenia to end hostilities and not to use military force again

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

(Armenia, 2017: 348-349). Violating the terms of the agreement, Armenia continued the policy of ethnic cleansing in Zangezur, and as a result, 20 Muslim villages were destroyed by February 1920.

Through its representative in Erivan, the Azerbaijani government sent a letter of protest to the American and British delegates and demanded the prevention of Armenia's military aggression against Zangezur (Dokumenti, 2020: 214-215). The government of Azerbaijan informed the government of Armenia that it had sent a little military force to the region to prevent loss of life and property and restored the current situation before November 23 (Azərbaycan, 2008: 557).

Azerbaijani MFA F. Khoyski sent a letter to the Armenian and Georgian MFAs, proposing to hold a conference to settle the disputed issues (K sozivi, 1919). The Armenian side accepted the suggestion and the Tbilisi conference, which will discuss arbitration issues based on the decisions of the Baku conference held in December 1919, opens in January 1920 (Azərbaycan, 2008: 402-403). While the conference was proceeding, Armenians continued ethnic cleansing. As a result of the military measures accomplished by the Azerbaijani government, the Armenians retreated and their union with the rebel Armenians in Karabakh was prevented, and relative stability was established in the region until March 1920 (Ismayilov, 2019: 118).

Armenia's military interventions in the west of Zangezur and the policy of ethnic cleansing reduced the number of Azerbaijani population in the region and eventually resulted in the secession of this area from Azerbaijan.

## References

1. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı: QHT nəşriyyatı MMC, 184 s.
2. İsmayılov, K.N. (2014). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Turxan, 248 s.
3. Khachikyan, A.E. (2009). Istoria Armenii (kratkiy ocherk). Erevan: Edit Print, 264 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1


4. Kirakosyan, J.S. (1989). Mladoturki pered sudom istorii. Erevan: Ayastan, 284 s.
5. Dokumenti Britanskogo natsionalnogo arkhiva po istorii Yudznogo Kavkaza 1918-1920 godov. (2020). Pod nauch. red. Y.M.Makhmudova, sost-l N.A.Makswell. Baku: Turkhan IPO, t. 1, ch. 2., 488 s.
6. Azərbaycan Xalq Cümhuriyyəti. (2008). Böyük Britaniyanın arxiv sənədləri, elmi red. Y.M.Mahmudov, tərt. ed. N.Ə.Maksvell. Bakı: Çaşıoğlu, 576 s.
7. Armenia in documents of the U.S. (2017). Department of State 1917-1920. Complied and translated by G.G.Makhmourian, editor A.V.Gambaryan. Yerevan: İnstitute of History NAS of Armenia, 560 p.
8. K sozivi Zakavkazskoy Konferensii Ministrom İnostrannikh Del Azerbayjanskoy Respubliki F.Khanom-Khoyskim poslana Ministrom İnostrannikh Del Armenii i Gruzii. (Baku: 30 dekabrya 1919). Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 970, siyahı № 1, iş № 184, vərəq – 84.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 171-173
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 171-173
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Kəmalə Sadıqova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Dendrologiya İnstitutu
kemale.sadiqova1960@mail.ru

# ZƏNGƏZUR MAHALININ ƏZƏLİ TORPAĞI ZƏNGİLANIN TARİXİ VƏ TƏBİƏTİ

***Açar sözlər:*** *təbiət, tarixi abidələr, qızıl yatağı, monitorinq, Bəsitçay qoruğu*

***Keywords:*** *nature, historical monuments, gold field, monitoring, Basitchay reserve*

Türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur qədim Azərbaycan torpağıdır. Ermənistanın cənub hissəsini və Azərbaycan ərazilərinin bir hissəsini əhatə edən tarixi mahaldır. Zəngəzur mahalı Qafan Gorus, Qarakilsə (Sisian), Mehri, Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edirdi. Zəngəzur mahalında XX əsrin əvvəllərində 149 türk, 91 kürd və 81 erməni kəndi var idi (Əliyev, 2004: 295).

Cavidan, Cavanşir, Babək dövründə Zəngəzur Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən qanlı döyüşlərin məkanı olub. Zəngəzurun tarixi dedikdə, mübarizələr tarixi kimi başa düşmək olar. Bunu Zəngəzur ərazisindəki abidələr, toponimlər, onların yaranma, dağıdılma, ləğv olunma prossesinin xarakteri aydın göstərir (Musa Urud, 2005: 501).

Azərbaycanın qədim tarixi – etnoqrafik mahalı olan Zəngəzur haqqında Ümummilli liderimiz Heydər Əliyev öz çıxışlarında deyirdi: “Orada erməni adında bir adam da yaşamayıb”. XX əsrin 20-ci illərində Sovet hakimiyyəti yeni qurulan zaman Azərbaycana qarşı ədalətsizlik edilib. Əgər o vaxt tarixi ədalətsizliyə yol verilməsəydi, türk dünyası arasında olan bağlantı pozulmazdı və bu gün vahid Türk dünyası coğrafi baxımdan məkan kimi yaşayacaqdı.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur mahalının Zəngilan rayonu haqqında IX əsrdə yaşamış tarixçi və coğrafiyaşünas Həmdullah Qəzvi yazmışdır: Zəngilanın əsası hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulub. “Zəngilan şəhəri” dedikdə, əslində Pircavan şəhəri nəzərdə tutulmalıdır. Çünki Zəngilan şəhərinin əsl adı Pircavan, yaxud da Pircivan olmuşdur.

Zəngilan rayonu Kiçik Qafqaz dağ silsiləsinin cənub-şərqində, Araz çayının sol sahilində yerləşir. Şimaldan Qubadlı və Cəbrayıl rayonları, cənubdan və şərqdən İran, qərbdən Ermənistanla həmsərhəddir.

Zəngilan şəhər və ətraf kəndlərin yerləşdiyi tarixi mahalın adı olub. 1925-ci ildə Cəbrayıl qəzasının tərkibində qeyd olunub. 4 il sonra ZSFSR-in qərarı ilə Zəngilan Nüvədi, Toğud, Ernəzir kəndləri Ermənistana verilib. 1930-cu ildə Zəngilan rayonu yaradılıb. 1946-cı ildə rayonun 4 min hektar meşə sahəsi Ermənistana verilib. 1957-ci ildə rayon mərkəzi adlandırılıb, 1967-ci ildə Zəngilan şəhər statusu alıb.

1993-cü il oktyabrın 29-da Zəngilan ermənilər tərəfindən işğal edilib. 27 il düşmən tapdağında olan Zəngilan şəhəri 2020-ci il 20-22 oktyabr tarixində ordumuz tərəfindən işğaldan azad olunub.

Azərbaycan dövlətinin qurucusu və memarı Ulu öndər Heydər Əliyev Zəngilan bölgəsi haqqında bu fikirləri söyləmişdir: “Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var. Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş vermişdir. Zəngilan həm öz təbiətinə, həm də o torpaq üzərində insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqlarına görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli hissəsidir”.

Əsrarəngiz gözəlliyə malik Zəngilan rayonu Bakı – Culfa – Naxçıvan magistral dəmir və şosse yolları üzərində olduğundan strateji cəhətdən böyük əhəmiyyət kəsb edir. Ərazidə çoxlu sayda faydalı qazıntılar – tikinti daşı, qızıl yatağı, qara mərmər yatağı, mis yatağı, əhəng xammalı, susuzlaşdırılmış soda üçün əhəng daşı vardır. Respublikamızda qızıl ehtiyatlarına görə Zəngilan rayonu ikinci sıradadır. Veynəli qızıl yatağı Zəngilanda yerləşir. Coğrafi mövqeyinə görə strateji əhəmiyyətə malik Zəngilanın daha bur

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

özəlliyi ərazisindən 4 çayın (Araz, Oxçuçay, Həkəri, Bəsitçay) keçməsidir. Bu rayon təkcə tarixi mövqeyinə görə deyil, həm də torpağı və iqlimi ilə də seçilir. Rayonun ərazisində iki iqlim tipi qərarlaşıb. Bunların əsasını mülayim isti iqlim və quraq keçən yarımsəhra – çöl iqlimi təşkil edir. Rayonun zəngin və rəngarəng bitki örtüyü, Araz palıdı bitən meşələri, palıd, mərkəzi hissədə və şimalda bitən kolluqları vardır. Zəngilan Bəsitçay qoruğunun nadir çinar meşəsi sahəsinə görə dünyada ikinci, Avropada isə birincidir. Meşənin 500 illik yaşı vardır, uzunluğu 12 km-dir. Təbii halda bitən lalələr, zanbaqlar Zəngilanda sanki gözəl lanşaft yaradır. Belə ki, ərazidə yaşıllıq qorunub saxlansa, parklar salınsa rayon daha da gözəlləşər (Nazim Tapdıq oğlu, 2002: 140).

Azərbaycan Respublikası Elm və Təhsil Naziliyi Dendrologiya İnstitutunun əməkdaşları torpaqlarımız işğaldan azad olunduqdan sonra Qarabağın biomüxtəlifliyinin öyrənilməsi məqsədi ilə Zəngilan rayonunun Bəsitçay Dövlət Təbiət Qoruğunda monitorinqlar aparılıb. Qoruğun ərazisində alimlərimiz tərəfindən bitki taksonlarının təbii arealı araşdırılıb. Ərazinin ekoloji vəziyyəti, antropogen təsirə məruz qalması səviyyəsi öyrənilib. 27 növ ağac, 18 növ kol və 11 növ ot bitkisi qeydə alınıb. Bunlardan 5 növü Qırmızı kitaba daxildir. İnstitutun əməkdaşları cari ildə Zəngilan ərazisinə monitorinqlərin aparılması, regionun bitki örtüyünün öyrənilməsi, institutun bitki kolleksiya fondunun qorunub saxlanması, zənginləşdirilməsi və çoxaldılması istiqamətində elmi tədqiqat işlərini davam etdirir.

## Ədəbiyyat

1. Əliyev, V.Ə. (2004). Zəngəzurda qalan izimiz. Bakı: “Nurlan” nəşriyyatı, 295 s.
2. Urud, M. (2005). Zəngəzur: elmi publisistik nəşr. Bakı: Nurlan, 501 s.
3. Nazim Tapdıq oğlu. (2002). Zəngilan toponimləri. Bakı, 140 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 174-177
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 174-177
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Huseynağa Əsədov**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Dendrologiya İnstitutu
asadovhuseynaga@mail.ru
**Kəmalə Sadıqova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Dendrologiya İnstitutu
kemale.sadiqova1960@mail.ru

# ZƏNGİLAN REGİONUNUN İQTİSADİ VƏ COĞRAFİ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Zəngəzur, rayon, strateji, hava limanı, monitorinq*
***Keywords:*** *Zangazur, district, strategic, airport, monitoring*

Zəngəzur mahalı Azərbaycan torpağının ən qədim yeri və əcdadlarımızın yaşayış məskəni olub. Tarixi mənbələrdən məlumdur ki, "Zəngəzur" termini bir toponim kimi XIX əsrdən məlumdur. Zəngəzur ərazisi Kiçik Qafqazın Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub şərqini əhatə edir. Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, Ermənistan ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır (Nazim Tapdıq oğlu, 2002: 140, Xəlilzadə, 2007: 522).

1921-ci ildə Zəngəzur mahalı qərb və şərq hissələrinə bölünür. Zəngəzur ərazisi: Qafan, Qarakilsə, Gorus, Megri və s. Azərbaycandan alınıb Ermənistana verilir. Beləliklə, Zəngəzur rayonlara bölünərək adı xəritədən silinir (Urud, 2005: 501).

Azərbaycan Prezdenti İlham Əliyevin dərin siyasəti, ordumuzun qəhrəmanlığı nəticəsində 44 günlük müharibədən sonra bütün Qarabağ ərazisi kimi, Zəngəzur mahalı da azadlığa çıxarılır. Cənab Prizdentimiz, Ali Baş Komandan İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanına əsasən, qədim Zəngəzur adı coğrafi, inzibati ərazi vahidi olaraq yenidən xəritələrə qaytarılır. 26 oktyabr 1921-ci ildə Türk dünyasını birləşdirən Zəngəzur

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

dəhlizinin Azərbaycan hissəsinin təməli qoyulur. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Zəngəzur Azərbaycanın Qubadlı, Laçın, Zəngilan rayonlarını, indiki Ermənistanın Qafan, Gorus, Sisyan və Megri rayonlarının ərazilərini əhatə edir.

Zəngəzur mahalının əzəli torpağı Zəngilan inzibati rayon kimi 1930-cu ildə yaranmışdır. Bu ərazi respublikamızın qərb bölgəsində yerləşmiş və iqtisadi cəhətdən inkişaf etmiş rayondur. Belə ki, Bakı-Culfa-Naxçıvan magistral dəmir və şosse yolları üzərində olduğundan, iqtisadi cəhətdən xüsusi əhəmiyyət kəsb edir. 27 il düşmən tapdağında olan Zəngilan şəhəri 2020-ci il 20-22 oktyabrda mübariz ordumuz tərəfindən işğaldan azad olunmuşdur. Cənab Prezdentimiz İlham Əliyevin ardıcıl və dərin siyasəti ilə qəhrəman əsgərlərimizin zəfər bayrağı hal-hazırda Zəngilanda dalğalanır və 44 günlük müharibədən sonra bütün Qarabağ ərazisi kimi, Zəngilan regionu da azadlığa çıxmış, füsunkar təbiəti və zəhmətkeş insanlarının fəaliyyəti nəticəsində iqtisadi inkişaf dövrünə qədəm qoymuşdur. Zəngilan rayonu Qarabağ iqtisadi bölgəsinin təbiəti və coğrafi yerləşməsi baxımından Kiçik Qafqazın ən möhtəşəm və gözəl məkanı, dağ yamaclarının zümrüd boyalarla zəngin olan təbiət incisidir.

Füsunkar təbiəti ilə seçilən Zəngilan rayonu iqtisadi və coğrafi baxımdan əlverişli potensiala malikdir. Çoxfunksiyalı Zəngilan Beynəlxalq Hava Limanı sosial, iqtisadi və nəqliyyat məsələlərinin həllində mühüm rol oynayır və bu mənada böyük əhəmiyyə malikdir. Beynəlxalq Hava Limanı müasir təhlükəsizlik tələblərinə, standartlarına cavab verməklə yanaşı, avtomatlaşdırılmış idarəetmə sisteminə malikdir. Dünya standartarına uyğun, müasir tipli təyyarələri qəbul edə biləcək Zəngilan Beynəlxalq Hava Limanı şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizinin elementinə çevriləcəkdir. Bu da nəqliyyat və yük daşımalarının intensivliyini və Azərbaycanın daha çox gəlir əldə etməsinə imkan verəcək, rayonda istehsal olunan məhsullar ölkə daxilində istifadə olunmaqla bərabər, xarici ölkələrə çox asanlıqla çıxarılacaq. Beləliklə, Zəngilan Beynəlxalq Hava Limanı yalnız Azərbaycanın deyil, bütün regionun inkişafında əhəmiyyətli rol oynayacaq.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

İstənilən dövlət və onun xalqı siyasi, iqtisadi və s. cəhətlərdən nə qədər möhkəm, qüdrətli, mübariz olarsa, onun həyata keçirdiyi siyasətin müstəqillik elementləri də bir o qədər güclü olar. İşğaldan azad edilmiş torpaqlarımızda infrastruktur tədbirlər həyata keçirilir, kənd təsərrüfatının, iqtisadiyyatın inkişafı, ekoloji fəlakətə məruz qalan yerlərin, yenidənqurma işlərinin bərpası üçün layihələr icra olunur. Uğrur hissi ilə deyə bilərik ki, bu gün Azərbaycan reallıqlara addım atmaqla dünyaya öz gücünü, qüdrətini nümayiş etdirir.

Zəngilan rayonunda alternativ günəş enerjisinin böyük potensialı vardır. Burada enerji generasiya gücləri, ötürücü xətlərin yenidən qurulması sayəsində bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcəkdir. Zəngilanda çoxlu sayda faydalı qazıntılar, mədənlər, təbii sərvətlər, qızıl yatağı və s. vardır. Ərazidə təbii halda yayılmış çinar meşəsi sahəsinə görə dünyada ikinci, Avropada isə birinci yeri tutur (Əliyev, 2004: 295). Füsunkar təbiəti ilə seçilən Zəngilan rayonu coğrafi müxtəlifliyinin bariz nümunəsi turizm potensialına malikdir. Lakin qəsbkarlıq dövründə Zəngilan regionunun təbii bitki örtüyü istismar edilib, meşələri qırılıb, təbii sərvətləri talan edilmişdir. Bu baxımdan, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutunun alimləri Qarabağın biomüxtəlifliyi, bitki örtüyünün öyrənilməsi, bitki taksonlarının təbii arealının araşdırılması istiqamətində elmi tədqiqat işlərinin davam etdirilməsini qarşıya məqsəd qoymuşdur. Alimlərimiz, o cümlədən 2023-cü ildə Zəngilan ərazisinə monitorinqlərin aparılmasını, regionun bitki örtüyünün öyrənilməsini vacib bilir. Bu mənada, İnstitutun əməkdaşları bu regionun bitki kolleksiya fondunun artırılması və qorunub saxlanması, zənginləşdirilməsi və çoxaldılması istiqamətində elmi tədqiqat işlərini davam etdirəcəkdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Nazim Tapdıq oğlu. (2002). Zəngilan toponimləri. Bakı, 140 s.
2. Xəlilzadə, F. (2007). Yolum düşə Zəngəzura. Ön söz. Müəl. İ.Vəliyev; red. K.Mirzəyeva. Bakı, 522 s.
3. Urud, M. (2005). Zəngəzur: elmi publisistik. İdeya və layihə müəl. A.Muradverdiyev; elmi red. V.Əliyev. Bakı: Nurlan, 501 s.
4. Əliyev, V.Ə. (2004). Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 295 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 178-182
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 178-182
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Könül Mikayılova**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
doktorant
konulmikayilova@rambler.ru
https://orcid.org/0000-0003-2817-5593
**Gülnarə Şahmuradova**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
magistrant
gulnara.shahmuradova@mail.ru
https://orcid.org/0000-0003-1997-0317
**Tavat Muradlı**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
magistrant
tavat.muradli2016@gmail.com
https://orcid.org/0000-0003-4995-1176

# "GƏRƏK NƏBZİN VƏTƏNİN NƏBZİ İLƏ VURSUN"

***Heydər Əliyev***

***Açar sözlər:*** *Heydər Əliyev, Vətən, vətənpərvərlik, Zəngəzur, tarixi faktlar*
***Keywords:*** *Haydar Aliyev, the Motherland, patriotism, Zangazur, historical facts*

Nəbzi həqiqətən də Vətəni, xalqı, onun müstəqilliyi, azadlığı, iqtisadi, siyasi, elmi tərəqqisi uğrunda döyünən dahi şəxsiyyət Heydər Əliyevin qeyd etdiyi kimi, bu duyğular vətənpərvərlik hisslərinin daha güclü olmasını göstərir. Azərbaycan xalqı tarixən, tarixin bütün dövrlərində bu keyfiyyətlərə, ali duyğulara sahib, vətənpərvərlik hissi ilə yaşayan şəxsiyyətləri ilə qürur duyub, neçə-neçə dahilər, igidlər, şəxsiyyətlər yetirib. Vətən sevgisi, xalq məhəbbəti kimi duyğulara sahib olan vətənpərvər igidlər saysız-hesabsız qəhrəmanlıq dastanlarının baş qəhrəmanına çevriliblər.

Bəs vətənpərvərlik nədir? Bu anlayışın izahını Ulu öndər Heydər Əliyev daha dərindən və dəqiq vermişdir: *"Vətənpərvərlik*

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

*nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir".*

*"Vətənpərvərlik insanın daxilindəki duyğudur. Əgər bunlar yoxdursa, insan mənəviyyatsızdır"* – deyən, bütün həyatı boyu vətəninə, xalqına xidmət edən Ulu öndər Heydər Əliyev dərin zəkası, savadı, siyasi iradəsi, cəsarəti, diqqəti ilə yanaşı, vətən-millət sevgisi ilə də yalnız Azərbaycan xalqının deyil, eyni zamanda bütün dünya liderlərinin də diqqətini cəlb etmiş, hörmətini qazanmışdır. Böyük qürurla demək olar ki, dünya liderləri bu dahi şəxsiyyətlə hesablaşır, onun hər sözünə, hər fikrinə diqqət edirdilər.

Ömrünü həsr etdiyi Azərbaycan xalqı Ulu öndərini heç bir zaman unutmur, hər an onu böyük ehtiramla yad edir. Müstəqil Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən isə günü-gündən inkişaf edən azad, müstəqil və nə xoş ki, bütöv Azərbaycan yada düşür. *"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub"* – deyən Ulu öndərin şəxsiyyəti və fəaliyyəti Azərbaycan tarixinin qızıl səhifələrini təşkil edir (2018: 295).

O, SSR Ali Sovetində işlədiyi müddətdə də Azərbaycan və onun inkişafı üçün çalışıb. Hələ o zaman onun uzaqgörən siyasəti nəticəsində Azərbaycanda Rusiyadan sonra ilk hərbi məktəbin açılmasına nail olunub. Məhz həmin məktəbin kursantları illər sonra Qarabağın işğal olunmuş torpaqlarının azadlığa qovuşmasın da, 44 günlük Vətən müharibəsində dünyanın ən qabaqcıl ordularını şücaətləri ilə heyrətə saldılar. Belə ki, bu qələbəni yaşadan vətən oğulları daim Ulu öndərin vətənə və xalqına olan münasibəti, sevgisi və azadlıq amalı ilə böyümüşlər. Onlar dərk edirdilər ki, Vətən-xalq uğrunda döyüşmək, onu sevmək, qorumaq gənclərin – Vətən övladlarının əsas vəzifəsidir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Vətənpərvərlik duyğusu, xalq sevgisi hər bir Azərbaycan vətəndaşının əsas məqsədi və amalıdır. Vətənpərvərlik hissinin yetişən nəsillərə aşılanması, Ulu öndərin vətən-xalq sevgisinin öyrədilməsi təhsil müəssisələrindən, orada çalışan təhsil işçilərindən peşəkar təbliğat, dərsliklərin məzmununda isə dolğunluq tələb edir. Çünki Vətən hər birimizin müqəddəs qibləgahıdır. Bunu Ulu öndərin vətənə olan sevgisi, dərin vətənpərvərlik hissləri sevimli xalq şairimiz Səməd Vurğunun "Azərbaycan" şerini oxuyarkən duyğulanmasında açıq aydın görünür. Bu dahi şəxsiyyətin çıxışını dinləyərkən bir daha əmin olursan ki, "Hər şeydən pay ola bilər, amma Vətəndən pay olmaz".

Həqiqətən də tarixə nəzər saldıqda görürük ki, müxtəlif dövrlərdə Azərbaycan torpaqları parçalanmaya məruz qalmış vo torpağı qonşu dövlətlərə sovqat kimi verilmişdir. Lakin bu torpaqlarda azərbaycanlıların qismən yaşayışı mümkün olsa da, Ermənistanda isə vaxtı ilə öz dədə-baba torpaqları və vətəndaşları olmasına baxmayaraq bir nəfər də olsun azərbaycanlının yaşaması təmin olunmadı. Ermənistan adlı işğalcı xislətə malik dövlətin ərazisinin genişləndirilməsi və burada dövlət kimi mövcud olmayan Ermənistan dövlətinin qurulması məqsədilə Qərbi Azərbaycanın Zəngəzur, Göyçə mahalı onlara verildi. Bundan sonra Rəvan xan tərəfindən salınan İrəvan şəhərinin Ermənistan işğalçı dövlətinin paytaxt şəhəri elan edildi.

Tarixən işğala məruz qalmış Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində gücünü və qüdrətini sübut edərək 30 illik həsrətə son qoydu − işğal olunnmuş Qarabağ torpaqlarını azad etdi. Lakin bu hələ də Azərbaycanın tarixi sərhədlərinin və torpaqlarının bütövlüyü deyil. Azərbaycanın tarixi sərhədləri Zəngəzur mahalından keçir.

Bütün bunlar tarixi faktlarla sübut olunur. Belə ki, Zəngəzur mahalının böyük hissəsi XVIII əsrdə Qarabağ, bir hissəsi Naxçıvan və İrəvan xanlığı tərkibində olmuşdur. Çar Rusiyası dövründə isə, o dövrdə Yelizavetpol adlandırılan Gəncə quberniyasının tərkibində olmuşdur. Tarixi faktlar sübut edir ki, 1922-ci ildə Göyçə və Dilican, 1923-cü ildə Naxçıvanın 9 kəndi,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

1929-cu ildə isə Mehri Ermənistana verilmişdir (Hüseynova, 2003: 112).

Hələ hakimiyyətdə olduğu illərdə Azərbaycan həqiqətlərini bütün dünyaya tanıdan və bu istiqamətdə yorulmadan mübarizə aparan Ümummilli Lider Heydər Əliyev vurğulayırdı ki, Zəngəzur mahalı Azərbaycanın tarixi ərazisi və oradan məcburi köçürülmüş azərbaycanlıların ata-baba yurdudur. Heydər Əliyev öz çıxışlarında XX əsrin 20-ci illərində Sovet hakimiyyəti yeni qurulan zaman Azərbaycana qarşı ədalətsizlik edildiyini, Zəngəzur mahalı və Zəngəzurun Araz sahilindəki Mehri rayonu da Ermənistana verildi deyə qeyd edirdi.

*"Məsələn, məlumdur ki, Mehri rayonunda böyük bir Nüvədi kəndi var. O, çoxminlik əhalisi olan bir kənddir, sırf azərbaycanlı kəndidir. Nüvədi Arazın sahilində Naxçıvanla Azərbaycanın böyük torpağını ayıran, indi Ermənistanın olan Mehri rayonunda, həmin məsafənin düz ortasında yerləşir. Həmin Nüvədi kəndi də 1929-cu ildə Azərbaycanın tərkibindən qoparılaraq Ermənistana verilibdir. Amma Nüvədi tamamilə Azərbaycan kəndi və qədim, çox böyük ənənələrə malik olan bir kənddir. Onu da deyə bilərəm ki, həmin Nüvədi kəndinin əhalisi çox dəyanətli insanlardır. Mənim xatirimdədir, hətta Ermənistanın ərazisindən azərbaycanlıların əksəriyyəti çıxarıldığı halda, 1991-ci ildə onlar Nüvədidən çıxmırdılar. Sonradan onları oradan zorla çıxarıb Zəngilandakı Vejnəli kəndinin yanına gətirdilər. Orada çadırlarda yaşayırdılar. Onlar doğma kəndlərindən çıxmırdılar, mübarizə aparırdılar. Onları oradan çıxara da bilmirdilər. Sonradan bir neçə dəfə Naxçıvana mənim yanıma gəldilər, imdad istədilər. Amma mən özüm Naxçıvanı çox çətinliklə qoruyurdum, onlara nə edə bilərdim? Buna baxmayaraq, onda bizim imkanımız var idi, Zəngilan rayonunun Vejnəli kəndinin yanında yerləşən çadırlara, nüvədililərin yanına vertolyot vasitəsilə bir neçə dəfə nümayəndələr göndərdim. Biz oraya müəyyən yardım göndərdik, onlarla əlaqə saxlayırdıq"* − deyə Heydər Əliyev qeyd etmişdir (2006: 472).

Ulu öndərimizin *"Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır!"* deyimi xalqının azadlığı, müstəqilliyi, vətəninin

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bütövlüyü bu dahi şəxsiyyətdə vətənpərvərlik duyğusunun və amalının nə qədər böyük olduğunu bir daha sübut edir.

## Ədəbiyyat

1. Ümidləri doğruldan universitet. (2018). Bakı: Təhsil, 295 s.
2. Hüseynova, İ.M. (2003). Heydər Əliyev və Qafqazda sülh prosesi. Heydar Aliyev and the Peace Process in the Caucasus: magistr hazırlığı üçün proqram. Red. Ə.İ.Muxtarov. Bakı: Təhsil, 112 s.
3. Heydər Əliyev: “Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik”. (2006). “Heydər Əliyev irsi” Beynəlxalq Elektron Kitabxana; red. heyəti: F.Babayev, red. M.Babayeva. Bakı: Əbilov, Zeynalov və oğulları, 472 s, 29 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 183-185
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 183-185
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**İsmayıl Faxtiyev**
İsmayıllı Rayon İcra Hakimiyyəti
ismayilfaxtiyev@gmail.com

# ZƏNGƏZUR DƏHLİZİ: MİLLİ İQTİSADİ İNKİŞAFIN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ

***Açar sözlər:*** *Zəngəzur, qələbə, inkişaf, zəfər, infrastruktur, dəhliz, ticarət*

***Keywords:*** *Zangazur, triumph, development, victory, infrastructure, corridor, trade*

Qarabağa və Şərqi Zəngəzura yeni bir həyat qayıdır, tamamilə yeni bir həyat, həm də qürurlu və şərəfli bir həyat. Düşmən üzərində tarixi Qələbənin, şanlı Zəfərin gətirdiyi həyat. Şəhidlərin nakam arzularını yaşadan bir həyat, yurd, torpaq nisgilinə son qoyan, keçmiş məcburi köçkünlərin otuz il xəyallarında yaşatdıqları o həyat qayıdır və bu yerlərin ahəngini, rəngini, ruhunu dəyişir. Köhnə ocaq yerləri sevinir, budaqlarından beşik asılan və düşmən zillətindən qurtulan ağaclar sevinir, yollar, cığırlar, keçidlər, irəmələr sevinir.

Dünyanın hərb tarixinə şərəflə yazılan 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbə sınan qüruru, itirilən torpaqları, inamı, arzuları bizə qaytarıb. Mühüm strateji mövqedə yerləşən, əzəli torpağımız olan Laçın uca yaradanın gözəlliyə qərq etdiyi ecazkar bir məkandır, qədim yurd yerimizdir. Təbiət öz sehr, möcüzə boxçasını bu yerlərdə səxavətlə açır, bahar fəsli, yaz ayları gələndə süsənli, sünbüllü, laləli dağlar, dumandan bəyaz don geyinən gen dərələr, çəməni, çiçəyi ilə göz oxşayan yaylaqlar, yalçın qayalar, göy üzündə süzən qartallar Laçın torpağının göz oxşayan yaraşığıdır. Bu torpaqlar dünyada ən nadir ağac sayılan qırmızı dəmirağac meşələri, çoxlu mineral suları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, həddindən çox dərman bitkiləri ilə zəngindir. Laçında Zəngəzur dağlarının zirvəsi bəzi yerlərdə dəniz səviyyəsindən 3906 metr

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

yüksəklikdədir və ilin bütün fəsillərində həmişə qarla örtülüdür. İndi bu yerlərdə çox böyük quruculuq işləri aparılır, infrastruktur qurulur, yollar çəkilir, evlər tikilir, bir sözlə şərəfli və təhlükəsiz qayıdış üçün hər cür şərait yaradılır.

Ölkə başçısının rəhbərliyi ilə bu gün Laçın rayonunda genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Hazırda dövlətin əsas vəzifələrindən biri Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm də oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılmasıdır. Bunun üçün Laçın rayonunun Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri həyata keçirilib. Laçın rayonunda 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq, generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınıb. Eləcə də Prezident İlham Əliyevin Sərəncamına əsasən, uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu inşa edilir. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa edilən Beynəlxalq Hava Limanının 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Bununla yanaşı, Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur (İki sahil, 2023: 25).

Bundan başqa, rayonun Zabux, Sus, Güləbird və Qorçu kəndlərinin Baş planına əsasən həmin kəndlərdə də tikinti-quruculuq işləri aparılır, düşmənin dağıtdığı evlərin yerində yeni kəndlər salınır, bu doğma yerlərə Böyük Qayıdışa lap az qalıb. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Ümumiyyətlə, yaxın gələcəkdə − bu il və gələn il Laçın rayonuna təqribən 10 min nəfərə yaxın, bəlkə də çox keçmiş köçkün qayıdacaq.

Bəlkə də bir çox ölkələr təsəvvür edə bilməzlər ki, qısa zaman kəsiyində Azərbaycan Avropaya və dünyaya inteqrasiya olunacaq. Amma zaman göstərdi ki, iqtsadi , hərbi və siyasi cəhətdən güclü olan ölkəmiz qarşısındakı hər cür maneəni dəf edərək, bu mərhələni keçdi və yeni bir şərəfli tarix yazdı. (Ədalət, 2023: 7)

Azərbaycan özünün yaratdığı böyük reallığın tam şəkildə həyata keçməsinə doğru inamla addımlamaqdadır. Bunun təsdiqi

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

üçün dövlətimizin başçısının 44 günlük müharibədən sonra dilə gətirdiyi bir çox başqa fikirlərin mahiyyətinə varmaq da mümkündür. Məsələn, Prezident İlham Əliyev yerli televiziya kanallarına bu il yanvarın 10-da verdiyi müsahibədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatına nəzərən Zəngəzur dəhlizi məsələsinin önəmini vurğulamışdı: "Düzdür, orada (üçtərəfli Bəyanat nəzərdə tutulur – red.) "Zəngəzur dəhlizi" sözü yoxdur. Çünki "Zəngəzur dəhlizi" terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir".

Dövlətimizin başçısı həmin müsahibəsində, həmçinin bildirmişdi ki, Ermənistanın destruktiv fəaliyyəti heç bir halda Zəngəzur dəhlizinin reallığa çevrilməsinə maneçilik törədə bilməz. Çünki "Zəngəzur dəhlizi" layihəsi bizim üçün təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur" (Xalq qəzeti, 2023: 10).

Bir sözlə, dəhlizin açılması region ölkələrinin mənafelərinə xidmət edir və tarixi İpək Yolunun daha da canlanmasına təkan verəcək. Zəngəzur dəhlizi həm də ticarətin və regional əməkdaşlığın canlanması üçün həyati əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. İki sahil. (2023). 1 aprel. № 55., s.25.
2. Ədalət. (2023). 25 fevral. № 8., s.7.
3. Xalq qəzeti. (2023). 10 mart. № 53., s.10.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 186-188
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 186-188
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Seyid Cabbarov**
Quba Soyqırımı Memorial Kompleksi
seyid.sc@gmail.com

# 1918-1920-Cİ İLLƏRDƏ İRƏVAN QUBERNİYASI ƏRAZİSİNDƏ AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI TÖRƏDİLMİŞ QƏTLİAMLAR

***Açar sözlər:*** *İrəvan şəhəri, qədim Azərbaycan şəhəri İrəvan, İrəvan tarixi, İrəvan toponimi, İrəvan quberniyasında soyqırım, 1918-ci il soyqırımları, azərbaycanlıların deportasiyası, erməni yalanları, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində İrəvan*

***Keywords:*** *Iravan city, ancient Azerbaijani city of Iravan, history of Iravan, Iravan toponym, genocide in Iravan governorate, 1918 genocides, deportation of Azerbaijanis, armenian lies, Iravan during the Azerbaijan Democratic Republic*

Məqalədə "Qədim mədəni irsimizin ən sanballı abidəsi, xalqımızın qəhrımanlıq rəmzi sayılan "Kitabi-Dədə Qorqud" dastanında təhkiyə olunan bir çox mühüm tarixi hadisələrin İrəvan torpaqlarında cərəyan etməsi, oğuz türklərinin soy kökündə duran Oğuz xaqanın məhz Göyçə gölü ətrafındakı qədim Azərbaycan torpaqlarında yaşadığı, dünyasını burada dəyişdiyi və burada da dəfn olunduğu haqqında, o cümlədən İrəvan şəhəri yaxın keçmişə qədər İrəvan xanlığının torpaqlarına aid olması, aborigen xalqın Azərbaycan türklərinin olması, toponimlərinin və İrəvan sözünün mənşəyinin qədim türk sözü olması barədə tarixi həqiqətlər araşdırılmışdır.

Məqaldə həmçinin erməni tarixçilərinin İrəvan şəhərinin adının saxtalaşdırılmasına cəhd etmələri, öz kitbalarında uydurma şərhlər vermələri, habelə İrəvan şəhərinin tarixi simasını dəyişdirərək onu qədim "erməni şəhərinə" çevirmək səyləri, ermənilərin bu qədim Azərbaycan şəhərinin bütün tarixi-mədəni abidələrinin məhv etmələri araşdırılıb tədqiq edilmişdir. O cümlədən İrəvan şəhərinin təsviri haqqında müxtəlif dövrlərdə burada omuş salnaməçilərin, səyyahların maraqlı məlumatları,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

İrəvan şəhərinin milli tərkibi ilə bağlı mənbələrədə qeyd olunan məlumatlar öyrənilmişdir. Bakı və Yelizavetpoldan sonra Azərbaycan türklərinin ən çox yaşadıqları şəhər, məhz İrəvan şəhəri olmuşdur. Lakin tarixin müxtəlif dövrlərində azərbaycanlılar bu qədim diyardan təcrid olunmuş, müxtəlif bəhanələrlə köçrülmüş və kütləvi qətliamlara məruz qalmış, məqsədli olaraq sayları dəfələrlə azalmışdır

Məqaldə ərazidə inzibati-siyasi dəyişikliklərdən sonra 1905-1906-cı illərdə ermənilərin İrəvan quberniyasında Azərbaycan türklərinə qarşı kütləvi qırğınlar törətmələri, etnik təmizləmə, milli qırğınlar həyata keçirmələri barədə tarixi həqiqətlərə istinad edilmişdir. Bir daha isbat olunmuşdur ki, təkcə 1905-1906-ci illər soyqırımı zamanı 100 min nəfər ev-eşiyindən didərgin düşmüş, 10 min nəfərdən artıq insan öldürlümüş, işgəncələrə məruz qalmışdır. Və heç şübhsiiz ki, 1905-1906-cı illərdə ermənilərin həyata keçirdikləri qırğınlar 1918-1920 illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırım və deportasiyaların birinci mərhələsi olmuşdur

Məqalədə qədim Azərbaycan diyarı olan İrəvan şəhərinin idarəçilik dövrləri, İrəvan şəhərinin mədəni həyatı, şəhərin tarixi adları, burada ermənilərin törətdikləri soyqırım faciələri, azərbaycanlıların köçürülmə siyasəti, xüsusi ilə 1918-1920-ci illərdə ermənilərin İrəvan quberniyasında törətkiləri soyqırım faciələri araşdırılaraq öyrənilmişdir. İrəvan quberniyasında emənilər tərəfindən Azərbaycan türklərinə qarşı törədilən faciələrin mahiyyəti araşdırılmış, “Böyük Ermənistan” ideyasını həyata keçirmək məqsədi ilə ermənilərin 1918-1920-ci illər ərzində törətdikləri qətliamlar müxtəlif araşdırmaçıların əsərlərindən istifadə edilərək tədqiq edilmişdir.

Vurğulanmışdır ki, bütün bu soyqırımlar ermənilərin Cənubi Qafqazda özlərinə dövlət qurmalarından ötrü etnik təmizləmə siyasətinin tərkib hissəsi olmuşdur. I Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda müstəqil eməni dövləti qurmaq cəhtləri iflasa uğradılmışdır. Rusiyada 1917-ci ilin oktyabr çevrilişi nəticəsində rus qoşunlarının Türkiyə torpaqlarından geri çəkilməsindən sonra İravan quberniyası ərazisində erməni dövləti

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

yartmaq ideyası yenidən meydana gətirilmişdir. Azərbaycan türklərinə məxsus ayrı-ayrı yaşayış məntəqələrində ermənilər tərəfindən qətliamlara məruz qalmaları tarixi mənbələrə əsasən araşdırılıb öyrənilmişdir. O cümlədən İrəvan quberniyasında yaşayan müsəlmanları ermənilərin törətdikləri qırğınlardan xilas etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti tətəfindən atılan addımlar, Azərbaycanın nüfuzlu təşkilatlarının, nüfuzlu şəxslərinin göstərdikləri səylər araşdırılaraq öyrənilmişdir.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 189-190
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 189-190
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Sədaqət Məmmədli**
AMEA Arxeologiya, Etnoqrafiya və
Antropologiya İnstitutu
doktorant
sedaqetmemmedli@yandex.com

# ZƏNGƏZURUN EPİQRAFİK ABİDƏLƏRİ HAQQINDA

***Açar sözlər:*** *Zəngəzur, orta əsrlər, epiqrafika, yazılı abidələr, türbə*

***Keywords:*** *Zangazur, middle ages, epigraphy, written monuments, tomb*

Epiqrafika elminin tarix və mədəniyyətimizin bir sıra problemlərini işıqlandırılmasında, onların gələcək nəslə doğru-düzgün formada çatdırılmasında rolu böyükdür. Bu elm sayəsində müəyyən dövrlərdə mövcud olmuş dövlət nümayəndələrinin, din xadimlərinin, incəsənət ustalarının, sənətkarların, şair və yazıçıların adları, ata adları, titulları, doğum və vəfat tarixləri, bir sıra yaşayış məntəqələrinin adları, yerləşdiyi coğrafi məkan, aid olduğu dövr faktlar əsasında tədqiq edilmiş, mühüm nəticələr əldə edilmişdir. Azərbaycan tarixinin öyrənilməsində orta əsrlər dövrü epiqrafik abidələrin rolu böyükdür. Bu dövrdə Şərq dünyasını Qərblə birləşdirən ticarət yollarının keçdiyi Azərbaycan ərazisində tikilən karvansaraylar, dini ibadətgahlar və ictimi binalar üzərindəki epiqrafik abidələr ölkənin ictimai-siyasi həyatının araşdırılmasında mühüm rol oynamışdır. Qarabağ və Şərqi Zəngəzur torpaqlarında XX əsrin 60-70-ci illərində epiqrafçı alim Məşhədixanım Nemətova tərəfindən aparılmış epiqrafik tədqiqatlar öz növbəsində Azərbaycan tarixinin əsaslı keçmişə malik olduğunu göstərmiş, ermənilərin torpaq iddilarını təkzib etmişdir. Məşədixanım Nemətovanın Zəngəzur mahalında yerləşən Urud kəndindəki eyniadlı qəbristanlıqda apardığı tədqiqatlar nəticəsində aydın olmuşdur ki, burada mövcud olan sənduqə formalı, qoç şəkilli məzar daşları üzərində ərəb qrafikası ilə qeyd olunan dualar, qədim türkdilli tayfaların dini ayinlərini

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

əks etdirən yazılar ermənilərin əsasız torpaq iddialarına tutarlı cavab idi. Urud qəbristanlığında miladi təqvimlə 1478-ci ilə aid məzar daşı üzərində ərəbcə "Allah, Məhəmməd, Əli, min evladı ağvan" ("ağvan" yəni "alban" M.N) sözlərinin olması onu göstərir ki, vaxtilə Qafqaz Albaniyasının ərazisi olan Sünikdə yaşayan albanlar islamı qəbul etmiş və onun yayılmasında rol oynamışlar. Eyni zamanda bu tip epiqrafik abidələrdən Zəngilan rayonu Məmmədbəyli kəndində Mir-Əli Yahya ibn Muhəmməd türbəsi, Cəbrayıl rayonu Şıxlar kəndi ərazisində Şıx-Baba türbəsi, Diridağ yaylasında bir sıra qəbirdaşları, Laçın rayonu Güləbird kəndi ərazisində daşdan hazırlanmış at şəkilli fiqurlar, Qubadlı rayonu ərazisində xalq arasında "Yazı düzü" adlanan yerdə Cavanşir türbəsi, Mehi rayonunun Nüvədi kəndi ərazisindəki məzar daşları üzərindəki ərəbdilli yazılar Azərbaycan tarixşünaslığında görkəmli yer tutur. Məqalənin əsas məqsədi də bu epiqrafik abidələrin işıqlandırılmasında yardımçı olmaq, Azərbaycan tarixinə töhvə verməkdir.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 191-193
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 191-193
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Seyidnisa Aliyeva**
ANAS Institute of Geography
Ph.D student
nisealiyeva54@gmail.com
https://orcid.org/0000-0002-8271-4781

# ZANGAZUR

***Keywords:*** *historical, region, lands, geographically, territory*
***Açar sözlər:*** *tarixi, bölgə, torpaqlar, coğrafi, ərazi*

Zangazur is one of the areas of Azerbaijan with a rich historical past. The historical lands of Azerbaijan, covering a wide geographical area from Darbend to Zanjan, from Kirkuk to Eastern Anatolia, have been divided from time to time and settled within the borders of the modern Republic of Azerbaijan. The modern state of Azerbaijan itself is divided into two parts through the Zangazur corridor. The territory of Zangazur covers a part of the Zangazur range, the longest mountain range of the Lesser Caucasus, the south-west of the borders of the Republic of Azerbaijan, and the south-east of the territory of Armenia.

The remaining part of historical Zangazur within the borders of Azerbaijan is called Eastern Zangazur, and the remaining part in the territory of the present Armenian state is called Western Zangazur. In ancient times and the early Middle Ages, the territory of Zangazur was part of the kingdom of Mada, the kingdom of Scythians and the state of Atropatena under the name of Sunik or Sisakan, and the state of Azerbaijan Albania. In the middle of the 6th century, as a result of the administrative reform of Khosrow Anushireva I, the province of Adurbadagan was created, and both the north and the south of Azerbaijan were united under a single name. At the beginning of the 7th century, the victory of the Byzantine emperor Irakli II in the war with the Sassanid king Khosrow Parviz II strengthened the independence tendencies in the countries subject to Persian rule. As a result, the principality of Sunik became independent. Moisey Kalankatli in

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

his work "History of Albania" mentions the existence of an independent Sunik principality at the beginning of the 7th century.

In the ancient years, this region was called Sisakan, or Sünik, in territorial sources, it was called Siajan. The authors of the study write that the toponym Sisakan is related to the name of the ancient Turkic tribes of Saks. Albanian historian Moisey Kalankatuklu in his work "Albania" provides information about the history of these living Albanian tribal associations, as well as the Gargars, Khazars, Huns and other Turkic tribes. Zangezur, which forms the eastern part of the Albanian state, covers a wide area, starting from Megri along the Araz River, up to Akara, to the Kapicic, Khustup mountains, and from the Zangezur range to the Bargad mountains. In the second half of the 7th century, Zangezur was founded together with the Albanian state. During the weakening of the Arab caliphate, small Azerbaijani feudal states emerged on the territory of former Albania.

During the reign of the Mongols, Zangazur was included in the restoration of the Nakhchivan part of Azerbaijan. This situation was continued in the Garagoyunlu and Aggoyunlu periods, during the first Safavid period. The term "Zangazur" has been written as a toponym since the 14th century. In the 13th-14th centuries, Zangezur lands were geographically included in the territory of Nakhchivan and Arran of Azerbaijan (1).

In the late Middle Ages, during the breakup of Sunik, large parts of Zangezur fell under the restoration of the repair of Qapanat and Nakhchivan. Gapanat Zangur was giving a cold blow to the Bargush range. It was to enter Nakhchivan as a rebel. Gorus and Kashtag (Lachin) neighborhoods of Zangezur were part of Karabakh region. During the Ottoman-Safavid war of 1578-1590, the Ottomans, who celebrated Azerbaijan's great holiday, completely removed the Nakhchivan region, along with Sisyan and Qapanat districts, from the territory of Azerbaijan, and transferred it to the restoration of Chukhursed territory. Qapanat district was divided into Barghusad and Urud livas. Small Bazarchay district was separated from Sisyan district. To form a

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

separate Bayazid liva together with the territories of Qapanat and Zangazur, along with Bayazid and Alashkert provinces of Chukhursed (Abbasov, 432).

## References

1. https://files.preslib.az/projects/zangazur/az/a1.pdf
2. Abbasov, Ə. Zəngəzur. Bakı: Qanun, 432 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 194-198
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 194-198
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Ləman Muradova**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
doktorant
lemandemir2017@gmail.com

# QƏRBİ ZƏNGƏZUR BÖLGƏSİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLI ƏHALİYƏ QARŞI TÖRƏTDİYİ SOYQIRIMI AKTLARI VƏ ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ

***Açar sözlər:*** *Zəngəzur, soyqırımı, etnik təmizləmə, tarixi mənbələr, erməni təcavüzü*

***Keywords:*** *Zangazur, genocide, ethnic cleansing, historical sources, armenian aggression*

Cənubi Qafqaz regionunda yerləşən Azərbaycan Respublikası sahib olduğu əlverişli coğrafi mövqeyi və bu mövqenin yaratdığı üstünlükləri, mühüm təbii sərvətləri ilə daim öz dövrünün böyük dövlətlərinin diqqətini cəlb etmiş və əsrlər boyu bir sıra təcavüzkar xalq və dövlətlərin davamlı olaraq müdaxilələrinə məruz qalmışdır.

O cümlədən Azərbaycanın tarixi əraziləri hesabına dənizdən dənizə “Böyük Ermənistan” yaratmaq niyyətində olan ermənilər fürsət düşdükcə Azərbaycan torpaqlarına müdaxilə etməkdən çəkinməmişlər.

Bu işğalçı planlarını həyata keçirərkən ermənilər azərbaycanlı əhaliyə qarşı dəfələrlə soyqırımı aktları həyata keçirmiş, qanlı cinayətlər, insanlıqdan uzaq əməllər törətmişlər. Azərbaycanın Zəngəzur mahalı da bu cinayətlərə və soyqırımlara məruz qalmış ərazilərdən biridir.

Xatırladaq ki, Azərbaycanın tarixi torpağı olan Zəngəzur mahalının ərazisi, əsasən, indiki Ermənistan Respublikasının Gorus, Sisian, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı, Zəngilan rayonlarının torpaqlarını əhatə edib.

XIX əsrin I rübündə çar Rusiyasının Qacarlar İranı və Osmanlı imperiyasına qarşı apardığı müharibələr nəticəsində

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Cənubi Qafqazın çox hissəsi Rusiyaya ilhaq olundu və ermənilər kütləvi şəkildə İran və Türkiyədən Şimali Azərbaycan torpaqlarına köçürüldü. 1828-ci il Türkmənçay müqaviləsi ilə tarixi Azərbaycan torpaqlarının ərazisi Qacarlar İranı və çar Rusiyası arasında bölüşdürüldükdən sonra onun şimal əraziləri, o cümlədən Qarabağ, Zəngəzur bölgəsi Rusiya imperiyasının tərkibinə daxil edildi. 1828−1917-ci illər ərzində çar Rusiyasının işğal etdiyi Şimali Azərbaycan ərazilərinə ermənilərin kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirildi. Ermənilərin köçürüldüyü ərazilər içərisində Qarabağ xanlığının cənub-qərb hissəsini təşkil edən Zəngəzur mahalı da var idi (Nəcəfli, 2017: 3).

Zəngəzur mahalında 1905-ci il sentyabrın 22-də Xoznavar və Xnaçax ermənilərinin ətraf kəndlərdən gələn silahlı dəstələrin köməyi ilə türk kəndlərinə hücum edərək Bayandurda 50, Şələkdə 35, Kosalarda 25, Malıbəylidə 50, Cağazurda 40, Çaylıda 10, Kalavalaxda 25, Novruzluda 15 evi sakinləri ilə birlikdə yandırıb dağıtmaqla bu bölgədə soyqırım siyasətini başlatmış oldular (Nərimanoğlu, 2019: 65).

Onu da qeyd etmək lazımdır ki, 1905−1907-ci illərdə Zəngəzurda ermənilər tərəfindən törədilən soyqırım siyasətindən ən çox Qafanın azərbaycanlı əhalisi əziyyət çəkmişdir. Bölgənin ən böyük və azəri türklərinin daha çox sayda yaşadıqları Qafan rayonu həm tarixi, həm də strateji baxımdan Zəngəzurda xüsusi çəkiyə malik olduğundan ermənilər daha qüvvətli zərbəni vurmaq üçün məhz bu bölgəni hədəf götürmüşdülər (Məmmədov, 2002: 288-290).

1918−1920-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində erməni daşnaklarının türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırım bəşər tarixinin ən qanlı cinayətlərindən birini təşkil edir. Xüsusən Azərbaycanın əzəli torpağı olmuş Zəngəzur bölgəsində həmin illərdə erməni cəlladlarının dinc yerli əhaliyə qarşı həyata keçirdikləri qırğınlar və vəhşiliklər öz miqyasına, forma və metodlarına görə tarix boyu insanlığa qarşı törədilmiş, yaddan çıxarılması və bağışlanılması mümkün olmayan ən qəddar cinayətlərdən biridir. Təkcə 1918-ci ilin sentyabrından

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

dekabrınadək Zəngəzur qəzasında erməni silahlı dəstələrinin müsəlman kəndlərinə 34 irimiqyaslı hücumu baş vermişdir. Həmin hücumlar nəticəsində çox sayda adam öldürülmüş, evlərə od vurulmuş, mal-qara aparılmışdır (İsmayılov, 2017: 36).

Uzun əsrlər boyu şərqi Ermənistanda yaşamış azərbaycanlılar XX əsrdə diskriminasiya edilən və sosial cəhətdən sıxışdırılan fağır qonaqlara çevrildilər. Ermənilər bu insanların hesabına vətən yaratmaq "haqlar"ını həyata keçirdilər. 1918−1920-ci illərdə on minlərlə azərbaycanlı Zəngəzurdan qovuldu. 1940-cı illərdə on minlərlə insan yenidən Azərbaycana deportasiya olundu və onların əvəzinə erməni diasporundan gələn immiqrantlar Ermənistanda yerləşdirildi (De Vaal, 2008: 51).

1985-ci ildən erməni separatçıları xalqımıza qarşı düşmənçiliklərini açıq söyləməyə başladılar. Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində 1988-ci il yanvarın 25-də Ermənistan SSR-in Qafan və Mehri rayonlarından ilk azərbaycanlı qaçqınlar qatarla Azərbaycana gəlmiş, onlar Abşeron rayonunda yerləşdirilmişdilər. Lakin bu, ictimaiyyətdən gizli saxlanılmışdı (Mehdiyev, 2012: 12).

Ümumiyyətlə, son dövrdə Ermənistanda dərc edilən tarix kitablarından və dərsliklərdən azərbaycanlıların izi silinir. Elə təəssürat yaradılmağa çalışılır ki, guya həmin ərazidə heç vaxt azərbaycanlılar yaşamayıb, sadəcə olaraq indiki Ermənistan ərazisində "Osmanlı işğalı" və "İran işğalı" dövrü olub. Əslində isə 1988−1989-cu illərdə 250 mindən artıq azərbaycanlı əhali kütləvi zorakılıqlarla, qətl və qarətlərlə müşayiət olunmaqla öz tarixi-etnik torpaqlarından deportasiya olunmuşdu (Mustafa, 2022: 152). 1991-ci ilin avqustunda Mehri rayonunun Nüvədi kəndinin əhalisi qovuldu. Zəngəzurun tək bir ermənin də yaşamadığı Laçın, Qubadlı, Zəngilan rayonları Dağlıq Qarabağ və ətraf rayonlarla birlikdə Azərbaycandan qoparıldı. Rusiya Federasiyası ordusunun fəal hərbi dəstəyi, birbaşa iştirakı ilə, ABŞ, Fransa, Böyük Britaniya və digər aparıcı dövlətlərin siyasi yardımı ilə Ermənistan silahlı qüvvələrinin 1993-cü il oktyabrın 29-da Zəngilan rayonunu işğal etməsi ilə tarixi Zəngəzur torpaqlarının azərbaycanlı əhalidən təmizlənməsi və Ermənistan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Respublikasının nəzarətinə keçməsi prosesi tamamlanmış oldu (Nərimanoğlu, 2019: 151).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı "1948−1953-cü il illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlar itirilmiş torpaqlarımızın, o cümlədən Zəngəzurun həqiqi elmi tarixinin tədqiqi üçün hüquqi əsaslar yaratdı.

Müasir Azərbaycan tarixşünaslığında itirilmiş tarixi torpaqlarının tədqiqi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşğal altında olan Qərbi Zəngəzur üzərində dövlətimizin suveren hüququnun bərpa olunmasına həmin torpaqların tarixən xalqımıza məxsus olmasını elmi cəhətdən sübuta yetirməklə, dünya ictimaiyyətinə çatdırmaqla nail olmaq mümkündür. Tarixi gerçəklikləri mənbələrə istinadla, elmi əsaslarla əks etdirən tədqiqat əsərlərinin yazılması, nəşri, yayılması bu mənada qarşıda duran ən mühüm vəzifələrdəndir. Bu baxımdan son illərdə dövlət səviyyəsində bu məsləyə diqqətin artırılmasından irəli gələrək çoxsaylı tədqiqat işlərinin aparılması, monoqrafiyaların və elmi əsərlərin yazılması bu problemin həllinə öz layiqli töhvələrini verəcəkdir.

## Ədəbiyyat

1. Nəcəfli, G. (2017). Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917−1918). (ATASE sənədləri əsasında). Bakı, 112 s.
2. Məmmədov, İ. (2002). Tariximiz, torpağımız, taleyimiz. Bakı, 700 s.
3. İsmayılov, K. (2017). Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918−1920). Bakı: "Elm", 248 s.
4. De Vaal, T. (2008). Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. Bakı: "İlay" MMC, 344 s.
5. Mehdiyev, R. (2012). Azərbaycanlıların soyqırımı, tarixin qanlı salnaməsi. 2 cilddə. I cild. Bakı, 448 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

6. Mustafa, N.Y. (2022). Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905−1906). Bakı: “Elm və təhsil”, 400 s.
7. Nərimanoğlu, H. (2019). Zəngəzur: 100 sual, 100 cavab. Bakı, 183 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 199-202
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 199-202
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Lamiyə Əliyeva**
Naxçıvan Dövlət Universiteti
doktorant
lamiyeimanli07@gmail.com

# ZƏNGƏZURUN COĞRAFİYASI

***Açar sözlər:*** *torpaq, dağ silsiləsi, təbiət, təbii sərvətlər, mineral sular*
***Keywords:*** *land, mountain chain, nature, natural resources, mineral waters*

Azərbaycan xalqı, Azərbaycan dövləti 30 ilə yaxın Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan torpaqlarını azad etməklə haqq savaşında zəfər çaldı. İşğalçı erməni faşistləri torpaqlarımızdan qovuldu. Düşmənin növbəti təxribatlarına qarşı başlanan Qurtuluş savaşı Müzəffər Ali Baş Komandanın sərkərdəliyi, müdrik, uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı, qətiyyətli addımları və şanlı ordumuzun gücü sayəsində Böyük Qələbə ilə başa çatdı. Xalqımız qalibiyyət bayrağını başı üzərində dalğalandırdı. Azərbaycanımızın ərazi bütövlüyü təmin olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "CNN Türk" televiziya kanalına müsahibəsi zamanı dediyi bir fikri xatırlatmaq yerinə düşər: "Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi" (Hüseynova, 2021: 5).

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir.

Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır (Naxçıvan Muxtar Respublikasının coğrafiyası, I Cild, 2017).

Zəngəzur ərazisi qədimdən həmişə Azərbaycanın tərkib hissəsi olmuşdur. Zəngəzurun ərazisi 6,7 min kv km olmaqla Azərbaycanın Qafan (Qapan), Gorus, Qarakilsə (Sisyan), Mehri, Zəngilan, Qubadlı və Laçın rayonunun bir hissəsini əhatə edirdi. Əhalisinin 72%-ni müsəlman türklər və kürdlər, 28%-ni ermənilər təşkil etməklə 149 türk, 91 kürd və 81 erməni kəndi olmuşdur.

Zəngəzur silsiləsi Arpa çayından Araz çayı boyunca meridianal istiqamətdə uzanaraq 130 km-lik bir məsafəni tutur. Silsilənin ən hündür zirvəsi dəniz səviyyəsindən 3904 metr yüksəkdə qərar tutan Qapıçıq dağıdır. Zəngəzur silsiləsi qranit və qranitə bənzər süxurlardan təşkil olunmuşdur. Zəngəzurun cənub-şərqində, Meğri və Qafan rayonlarının sərhədini Meğri dağ silsiləsi təşkil edir. Bu silsilə dağlar Zəngəzur dağlarının cənub-şərqindən başlayaraq, Araz çayı vadisində qurtarır. Dağ silsiləsinin uzunluğu 59 km, maksimum yüksəkliyi (3256 metr) Bacassar zirvəsidir. Meğri dağlan tektonik aşınmalara məruz qalmışdır, qeyri-mütənasib quruluşa malikdir. Cənuba doğru Meğri, Malev, Şvanizor, Nüvədi çaylan ilə parçalanmış, şimal sinələri isə nisbətən qısa qollar və sıldırım qayalar şəklində nəzərə çarpır.

Zəngəzurun təbii-coğrafi mövqeyi elədir ki, burada Araz qırağı düzənlikdəki və uca dağ silsiləsindəki iqlim şəraiti tamamilə bir-birinin əksinədir. Dağ silsilələri, keçilməz dərin dərələr çox yerdə böyük əraziləri bir-birindən ayırır, iki dağ arasındakı böyük çökəkliklər dağların zirvələri ilə tam kontrast təşkil edir (Musa Urud, 2016: 34 ).

Zəngəzurun təbiəti və iqlim şəraiti, zəncirvari sıra dağlar, dağlar arasındakı ormanlar, sıldırım qayalıqlar, keçilməz

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

aşırımlar, gursulu, sürətli dağ çayları bu diyarın bitki örtüyünün və heyvanlar aləminin müxtəlifliyini şərtləndirən başlıca amildir.

Zəngəzurun landşaftı dəniz səviyyəsindən 450 m. (Yazı düzü) hündürlükdən 4000 m. (Qapıçıq dağı) hündürlüyə qədər dəyişir və hər hündürlük zolağı öz bitki aləmini bu torpağa bəxş etmişdir. Düzən və dağətəyi ərazilərdə biçənəklər, otlaqlar, əkin yerləri bir-birini əvəz edir.

Zəngəzurun meşələri, əsasən Qubadlı, Qafan və Gorus rayonlarının, qismən də Laçın, Sisyan və Meğri rayonlarının payına düşür.

Bəsitçay qoruğu 1974-cü ildə Ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, əslində nadir çinar meşəsi idi. Burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. İşğal illərində erməni vandalları çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir (Zəngəzurun flora və faunası, 2021: 2).

Zəngəzur yeraltı və yerüstü təbii sərvətləri ilə də zəngindir. Zəngəzurun ərazisində zəngin mis-molibden, qızıl, şist və mərmər yataqları mövcuddur.

Zəngəzurda, əsas etibarilə onun bir çox ərazilərində müxtəlif növ mis filizi yataqları vardır. Vaxtilə mis Armudlu (Danzaver), Keypəşin, Qatar kəndlərinin, Çavundur çayının yaxınlığında yerləşən Sayaddaş silsiləsinin qərb və şərq ətəklərində hasil edilirdi.

Mahalda mis filizindən başqa bir çox qiymətli əlvan metallar da vardır. Bunlardan ən zəngin qızıl yatağı Zəngilan rayonunun ərazisindədir. Mahalda əhali tərəfindən məişətdə istifadə edilən və hər yerdə təsadüf olunan əhəng daşları, Kavart kəndinin ətrafında yerləşən gips, Bazarçay kəndinin yaxınlığında hasil olunan odadavamlı gil, Astazur kəndinin yaxınlığında yerləşən zəy filizi, üzüm şirəsinin təmizlənməsi üçün istifadə olunan təbaşir və yerli əhalinin qaratorpaq adlandırdığı boya gili. Bu gildən yun sapların qara rəngə boyanmasmda istifadə olunur (Zəngəzurun təbii ehtiyatları, 2021: 2).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzurda çoxlu mineral su mənbələri mövcuddur. Bu suların arasında ən çox yayılanı müalicə əhəmiyyətli mineral sulardır. Eləcə də dəri xəstəliklərinin müalicəsi üçün kükürdlü sulardır. Bu sular Kürdalı qışlağının vadisində və Daşkənd kəndinin yaxınlığında, habelə Gorusçay və Bərgüşad çaylarının qovşağında yerləşir. Şeytan körpüsündə, Tatev monastırı yaxınlığında yerləşən isti bulaqlar da müalicəvi əhəmiyyətlidirlər.

Hazırda Şərqi Zəngəzurda mövcud olan təbii ehtiyatların mərhələlərlə istismarı üçün xüsusi dövlət proqramı həyata keçirilir. Həmçinin Azərbaycan ekologiyasına vurulan ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən bərpa və sağlamlaşdırma tədbirləri həyata keçirilir.

## Ədəbiyyat

1. Hüseynova, L. (2021). Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır. Azərbaycan Ordusu, № 66, s.5.
2. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. (2017). I cild, Naxçıvan.
3. Musa Urud. (2016). Zəngəzur uzaq keçmişdən müasir dövrə qədər. Bakı, s.34.
4. Zəngəzurun flora və faunası. (2021). Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.
5. Zəngəzurun təbii ehtiyatları. (2021). Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 203-207
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 203-207
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Lalə Allahverdiyeva**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
doktorant
allahverdiyeval-95@mail.ru

# XIX ƏSRDƏ İRƏVAN ŞƏHƏRİNDƏ SABUN İSTEHSALININ TARİXİNDƏN

***Açar sözlər:*** *İrəvan şəhəri, sənətkarlıq, sənaye, sabun istehsalı, əhali*

***Keywords:*** *Iravan city, crafts, industry, soap production, population*

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində baş verən siyasi proseslər İrəvan şəhərinin sosial, siyasi həyatına olduğu kimi, iqtisadi həyatına da mənfi təsir göstərmişdir. Çar Rusiyası tərəfindən işğal olunandan sonra iqtisadi həyatın bütün sahələri ilə yanaşı sənətkarlıq istehsalı da zəifləmişdir. Lakin XIX əsrin ortalarından etibarən həm çar Rusiyasının bölgədə həyata keçiridiyi siyasətini yumşaltması, həm də kapitalist istehsal üsulunun yaranmağa başlanması sənətkarlığın yenidən dirçəlməsinə səbəb olmuşdur.

İrəvan şəhərində əhalinin məşğuliyyət sahələri arasında sabun istehsalı xüsusi yer tutmuşdur. Sabun istehsalı ilə bağlı Şopenin verdiyi məlumatlara görə, İrəvan şəhərində qara rəngli, pis qoxulu və suda çətin əriyən sabun hazırlanırdı. Bunun isə səbəbi hazırlanan sabunun keyfiyyətinin aşağı olmasında idi. İrəvan şəhərinin özü ilə yanaşı Gərnibasar mahalının Şeyxzadəli kəndinin hər iki cinsdən ibarət 474 sakini sabun istehsalı ilə məşğul olurdular. Bununla yanaşı hazırlanan sabunu da özləri kəndlərdə aparıb satırdılar. Sabun istehsalına görə İrəvan şəhəri ilə Şeyxzadəli kəndi arasında rəqabət də var idi. İrəvan şəhərində sabun istehsalı iltizama da verilmişdi və iltizamçıdan başqa kiminsə şəhərdə sabun satması qadağan idi. Sabun istehsalı ilə məşğul olanlara "sabunçu" deyilirdi. Kasıb əhali sabun ala bilmədiyi üçün əvəzinə Araks sahillərində bitən çoqan otundan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

istifadə edirdilər (Shopen, 1832: 856; Qarayev, 2016: 375-376). İrəvan şəhərində hər iki millətin ticarət və sənaye ilə məşğul olan əhalisindən (bura sabun bişirənlər də daxil idi) 1670 tümən vergi və hər il Novruz bayramında sabun bişirənlərdən 1170 tümən peşkəşpulu Sərdarın göstərişi ilə toplanılırdı. Sabun Sərdara 1 batmanı 2 minaltuna, başqalarına isə 3 minaltuna satılırdı (Əhmədli, 2018: 92-94). 1829-1831-ci ilin kameral təsvirinə görə İrəvan şəhərində hamısı müsəlman türkü olmaqla cəmi 3 sabun bişirən yaşamışdır. Ancaq mahallarda isə sabun bişirən yaşamamışdır (Shopen, 1832: 843). Sabun istehsalı ilə bağlı Şopenin verdiyi məlumatları yazan N.Əhmədli əlavə olaraq qeyd edib ki, “3 sabun bişirən müsəlmandan 1-i şəhərin Təpəbaşı məhəlləsində” (Əhmədli, 2018: 74), “digər 2-si isə Dəmirbulaq məhəlləsində yaşamışdır” (Əhmədli, 2018: 76).

Qəssablar, dabbaqlar kimi sabun istehsalı ilə məşğul olanlar da xüsusi yerlərdə, Zəngi çayınının ətrafında yaşayır və xüsusi cərgə tuturdular. Və bu cərgələr sabunçuxanalar adlanırdı. Sabun istehsalı da gigiyenik cəhətdən təmiz olmayan bir sənətkarlıq sahəsi idi (Yegiazarov, 1981: 14; Akopyan, 1977: 110). Akopyan 111 sənətkarlıq sahəsi arasında sabun istehsalının da adını çəkmişdir (Akopyan, 1978: 369-374). Digər sənətkarlıq sahələri kimi sabun istehsalında da sənətkar birlikləri yaranıb fəaliyyət göstərmişdir. Belə ki, Ququşvili 1862-ci ildə İrəvan quberniyasında “sabun istehsalı ilə məşğul olan 25 usta və 30 usta köməkçisi, 1865-ci ildə isə 16 usta, 46 usta köməkçisi və 30 şagirdin olması haqqında məlumat vermişdir” (Gugushvili, 1957: 326-327). Burada şəhərin özündə nə qədər sabun bişirənin yaşadığı məlum olmasa da, ancaq əsnaflar yaşayıb fəaliyyət göstərmişdilər.

XIX əsrin ortalarında artıq sabun bişirən əhalinin sayı çoxalmışdır. Belə ki, Qafqaz təqvimində etnik tərkibi verilməsə də, neçəsinin usta, usta köməkçisi və şagird olduğu göstərilməsə də İrəvan şəhərində cəmi 15 sabun bişirənin yaşadığı qeyd olunmuşdur (Qafqaz təqvimi, 1851: 450). Maraqlıdır ki, SMOMPK 1881-ci ildə adı çəkilən 46 sənətkarlıq sahəsi arasında

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

isə sabun bişirənlər haqqında məlumat verilməmişdir (SMOMPK, 1881: 38).

Məlum olduğu kimi, XIX əsrin ortalarından sonra sənətkarlıqda kustar istehsal üsulunu və emalatxanaları tədricən "fabrik-zavod" istehsalı əvəz etməyə başladı. Bu inkişaf sabun istehsalında da özünü göstərmişdir. Qafqaz təqvimi 1887-ci ilin məlumatlarına görə, bu dövrdə İrəvan ərazisində 6 sabun müəssisəsi açılmışdı (Qafqaz təqvimi, 1886: 194).

İrəvan quberniyasının icmallarında (bundan sonra icmal) da sabun istehsalı ilə bağlı qiymətli məlumatlar verilmişdir. Belə ki, 1891-ci il icmalının məlumatına görə İrəvan şəhərində 10 işçisi, 950 rubl gəliri olan 5 (icmal, 1891: 107), 1892-ci il icmalına görə 8 işçisi, 1200 rubl gəliri olan 4 (icmal,1892: 55), 1893-cü il icmalına görə 8 işçisi, 1100 rubl gəliri olan 4 (icmal, 1893: 43), 1894-cü il icmalına görə 6 işçisi, 850 rubl gəliri olan 3 (icmal, 1894: 49), 1895-ci il icmalına görə 4 işçisi 530 rubl gəliri olan 2 (icmal, 1895: 45), 1896-cı il icmalına görə 5 işçisi, 600 rubl gəliri olan 2 (icmal, 1896: 49), 1899-cu il icmalına görə 2 işçisi, 1000 rubl gəliri olan 1 (icmal, 1899: 41), 1900-cü il icmalına görə isə 3 nəfər işçisi, 1200 rubl gəliri olan 1 müəssisə olmuşdur (icmal, 1900: 41). Ancaq 1897, 1898, 1902, 1903-cü il icmallarında sabun müəssisələri haqqında məlumat verilməmişdir. Bunu ya həmin dövrə aid məlumatların olmaması, ya da sabun istehsal edən müəssisələrdə hər hansı say dəyişikliyinin baş verməməsi ilə izah etmək olar. Lakin Qafqaz təqviminə görə XX əsrin ilk illərində İrəvanda gəliri 9000 rubl, işçi sayı 14 nəfər olan daha 4 sabun zavodu da açılmışdır (Qafqaz təqvimi, 1903: 70-71). Faktlardan belə bir hal müşahidə oluna bilər ki, XIX əsrin sonları-XX əsrin əvvəlləri ərzində müəssisələrin və işçilərin sayı azalsa da, əksinə gəlir artmışdır. Buradan da belə nəticəyə gəlmək olar ki, ya müəssisələrdə istehsal prosesi təkmilləşmiş, ya da böhranla əlaqədar olaraq sabunun qiyməti bahalaşmışdır. 1895-ci il icmalında qeyd edilir ki, "İrəvan vilayətinin o cümlədən də İrəvan şəhərinin zavod sənayesi kustar xarakter daşımışdır. Bir çox zavodun sahibi həm də onun yeganə işçisi olmuşdur" (icmal, 1895: 7) Səbəbinə gəlincə isə zavod sahibi onun işçisi olmuş və

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

sifariş əsasında işləmək, geniş ərazilərə ixrac çox da inkişaf etməmişdir.

Beləliklə, sabun istehsalı da əsrin əvvəllərində kustar əmtəə istehsalı xarakteri daşımış, sonra bu sahədə əsnaflar, emalatxanalar yaranıb fəaliyyət göstərmişdir. Kapitalist münasibətlərinin yaranması ilə sabun istehsalı da "fabrik-zavod" mərhələsinə keçmişdir. Bəzi müəssisələr, o cümlədən də sabun müəssisələri "zavod" adlansa da, ancaq kapitalist zavodu xarakteri daşımırdı.

## Ədəbiyyat

1. Shopen, I. (1852). Istoricheskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epokhu yeyo prisoedineniya k Rossiyskoy imperii. Sank-Peterburg: "V tipografii Imperatorskoy Akademii Nauk", 1236 s.
2. Qarayev, E. (2016). Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: "Mütərcim" nəşriyyatı, 544 s.
3. Əhmədli, N. (2018). İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin Kameral təsviri. Bakı: "Turxan" NPB, 328 s.
4. Yegiazarov, S. (1981). Issledovaniya po istorii uchrezhdeniy v zakavkaze, ch. II. Gorodskie sekhi. Kazan: "Imperatorskogo Universiteta tipografiya", 390 s.
5. Akopyan, T. (1977). Ocherk istorii Yerevana. "Izdatelstvo Yerevanskogo Universiteta tipografiya", 490 s.
6. Akopyan, T. (1978). Razvitiye Yerevana posle prisoyedineniya vostochnoy Armenii k Rossii. Yerevan: "Izdatelstvo Yerevanskogo Universiteta tipografiya", 490 s.
7. Gugushvili, P. (1957). Razvitiye promyshlennosti v Gruzii i Zakavkaze, t.I. Tbilisi: "Izd. AN Gruz. SSR tipografiya", 343 s.
8. Kavkazskiy kalendar na 1852 god. (1851). Tiflis: "V tipografiya Kanselyarii Namestnika Kavkazskogo", 724 s.
9. Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza. (1881). Tiflis: "Tipografiya Glavnogo Upravleniya Namestnika Kavkazskogo", 210 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

10. Kavkazskiy kalendar na 1887 god. (1886). Tiflis: “V tipografiya Kanselyarii Namestnika Kavkazskogo”, 718 s.
11. Obzor Erivanskoy gubernii za 1891 god (prilozheniye k vsepoddanneyshemu otchyotu), po godam 1884-1913. (1892). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 139 s.
12. Obzor Erivanskoy gubernii za 1892 god (prilozheniye k vsepoddanneyshemu otchyotu), po godam 1884-1913. (1893). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 89 s.
13. Obzor Erivanskoy gubernii za 1893 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913 (1894). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 75 s.
14. Obzor Erivanskoy gubernii za 1894 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913. (1895). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 79 s.
15. Obzor Erivanskoy gubernii za 1895 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913. (1896). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 75 s.
16. Obzor Erivanskoy gubernii za 1896 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913. (1897). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 79 s.
17. Obzor Erivanskoy gubernii za 1899 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913. (1900). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 71 s.
18. Obzor Erivanskoy gubernii za 1900 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913. (1901). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 71 s.
19. Kavkazskiy kalendar na 1904 god. (1903). Tiflis: “V tipografiya Kanselyarii Namestnika Kavkazskogo”, 743 s.
20. Obzor Erivanskoy gubernii za 1895 god (prilozheniye k vsepoddanneyshemu otchotu), po godam 1884-1913. (1896). Erivan: “Tipografiya-skoropechatnaya R.K. Edelsona”, 75 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Afərim Tağıyeva**
Gəncə Dövlət Universiteti
doktorant
tagiyevaaferim@gmail.com

# ZƏNGƏZURDA DİNLƏRİN YAYILMASI

***Açar sözlər:*** *Zəngəzur, Sünik, din, Bütpərəstlik, Xristianlıq, İslam*

***Keywords:*** *Zangazur, Sunik, religion, Paganisim, Christianity, Islam*

Qədim Sünik vilayətinin əhalisi təkallahlılığı qəbul edənədək müxtəlif dinlərə – bütpərəstliyə (ata, tibet öküzünə, qurda, qartala, daşa, ağaca sitayiş), atəşpərəstliyə (oda, işığa və günəşə sitayiş) və Zərdüştiliyə etiqad edirdilər. Onu qeyd etmək lazımdır ki, zərdüştlik ilk tanrıçılıq dini kimi meydana çıxsa da, dünyəvi dinə çevrilə bilmədi, o cümlədən Zəngəzurda çoxsaylı tərəfdarlar toplaya bilmədi. Əksinə, xristianlığın və islamın gəlişinə qədər bu yerlərdə atəşpərəstlik geniş yayılmışdı. Atəşpərəstlik tək Qafqaz Albaniyasında, Sünikdə və Atropatenada deyil, o cümlədən Ərməniyyə və İberiyada da yerli əhali arasında böyük nüfuza malik din sayılırdı. Atəşpərəstliyin nişanələri bütün Qafqazda olduğu kimi, Zəngəzurda da indiyədək qalmaqdadır. Zəngəzurda elə bir hündür dağ yoxdur ki, orada pir, ocaq olmasın. Sisyan rayonunun Murxuz kəndində Qırxlar piri, Qala pir, Ərəfsə kəndində Salvartı piri, Qafan rayonunda Pirhəmzə dağı, Pirdavidan dağı, Çiləxana piri, Körpü qayası piri müqəddəs ziyarətgah sayılırdı (1).

Zəngəzurda şaman kultu, tibet öküzünə, qurda, qartala, ata və s. onqonlara sitayiş buradakı insanların ulu əcdadlarının prototürklərlə bağlılığını göstərən birbaşa dəlillərdir. Çünki at, tibet öküzü (yak), qurd və qartal Altay, Tibet türklərinin hələ eradan əvvəl sitayiş etdiyi müqəddəs sayılan canlılar idi. Bütün bunları, eləcə də şamanizmlə bağlı ayinlərin həyata keçirilməsi səhnələrini özünün daş sinəsində həkk edərək, daş yaddaşında

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

saxlayaraq bu günümüzə gətirib çıxaran çox qiymətli tarixi abidə Sisyan rayonunun Urud kəndindəki orta əsr qəbiristanlığıdır.

Dördüncü əsrin əvvəllərində xristianlıq Qafqaza gəlib çıxdı. Təkallahlılıq artıq bir sıra ölkələrdə qəbul edilir, hakim dinə və güclü ideoloji amilə çevrilirdi. Qafqazda xristianlıq ilk olaraq Albaniyada özünə kök saldı, yalnız xeyli müddətdən sonra Ərməniyyə və İberiyaya da nüfuz etməyə başladı. Xristianlıq Albaniyada iki mərhələdə təşəkkül tapdı. Birinci mərhələ Sirofil (yəni Suriyapərəst), yaxud apostol mərhələsi, ikinci isə qrekofil (yəni yunanpərəst), yaxud Müqəddəs Qriqorinin fəaliyyəti ilə bağlı mərhələ. Qeyd etmək lazımdır ki, monofizit təriqətli (yəni Xristosu bir mahiyyətli-ilahi mahiyyətli qəbul edən) erməni qriqorian məhzəbindən fərqli olaraq, alban xristianları diofizit (yəni İsa Məsihin ikili-insan və ilahi mahiyyətli olmasını qəbul edən) məhzəbli idilər və Roma ilə yaxın münasibət saxlayırdılar. Qədim tarixi mənbələrdə Sünikdə xristianlığın Ermənistandan əvvəl yarandığı, müqəddəs apostoldan ikisi − Faddey və Varfolomeyin missioner fəaliyyəti nəticəsində burada müxtəlif xristian məbədlərinin tikildiyi qeyd edilir. Albanlar və süniklər diofizit idilər − yəni İsanı həm Allah, həm də Allahın oğlu kimi qəbul edirdilər (Musa Urud, 2005: 34).

Qədim türklər də Tanrını həm yaradan, həm də dünyanın özü kimi başa düşürdülər. Albaniya və Sünik xalqı (prototürklər) məhz bu genetik yaxınlığa görə xristian dinini 4 tərəfi bərabər xaçla qəbul etdilər. Qısa müddət ərzində Sünikdə bir-birindən əzəmətli məbədlər, kilsələr tikilməyə başladı.

Bu məbədlərin çoxu Roma, Yunan memarlığı üslubunda tikilsə də, hamısında qədim türklərin damğaları, işarələri və türk rumi əlifbasında yazılar qalmaqdadır. M.Adcı yazır ki, Ermənistandakı qədim məbədlərin divarlarında türklərə məxsus 23 işarə və ornament vardır. İrəvanda Matenadaran arxivlərində erməni, bəlkə də alban əlifbası ilə lakin qədim türk dilində yazılmış V-VII əsrlərə məxsus kitablar indi də qırx qıfıl altında saxlanılmaqdadır. Sisyanda rayon mərkəzindəki təpənin üstündə VII əsrdə tikilmiş böyük bir məbədgah vardır. Azərbaycanlılar qədim zamanlardan bu məbədgahı Qara kilsə adlandırırlar.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Erməni mənbələrinə görə bu məbədi VII əsr Sünik knyazı Koazat (adından və qrpçaq gözlərindən görünür ki, erməni deyildir) tikdirmişdir. Kilsə yonulmuş qara daşlardan tikilib, memarlıq baxımından Xotavəng və Qandzasar kilsələri ilə bir üslubdadır. Türklər xristian məbədlərinə kəlisa, kilsə deyirlər. “Kilsə” sözü qədim Tibetdəki Müqəddəs Kaylisa dağının adı ilə bağlıdır. Tanrıçılıq kultuna pərəstiş edən türklər bu dağın ətəklərinə yaxınlaşıb dua edər, qurban kəsərmişlər, lakin dağa çıxmağa heç kəsə icazə verilməzdi, çünki dağ müqəddəs idi və oraya insan ayağı dəyə bilməzdi (Musa Urud, 2005: 43).

Xristianlıq burada yayılandan sonra burada çoxlu monastrlar inşa edilmişdir ki, biri də Tatev monastrı idi. Erməni ənənəsinə görə monastır həvari Müqəddəs Faddeyin bölgədə xristianlığı təbliğ edərkən şəhid olmuş şagirdi Estatiusun şərəfinə adlandırılmışdır. Sonradan onun adı tələffüzdə dəyişərək Tatev formasına düşmüşdür.

Məşhur xalq etimologiyası isə monastır kompleksinə daxil olan əsas kilsə binasının inşası ilə əlaqədardır. Belə ki, kilsənin inşası tamamlandıqdan sonra memarın tələbəsi xaçı ucaltmaq üçün qübbənin üstünə çıxır. Lakin işini tamamlayıb aşağı düşərkən yıxılır və ölməməsi üçün dua edərək Tanrıdan ona qanad verməsini istəyir və bu ifadə erməni dilində “ta tev” şəklində səslənir (3).

Məbədin adının türk dilində etimologiyasına görə ad *“tat”* və *“ev”* sözlərindən ibarətdir. Tat sözü Azərbaycanda qədim dövrlərdən həyat keçirən türklərə (həmçinin Sasanilərin hakimiyyəti dövründə Azərbaycana köçürülmüş irandilli əhaliyə) aid edilməklə yanaşı, *“tat ev”* ifadəsi *“böyük ev”* anlamında da işlədilmişdir (4).

VII əsrin ikinci yarısında Ərəb xilafəti Albaniyanı işğal etdikdən sonra Zəngəzur əhalisinin bir qismi xristian dinindən islam dininə keçmiş, bir qismi isə xristianlıqda qalmışdı. Hazırda Qarabağda və Zəngəzurda yaşayan köklü albanların və qıpçaq türklərin özlərini “erməni” kimi tanımaları məhz bu tarixi prosesin nəticəsidir. Bu bölgələrdə olan günümüzə qədər gəlib

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

çıxmış alban məbədlərinin hamısı erməni-qriqorian kilsələrinə çevrilmişlər.

Zəngəzurun Sisian nahiyəsindəki IV-V əsrlərə aid Tanaat məbədi, VI-VII əsrlərə aid müqəddəs Qriqori, yaxud Qarakilsə məbədi, Gorus nahiyəsindəki IX əsrə aid Tatev məbədi kimi bir çox məbədlər erməni-qriqorian kilsələrinə çevrilmiş qədim alban abidələri nümunələrindəndirlər. Bu abidələr ermənilər tərəfindən dünyaya qədim erməni kilsələri kimi təqdim olunsa da, tarixi-elmi dəlillər bu abidələrin sırf Alban məbədləri olduğunu təsdiq edir. Zəngəzurda çox sayda pirlər, ocaqlar, ziyarətgahlar mövcuddur. Sisian rayonundakı Qırxlar, Salvartı pirləri, Qafan rayonundakı Prdavidan, Çiləxana pirləri, Meğri rayonundakı Buğakar piri, Laçın rayonundakı Quşçu, Ağababa, Sultan baba pirləri, Qubadlı rayonundakı Mir Sədi ağa ocağı, İmamzadə ocağı, Ağ Hasar piri zəngəzurluların hər zaman üz tutduqları müqəddəs ocaqlardır. Laçın rayonundakı Ağoğlan məbədi, Həmzə Sultan sarayı, Cicimli türbəsi, Sisian rayonundakı Ağüdi qəbirüstü abidəsi, Meğri rayonundakı Baba Hacı məqbərəsi, Zəngilan rayonundakı Bartaz Qız qalası, Məmmədbəyli türbəsi, Qubadlı rayonundakı Göy Qala, Dəmirçilər türbəsi, Mahrızlı, Dondarlı məscidləri kimi tarixi-memarlıq abidələrinin bir qismi erməni vandalları tərəfindən dağıdılmış, bir qismi də erməni irsi kimi qələmə verilir.

Qərbi Zəngəzurun bir sıra yaşayış məntəqələrindəki müsəlman məbədlərinin qalıqları isə hələ də qalmaqdadır. 1993-cü ildə Şərqi Zəngəzurun işğalından sonra oradakı yüzlərlə qoç heykəllər də erməni vandallağı nəticəsində məhv edilmişdir.

## Ədəbiyyat

1. https://files.preslib.az/projects/zangazur/az/a8.pdf
2. Musa Urud. (2005). Zəngəzur. Bakı.
3. https://ikisahil.az/post/178539-qarabag-ve-zengezurun-epiqrafik-abideleri
4. https://az.wikipedia.org/wiki/Tatev_monast%C4%B1r%C4%B1

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 212-215
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 212-215
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Aygün Kərimova**
AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu
doktorant
kerimova_00@list.ru

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA DAYANIQLI KƏND TƏSƏRRÜFATININ İNKİŞAF PRİNSİPLƏRİ

***Açar sözlər:*** *kənd təsərrüfatı, əkinə yararlı torpaq, ekoloji mühit, eroziya, suvarılan*

***Keywords:*** *agriculture, arable land, ecological environment, erosion, irrigated*

Kənd təsərrüfatı ənənəvi istehsal sahəsi olmaqla, respublikamızın iqtisadiyyatının ən əsas sahələrindən biridir, ölkəmizin inkişafında, əhalinin sosial-iqtisadi rifah halının yaxşılaşmasında, mövcud iş sahələrinin yaradılmasında mühüm rol oynamışdır. 1969-1982-ci illərdə Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə kənd təsərrüfatı sürətlə inkişaf etməyə başlayaraq, keçmiş SSRİ-nın ən çox kənd təsərrüfatı məhsulları istehsal edən bölgələrindən biri olmuşdur. Ümummilli liderin yüksək təşkilatçılığı, misilsiz işgüzarlığı sayəsində vaxtilə kənd təsərrüfatı sahəsində olan gerilik aradan qaldırılmış, yeni emal müəssisələrinin, sənaye sahələrinin, zavodların fəaliyyətinə başlanılmışdır.

Kənd təsərrüfatı sahəsində əldə olunan nailiyyətlər, istifadəyə verilən bir çox zavod və fabriklər, heyvandarlıq kompleksləri, yaradılan su anbarları, ümumilikdə desək, küllü miqdarda maliyyə vəsaiti hesabına yaradılan və inkişaf etdirilən kənd təsərrüfatı çox təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərində qısa bir müddətdə daxildə olan bədxahlar tərəfindən AXC hakimiyyəti dövründə acınacaqlı vəziyyətə salındı, qəddar erməni işğalçıları tərəfindən bərəkətli torpaqlarımızın 20 faizi işğal olunmuş və həmin ərazilərdə mövcud olan çoxlu sayda kənd təsərrüfatı obyektləri dağıdılmış, məhv edilmişdir. 30 il ərzində Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal altında olan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

əkinə yararlı torpaq sahələri istifadəyə yararlılıq vəziyyətini itirmişdir. Ərazilərdə qəsdən törədilmiş yanğınlar nəticəsində torpağın üst, münbit qatının strukturu korlanmış, torpaqlar eroziyaya uğramış, buradakı nadir bitki və heyvan növləri, bitkilər üçün vacib olan mikroorqanizmlər məhv olmuş, ümumilikdə ekoloji mühitdə tarazlıq pozulmuşdur. Təbii ki, bu da bütün region üçün olduqca təhlükəli problemlərin yaranmasına səbəb olmuşdur (Süleymanov, Süleymanov, 2013: 176).

Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv edilmişdir. Bunun da mənfi nəticəsi birbaşa torpağa dəymişdir, əkinə yararlı torpaqlar sıradan çıxmışdır. Eyni zamanda, bu torpaqların uzun müddət əkilib-becərilməməsi onun pisləşməsinə səbəb olmuşdur ki, bu da gələcəkdə həmin torpaqlardan yüksək məhsul əldə etməyə zəmanət vermir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə yaradılmış* Şərqi Zəngəzur iqtisadi rayonu timsalında regiounun tədqiq edilməsi və təbii ehtiyatlarının (eləcə də, torpaq, su və meşə örtüyünün) hərtərəfli öyrənilməsi gündəmdə olan məsələlərdən biridir.

İşğaldan azad olunmuş kənd təsərrüfatına yararlı torpaqların 207,0 min hektarı (30,4 %) əkinçilikdə, 54,7 min hektarı (8,0 %) çoxillik əkmələr altında, 380 min hektardan çoxu (55,9 %) heyvandarlığın inkişafı üçün mühüm əhəmiyyətə malik örüş-otlaq sahələrindən ibarət idi. Bu torpaqların əksəriyyəti yay otlaqlarından ibarət olmuşdur (1; Vəliyev, 2019: 386). Kənd təsərrüfatına yararlı torpaqların 128,2 min hektarı, əkin torpaqlarının 80,5 min hektarı, çoxillik əkmələrin 38,2 min hektarı suvarılan olub (Cədvəl 1).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Cədvəl 1.**
**Şərqi Zəngəzur iqtisadi rayonunun torpaq ehtiyatlarının tərkibi (ümumi/suvarılan, min ha)**

| Rayonlar | Ümumi sahə | Kənd təsərrüfatına yararlı | O cümlədən | | | | | Meşəliklər |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Əkin | Çoxillik əkmələr | Dinc | Biçənək | Örüş-otlaq | |
| Kəlbəcər | 199,0 | 91,2 | 4,0 | -- | 2,3 | 7,6 | 76,4 | 62,8 |
| | 1,4 | 1,4 | 1,2 | -- | -- | 0,1 | -- | -- |
| Laçın | 182,6 | 90,9 | 12,1 | 0,2 | 3,7 | 4,7 | 69,3 | 63,3 |
| | 1,5 | 1,5 | 0,9 | 0,2 | -- | -- | 0,1 | -- |
| Zəngilan | 72,6 | 34,6 | 7,7 | 2,7 | 0,1 | 0,2 | 23,3 | 19,6 |
| | 5,3 | 5,3 | 3,6 | 1,5 | -- | -- | -- | -- |
| Qubadlı | 84,2 | 34,6 | 15,0 | 0,9 | -- | 0,6 | 17,6 | 18,4 |
| | 5,3 | 5,3 | 4,5 | 0,6 | -- | -- | -- | -- |
| Cəbrayıl | 111,6 | 52,6 | 20,5 | 7,2 | 0,6 | -- | 23,2 | 14,0 |
| | 12,6 | 12,6 | 5,8 | 5,3 | -- | -- | 0,9 | -- |

Bu torpaqların əksər hissəsi keyfiyyət xüsusiyyətlərinə görə respublikanın digər ərazilərinin torpaqlarına nisbətən daha münbit torpaqlardır. Respublikada I keyfiyyət qrupuna (yüksək keyfiyyətli torpaqlara) və II keyfiyyət qrupuna (yaxşı keyfiyyətli torpaqlara) daxil olan torpaqların 24 %-dən çoxu Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində yayılmışdır (Məmmədov, 2007)

Ərazidə kənd təsərrüfatının inkişaf istiqamətlərini düzgün müəyyən etmək, kənd təsərrüfatına yararlı torpaqlardan istifadənin səmərəliliyini təmin etmək üçün torpaq örtüyünün xüsusiyyətlərini və onun kənd təsərrüfatına yararlılıq səviyyəsini nəzərə almaq olduqca vacibdir. Kənd təsərrüfatı sahəsində inkişaf-bərpa məsələlərini aşağıdakı əsas istiqamətlər üzrə qruplaşdırmaq olar: torpaq və su ehtiyatlarından səmərəli istifadəsi üzrə planlamanın və torpaq islahatının aparılması; aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması; aqro-emal müəssisələrinin yaradılması; kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və informasiya-

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

məsləhət xidmətinin təşkili; spesifik dövlət dəstəyi mexanizminin yaradılması və s.

"Aqrar sahədə yeni Elektron kənd təsərrüfatı mexanizminin yaradılması haqqında" imzalanmış Fərman kənd təsərrüfatının inkişafı istiqamətində yeni uğurların qazanılmasına yönəlmiş, dayanıqlı kənd təsərrüfatı istehsalına təkan verən yeni texnologiyaların tətbiqi genişlənmişdir.

## Ədəbiyyat

1. Süleymanov, E., Süleymanov, V. (2013). Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 176 s.
2. Azərbaycan Respublikasının kənd təsərrüfatına yaralı torpaq sahələrinin təbii-təsərrüfat yerləri üzrə bölgüsünə dair məlumat. (2019). Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı, s.4.
3. Vəliyev, A.H. (2019). Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri. Bakı: "Avropa", 386 s.
4. Məmmədov, Q.Ş. (2007). Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: "Elm", 664 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 216-218
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 216-218
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Gültəkin Hacıyeva**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Təbii Ehtiyatlar İnstitutu
doktorant
gulyasadiq202@gmail.com
**İlahə Seyidova**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Təbii Ehtiyatlar İnstitutu
doktorant
iseyidova202@gmail.com

# ZƏNGƏZURUN TARİXİ COĞRAFİYASI

***Açar sözlər:*** *Zəngəzur, dağlıq relyef, Qarabağ, Göyçay, Şahdağ*

***Keywords:*** *Zangazur, mountainous terrain, Karabakh, Goychay, Shahdagh*

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindəndir. Zəngəzur Kiçik Qafqazın ən uzun dağ silsiləsi olub, Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistanın cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, Ermənistan ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır. Tarixi boyu Azərbaycan torpaqları parçalanmışdır. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb (Urud, 2005: 155).

Zəngəzur XIX−XX əsrlərdə tarixən Cənubi Qafqazda heç vaxt yaşamamış, lakin Azərbaycanı parçalamaq üçün məqsədyönlü şəkildə bura köçürülən ermənilərin əlinə keçmişdir. Tarixi xronologiyaya əsasən, 1920-ci ilə qədər Zəngəzurda erməni idarəçiliyinin izi-tozu belə olmamışdır! Zəngəzur mahalı strateji baxımdan itirilmiş torpaqlarımızın bölgədə ən qiymətlisidir. Qeyd etdiyimiz kimi Zəngəzur ermənilər üçün çox vacib torpaqdır. Ona görə ki, onlar bu torpaqları ələ keçirdikdən sonra İranla birbaşa əlaqə saxlamağa müvəffəq olmuşlar.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Uzun illər Zəngəzurun tarixi, coğrafiyası, etnoqrafiyası Azərbaycan mütəxəssisləri tərəfindən öyrənilməyib. Xüsusilə əsrimizin əvvəllərində Zəngəzurun Ermənistana pay verilməsi buranı bizlərə bağlı sahə etmişdir. Bundan istifadə edən saxtakar ermənilər Zəngəzurun abidələrini öz adlarına çıxıblar, kəndlərin, dağların, çayların, düzlərin tarixən formalaşan həqiqi azəri-türk adlarını dəyişib qondarma adlar qoyublar (Qarabağnamələr, 2006: 288). Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib (Həbibbəyli, Zəngilanlı, 2000: 269).

Zəngəzur böyük bir ərazini əhatə edir və mürəkkəb dağlıq relyefə malikdir − hündür dağlar, geniş dağarası çökəkliklər, dərin dərələr, meşələr kimi relyef formaları bir-biri ilə əvəz olunur. Zəngəzur Göyçə gölünün şimalındakı Şahdağ silsiləsindən cənubda Araz çayı dərəsinə, şərqdə Qarabağdan qərbdə Zəngizabasara qədərki böyük bir tarixi-coğrafi ərazidir. Zəngəzur diyarı özlüyündə 3 əsas relyef formasına bölünür: Qərbdə Zəngəzur silsiləsi və onun şərq ətəkləri, şərqdə Qarabağ silsiləsi və onun şərqə davamı, həmçinin daxili Qarabağ yaylasının dağlıq çökəklik hissəsi.

Arxeloji tədqiatlar göstərir ki, Zəngəzur silsiləsi şimal-qərb hissədə (Naxçıvan MR daxilində) neogen dövrünün effuziv süxurlarından, mərkəz hissədə paleogen dövrünün vulkanik mənşəli süxurlarından, cənub-şərq hissədə isə yuxarı oliqosen-miosenə qədər əmələ gəlmiş intruziv süxurlarından, mərkəz hissədə paleogen dövrünün vulkanik mənşəli süxurlarından, cənub-şərq hissədə isə yuxarı oliqosen-miosenə qədər əmələ gəlmiş intruziv süxurlardan təşkil olunmuşdur (4).

Zəngəzurun dağ və yayla silsilələri bu yerlərin təbiəti qədər sərt, gözəl və təkrarolunmazdır. Ucu göylərə dirənən şiş qayalar, sıldırım yarğanlar, dar cığırlı, sərt yoxuşlu yamaclar, “qu”

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

deyəndə qulaq tutulan dərin dərələr, keçilməz aşırımlar, zəncirbənd kimi bir-birinə keçən yollar və zirvələr, qarlı dağların ətəklərindən süzülüb şırıltı ilə dərələrə axıb tökülən gümüşü çaylar, alp çəmənliklərinə keçən sıx meşələr Zəngəzuru oxşarsız edən, Qafqazın digər dağlıq ərazilərindən köklü surətdə fərqləndirən cəhətlərdir (Urud, 2016: 37).

Zəngəzurun təbiəti və iqlim şəraiti, zəncirvari sıra dağlar, dağlar arasındakı ormanlar, sıldırım qayalıqlar, keçilməz aşırımlar, gursulu, sürətli dağ çayları bu diyarın bitki örtüyünün və heyvanlar aləminin müxtəlifliyini şərtləndirən başlıca amildir.

Zəngəzurun meşələri, əsasən Qubadlı, Qafan və Gorus rayonlarının, qismən də Laçın, Sisyan və Meğri rayonlarının payına düşür.

Bəsitçay qoruğu 1974-cü ildə Ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, əslində nadir çinar meşəsi idi. Burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. İşğal illərində erməni vandalları çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir.

## Ədəbiyyat

1. Urud, M. (2005). Zəngəzur (Elmi-publisistik nəşr). Bakı.
2. Qarabağnamələr. (2006). II kitab. Bakı: "Şərq-Qərb", 288 s.
3. Həbibbəyli, Z., Zəngilanlı, M. (2000). Zəngəzurun qısa tarixi və coğrafiyası. Bakı.
4. http://wikiredia.ru/wiki/Зангезур

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 219-223
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 219-223
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Aytən Əsədova**
AMEA Arxeologiya, Etnoqrafiya və
Antropologiya İnstitutu
dissertant
asadova_ayten@bk.ru
https://orcid.org/0000-0002-5067-1393

# ZƏNGƏZURUN URUD ABİDƏLƏRİ

***Açar sözlər:*** *Zəngəzur, türk-oğuz, Urud, kənd, abidə, qala, qəbir*

***Keywords:*** *Zangazur, Turkish-Oghuz, Urud, village, monument, castle, grave*

Zəngəzur Azərbaycanın tarixi ərazisi, qədim türk-oğuz yurdudur. Zəngəzur Qərbi Azərbaycanın (indiki Ermənistan) cənub-şərq, Göyçə gölünün cənubu və Azərbaycan Respublikasının cənub-qərb ərazilərini əhatə edir. Bu ərazilər ən qədim dövrlərdən başlayaraq Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuşdur. Tarixi Zəngəzur mahalının əraziləri indiki Ermənistanın (1921-ci il Sovet dövründə Ermənistana verilən ərazilər) Gorus, Sisyan, Qafan, Mehri və Azərbaycan Respublikasının Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazilərini əhatə edirdi. Zəngəzur qəzası ayrıca inzibati ərazi kimi Çar Rusiyası tərəfindən 1861-ci ildə yaradılmışdır. Azərbaycan Xalq Cumhuriyyəti dövründə (1918-1920-ci illər) Qarabağ general qubernatorluğunun 4 qəzasından biri idi və sahəsi 7,824 kv.kilometrə bərabərdir idi (Nərimanoğlu, 2019: 3).

Tarixi türk-oğuz yurdu olan Zəngəzur mahalı qanlı tarixlərdən keçmiş, əsl sakinləri qırğınlara məruz qalmış və bu ərazilərdən qovulmuşdurlar (Bayramov, 2011: 288). Təkcə 1918-ci ildə Zəngəzurda 115 Azərbaycan kəndi ermənilər tərəfindən darmadağın edilmiş, sakinləri öldürülmüş və kəndlər yer üzündən silinmişdir (2002: 590). Məqsəd isə bu ərazilərdə türklərin kökünü kəsmək və Azərbaycan torpaqları üzərində qurulan Ermənistan dövlətinin planını təşkil edirdi. Qeyd etmək lazımdır

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

ki, Türkmənçay müqaviləsinə (1828-ci il), Ədirnə sülhünə əsasən Türkiyə və İrandan xeyli erməni bu ərazilərə köçürülmüşdür. Zəngəzur Sovet dövründə ermənilərin təkidi və havadarları vasitəsilə Azərbaycandan ayrılaraq Ermənistana verildi. Belə ki, 1920-ci ildə həyata keçirilən rayonlaşma zamanı Zəngəzur ərazisində Qafan, Gorus, Mehri, Sisyan rayonları təşkil edildi (2005: 460). 1921-ci il 20 iyulda XKS-nin qərarı ilə Zəngəzurun böyük bir hissəsi Ermənistanın ərazisi kimi qəbul edildi.

Bundan sonra bu ərazilərdə etnik təmizləmə siyasəti sürətlə həyata keçirilməyə başladıldı. Zəngəzurun böyük bir hissəsinin Ermənistana verilməsi ilə Azərbaycana daha bir böyük bir zərbə vuruldu − Naxçıvan Azərbaycandan ayrıldı. Azərbaycanlıların yaşadığı, tarixi yurd yeri olan Zəngəzurda silsilə şəklində dəfələrlə faciələr törədildi, deportasiyalar həyata keçirildi. Bütün bunlarla kifayətlənməyən ermənilər bu ərazilərdə yerli xalqın izini itirmək üçün tarixi abidələri, qəbirləri məhv etməyə, toponimləri dəyişdirməyə başladılar.

Çünki bu ərazilərdə olan abidələr hamısı yerli türklərə məxsus idi. Zəngəzurda olan qəbirlər, qalalar (memarlıq üslubuna görə) epiqrafiq abidələr, pirlər, məbədlər, məscidlər və s. burda olan yerli türk əhalinin kimliyi, tarixi, dini inancı, adəti barədə məlumat verir. Zəngəzurda olan bütün abidələr buranın türk-oğuz yurdu olduğunu təsdiq edirdi. Ermənilər bu abidələri məhv etmək və ya öz adlarına çıxmaqla əsas məsələni unudurlar ki, tarixi arxeoloji abidələr yeganə mənbədir ki, hər formada (hətta dağılmış olsa belə) mənsub olduğu xalqın izini saxlayır (Əsədova). Zəngəzurun qədim abidələrlə zəngin olan Qarakilsə ərazisində olan abidələr də bu yerlərin tarixi Azərbaycan torpağı olduğunu təsdiq edir. Bu mövzumuzda isə yalnız Qarakilsənin (Sisyan) Urud kəndinin abidəri haqqında danışılır. Qərbi Zəngəzurda ən məşhur, əzəmətli abidələrdən biri Urud Qalasıdır. Qala Qarakilsənin Urud kəndində yerləşir. Qala VI-VII əsrlərdə Bazarçayın sağ sahilində təpədə inşa edilmişdir. Qala hər tərəfdən sıldırım qayalıqlarla əhatə edilir. Urud qalasında Bazarçaya baxan divarda çaya doğru yeraltı yolun olduğu da bildirilirdi. Hətta bu yeraltı yolun olmasını yerli azərbaycanlı əhali arasında olan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

fikirlərdə təsdiq edirdi. Qaladan aşağıda yarım kilometr ərazidə böyük bir yaşayış məskəni də var idi (Nərimanoğlu, 2019:15). Qalanın yuxarı hissəsindən görünüşü yəhər formasında idi.

Qərbi Zəngəzurda 1988-ci ilə qədər əsas əhali məhz türklər olmuşdular. Bu ərazilərdə türklərin olduğunu təsdiq edən abidələrdən biri də Urud qəbirstanlığı idi. Qəbirstanlıq XV-XVI əsrlərə aid idi.

Bu qədim qəbirstanlıq Bədir qayasının yanında Bazarçayın sol sahilində yerləşirdi. Burda 100-dən çox qədim qəbir, 13 sanduqə, 4 qoç heykəli var idi. Sovet hakimiyyəti illərində 1926-cı ildə Ə.Ələkbərov, 1959-cu ildə Z.Bünyadov tədqiqatlar aparmışdılar. 1961-ci ildə M.Nemətova bu ərazilərdə XV-XVII əsrlərə aid tarixi-epiqrafik abidələri öyrənmişdir (Urud, 2005: 46-47). Qəbirlər üzərində yazılar ərəb qrafikasının kufi, nəxş, süls, nəstəliq üslubunda yazılmışdır. Urud qəbirləri üzərində qoç, at fiqurlarına, fiqurlar üzərində isə yerli əhalinin mədəniyyətini əks etdirən naxışlara rast gəlinirdi.

Qəbirlər üzərində şamanizmi əks etdirən oymalar bu ərazilərin köklü sakinləri haqqında tutarlı tarixi məlumatlar verir. Qəbirlər üzərində maralın, öküzün, qoçun üzərinə qonmuş qanadları açıq qartal rəsmlərinə rast gəlinir. Bu formada olan orqonlar türk xalqlarına məxsusdur və islamdan əvvəlki dövrə aid dini inanclardan xəbər verir.

Eyni zamanda bəzi qəbirlərdə qarşı-qarşıya durmuş tibet öküzlərinin rəsmlərinə də rast gəlinir. Bütün bunlar bu ərazilərdə yerli türk xalqlarının tarixini əks etdirir.

Urud qəbirstanlığında bəzi daşlar üzərində əllərini göyə qaldırmış insan rəsmlərinə də rast gəlinir. Urud qəbirləri yalnız bir tarixi abidə olaraq uzərindəki yazıları yox, həm də bir elin, yurdun tarixini özündə əks etdirir. Tarixi-epiqrafiq Urud abidələri həm də dövrünün (həm İslamdan əvvəl, həm də sonrakı dövrlər) adət-ənənəsini, məişət tarixini günümüzə daşıyır. Bu abidələr Azərbaycanın daş üzərində oyma sənətinin Təbriz, Naxçıvan məktəbi nümunələrinə aiddir. Qəbirlər üzərindəki işarələrlə həm də həmin dövrün sənətkarlıq numunələri − xalçaçılıq, zərgərlik və s. barədə məlumat verir. Təəssüflə bildirmək lazımdır ki, bu

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

abidələrin əksəriyyəti ermənilər tərəfindən məhv edilib. Tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində xalqımıza məxsus minlərlə tarixi-arxeoloji, memarlıq abidələri vəhşicəsinə dağıdılıb məhv edilmişdir. Bu abidələrdən yalnız 2 qəbirüstü abidə Naxçıvanda, digəri 2-si isə Gəncədə muzeydə saxlanılmaqdadır.

Zəngəzurun Urud abidələri içərisində tarixi Urud körpüsünü xüsusi qeyd etmək lazımdır. Körpü XIX əsrə aid olub, Bazarçayın hər iki sahilini birləşdirir. Bir taylı olan bu körpünün 1849-cu ildə inşa edildiyi bildirilir. Hətta bu körpünün tikintisi ilə bağlı yerli əhali arasında bir fikir də var ki, körpünün tikintisində 100 mindən çox yumurta istifadə edilmişdir. Tarixi yurd yerimiz Urud kəndinin abidələri haqqında yalnız bir məqalədə və ya bir kitabda danışmaqla kifayətlənmək olmaz. Bu abidələrdə bizim, vaxtı ilə Qərbi Azərbaycanda yaşamış 300 min azərbaycanlının ruhu, izi var.

Bu abidələrimizi tədqiq etməklə, yaddaşlarda saxlamaqla tarixi torpaqlarımıza qayıtmaq eşqini qoruyub saxlayırıq. Çox təəssüflər olsun ki, bu abidələrin əksəriyyəti 1921-ci ildən sonra, yəni Zəngəzurun böyük bir hissəsinin Ermənistana verilməsindən sonra dağıdılıb və erməniləşdirilib. Bu səbəbdən müasir Azərbaycan tarixşunaslığında itirilmiş torpaqlarımızın tarixinin tədqiqi ən aktual məsələdir.

Bu abidələr haqqında biz arxiv materiallarından və Sovet dövründə kortəbii şəkildə öyrənilən materiallar əsasında məlumat alırıq.

Bütün materiallar, abidələr Qərbi Azərbaycanın, bu ərazilərin vaxtı ilə türklərə məxsus olduğunu təsdiq edir. Bu ərazilərə qayıtmaq vaxtı ilə ordan didərgin düşənlərə nəsib olmasa da onların övladları – biz, tarixi torpaqlarımıza qayıdacayıq və abidələrimiz məhv edilsə də, torpaq köksündə gizlədib saxladığı izlərimizi yenidən araşdırıb öyrənəcəyik. Bu ərazilərə qayıtmaq bizim “varislik” hüququmuzdur. Çünki Qərbi Zəngəzur bizim tarixi torpağımızdır!

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## Ədəbiyyat

1. Nərimanoğlu, H. (2019). Zəngəzur 100 sual, 100 cavab. Bakı, s.185.
2. Bayramov, İ. (2011). Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı, s.288.
3. Naxçıvan Ensiklopediyası. (2002). AMEA. Bakı, s.594.
4. Azərbaycan Xalq Cumhuriyyətinin Ensiklopediyası iki cilddə. (2005). 2-ci cild. Bakı, Lider nəşriyyatı, s.469.
5. Urud, M. (2005). Zəngəzur. Bakı, Nurlar, s.501.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 224-226
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 224-226
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Dinarə Babayeva**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
dissertant
dinara2nh@gmail.com

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ZƏNGƏZURDA MƏDRƏSƏ VƏ MƏKTƏBLƏRİN FƏALİYYƏTİNƏ DAİR

***Açar sözlər:*** *mədrəsə, məktəblər, Zəngəzur, Qafqaz, dərs*
***Keywords:*** *madrasa, schools, Zangazur, Caucasus, lesson*

XIX əsrin əvvəllərinə kimi uzun müddət məktəblər və mədrəsələr Qafqazdakı Azərbaycan türk etnosu arasında yeganə maarif mərkəzləri olmuşdur. Onların bəzilərində Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri ibtidai təhsil almışdılar. Bir sıra məktəb və mədrəsələr şagirdlərə şərq dilləri və ədəbiyyatı sahəsində yaxşı təhsil vermişdir. Rusiya imperiyası istila edilənə qədər Zəngəzurda təhsil məscidlərin yanında fəaliyyət göstərən mədrəsələrdə və evlərdə fərdi ruhanilər tərəfindən həyata keçirilmişdir. Mədrəsələrə qəbul olunan uşaqlara əvvəlcə ərəb əlifbası öyrədilirdi. İlkin səviyyədə təhsil alıb oxuma-yazmanı öyrənən gənclərdən imkanları olanlar sonradan öz təhsillərini Təbriz, Tehran, Ərdəbil, Məşhəd, Nəcəf, Bağdad və Şam kimi şəhərlərin böyük mədrəsələrində davam etdirmişlər. Zəngəzur dağlıq ərazi olmasına baxmayaraq (Brokgauza i Yefrona, 1894: 222) Azərbaycanın elmi, mədəni və dövlətçilik həyatında mühüm yeri olan bölgələrimizdən biridir. Qarabağ, Naxçıvan və Təbriz kimi mədəniyyət mərkəzlərimizin qonşuluğunda yerləşən qədim Zəngəzur diyarı həmişə bu mərkəzlərlə sıx iqtisadi, mədəni və mənəvi əlaqədə olmuşdur.

Zəngəzurun Sisyan rayonunun Şəki kəndində və Qafan rayonunun Kurud kəndində 9-10 il təhsil verən ibtidai mədrəsə olmuşdur. 1900-1917-ci illərdə Şəki məktəbində Qazı Məmməd Əfəndinin mədrəsəsində təhsil almış şagirdlər Nuxada təsdiq olunduqdan sonra sünni kəndlərində mollalıq etmək hüququ almışlar.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Kurud kəndindəki mollaxanada dərs deyən Axund Əbdürrəhman Hacı oğlu Tehranda ali mədrəsə bitirmişdi.

Sisyan rayonunun Urud kəndindəki 9 illik mədrəsə tipli mollaxana daha mütərəqqi olub, dini ayinləri öyrətməkdən başqa, dünyəvi elmlərdən də məlumat verirdi. Həmin mollaxanada dərs deyən Mirzə Sadıq Axundzadə Təbrizdəki Ali mədrəsəni bitirmişdi (Musa Urud, 2005: 98). Urud, Şəki və Kürdük mədrəsələri yerli xeyriyyəçilər tərəfindən maliyyələşdirildiyindən burada oxuyan şagirdlər təhsil haqqı verməkdən azad idilər.

Qafan rayonunun Baharlı kəndində molla İsmayıl İmamalı oğlu, Gığı kəndində molla Fərzəli Piriyev, Şəhərcik kəndində molla Tağı, Sisyan rayonunun Şıxlar kəndində molla Ələsgər və molla Səmənd, Dəstəgird kəndində molla Nuşirəvan, Vağədi kəndində molla İbrahim Xəlil ibtidai təhsil verən mollaxanalar açmış və ayda bir manat təhsil haqqı almaqla şagirdlərə oxumaq, yazmaq öyrətmişlər.

Bütün Yelizavetpol quberniyasında olduğu kimi (Romanovskiy, 1890: 39), Zəngəzurda da, dünyəvi məktəblərin açılması 1875-ci ildən sonraya təsadüf edir. Yelizavetpol qubernatorunun qərarı ilə 1876-cı ildə quberniyanın üç əyalətində (Dağ Kəsəmən, Cəbrayıl və Gorus kəndlərində) rus-tatar məktəbi açıldı. 1882-ci ildə isə quberniya ərazisində daha beş dünyəvi məktəb açıldı ki, bunlardan üçü Zəngəzur qəzasının kəndlərində (Qubadlı, Arsevanik və Qarakilsə) təşkil edildi. Ümumiyyətlə, Yelizavetpol quberniyasında 1901-ci illədək 28 ibtidai rus-tatar məktəbi fəaliyyət göstərirdi ki, bunun da 12-si Zəngəzurda idi (Musa Urud, 2005: 98).

Qeyd etmək yerinə düşərdi ki, Zəngəzurda təşkil edilmiş bu məktəblərdə təhsil almış şagirdlərin arasından çox görkəmli ədəbiyyat, elm və dövlət xadimləri çıxmışdır. Xalq şairi Əli Vəliyev Urud mədrəsəsi haqqında yazırdı: “Nəcəfdə ali təhsil alıb, mollalıq hüququna malik olan Fətullah, Gorusda iki dərəcəli rus məktəbini qurtarmış Sadıq, məşhur şair Ləlini bağlamış şair Mirzə Hüseyn Urudda yaşayırdılar (Musa Urud, 2005: 98).

Əlavə etmək lazımdır ki, XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərindən etibarən ənənəvi məktəblərin rus dili tədrisinin tətbiq

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

olunduğu yeni üsullu məktəblər tərəfindən sıxışdırılmasına başlandı.

## Ədəbiyyat

1. Zangezurskiy uezd. Ensiklopedicheskiy slovar Brokgauza i Yefrona. (1894).
2. Musa Urud. (2005). Zəngəzur.
3. Romanovskiy, V. (1890). Istoricheskaya zapiska ob Erivanskoy gimnazii.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 227-229
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 227-229
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Türkan Məmmədova**
AMEA akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
dissertant
turkangulmaliqizi@gmail.com

# ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏSİNİN LANDŞAFT QURŞAQLARI VƏ ONLARIN MÜASİR VƏZİYYƏTİ

***Açar sözlər:*** *landşaft, təbii kompleks, seliteb, transformasiya, struktur-genetik xüsusiyyət*

***Keywords:*** *landscape, natural complex, seliteb, transformation, stuctucal-functional feature*

Şərqi Zəngəzur ərazisinin işğal altında qaldığı 30 ilə yaxın bir müddətdə, eyni zamanda II Qarabağ müharibəsi zamanı təbii və antropogen landşaftlar vəhşicəsinə tənəzzülə məruz qalmışdır. Bu müddət ərzində işğal altında qalan inzibati rayonların torpaqları istismar edilmiş, hər il əkin və örüş-otlaq sahələri yandırılmış, yeraltı sərvətlər talan edilmiş, təbii meşə örtüyü və çay dərələrində 100 ha-la bağçılıq təsərrüfatı məhv edilmişdir. Bütün bunların təsiri nəticəsində Şərqi Zəngəzurun landşaft qurşaqları əsaslı transformasiyaya məruz qalmışdır.

M.Ə.Süleymanov apardığı tədqiqatlar nəticəsində Şərqi Zəngəzur ərazisində aşağıdakı landşaft vahidlərini ayırmışdır: yarımsəhra və quru-çöllər, dağ-yarımsəhraları, dağ-bozqırları, dağ-meşələri, dağ-çəmənləri, subnival və qayalıqlı komplekslər, çay terraslarının çəmənli kolluq və meşələri (Süleymanov, 2005).

Yarımsəhra və quru-çöllər landşaft kompleksləri Arazboyu düzənliklərdə yayılmışdır. Bu landşaftlarında süni-suvarma tətbiq etmədən torpaqların fasiləsiz əkilməsi ərazidə torpaqların deqradasiyasına səbəb olmuş, səhralaşma prosesini sürətləndirmişdir.

Dağ-yarımsəhraları təbii kompleksləri ərazinin 400-500 m yüksəkliyə qədər olan sahələrini əhatə edir (Budagov, 1988). Bu təbii kompleks digər komplekslərdən kəskin fərqlənir. Dağ-yarımsəhraları Arazsahili maili düzənliklərdə yayılmışdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Dağ-çölləri 200 m-dən 1200-1400 m-ə qədər yüksəklikləri əhatə edir. Qarabağ vulkanik yaylasında bu təbii kompleks hətta 1600-1800 m yüksəkliklərdə yayılmışdır (Əliyeva, 2006). Dağ-çölləri təbii kompleksi Həkəri çayı hövzəsində, Arazboyu maili düzənliklərdə və alçaqdağlıq sahələrdə yayılmışdır.

Şərqi Zəngəzurda dağ-meşələri orta dağlıq zonanı əhatə edir. Onun aşağı sərhəddi 600-700, yuxarı sərhəddi isə 200-2300 m-dir. Qarabağ vulkanik yaylasında dağ-meşələrinin aşağı sərhəddi daha yüksəkdən keçir. Dağ-çəmənlikləri təbii kompleksi 2000-2300 m-dən 3000-3400 m yüksəkliyə qədər ərazini əhatə edir (Əliyeva, 2006). Yüksək dağlığın subnival və qayalıq kompleksi nisbətən kiçik ərazini tutur. Bu kompleks Murovdağın və Qarabağ vulkanik yaylasının 3200 m-dən yüksək sahələrini əhatə edir. Qayalıqlar Qırxqız, Şahdağ və digər dağların 2800-3200 m-dən yüksək zirvələrindədir.

Ərazinin çay terraslarında çəmənlik, kolluq kompleksləri yayılmışdır. Çəmənlik və kolluqlar çayların aşağı və orta axınında subasar və terraslar üzərində formalaşmışdır. Çayların aşağı axınında dərələr genişlənir, terraslar böyüyür. Ona görə də bu sahələrdə çəmən və kolluqlar daha geniş sahə tutur. Həkəri çayının aşağı axınında bu landşaflar geniş areala malikdir.

Şərqi Zəngəzur bölgəsinin təbii landşaftları ilə yanaşı seliteb komplekslər sistemi də üeməni qəsbkarları tərəfindən dağıdılmış, qarət edilmiş, onların fəaliyyəti tamamilə dayandırılmışdır. Laçının 120 kəndi, Kəlbəcərin 120-dən artıq yaşayış məntəqəsi, Qubadlının 94, Zəngilanın 8, Cəbrayılın 77 müxtəlif ölçülü seliteb landşaft vahidləri erməni işğalçıları tərəfindən qəsb olunmuşdur.

Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının qiymətli meşə landşaft kompleksləri ekoloji təcavüzə məruz qalmışdır. Sistemsiz şəkildə qırılan müxtəlif ağac növləri ağır texnika vasitəsilə gətirilərək meşə və kolluq sahələrində eroziya mərkəzinə çevrilə bilən dərin şırımlar yaratmışdır.

Seliteb landşaftlar uzun illər baxımsız qaldığından suksesiya prosesi getdiyi halda, Ermənistanın meşə təsərrüfatını ucuz xammalla təmin etmək məqsədilə işğal edilmiş rayonların meşə landşaftlarının zəif bərpa olunan sərvətləri amansızcasına qarət

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

olunmuşdur. Dağətəyi və düzən bölgələrdə landşaftlarının əsas transformasiya səbəbləri örüş və otlaqların həddindən artıq istifadəsi, əkin sahələrinin yay, payız aylarında yandırılması, hərbi texnikanın hərəkəti, istehkam və səngərlərin qazılmasıdır (Azərbaycan Coğrafiya Cəmiyyəti, 2020). Şərqi Zəngəzur bölgəsində uzun müddət davam edən hərbi-texnogen fəaliyyət landşaftların transformasiyasına səbəb olan amillərin aktivliyini sürətləndirmişdir.

Şərqi Zəngəzur ərazisində baş verən landşaft transformasiyasına səbəb olan əsas amillər aşağıdakılardır:

- dağ yamaclarında meşə örtüyünün məhv edilməsi;
- hərbi texnikanın təsiri nəticəsində landşaftların strukturunun pozulması;
- sənaye texnogen çirklənmə (torpaqların ağır metallarla çirklənməsi, litogen pozulması, şirin su hövzələrinin çirklənməsi, dağ mədən sənayesinin kortəbii inkişafı);
- süni suvarmadan düzgün istifadə edilməməsi.

Qeyd olunan amillər kompleks şəkildə landşaftların struktur-funksional və genetik xüsusiyyətlərinə təsir göstərərək təbii komplekslərin transformasiyasına səbəb olmuşdur.

Yaxın gələcəkdə Şərqi Zəngəzur ərazisinə əhalinin məskunlaşdırılması nəzərdə tutulmuşdur. Bu zaman ərazidə landşaft planlaşdırılması işlərinin həyata keçirilməsi zəruridir.

## Ədəbiyyat

1. Süleymanov, M.Ə. (2005). “Azərbaycanın təbii və antropogen landşaftlarının coğrafi qanunauyğunluqları”. Bakı.
2. Budagov, B.A. (1988). «Sovremennyye yestestvennyye landshafty Azerbaydzhanskoy SSR». Baku.
3. Əliyeva, İ.S (2006). “Kiçik Qafqaz landşaftlarının çayların rejiminə təsiri”. Bakı.
4. Azərbaycan Coğrafiya Cəmiyyəti. (2020). “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii-təsərrüfat sistemlərinin təşkili və idarə edilməsi” Elmi-Praktiki Konfrans Materialları. Bakı.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 230-233
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 230-233
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Seyyub Əsədov**
Şirvan şəhər T.Bağırov adına 11 №-li tam orta məktəb
seyyub1967@gmail.com

# QƏDİM TARİXİ TORPAĞIMIZ: ZƏNGƏZUR

***Açar sözlər:*** *Azərbaycan tarixi, Qədim Azərbaycan torpağı, Zəngəzur, erməni vəhşilikləri, dağıdılmış tarixi abidələr, tarixi həqiqətlər*

***Keywords:*** *history of Azerbaijan, the ancient land of Azerbaijan, Zangazur, armenian atrocities, destroyed historical monuments, historical facts*

*Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz gələcək nəsillər üçün yol açmalıyıq (Heydər Əliyev)* (Urud, 2005: 3).

Zəngəzur Azərbaycanın ən qədim və tarixi torpağıdır. Zəngəzur XIX - XX əsrlərdə tarixən Cənubi Qafqazda heç vaxt yaşamamış, lakin Azərbaycanı parçalamaq üçün məqsədyönlü şəkildə bura köçürülən ermənilərin əlinə keçmişdir. Müxtəlif illərdə ermənilər Rusiya imperiyasının dəstəyi ilə faktiki olaraq Zəngəzuru ələ keçiriblər. Əsrlər boyu bu ərazilərdə yaşayan Azərbaycan türkləri Zəngəzurdan deportasiya ediliblər. Onların əksəriyyəti indiki Azərbaycan Respublikası, Türkiyə, bir hissəsi İran və digər dövlətlərin ərazisində sığınacaq tapıblar. Tarixi mənbələrdə, eləcə də müxtəlif səyyahların qeydlərində Zəngəzurun qədim zamanlardan türklərin məskəni olduğu təsdiqlənir. XVIII əsrdə Zəngəzur mahalı ərazisinin böyük hissəsi Qarabağ xanlığının, digər hissəsi isə Naxçıvan və İrəvan xanlıqlarının tərkibində idi. XX əsrin əvvəllərində Zəngəzurda 1700-dən çox Azərbaycan kəndi olmuşdur. Zəngəzur mahalı 1918-20-ci illərdə AXC-nin ərazisi kimi Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Qarabağ quberniyasının tərkibinə daxil idi. 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

quruldduqdan sonra Zəngəzur Azərbaycanın tərkibində ayrıca inzibati ərazi oldu. Erməni silahlı quldur dəstələrinin 1905-1920-ci illərdə törətdiyi qırğınlar nəticəsində bu mahalda orada yaşayan yarım milyona yaxın Azərbaycan türkü öldürülmüşdür. Həmin illərdə Zəngəzurda 115 kənd yer üzündən tamamilə silinmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da AK(b)P Siyasi Büronun iclasında qəbul edilmiş qərar əsasında həyata keçirildi (2). 1933-cü ildə Ermənistan SSR ərazisi rayonlara bölündü və Zəngəzurun adı dəyişdirilərək Qafan, Gorus, Qarakilsə və Mehri rayonları yaradıldı. 1988-ci ildə ilkin türk torpaqlarında yaşayan azərbaycanlılar doğma Zəngəzurdan, həm də bu gün müasir Ermənistana məxsus olan tarixi Azərbaycan torpaqlarından − Göyçədən, Dərələyəzdən, İrəvandan və Vedidən qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri Zəngəzurdan qaçmağa məcbur edildikdən sonra ermənilər Azərbaycan türklərinə məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidəsini dağdaraq məhv etmişlər. Azərbaycanda "Zəngəzur" sözünü eşitməyən adam, yəqin ki, yoxdur. "Zəngəzur" sözü Naxçıvan, Şirvan, Qarabağ, Borçalı və s. mahalların adları qədər qədim, ümumişlək, bir qədər də kövrəklik gətirən, xatirələrə qaytaran sözdür. Hamı bilir ki, Zəngəzur Azərbaycan torpağıdır, hamı bilir ki, Zəngəzurun əzəli sakinləri biz − Azərbaycan türkləri, bizim ata-babalarımız olmuşlar. Ancaq təəssüflər olsun ki, bizim Zəngəzur haqqında bilgilərimiz bu beş-üç kəlmədən çox deyildir (Urud, 2005:15). Təəssüflər olsun ki, biz Zəngəzurun tarixini, bu qədim torpağın Azərbaycanın taleyində vaxtilə necə mühüm rol oynadığını kifayət qədər bilmirik. 1920-ci ildə Zəngəzuru Ermənistana "bağışladıqdan" sonra hansısa bir sehrli çubuğun hökmü ilə hər şeyi birdən yaddan çıxarıldı. Ötən 100-150 ildə ən gözəl torpaqlarımızı − Göyçəni, Zəngəzuru, İrəvanı, Borçalını, Dərbəndi itirdik. Yerin, ərazinin adı onun tarixi, kimə məxsusluğu haqqında çox şey deyir. Məlum olduğu kimi, Zəngi tayfaları tarixdə görkəmli qoşun başçıları və dövlət xadimləri ilə məşhur olan bir türk tayfasıdır. Zəngilər eranın əvvəllərində daha geniş areala səpələnməyə başladılar. Zəngilər məskunlaşdıqları yerlərdə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

öz adları ilə bağlı şəhərlər, kəndlər salmağa, öz adlarını çaylara, dağlara, dərələrə verməyə başladılar. Zəngəzur sözü başdan-başa, daşlı, qayalı yer, daşların qala divarları kimi düzüldüyü ərazi mənasını verir. Əslində Naxçıvanda, Ərdəbildə, Zəngəzurda, Qarabağda vaxtı ilə Azərbaycanın heç bir sərhəd, heç bir bölgü olmayan bütöv əraziləri, zaman-zaman bir-biri ilə qaynayıb-qovuşmuş, qohumlaşmış türk ellərinin ata-baba torpaqları olmuşdur.

Bu torpaqlar arasında sərhədlər sonradan süni çəkilmişdir. Əgər xanlıqlar dövründə bu sərhədlər şərti xarakter daşıyırdısa, 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi Azərbaycanı iki yerə bölməklə, həm də Rusiyanın himayəsinə keçmiş şimal torpaqlarımızı quberniyalara ayıraraq (Qarabağnamələr, 1991: 478) tarixi əlaqələri, ənənələri qırmağa, birliyimizi sarsıtmağa, isti münasibətlərimizi soyutmağa çalışmışdır. Lakin bu parçalanma xalqımızın nə dilinə, nə dininə, nə də ki, mədəniyyətinə təsir edə bilməmişdir.

Sovet hakimiyyəti dövründə Zəngəzur azərbaycanlıları ümummilli lider Heydər Əliyevin həmişə diqqətində olmuşdur. H. Əliyevin birbaşa göstərişi ilə 1974-cü ildə Zəngəzuru Bakı ilə birləşdirən Sisyan-Bakı avtobus xətti açılmışdı. H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olarkən də Zəngəzuru unutmamış, bu bölgənin geosiyasi əhəmiyyətini, gələcəkdə Azərbaycanın həyatında mühüm rol oynaya biləcəyini nəzərə alaraq Bakı ilə Naxçıvanı birləşdirəcək transregional avtomobil magistralının çəkilməsi barədə SSRİ Nazirlər Sovetinin qərarının verilməsinə nail oldu. Prezident H.Əliyevin 22 avqust 2001-ci ildə imzaladığı "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması haqqında" Fərmanı qaçqın soydaşlarımıza dövlət qayğısının bariz nümunəsidir. Fərmanda göstərilir ki, XX əsrdə müxtəlif dövrlərdə 2 milyona yaxın soydaşımız öz tarixi vətənindən zorla köçürülmüş, etnik təmizləmə siyasətinin qurbanına çevrilmişdir. Xalqın yaddaşı Vətən Azərbaycanı özünə dogma bilənlərdən başlayır. Yalnız onu

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

deyə bilərəm ki, Zəngəzur istedadlı, savadlı, çalışqan və mübariz Azərbaycan türklərinin diyarı olmuşdur və olaraq da qalacaqdır. Zəngəzur Azərbaycandır!

## Ədəbiyyat

1. Urud, M. (2005). Zəngəzur (Elmi-publisistik nəşr). Bakı.
2. https://proza.ru/2022/02/21/305
3. Qarabağnamələr (II kitab). (1991). Bakı.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 234-237
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 234-237
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Gülnarə Əhmədova**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
g.ehmedova15@gmail.com

# ZƏNGƏZURUN ERMƏNİLƏRƏ VERİLMƏSİ

***Açar sözlər:*** *Zəngəzur mahalı, tarixi torpaqlarımız, Dağlıq Qarabağ, Bolşevik Partiyası, ərazi bütövlüyümüz*
***Keywords:*** *Zangazur district, our historical lands, Nagorno-Karabakh, the Bolshevik Party, our territorial integrity*

Bolşeviklər 1920-ci ilin aprelində XI Qızıl Ordu süngülərinin köməyi ilə hakimiyyətə gəldikdə, devirdikləri Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mirası ilə birlikdə daşnak Ermənistan ilə torpaq problemini də öz üzərinə götürdülər. Aprel-may aylarının sonunda tərəflər Qarabağ və Zəngəzur iddiası ilə bağlı bir-birinə ultimatum xarakterli notalar çatdırıblar. Belə olan halda erməni tərəfindən fərqli olaraq Azərbaycan kommunistlərinin əlindəki təhlükə vasitələri çox məhdud idi. Çünki Bakının öz silahlı qüvvələri yox idi, ölkənin ərazi bütövlüyünün təmin olunması kimi bu mühüm problemin həllində yalnız Rusiyaya arxalanırdı.

Ermənistanla Azərbaycan arasında torpaq məsələsinə Rusiyanın münasibətinin formalaşmasında Rusiya Kommunist Bolşevik Partiyası Qafqaz bürosunun katibi Q.Orconikidzenin mühüm rolu olmuşdur. 1920-ci ilin iyununda Xalq Komissarları Sovetinin sədri V.Leninin göstərişi ilə ona Azərbaycanın daxili və xarici siyasəti təyin edildi. Beləliklə, N.Nərimanovun başçılıq etdiyi Azərbaycan hökuməti Ermənistanla danışıqlardan faktiki olaraq kənarlaşdırıldı. 1920-ci ilin iyun-iyul aylarında Q.Orconikidzenin Rusiya Sovet Federativ Sosialist Respublikasının Xalq Xarici İşlər Komissarı Q.Çiçerinlə yazışmaları Ermənistan-Azərbaycan torpaq məsələsi ilə bağlı Moskvanın yaxın strategiyasını müəyyənləşdirdi. Moskvaya göndərdiyi teleqramlarda Orconikidze “Ermənistan muxtar vilayəti” yaratmaqla Bakının Qarabağ və Zəngəzuru nəzarətdə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

saxlamasının tərəfdarı olduğunu təkid edirdi. O, onun bu münasibəti ilə Azərbaycan kommunistlərində millətçilik hisslərinin oyandığından da şübhələnirdi (Mustafazadə, 2006: 213).

Bolşevik hökuməti 1920-ci ilin mayında Qarabağın əvvəlki general-qubernatorunu ləğv etdi və Qarabağ İnqilab Komitəsini yaratdı. Komitənin səlahiyyətləri də eyni hədlər daxilində qüvvədə idi. Onun komitəsi Zəngəzurun ermənilərin yaşadığı hissəsinə nəzarət edə bilmədi. Çünki burada Dronun (Drastamat Kanayan), daha sonra Njdenin (Qaregin Njde) dəstələri kök salmışdı. Müsəlmanların yaşadığı bölgədə nəzarət Bolşevik İnqilab Komitəsi ilə Sultan bəy Sultanov arasında bölüşdürülürdü. S.Sultanov keçmiş general-qubernator Xosrov Sultanovun qardaşı idi və öz əsgərləri ilə erməni quldur dəstələrinə qarşı vuruşurdu. Qızıl Ordunun hərbi raportlarında S.Sultanov haqqında onun müsəlman xalqına rəhbərlik etdiyi, xalqa sədaqətlə xidmət etdiyi, Zəngəzurda Andranik, Amazasp və Dro quldur dəstələrini dəf etməyə qadir olan qoşunlara uğurla rəhbərlik etdiyi bildirilirdi (Quliyev, 1997: 47-48).

1921-ci il iyunun 12-də Ermənistan SSR Xalq Komissarları Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyunun sonunda Qafqaz Cəbhəsinin Hərbi İnqilab Şurası dörd tərəfdən Zəngəzura qarşı hərəkətə keçərək Njdenin dəstələrini məhv etmək qərarına gəldi. Qafqaz cəbhəsi qərargahının 16 iyul 1921-ci il tarixli hesabatında Zəngəzurun tamamilə azad edilməsi barədə məlumat verilir (Musayev, 1996: 290). Həmçinin qərb və ya yuxarı Zəngəzurun Ermənistana birləşdirilməsi prosesi başa çatdı. Burada bir məsələni qeyd etmək lazımdır. Azərbaycan Kommunist Bolşevik Partiyası Təşkilat Bürosunun və Siyasi Büronun 30 noyabr tarixli qərarı və Bakı Sovetinin 1 dekabr 1920-ci il tarixli qərarında Zəngəzur qəzasının bütünlüklə Sovet Ermənistanına verilməsi nəzərdə tutulurdu. Amma sonda 1921-ci ilin iyununda rayonun yalnız qərb hissəsi, yəni ermənilərin yaşadığı bölgə birləşdirildi. Zəngəzur mahalı etnik kimlik prinsipinə görə bölünmüşdü.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsinin, daha doğrusu işğalın əsas səbəbləri bunlardır:

A. Daşnak Ermənistanın hərbi əməliyyatlarına Qarabağ və Zəngəzurda yaşayan yerli ermənilərin yardımı;
B. Sovet Rusiyasının siyasi təzyiqləri. Azərbaycan bolşevik hökuməti haqqında;
C. Sovet Azərbaycanında faktiki hökmranlığın Q.Orconikidzenin sədrliyi ilə Kremldən gələn məmurların əlində toplanması.

1921-ci ilin sentyabr-oktyabr aylarında Bakıda Moskva hökumətinin nümayəndələri tərəfindən N.Nərimanov və onun tərəfdarlarına qarşı Kommunist partiyasını millətçi ünsürlərdən təmizləmək adı ilə ittihamlar irəli sürülür. N.Nərimanov bu ittihamlara sərt cavab verdi və dedi: "Əgər Azərbaycanda müsəlman kommunistləri çoxluq təşkil etsəydi, inanın ki, Ermənistan Zəngəzuru almazdı". Oxşar fikirlər Nərimanovun Leninə göndərdiyi teleqramda da yer alır: "Azərbaycan Ermənistanın xeyrinə öz ərazisindən imtina etdi. Siyasi baxımdan bu edilməməli idi".

Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi Naxçıvanı Azərbaycanın qalan hissəsindən tamamilə təcrid etdi. Naxçıvanı Bakı ilə birləşdirən dəmir yolu uzun müddət Ermənistanın nəzarətində qaldı. Bundan əlavə, Ermənistan Zəngəzuru aldı və İranla ümumi sərhədə malik idi. Lakin Qərbi Zəngəzurun Ermənistan tərəfindən işğalı Azərbaycanla Türkiyə arasında sərhədi ciddi şəkildə məhdudlaşdırdı. Bu siyasətin məqsədi Avrasiya regionunda ortaq türk məkanını daraltmaq idi.

Nəhayət, Zəngəzurun Azərbaycandan ayrılması ermənilərin Azərbaycanın yeni torpaqlarını işğal etmək planının əsasını qoydu. 1988-1994-cü illərdə Zəngəzur rayonunun qalan hissəsi Ermənistan (Laçın-Zəngilan-Qubadlı) tərəfindən işğal olunub və bu proses başa çatıb. Beləliklə, Zəngəzur bölgəsi Azərbaycan torpaqlarından silindi.

Məqsəd bu torpaqların ən qədim dövrlərdən Azərbaycanın müsəlman türklərinə mənsub olduğunu faktlarla ictimaiyyətə çatdırmaq, vətəndaşlarımızın elmi-tarixi, maariflənməsinə yardımçı olmaq, itirilmiş torpaqlarımıza sahiblik hisslərini diri

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

saxlamaq, xalqımızın dədə-baba yurdlarımıza qayıdış ruhunu yüksəltməkdir. İşğal altında qalan torpaqlarımızın azad edilməsinə aparan yol həm də gerçək tariximizi, milli kimliyimizi, keçmişimizi öyrənib dərk etməkdən keçir. Həyatı ermənilərlə döyüş, mübarizə örnəyi olan zəngəzurluların ömür yolunun təbliği, bugünkü və gələcək nəsillərə çatdırılması da əsas hədəflərdən biridir (Nərimanoğlu, 2019).

## Ədəbiyyat

1. Mustafazadə, R. (2006). İki Respublika: 1918-1922-ci illərdə Azərbaycan-Rusiya münasibətləri. M., s.213.
2. Quliyev, C.B. (1997). Azərbaycanın ikinci respublikasının yaranma tarixi haqqında. Bakı, s.47-48.
3. Musayev, İ.M. (1996). Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi və xarici işlər (1917-1921-ci ilər). Bakı, s.290.
4. Nərimanoğlu, H. (2019). Zangezur: 100 sual, 100 cavab. Bakı: QHT-nin Nəşriyyat Evi.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 238-241
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 238-241
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Azadə Quliyeva**
Ağdam rayon 33 nömrəli tam orta məktəb
azade.quliyeva.1961@mail.ru
https://orcid.org/0000-0003-3430-7636

# ZƏNGƏZUR ƏDƏBİYYATINDA TARİXİ VƏ COĞRAFİ ANLAYIŞLAR

***Açar sözlər:*** *folklor, ədəbiyyat, bayatı, toponim, etnonim*
***Keywords:*** *folklore, literature, bayati, toponym, ethnonym*

Azərbaycanın gözəl tarixi məkanı Zəngəzur iqlimi, coğrafiyası, tarixi, etnoqrafiyası və s. baxımdan əhəmiyyətli yer olduğu kimi, ədəbiyyatı və folkloru ilə də zəngindir. Hər qarışı təbiətin möcüzəsi olan bu tarixi məkan tanınmış igidləri ilə, görkəmli şəxsiyyətləri və ədibləri ilə məşhurdur. Bir zamanlar Koroğlunun, Qaçaq Nəbinin at oynatdığı, cığır-cıdır açdığı məkanlar qüdrətdən səngərli, qalalı idi. Bu bölgədə yaşayıb-yaratmış sənətkarların yaradıcılığında rast gəlinən toponimlər, adət-ənənələr ərazinin etnik mənsubiyyətinin parlaq sübutudur.

“Zəngəzur” sözünü etimoloji baxımdan təhlil etdikdə “zəngi” sözü türk tayfa etnonimi olub, bölgənin qədim oğuz yurdu, səlcuq məskəni olduğunu göstərir. Bu ifadəyə Zəngəzur və Qarabağın müxtəlif məkanlarında, müxtəlif çalarlarda rast gəlinir. Zəngiçay, Zəngibasar, Zəngilan, Zəngişalı, Zəngi çayı və s. yer adları bu əlaqəni bir daha təsdiq edir. Bu etnonimin mənşəyini qədim türk mənbələri, Mahmud Kaşğarinin, Abbasqulu ağa Bakıxanovun əsərləri də təsdiq edir. “Sur” isə ərəb dilindən tərcümədə dağ, daş, qala, bürc mənasını ifadə edir.

Kitabi Dədə Qorqud dastanlarında əraziyə aid toponimlərin işləndiyi məlumdur:

“Əkrək dədə-baba, el yolu, yəni Gorus-Əngəlyurd-Dərəşam yolu ilə üç gün-üç gecəyə yortaraq Əlincə qalaya çatmışdır”. (Kitabi-Dədə Qorqud, 1988: 263).

Gorus, Qafan sözləri də etimoloji baxımdan qədim türk sözləridir. Qafanda Keypəşin kəndinin adına isə, Firdövsinin

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

"Şahnamə" poemasında rast gəlinir. Odur ki, qədim tarixə malik olan bu diyarın coğrafi toponimləri ərazinin Azərbaycan xalqının qədim yaşayış məskəni olduğundan xəbər verir.

Zəngəzur, Zəngilan, Bəsitçay, Güləbird, Həkəri, Şehli, Çalbayır, İstisu, Dərələyəz və s. yer adları həm də bu yurdun tarixi yaddaşıdır. Əslində hər aşırımı sıldırımı gədiyi maraqlı adlarla ifadə olunan bu ərazinin zəngin tarixi və maraqlı coğrafiyası vardır. Hər daşında, qarışında tarixin izləri olan bu diyarın zəngin təbiəti heyranedicidir.

Doğma vətənin dağ-dərələri, dolama aşırımları, çayları, gölləri, meşələri, talaları min cür çiçək bitirir. İlin hər fəslində yaxası barlı dağların qoynu min nemətlidir. Çəmənləri, bənövşəli düzləri, təpələri, novruzgülülü, nərgizli məkanlar göz oxşayır. Odur ki, bu yerlərin gözəlliyi neçə-neçə sənətkarın yaradıcılığında vəsf edilib.

Öz yaradıcılığı ilə ədəbiyyatımızda böyük şöhrət qazanan Sarı Aşıq bayatı janrının ustadlarından sayılır. Əslində, bayatı Azərbaycan ədəbiyyatının ən qədim nümunələrindəndir. Yaranma tarixi çox qədim olan bu şifahi xalq ədəbiyyatı nümunəsi bir çox sənətkarların yaradıcılığının əsasını təşkil edir. Sarı Aşıq da öz bayatıları və "Aşıq Yaxşı" dastanı ilə dillər əzbəri olub.

Mən Aşiq tər sinə qoy,
Tər təni tər sinə qoy.
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy
(2005: 145).

Bu bayatı öz ifadə gözəlliyi və əks etdirdiyi məna baxımından böyük əhəmiyyətə malikdir.

Mən Aşiq soy iləndir,
Şahmar da soy ilandır.
Nəsimi tək bu Aşiq
Yolunda soyulandır.

Göründüyü kimi, "Aşiqəm", "Aşıq", "Mən aşiq" ifadələri ilə başlanan bayatılara başqa sənətkarlar müraciət etsələr də, bu ifadələrin işləndiyi bayatıların çoxu Sarı Aşığın adı ilə bağlıdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Mən Aşiq zində deyil,
Xalın üzündə deyil.
Kim deyir Haqq camalı
Yaxşı üzündə deyil!
(2005: 141).

Burada sufi-hürufi yanaşmaların izləri görünür. Bayatının 3-cü, 4-cü misraları Nəsimi ideyaları ilə səsləşir. Xalq inanclarında rast gəlinən "zində" – "diri" ifadəsi aşığın zəngin xalq üslubunu göstərir. XVII əsrin sənətkarı Sarı Aşıq əslən Zəngəzurdan olsa da, Azərbaycan ərazisində olan bir çox yer adları onun bayatılarında yer alıb. Belə ki, Qəzvin, Bayat, Əlincə, Güləbird, Səfyan, Kəbə, Qəbələ, Şəki, Şirvan, Rum, İran kimi yer adları, İncə, Tərtər, Araz və s. çay adları aşığın bayatılarında çox işlənib.

Qarşıda, ha İrandı,
Ha Rumdu, ha İrandı.
Yamana baxmaz Aşıq,
Yaxşıdan ayırandı
(2005: 141).

Sarı Aşığın bayatıları XVI əsrin sənətkarı Lələnin bayatıları ilə səsləşir. Hər iki sənətkarın əsərlərində Yaxşı və Yaman obrazları vardır. Lələnin bayatılarının çoxu "Eləmi" müraciəti ilə başlayır.

Sarı Aşığın bayatılarında coğrafi toponimlərə tez-tez rast gəlinir. Aşığın dərin məzmunlu bədii nümunələri coğrafi məkanların əks olunması baxımından əhəmiyyətlidir. Hər bayatı bir əhvalat, hadisə ilə bağlıdır. Bu hadisələr "Aşıq və Yaxşı" dastanında da öz bədii əksini tapmışdır.

Mən Aşıq Günaşanda,
Ay gülər gün aşanda.
İncimə, Yaxşı yarım,
Sən handa, Günəş handa
(2005: 144).

Sarı Aşığın bayatılarında tez-tez rast gəlinən "Qaraman" ifadəsi məşhur türk etnonimi ilə bağlıdır. "Aşıq Qaramannıdı", "Aşıq Qaraman çəkər" misralarını buna nümunə göstərmək olar.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

XVII əsrin böyük sənətkarı, aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Sarı Aşıq dilimizin şirinliyini öz yaradıcılığında əks etdirən böyük sənətkardır. Onun qoşmaları və digər janrda yaratdığı əsərlər dillər əzbəri olsa da, aşığa böyük şöhrət qazandıran bayatılarıdır.

Azərbaycanın görkəmli tarixi ədəbi simaları olan Mir Mehdi Xəzani, Mir Möhsün Nəvvab və başqaları Azərbaycan tarixində iz qoyan görkəmli sənətkarlardandır. Hər iki şəxsiyyətin elmi, tarixi və ədəbi fəaliyyəti təkcə XIX əsrdə deyil, bu günümüz üçün də əhəmiyyətlidir. "Qarabağnamə" müəllifi olan M.Xəzani, ensiklopedik zəka sahibi Mİr Möhsün Nəvvab öz əsrlərinin möcüzəsi idilər. Onların ədəbi, ictimai-tarixi, fəlsəfi fikirləri bu günümüz üçün də böyük əhəmiyyət kəsb edir.

Böyük bir coğrafi ərazini əhatə edən bu tarixi məkan görkəmli şəxsiyyətləri ilə məşhurdur. Həm yazılı, həm də şifahi ədəbi nümunələri ilə şöhrət qazanan bu bölgə xalqımıza dahi sənətkarlar bəxş edib. Yazılı ədəbiyyatımızda nəhəng simalardan olan Süleyman Rəhimov öz zəngin ədəbi nümunələri ilə, həmin əsərlərdə bəhs olunan hadisələrin, coğrafi məkan adlarının zənginliyi ilə diqqəti cəlb edir. Ədibin əsərlərində bəhs olunan coğrafi toponimlər maraqlı və əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud. (1988). Bakı: Yazıçı, 265 s.
2. Azərbaycan aşıq şeirindən seçmələr. İki cilddə, I cild. (2005). Bakı: "Şərq-Qərb", 376 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 242-246
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 242-246
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Nəzakət Qəhrəmanzadə**
Şəki şəhər 12 saylı tam orta məktəb
qehremanzade77@mail.ru

# ZƏNGƏZURUN TARİXİ COĞRAFİYASI

***Açar sözlər:*** *Zəngəzur, Sisakan, Sünik, Gəncə quberniyası, Qarabağ general qubernatorluğu*
***Keywords:*** *Zangazur, Sisakan, Sunik, Ganja governorate, Karabakh governorate general*

Antik dövrdə və erkən orta əsrlərdə Zəngəzurun ərazisi Mada şahlığının, İskit çarlığının və Sünik və ya Sisakan adı ilə Atropatena dövlətinin, Azərbaycan Albaniya dövlətinin tərkibində olub. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın inzibati islahatı nəticəsində Adurbadaqan vilayəti yaradılmış, Azərbaycanın həm şimalı, həm də cənubu vahid ad altında birləşdirilmişdi.

Qədim dövrlərdə bu region Sisakan, Sunik, ərəb mənbələrində isə Siəcan adlanmışdır. Tədqiqatçılar Sisakan toponiminin həmin ərazidə yaşayan qədim türk tayfalarından olan sakların adı ilə bağlı olduğunu yazırlar.

Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil edən Zəngəzur Araz çayı boyu ilə Meğridən başlamış, Əkərəyə qədər, şimala doğru isə Qapıcıq, Xustup dağlarında, Zəngəzur sıra dağlarından Bərgüşad dağlarınadək olan geniş ərazini əhatə edir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunmuşdur. Ərəb xilafətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində kiçik Azərbaycan feodal dövlətləri yaranmışdır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

“Zəngəzur” termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. Bu toponim bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. XIII-XIV əsrlərdə Zəngəzur torpaqları coğrafi baxımdan Azərbaycan əyalətinin Naxçıvan tüməninə və Aran əyalətinə daxil olmuşdur.

Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür. Qapanat Zəngəzurun Bərgüşad silsiləsinə qədər olan cənub hissəsini əhatə edirdi. Sisyan isə Naxçıvan əyalətinə daxil di. Zəngəzurun Gorus və Kastoq (Laçın) mahalları isə Qarabağ vilayətinin bir hissəsi idi.

“Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Zəngəzurun torpağında Bazarçay axır. Zəngəzur dağ silsiləsi ilə Qarabağ yaylası arasında yerləşir. Ona görə də bu əraziyə zəngi dərəsi də deyilir. Bütün Zəngəzur mahalı boyu uzanan dağ silsiləsi Tərtər və Arpa çaylarının yuxarı axınlarından Araz çayınadək gedib çıxır. Uzunluğu təqribən 130 km, hündürlüyü isə 3904 metrdir” (1).

Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə Xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən döyüşlərin məkanı olub. Zəngəzurda atəşpərəstlik məbədləri yerləşirdi. Ərəblər Cənubi Azərbaycan-Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edərək Albaniyanı (Şimali Azərbaycanı) zəbt ediblər.

1065-ci ildə Böyük Səlcuq İmperiyasının hökmdarı Alp Arslan Qafan şəhərini tutaraq Sunik knyazlığına son qoydu. 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu genişləndirdi və bu yerlərdə çox sayda türksoylu tayfalar məskunlaşdı.

1236-cı ildə monqol-tatarlar, 1395-ci ildə Əmir Teymur Qarabağ və Zəngəzuru böyük itkilər hesabına tutdu. Onun qoşunlarına qarşı çox dirəniş göstərdiklərinə görə bu yerləri yağmaladı və 10 min ailəni imperiyanın şərqinə-Əfqanıstana köçürmək əmri verdi. Teymurun bu yürüşünü canlı yazıya alan Fema Mesoplu “Əfqan tarixi”, Yesay Həsən Cəlal “Alban

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

ölkəsinin qısa tarixi” əsərlərində bu köç haqqında məlumat veriblər. Təkcə 4 min ailə Qəndəhar yaxınlığında məskən saldı. Yerli əhali bu köçürülənləri öz adları ilə “ağvan” çağırırdı. Bu ad sonra fonetik dəyişimə uğrayaraq bütöv bir xalqın və ölkənin adını, ünvanını dəyişib “əfqan”a çevirdi.

Zəngəzur Qaraqoyunlu (1410-1468), Ağqoyunluların (1468-1502), 1502-ci ildə Səfəvi hakimiyyəti altına düşdü. 1420-ci ildə Ərzurumda Ağqoyunlu hökmdarı Qara Osmanı məğlub edən Naxçıvan və Zəngəzur ellərini soyurqal alan Qara İsgəndər çoxlu sayda erməni ailəsini Ararat və Sünikə köçürdüb yerləşdirdi. Osmanlı və Səfəvilər arasında Qarabağ-Zəngəzur uğrunda uzunsürən qanlı döyüşlər getdi. Bu səbəbdən o dövrlərə aid “Müfəssəl dəftər”lərdə Zəngəzurun əksər yaşayış məntəqələrinin boşaldığı, əhali yaşamadığı, xarabalıqlara çevrildiyi qeyd edilib.

“1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə − Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqədar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi (Qapan, Müğri-Güney, Çavundur və Püsyan mahalları ilə birlikdə Qapanat əyaləti) 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu” (2).

25 fevral 1868-ci ildə Yelizavetpol quberniyası yaradılarkən Bakı quberniyasının Şuşa qəzasının və İrəvan quberniyasının Naxçıvan qəzasının ərazilərinin bir qismi hesabına Zəngəzur qəzası yaradıldı. Bu qəza İrəvan Quberniyasının Şərur-Dərələyəz və Naxçıvan, Yelizavetpol quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl qəzalarının əhatəsində, Araz çayı və İranla həmsərhəd idi.

Zəngəzur tarixən dörd mahala − Güney (Meğri), Qafan, Zəngəzur (Gorus) və Sisyan (Qarakilsə) mahallarına bölünürdü.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası Gəncə quberniyasının tərkibində mübahisəsiz ərazi hesab edilmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905−1907-ci və 1914−1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir.

Bölgə Osmanlı İmperiyası ilə bağlanan müqaviləyə görə fevral inqilabından sonra yaranan Ermənistan Xalq Cümhuriyyəti ərazisinə daxil deyildi. Ancaq bu müqaviləni tanımayan Andranik Ozanyan Osmanlı ordusundan qaçaraq bölgəni işğal etdi.

Mudros müqaviləsi əsasında osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər AXC tərkibində yaradılan Qarabağ general-qubernatorluğunu tanıdılar və Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Zəngəzur qəzası da bura daxil idi. Andranik bölgəni tərk etsə də, Dronun qoşunları ərazinin bir hissəsini öz nəzarəti altında saxlaya bildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək üçün Zəngəzura qoşun hissələrinin göndərilməsini qərara aldı. Bu məqsədlə hərbi nazirlik 1919-cu il oktyabr ayının 30-da xüsusi Zəngəzur dəstəsi yaratdı. Dəstənin rəhbəri 1-ci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlınski idi. Dəstə oktyabrın 30-da ilkin mövqelər istiqamətində Xankəndindən Zəngəzura doğru hərəkətə başladı.

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin taktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti Müvəqqəti İnqilab Komitəsi 1920-ci il 30 aprel tarixi notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizlənməsini tələb etmişdi.

1920-ci il 10 avqustda Rusiya K (b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxşıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K(b)PMK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv.verstlik ərazisindən 3.105 kv.versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

"Sovet illərində bu ərazilərdən azərbaycanlıların bir neçə dəfə qovulması həyata keşirilib. Sonuncu dəfə 1988-ci ildə Zəngəzur, Göyçə, Dərələyəz, İrəvan, Vedi-indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib" (3).

## Ədəbiyyat

1. https://az.vikipedia.org>Zəngəzur
2. https://files.preslib/az>projects>zangazur
3. https://axar.az>new>kult

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 247-249
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 247-249
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Seyyub Əsədov**
Şirvan şəhər T.Bağırov adına 11 №-li tam orta məktəb
seyyub1967@gmail.com

# ZƏNGƏZURDA TƏHSİL

***Açar sözlər:*** *Azərbaycan tarixi, təhsil və mədəni məsələlər, Qədim Azərbaycan torpağı: Zəngəzur, Zəngəzur ziyalıları, erməni vəhşilikləri və dağıdılmış tarixi abidələr*

***Keywords:*** *history of Azerbaijan, educational and cultural issues, the ancient land of Azerbaijan: Zangazur, Zangazur intellectuals, armenian atrocities and destroyed historical monuments*

*Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz gələcək nəsillər üçün yol açmalıyıq (Heydər Əliyev) (Urud, 2005: 3).*

Zəngəzur Azərbaycanın ən qədim və tarixi torpağıdır. Təhsil bizə bilmədiyimiz maraqlı məlumatları öyrədir. Təhsil bizdən ayrılmadan həmişə bizi izləyir. Təhsil olan yerdə həm məntiqli düşünə, həm də qarşımıza çıxan çətinliklərin öhdəsindən gələ bilərik. Zəngəzur dağlıq ərazi olmasına baxmayaraq, Azərbaycanın elmi, mədəni və dövlətçilik həyatında mühüm yeri olan bölgələrimizdən biridir. Qarabağ, Naxçıvan və Təbriz kimi mədəniyyət mərkəzlərimizin qonşuluğunda yerləşən qədim Zəngəzur diyarı həmişə bu mərkəzlərlə sıx iqtisadi, mədəni və mənəvi əlaqədə olub. Rusiya imperiyasına ilhaq edilənə qədər Zəngəzurda təhsil, məscidlərin yanında fəaliyyət göstərən mədrəsələrdə və evlərdə fərdi ruhanilər tərəfindən həyata keçirilib. İlkin səviyyədə təhsil alıb, oxuma-yazmanı öyrənən gənclərdən imkanları olanlar sonradan öz təhsillərini Təbriz, Ərdəbil, Məşhəd, Nəcəf, Bağdad və Şam kimi şəhərlərin böyük mədrəsələrində davam etdiriblər. Qarabağ xanlığının tarixinə dair ən etibarlı mənbə sayılan üç "Qarabağnamə"dən birinin müəllifi, əslən Zəngəzurun Məmər kəndindən olan Mir Mehdi Xəzani

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

(Qarabağnamələr, 1991:186-202) və görkəmli şair, tarixçi və siyasi xadim Mir Mövsüm Nəvvab ilk təhsillərini Zəngəzurda evdə fərdi təhsil verən din xadimlərindən alıblar. Mir Mehdi Xəzani və Mir Mövsüm Nəvvab uşaq yaşlarından dostluq etmişlər və birlikdə Qafanın Seyidlər kəndində yaşayan Bağdadda mədrəsə bitirmiş Axund Zülfüqardan dərs almışlar. Azərbaycan Rusiyaya ilhaq ediləndən sonra Zəngəzurdan olan bir çox gənclər Tiflis və Gəncə gimnaziyasında, Qori seminariyasında, Sankt- Peterburq, Moskva, Kiyev, Kazan və s. universtetlərində təhsil ala bilmişdilər. AXC-nin qurucularından biri, ilk müdafiə naziri və Qarabağın general qubernatoru olmuş Xosrov bəy Sultanov Kiyev Hərbi Tibb Akademiyasının məzunu idi. Onun böyük qardaşı xalq qəhrəmanı Sultan bəy Sultanov isə Sankt Peterburqda Ali Hərbi Akademiyada təhsil almışdı. AXC maarif və dini etiqad naziri, Kiyev Universitetinin hüquq fakultəsinin məzunu Nurməmməd bəy Şahsuvarov, Kazan Universitetinin məzunu Həşim bəy Hacıyev, SSRi Elmlər Akademiyasinin ilk azərbaycanlı akademiki Əli Əmiraslanov, Ermənistan SSR KP MK-nin yeganə azərbaycanlı katibi olmuş Məmməd Salman oğlu İsgəndərov Zəngəzur təhsilinin yetirmələri olublar. XIX əsrin axırları − XX əsrin əvvəllərində Zəngəzurun bir çox kəndlərində molla məktəbləri ilə yanaşı, ibtidai təhsil verən dünyəvi məktəblər açılmağa başladı. Bu məktəblərdə təhsil adətən biri rus dili olmaqla iki dildə aparılırdı. Bütün Yelizavetpol quberniyasında olduğu kimi, Zəngəzurda da dünyəvi məktəblərin açılması 1875-ci ildən sonraya təsadüf edir. 1882-ci ildə quberniya ərazisində daha beş dünyəvi məktəb açıldı ki, bunlardan üçü Zəngəzur qəzasının kəndlərində təşkil edilmişdi. Ümumiyyətlə, Yelizavetpol quberniyasında 1901-ci ilədək 28 ibtidai rus-tatar məktəbi fəaliyyət göstərirdi ki, bunun da 12-si Zəngəzurda idi. İşğal dövründə ermənilər Azəbaycan mədəniyyətinə ciddi zərbə vurmuşlar. Mövcud 750-ə yaxın mədəniyyət abidələri, məscid, qəbiristanlıq və 993 təhsil müəssisəsi tamailə dağdılmışdır (3). 1930-cu ildə isə artıq Zəngəzurda otuz məktəb fəaliyyət göstərirdi ki, onlardan 28-i birinci dərəcəli (dörd sinifli), 2-si isə ikinci dərəcəli (yeddi sinifli) məktəblər idi. Ermənilərin hər cür

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

müqavimət göstərmələrinə, açıq və gizli şəkildə maneçilik törətmələrinə baxmayaraq, İkinci Dünya müharibəsindən sonrakı illərdə də Zəngəzur azərbaycanlıları çox mütəşəkkil bir ardıcıllıqla, davamlı bir səylə məktəb və tədris prosesini daim yüksəltmək üçün mübarizə aparmış və bir çox şeyə nail olmuşlar. Sonuncu deportasiya ərəfəsində Zəngəzurda 42 ümumtəhsil Azərbaycan məktəbi olmuşdur. Həmin məktəblərdə çalışan 500-dən çox müəllimin yarısından çoxu ali təhsilli idi, 13 müəllim isə əməkdar müəllim adına layiq görülmüşdür (Urud, 2022; 4). Məhz bu müəllimlərin ardıcıl fəaliyyətinin nəticəsi idi ki, Sovet dönəmində Zəngəzurdan minlərlə şagird müxtəlif istiqamətli ali təhsil ocaqlarına daxil olmuş və müvəffəqiyyətlə o ali təhsil müəssisələrini bitirmişdilər. Məhz Zəngəzurda aparılan uğurlu tədris prosesinin sayəsində Zəngəzur torpağından 12 akademik, 50-dən çox elmlər doktoru, professor, 200-dən çox elmlər namizədi yetişmişdir. İndi zəngəzurlu ziyalıların sorağı Amerikadan, Almaniyadan, Fransadan, İngiltərədən, Rusiyadan, Türkiyədən, bir sözlə, dünyanın hər yerindən gəlməkdədir. Zəngəzur məktəbləri Azərbaycana yüzlərlə yüksək səviyyəli bilikli və bacarıqlı dövlət və siyasət xadimləri, hökumət təmsilçiləri, alimlər, generallar, döyüşçülər, Milli Qəhrəmanlar, diplomatlar, ictimai fəal insanlar bəxş etmişlər. Xalqın yaddaşı Vətən Azərbaycanı özünə dogma bilənlərdən başlayır. Yalnız onu deyə bilərəm ki, Zəngəzur istedadlı, savadlı, çalışqan və mübariz Azərbaycan türklərinin diyarı olmuşdur və olaraq da qalacaqdır. Zəngəzur Azərbaycandır!

## Ədəbiyyat

1. Urud, M. (2005). Zəngəzur (Elmi-publisistik nəşr). Bakı.
2. Qarabağnamələr (II kitab). (1991). Bakı.
3. https://azvision.az/news/291723/-qarabag-ve-serqi-zengezurda-993-tehsil-muessisesi-dagidilib-.html
4. https://modern.az/zengezur/365248/zengezurda-tehsil-nece-idi-tarixe-baxis/

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 250-253
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 250-253
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Aydan Salmanova**
Azerbaijan State University of Culture and Arts
master student
nadyasalman210@gmail.com
https://orcid.org/0000-0002-2111-8134

# SUSTAINABLE TOURISM DEVELOPMENT IN THE EASTERN ZANGAZUR: OPPORTUNITIES AND CHALLENGES

***Keywords:*** *sustainable tourism, Eastern Zangazur, economic development, opportunities, challenges*
***Açar sözlər:*** *dayanıqlı turizm, Şərqi Zəngəzur, iqtisadi inkişaf, imkanlar, problemlər*

The Eastern Zangezur economic region is located in the south-west of Azerbaijan and borders Armenia to the west and the Islamic Republic of Iran to the south. The liberated Jabrayil, Kalbajar, Gubadli, Lachin, and Zangilan areas are part of the newly formed the Eastern Zangezur region. Districts of this new region are located in the eastern section of the Zangezur plateau, encircled by the Zangezur mountain range and encompassing a huge expanse stretching from Lachin and Kalbajar to Nakhchivan, on the border with Armenia.

They were part of the Zangezur district, established in 1861, for many years, and were linked by traditional socio-economic, historical, and cultural links, necessitating the necessity to unify them in one economic zone. Natural resources in the region include gold, mercury, chromite, marble, perlite, chromite, etc. The landscape type of the region is dominated by mountainous terrain.

The healing conditions of the region, its reserves, plenty of solar energy, good water supply, and sufficient mineral resources make the region a great resource for tourism. Istisu, Minkend, and Tutgunchay mineral springs, climatic and balneological

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

conditions, and mountain forests are valuable from the point of view of resort and recreation. The hydrographic network has also been developed in the region as the Hekari, Okchuchay, and Tartar rivers flow into the Araz River. Furthermore, the economic region has many mineral waters. Nevertheless, the war in the territory of Karabakh and the Eastern Zangezur economic regions has aggravated the ecological situation here. The military operations in the area have caused great damage to land, forests, and water resources. The lack of use of rich mineral resources for many years has had a negative impact on the development of economic regions. The fires caused by the Armenian troops destroyed the ecosystems of the region and frontline farms (Jabbarova, 2021).

Nonetheless, the region is suitable for developing sustainable tourism. For various reasons, sustainable tourism development is important in the Eastern Zangazur. Initially, tourism has the ability to contribute to regional economic development by creating jobs, producing revenue, and supporting local companies. This can assist to alleviate poverty, raise living standards, and enhance the general quality of life in local communities. Secondly, sustainable tourism development may aid in the conservation of the region's natural and cultural resources and assist to safeguard the environment and maintain the region's distinctive cultural history by providing economic incentives for conservation and promoting responsible tourism practices. Moreover, sustainable tourism development may foster cross-cultural understanding and exchange, which can contribute to regional peace and stability and may encourage community involvement and empowerment, helping to guarantee that tourist benefits are spread more equitably and that local people have a voice in how tourism develops in their region by integrating local communities in the planning and administration of tourism operations. Natural attractions, cultural heritage, and mesmerizing gastronomy are only some of the opportunities for sustainable tourism development in the Eastern Zangazur. It should be noted that, the Eastern Zangazur is strategically located at the crossroads

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

of Europe and Asia, with easy access to major transportation hubs, which makes it an ideal destination for tourists traveling to or from neighboring countries. Beside opportunities, there are many significant challenges for developing sustainable tourism in the region. The region's infrastructure, including transportation, lodging, and tourism services, is inadequate to sustain tourism development. The present infrastructure may not be able to manage the inflow of tourists, and new infrastructure must be constructed in a sustainable manner to guarantee that tourism development does not have a harmful influence on the environment.

From another point of view, uncontrolled tourist development can harm the environment by causing pollution, deforestation, and habitat damage. Sustainable tourism measures, such as responsible waste management, conservation of natural resources, and carbon footprint reduction, are required to reduce the impact of tourism on the natural environment. Unregulated tourist growth can also have severe socio-cultural consequences, such as the loss of traditional traditions and values, congestion, and social conflicts. Sustainable tourism methods should promote the preservation and promotion of local cultures and traditions, as well as community involvement and engagement in tourist development. Tourism in the Eastern Zangazur may be seasonal, with strong demand at certain seasons of the year and low demand during others. This can pose problems for local companies that rely on tourism earnings, and initiatives to diversify the tourism industry may be required to overcome this issue (Ismayilova, 2022).

In conclusion, sustainable tourism development in the Eastern Zangazur is a complex but rewarding endeavor that has the potential to bring economic benefits while promoting cross-cultural understanding and conservation.

With careful planning, management, and collaboration, the region can become a model for sustainable tourism development in the Caucasus region.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

## References

1. Jabbarova, A. (2021). Country sets up Karabakh and East Zangazur economic regions. Azernews. July 9-12. №. 68, p.1-2.
2. Ismayilova, L. (2022). State Tourism Agency explores Karabakh's tourism potential. Azernews. December 2-8.
   № 49, p.6.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 254-257
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 254-257
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Gülnar İmamova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
gimamova22@gmail.com

# ŞƏKİ-ZAQATALA ALBAN ABİDƏLƏRİNİN ŞƏRQİ ZƏNGƏZURUN ALBAN ABİDƏLƏRİ İLƏ REGİONAL XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Şəki-Zaqatala, Şərqi Zəngəzur, alban abidələri, Qafqaz Albaniyası, memarlıq*

***Keywords:*** *Shaki-Zagatala, Eastern Zangazur, Albanian monuments, Caucasian Albania, architecture*

Məqalədə Şəki-Zaqatala alban abidələrinin Şərqi Zəngəzurun alban abidələri ilə regional xüsusiyyətləri, məskunlaşma sahəsi, tarixi dövrləşdirmə, inventar və xüsusiyyətlər göstərilir, bəzi ümumiləşdirmələr aparılır. Qafqaz Albaniyası abidələrinin memarlıq quruluşu bir çox xarakterik elementlərinə, xüsusiyyətlərinə, memarlıq üslubuna və tərtibatına görə də spesifikdir. Min illik tarixi olan Alban dövləti xristianlığın yayıldığı ilk sahələrdən biri olduğundan, burada Şərq xristianlığına aid bütün memarlıq növləri inkişaf etdirilmişdir. Orta əsrlərdə Şimali Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şəki-Zaqatala və Zəngəzurda da alban xristian kilsələri, bazilikaları və kafedralları tikilmişdir.

Azərbaycan Albaniya dövləti ərazisində xristian dini yayıldıqdan sonra bu din aparıcı mövqeyə malik olmaqla xristianlığı özündə əks etdirən çoxlu sayda maddi və mənəvi mədəniyyət abidələri yaratmışdır. Alban katolikosluğu sonrakı dövrlərdə monofizit erməni kilsəsinin təsir dairəsinə düşsə də, öz müstəqilliyini XIX əsrə kimi qoruyub saxlaya bilmişdir (Alışov, 2014: 13).

Albaniyanın tarixi Şəki vilayəti ölkədə gedən etnik-mədəni proseslərin tərkib hissəsi kimi, mühüm əhəmiyyət kəsb edən inzibati-ərazi və dini-mədəni bölgələrdən biri olmuşdur. Qafqaz

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Albaniyasının şimal-qərb ərazisində qərarlaşan tarixi Şəki (Şako, Şake) vilayəti eyni adlı mərkəzi ilə (Şake, gürcü mənbələrində Nuxpato) indiki Azərbaycan Respublikasının şimal-qərbində, Qafqaz sıra dağlarının ətəyində yerləşirdi. Albaniyanın əhəmiyyətli bölgələrindən olan bu ərazinin ilk orta əsr tarixi-arxeoloji irsinin, xüsusilə alban abidələrinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu abidələr özlüyündə vahid bir ərazidə qərarlaşan Alban dövlətini, onun mədəniyyətini, sosial-etnik prosesləri izləməyə imkan yaradır (Abdurrahmanov, 2022: 117).

Azərbaycanın ayrılmaz parçası olan Qarabağ və Zəngəzur torpaqları çoxəsrlik tarixi-mədəni irs nümunələri ilə zəngin ümumdünya mədəniyyətinin beşiyidir. Bu torpaqlar Azərbaycan tarixinin bütün dövrlərini əks etdirən dünya əhəmiyyətli unikal mədəniyyət abidələrinə sahibdir. Yaşı minillərlə ölçülən Qarabağ və Zəngəzur ərazilərinin tarixi və mədəni abidələri Azərbaycan tarixinin ən zəngin mərhələlərini əks etdirir. Azərbaycanın incisi sayılan Qarabağ və Zəngəzur əraziləri minillik tarixə malik Qafqaz Albaniyası dövrünə aid memarlıq abidələri ilə ən zəngin bölgələrindəndir. Alban xristian memarlığının nadir nümunələri məhz Qarabağ və Zəngəzur ərazilərindədir. Qafqaz Albaniyası (e.ə. IV-e. VIII əsrin əvvəlləri) Azərbaycanın dövlətçilik tarixində dərin iz buraxmış qədim Azərbaycan dövlətidir. Bu dövlətin əsasını qoymuş albanlar isə Qafqazın yerli əhalisi olub, Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar. Alban irsinə aid abidələr, kilsələr, monastırlar Azərbaycan xalqının tarixi-mədəni irsidir. Qarabağın və Zəngəzurun alban xristian abidələri də bu torpaqlara son 2 əsrdə köçürülmüş ermənilərə deyil, Azərbaycan xalqının əcdadları olmuş albanlara məxsusdur. Alban etnosu e.ə. IV əsrdən eranın VIII əsrinədək Azərbaycan torpaqlarında mövcud olmuş Qafqaz Albaniyasında, IX-XIX əsrlərdə isə Azərbaycanın Sacilər, Salarilər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəvilər kimi dövlətlərinin tərkibində, tarixi alban vilayətləri olan Arsak, Sünik, Uti, Şəki, Kambisena kimi əyalətlərinin ərazilərində yaşamağa davam etmişlər. Alban xristian irsi ərəb istilaları dövründə dövlətçiliyini və dövlət dini statusunu itirməsinə baxmayaraq Azərbaycan xalqının mənəvi

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

mədəniyyətində özünəməxsus yer tutmuşdur (Paşayeva, 2022: 5-11).

Xristian dini mirasına qayğı və diqqətin digər göstəricisi Qafqaz Albaniyasının xristian abidələridir. Alban xristian memarlıq nümunələri, tarixi dini abidələri əsasən ölkənin Qarabağ, Qəbələ, Qax, Şəki, Zaqatala bölgələrində yerləşir. Qax rayonunun Lətik Kötöklü kəndi ərazisində Yeddi kilsə monastırı, Şəkinin Kiş kəndindəki Qafqazda ən qədim xristian məbədlərindən olan Kiş-Yelisey məbədi, Qax rayonunun Qum kəndi ərazisində yerləşən Qum bazilikası və Mamrux məbədi, habelə digər alban abidələri dövlət tərəfindən bərpa edilərək mühafizə olunur (Qəribli, 2021: 6).

Qafqaz Albaniyasında xristian icmalarının yaranma tarixi Apostollar Varfolomey, Faddey və xüsusilə də, Faddeyin tələbəsi Müqəddəs Yeliseyin adı ilə bağlıdır. Müqəddəs Yelisey I əsrdə Yerusəlimdən Albaniya ərazisinə gələrək xristianlığı təbliğ etmiş, alban torpaqlarında Gis (müasir Şəki rayonun Kiş kəndi) deyilən yerdə ilk xristian kilsəsinin əsasını qoymuşdur. Qafqazın ilk xristian kilsələrindən olmuş bu kilsə hazırda Azərbaycanın Şəki rayonun Kiş kəndində yerləşir və Azərbaycan xalqının tolerant ənənələri sayəsində yarandığı dövrdən bu günə kimi qorunub saxlanmışdır. Kiş kilsəsinin əsasını qoymuş Müqəddəs Yelisey Qafqaz Albaniyasının ən çox sitayiş olunan müqəddəslərindən biridir. Yelisey bu günə qədər Azərbaycan xalq inanclarında yaşadılmaqdadır. Yeliseyin xristianlığı yaydığı Şəki-Qəbələ bölgəsində yerli əhali arasında Yeliseylə bağlı müxtəlif rəvayətlər hələ də mövcuddur. Müqəddəs Yeliseyin şərəfinə Azərbaycanın Şəki, Qəbələ, Oğuz ərazilərində olduğu kimi, Qarabağ və Zəngəzurda Xocavənd, Tərtər, Kəlbəcər rayonlarında da çox sayda kilsələr, monastırlar ucaldılmışdır.

## Ədəbiyyat

1. Alışov, Ə.N. (2014). Azərbaycan Albaniyasının xristian abidələri (Arxeoloji materiallar əsasında). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. BAKI, 27 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

2. Abdurrahmanov, E. (2022). Albaniyanın Şəki vilayətinin qəbir abidələri (III-VIII əsrlər). Akademik tarix və düşüncə dərgisi. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın 270 ili ərmağan sayı, s.114-141.
3. Paşayeva, M. (2022). Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı: Mütərcim, 200 s.
4. Qəribli, M. (2021). Azad edilmiş rayonlarda dini irsə münasibət Azərbaycanın tolerant mahiyyətinin yeni nümayişi olacaq. Birinci vitse-prezidentin ideyası. Bakı Xəbər. 13-15 fevral, № 28, s.6.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 258-261
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 258-261
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Gülüm Əzizova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
ezizovagulum166@gmail.com

# QARABAĞ VƏ QƏRBİ ZƏNGƏZURUN ERMƏNİ VANDALİZMƏ MƏRUZ QALAN ARXEOLOJİ-MEMARLIQ ABİDƏLƏRİNƏ DAİR

***Açar sözlər:*** *Qarabağ, Qərbi Zəngəzur, arxeoloji-memarlıq abidələri, erməni vandalizmi, dini abidələr*

***Keywords:*** *Karabakh, West Zangazur, archaeological-architectural monuments, armenian vandalism, religious monuments*

Azərbaycanın tarixi torpaqları olan Qarabağ və Zəngəzur özünün çoxəsrlik arxeoloji-memarlıq abidələri və tarixi-mədəni irs nümunələri ilə nəinki ölkəmizdə, həmçinin bütün dünya mədəniyyətində özünəməxsus yer tutur. Qarabağ və Zəngəzur həm də çox qədim tarixə malik Qafqaz Albaniyası dövrünə aid arxeoloji-memarlıq abidələri ilə ən zəngin bölgələrdəndir. Alban xristian memarlığının nadir nümunələri məhz bu ərazilərdədir. XX əsrdə Ermənistanın işğalçılıq siyasəti nəticəsində bu torpaqlar zəbt olunmuş, həmin ərazilərdə erməni terrorçuları nəinki Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti aparmış, həm də tarixi, dini və arxeoloji-memarlıq abidələrə qarşı mədəni soyqırım siyasəti yürütmüş, vandalizm aktı həyata keçirmişdilər.

Tarixi mənbələrin məlumatlarına görə, Rusiya hələ I Pyotrun dövründən isti dənizlərə yiyələnmək üçün planlar hazırlamağa başlamış, əlverişli coğrafi mövqeyə, strateji əhəmiyyətə malik Cənubi Qafqaz ərazilərini ələ keçirməyə çalışmışdı. XIX əsrin ilk onilliklərində Rusiya-İran müharibələri baş vermiş və onun nəticəsində Şimali Azərbaycan ərazisi (Qarabağ xanlığı da daxil olmaqla) Rusiya imperiyasının tərkibinə qatılmışdı. Qısa zaman çərçivəsində (1828−1829-cu illər) Qarabağda ermənilərin sayı 18000, 1843-cü ildə isə 34606 nəfərə çatdırıldı. Azərbaycanda

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

fəaliyyət göstərən Alban katolikosluğu çarizmin "xeyir-duası" ilə 1836-cı ildə ləğv olundu və onun mülklərinin erməni qriqoryan kilsəsinin tabeliyinə verildi. Bundan sonra ermənilər albanlara məxsus abidələrin erməni abidələri olduğunu elan etdilər (İsmayılov, 2009: 8). Beləliklə, keçmiş Qafqaz Albaniyası dövlətinin qərb əraziləri, yəni Qarabağ regionunda Alban dövlətçiliyi dini Qarabağda öz müstəqilliyini itirdi, həmin ərazilərin qriqoryanlaşdırılması, yaxud erməniləşdirilməsi prosesi başladı. Bu proses ərazidəki xristian dövrü mədəni irsinin məhv edilməsi, erməni vandalizmi ilə müşayiət olunurdu. Belə ki, alban kilsələrindəki əlyazmalar erməni dilinə tərcümə edilərək orijinalları yandırılır, kilsə və monastırların interyerindəki yazıların və bədii daş nümunələrinin formaları dəyişdirilirdi (İsmayılov, 2016: 15).

Qafqaz Albaniyası dövrünə aid arxeoloji-memarlıq abidələri içərisində daş və divar rəsmlərində, eləcə də süjet xarakterli oymalarda, əsasən türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi bu abidələrin ermənilər vandalizminin təsirinə daha çox məruz qalmasına səbəb olmuşdur. Çünki mənfur ermənilər məskunlaşdıqları ərazilərdəki tarixi-mədəniyyət abidələri üzərində türk ornamentlərinin və simvollarının olmasını heç cür qəbul etmirlər. Bu ona görədir ki, onlar alban dövrü abidələrinin üzərindəki ornament və simvolları olduğu kimi qəbul etsələr, onda bu abidələrin erməniləşdirilməsi mümkün olmazdı (İsmayılov, 2016: 16).

Erməni vandalizminə məruz qalan alban memarlığı abidələri içərisində ən diqqətçəkəni Laçın rayonunun Kosalar kəndi yaxınlığındakı IV əsrə aid edilən Ağoğlan məbədidir (Əliyev, Məmmədzadə, 1997: 8). 1992-ci ildə bu ərazilərin erməni işğalı altına düşməsindən sonra ermənilər Ağoğlan monastırını təmir etmək bəhanəsi ilə abidənin daxili interyerini ciddi dəyişikliyə uğratmış, abidənin divarları üzərində olan bir neçə daş yazını, eləcə də xeyli sayda alban dövrünə məxsus ornament və simvolları tamamilə məhv etmiş, bir çoxunun isə formalarını dəyişdirmişdilər.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Zəngəzur ərazisində çoxlu sayda pirlər, ocaqlar, ziyarətgahlar mövcuddur. Sisian rayonundakı Qırxlar, Salvartı pirləri, Qafan rayonundakı Prdavidan, Çiləxana pirləri, Meğri rayonundakı Buğakar piri, Laçın rayonundakı Quşçu, Ağababa, Sultan baba pirləri, Qubadlı rayonundakı Mir Sədi ağa ocağı, İmamzadə ocağı, Ağ Hasar piri zəngəzurluların hər zaman üz tutduqları müqəddəs ocaqlardır. Laçın rayonundakı Ağoğlan məbədi, Həmzə Sultan sarayı, Cicimli türbəsi, Sisian rayonundakı Ağüdi qəbirüstü abidəsi, Meğri rayonundakı Baba Hacı məqbərəsi, Zəngilan rayonundakı Bartaz Qız qalası, Məmmədbəyli türbəsi, Qubadlı rayonundakı Göy Qala, Dəmirçilər türbəsi, Mahrızlı, Dondarlı məscidləri kimi tarixi-memarlıq abidələrinin bir qismi erməni vandalları tərəfindən dağıdılmış, bir qismi də erməni irsi kimi qələmə verilir. Qərbi Zəngəzurun bir sıra yaşayış məntəqələrindəki müsəlman məbədlərinin qalıqları isə hələ də qalmaqdadır. 1993-cü ildə Şərqi Zəngəzurun işğalından sonra oradakı yüzlərlə qoç heykəllər də erməni vandallağı nəticəsində məhv edilmişdir. Ermənilər Qərbi Zəngəzurda azərbaycanlıların çoxəsrlik mədəni irsini və izini yox etməyə çalışsalar da, onu yaddaşlardan, foto-video materiallardan və sənədlərdən silə bilməmişdirlər. Oradakı müsəlman qəbiristanlıqlarında olan qoç və at fiqurlarının öz əksini tapdığı yüzlərlə qəbirüstü abidə və sənduqələr bu torpaqların azərbaycanlılara məxsus tarixi keçmişindən xəbər verir. Şərqi Zəngəzurun Ermənistan ordusunun işğalı dövründə tarixi-memarlıq abidələrinə qarşı törədilən vandalizmin nəticələri qısa müddətdə aradan qaldırılacaq, hər bir abidə, bütün məscidlər yenidən bərpa olunacaq. Lakin erməni cinayətkarlarının törətdikləri vandallıqlar foto və videolar vasitəsilə gələcək nəsillərə tarixin ibrət dərsləri kimi çatdırılacaq (4).

Beləliklə, təcavüzkar Ermənistanın 28 illik işğalı dövründə Qarabağ və Qərbi Zəngəzurda Azərbaycana məxsus bütün arxeoloji-memarlıq və tarixi, mədəni, dini abidələr ciddi şəkildə vandalizmə məruz qalmışdır. Azərbaycana məxsus mədəni və dini mülkiyyət talan edilmiş, təhqir edilmiş, dəyişdirilmiş və qanunsuz olaraq Ermənistana daşınmışdır. Şübhəsiz, ermənilərin bu

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

vandallığı adi müharibə cinayəti deyil. Prezidentimiz İlham Əliyevin söylədiyi kimi, "onlar bunu bilərəkdən, Azərbaycan mədəniyyətinin izini itirmək, bu torpaqları bizim yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər".

## Ədəbiyyat

1. İsmayılov, F. (2009). Məcburən erməniləşdirmə. Bakı, 184 s.
2. İsmayılov, F. (2016). Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı, 174 s.
3. Əliyev, İ., Məmmədzadə, K. (1997). Qarabağın alban abidələri. Bakı, 32 s.
4. Tarixi-memarlıq abidələri https://files.preslib.az/projects/zangazur/az/a8.pdf

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 262-265
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 262-265
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Lalə Cəfərova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
ceferlilale50@gmail.com

# MUZEYLƏRDƏ QEYRİ-MADDİ MƏDƏNİ İRSİN AKTUALLAŞDIRILMASI MƏSƏLƏSİ

***Açar sözlər:*** *mədəni irs, muzey fəaliyyəti, qeyri-maddi irs, maddi-mədəni abidə, milli sərvət*

***Keywords:*** *cultural heritage, museum activity, intangible heritage, material-cultural monument, national wealth*

Tədqiqat işində muzeyşünaslıq və kulturologiyanın əsas kateqoriyalarından biri sayılan "mədəni irs" anlayışından bəhs edilir. Mədəni irs nümunələrinin müxtəlif səbəblərdən itirilə bilməsi problemləri M.Boquslavski, L.Qalenskaya, A.Martınenko kimi alimlərin və digər tədqiqatçıların əsərlərindən istifadə edilərək araşdırılmışdır.

Tədqiqat işinin əsas məqsədini qeyri-maddi mədəni irsin muzey vasitəsilə aktuallaşdırılmasının hərtərəfli nəzəri təhlili təşkil edir.

Milli-mədəni dəyərlərimizin qorunması istiqamətində reallaşdırılan layihələrdən, gerçəkləşdirilən çoxsaylı tədbirlərdən söz açılaraq həmin istiqamətdə aparılan bütün islahatların maddi və mənəvi incilərimizin mühafizəsinin müasir səviyyədə təşkili, bərpası, öyrənilməsi, təbliği və inkişafına yönəldilməsi, sözügedən sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, zərurət yarandıqda beynəlxalq mütəxəssislərin cəlb edilməsinin daim diqqət mərkəzində saxlanması kimi məsələlər vurğulanmışdır.

Tədqiqat obyektini muzeylərdə qeyri-maddi mədəni irsin mühafizəsi, predmetini isə Azərbaycan Respublikasının qeyri-maddi mədəni irs nümunələri təşkil edir.

Mədəni irsin istər bütövlükdə cəmiyyətin, istərsə də mədəniyyət, incəsənət və muzey tarixinin elmi cəhətdən

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

öyrənilməsinin mühüm mənbələrindən sayılması diqqətə çatdırılmış və keçən əsrin ortalarından etibarən dünya ictimaiyyətinin mədəni irsin mühafizəsi məsələlərinə xüsusi qayğıkeşliklə yanaşmağa başlaması, bunun da öz əməli təzahürünü qəbul olunmuş beynəlxalq əhəmiyyətli sənədlərdə tapması xüsusi vurğulanmışdır (1).

Mədəni irs fenomeni haqqında daha geniş təsəvvürün əldə olunması üçün 2003-cü ildə UNESCO tərəfindən qəbul edilmiş "Ümumdünya qeyri-maddi mədəni irsin mühafizəsi haqqında" Konvensiya və Azərbaycan Respublikasının bir çox beynəlxalq sənədlərə və təsisatlara qoşulması kimi məsələlər işıqlandırılmışdır.

Ölkəmizin hər bir guşəsində tariximizin canlı şahidi olan yüzlərlə maddi-mədəni abidələrə nəzər salınmış, son illərdə bu abidələrə dövlət qayğısının artırılması, onların əsaslı şəkildə təmir olunması və beynəlxalq aləmdə tanınması üçün geniş təbliğat işlərinin aparılması məsələsi öz əksini tapmışdır. BMT-nin elm, təhsil və mədəniyyət sahəsində ixtisaslaşmış qurumu olan UNESCO-nun maddi-mədəni irs siyahısına tarixi abidələrimizdən "Şirvanşahlar sarayı" və "Qız qalası"nın daxil edilməsi ilə bərabər, hazırda baxımsız vəziyyətdə olan abidələrimizin hələ də mövcud olması öz əksini tapmışdır. Qeyd edilmişdir ki, unikal maddi-mədəni abidələrimizin qorunması və təbliği üçün bu sahədə işlər uğurla davam etdirilməlidir (2).

Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Qaraqoyunlu, Zəngəzur, Göyçə mahallarının folklorunun öyrənilməsi həmişə diqqət mərkəzində olub. Toplanılan folklor örnəkləri janr zənginliyi ilə fərqlənir. Ağbaba folklorunda nanaylar, lağamalar, boranlar, bəxtaçmalar, papaqaltılar və yaylaqaltılar, tırınqılar, İrəvan folklorunda haxıştalar, Qaraqoyunlu folklorunda yasaqlar, yalvarışlar, Zəngəzur folklorunda diləklər, hekayətlər, dodaqqaçmalar, Göyçə folklorunda sicilləmələr janr baxımından ətraflı şəkildə öyrənilməmiş örnəklərdir.

Mövsüm və mərasim nəğmələri bölgüsündə təqdim olunan nümunələrin oxunduğu mərasimlər də təsvir olunur. Holavar, sayaçı sözü, eydirmə kimi əmək nəğmələrinin ardınca "Qodu-

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

qodu", "Kosa-Kosa", "Yel Baba", "Xıdır Nəbi" nəğmələri verilir və bu təqdimat "Çillə", "Boz Ay", "Üzərlikyandırma", "Yağışkəsmə" kimi mərasimlərin təsviri ilə tamamlanır. Folklor nümunələrinin bu şəkildə təqdimi onların mahiyyətini, məqsədini və vəzifəsini hərtərəfli anlamağa kömək edir.

Qərbi Azərbaycan folklorunun öyrənilməsi şifahi söz sənətinin toplanılması ilə başa çatmır. Folklor nümunələri özündə tarix yaşadır. Buna görə həmin bölgənin folklorunun öyrənilməsinə xüsusi əhəmiyyət verilir.

Bakı şəhərinin tarixi görünüşünə əsrarəngiz modern çalarlar əlavə edən Heydər Əliyev Mərkəzi və Alov qüllələri kimi komplekslərlə yanaşı, bölgələrimizdə də müasir memarlıq abidələrinin sayının getdikcə artması, dünyada öz unikallığı ilə seçilən qeyri-maddi mədəni nümunələrimiz siyahısında yer alan muğamımız, aşıq sənətimiz, milli bayramlarımız, xalq oyunları və folklorumuzun UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi fərəh hissi ilə qeyd edilmişdir (6).

"Muzeylərdə qeyri-maddi mədəni irsin mühafizəsi", "Muzeylərdə qeyri-maddi mədəni irsin təbliği" kimi mövzular diqqət mərkəzində olmalıdır.

Muzey icmaları və dövlət qurumlarının öz imkanlarını birləşdirilməsi ilə qeyri-maddi mədəni irsin mühafizəsində və inkişafında əsas məsələlərin aşkar edilməsinə töhvə verə bilməsi, UNESCO kimi yüksək səviyyəli beynəlxalq təşkilatın Azərbaycanın maddi və qeyri-maddi mədəni irsini bütün dünya xalqları qarşısında tanıtmaq, müdafiə etmək, insanları məlumatlandırmaq istiqamətində reallaşdırdığı işlərin danılmazlığı kimi mövzular önə çəkilmişdir.

Mədəni irsin prioritet inkişaf istiqamətlərindən biri kimi Azərbaycan dövlətinin diqqət mərkəzində olması, milli mədəni irsin öyrənilməsi, təbliği istiqamətində virtual muzeylərin çoxlu informasiya vermək imkanına malik olması, internet resurslarından istifadə edib mədəniyyətimizlə, ədəbiyyatımızla, tariximizlə, musiqimizlə, incəsənətimizlə bağlı böyük portallar yaradılmalı olması kimi məsələlərə nəzər salınmışdır (3).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Tədqiqat işinin nəticə hissəsində mədəni irsin təyini məqsədilə onun seçilmiş əsas səciyyəvi xüsusiyyətlərini cəmləşdirməklə bunun gələcək nəslin inkişafı üçün zəruri informasiya potensialına malik bir tamlıq və özündə dəyər əks etdirən milli xəzinənin tərkib hissəsi olması, buna cəmiyyətin, əslində, tarix və mədəniyyət abidələrinin cəmləndiyi mədəni irsin sinergetik qanunlara tabe, mühitlə aktiv şəkildə qarşılıqlı münasibətdə olan zamana və informasiya məkanına görə dəyişən mürəkkəb bir sosio-mədəni sistem kimi yanaşmaq lazım gəldiyi öz təsdiqini tapmışdır.

## Ədəbiyyat

1. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi əsərləri. (2020). Bakı: Elm və təhsil, 500 s.
2. Milli Azərbaycan Tarixi Muzeyi 2018-ci il elmi hesabatı. (2018). Milli Azərbaycan Tarixi Muzeyi. Bakı.
3. http://www.azhistorymuseum.az/
4. Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik Nailə Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu. (2020). Bakı: Nurlar, 656 s.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 266-272
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 266-272
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Turan Babayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
turanchik90@gmail.com

# ULU BABALARIMIZIN YURDU − ZƏNGƏZUR

***Açar sözlər:*** *Vətən, Zəngəzur, Səfəvilər dövləti, Nadir şah, qəza, quberniya, "mübahisəli ərazilər"*
***Keywords:*** *Homeland, Zangazur, Safavid state, Nadir shah, uezd, governorate, "disputed territories"*

*"Zəngəzur bölgəsində uyuyan babalarımızın və şəhidlərimizin müqəddəs ruhuna ithaf edilir".*

Vətən hər bir insan üçün müqəddəs, İlahi məqamında dayanan maddi və ruhi bir varlıq olub, onu sevənləri bir anatək sevələyir, ağuşuna alır. Bu dünyada vətəndən şirin heç nə yoxdur. İllər boyu yurdumuzun igid oğulları vətən üçün canlarından keçiblər. Belə yerdə Məmməd Arazın gözəl misraları yadıma düşür:

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.

Dahi şairimizin misralarında vurğuladığı kimi, elimizin igid oğulları tarix boyu nəinki vətənin daşı, torpağı üçün, hətta qayalarında bitən mamır üçün belə canlarından keçməyə hazır olublar. Bu dünya fani dünyadır. Bizlər haqq dərgahına qovuşduqda hər birimiz etdiyimiz əməllər üçün cavab verməli olacağıq. Müqəddəs kitabımızda buyurduğu kimi: Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz (Bəqərə surəsi 154).

Vətəni sevəni Allah da sevir, onun dayağı olur. Amma gərəkdir ki, həqiqətən sevəsən, ürəkdən sevəsən, bütövlükdə canınla, qanınla sevəsən.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Vətəni bugünkü milli respublika sərhədləri daxilində yox, əcdadlarımızın, ulularımızın, dədələrimizin, onların əcdadlarının ayağı toxunmuş, qanı tökülmüş, məzarları qazılmış hər qarış torpaqda dərk etmək vacibdir.

Babalarımız Vətən yolunda, torpaq uğrunda son damla qanlarına qədər vuruşsalar da, tarixin ayrı-ayrı məqamlarında torpaqlarımız itirilmiş, faciələrlə qarşılaşmışlar.

Şərqlə qərbin, şimalla cənubun arasında, neçə-neçə ölkələrin dövlət marağının kəsişmə məkanında yerləşən Azərbyacanı hər tərəfdən hissə-hissə işğal etmişlər. Azərbaycanı Şimala və Cənuba, Ermənistana və Borçalıya, Kərkükə və Dərbəndə parçalayıblar, viran qoyublar.

Allah sənə rəhmət eləsin, Mirzə Cəlil!

O, üzünu həmvətənlərinə tutub: "Haradır Azərbaycan?" − deyə soruşdu. Sualına cavab almadıqda isə: "Ax unudulmuş Vətən, ax yazıq Vətən! Haradasan, ay biçarə Vətən?!" − deyə özü cavab verdi: "Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən: qalan hissələri də Gilandan tutub, Qədim Rusiya hökmətilə Osmanlı höküməti daxilindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bəyazitdən ibarət olsun...... Ax, gözəl Azərbaycan Vətənim! Harada qalmısan?..." Sonra yenidən üzünü həmvətənlərinə tutub yana-yana çağırdı:

"Gəlin biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək − haradır bizim Vətənimiz!?"

Vətənimin qanadı qırılmış bir hissəsi olan Zəngəzur illər boyu bizim yaralı yerlərimizdən biridir. Mirzə Cəlilin verdiyi sualın cavablarından da biridir. Bəli! Zəngəzur − Vətəndir!

İnzibati-ərazi vahidi kimi Zəngəzur XIX əsrin birinci qərinəsinin sonunda meydana çıxıb. Ruslar bu ərzailəri işğal etdikdən sonra digər inzibatı-ərazi vahidləri ilə yanaşı, Zəngəzur və Qarabağ dağ silsilələri ilə Araz və Həkəri çayının aşağı axarı arasındakı ərazini əhatə edən Zəngəzur nahiyəsini yaratmışdılar.

Zəngəzur tarixən Azərbaycan Albaniya dövlətinin şərq hissəsini təşkil etmişdir. Zəngəzur, Naxçıvan, İrəvan və Göyçə ilə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

birlikdə Sünik knyazlığının tərkibinə daxil olmuş Albaniyanın dörd əyalətindən biridir.

VII əsrin ikinci yarısında Zəngəzur Albaniya dövləti ilə birlikdə ərəblər tərəfindən işğal olunur. Ərəb xilfətinin zəifləməsi dövründə isə keçmiş Albaniya ərazisində xırda Azərbaycan feodal dövlətlərinin yarandığı məlumdur. IX əsrdə yaranmış Dəbil (Dvin) əmirliyi Zəngəzur da daxil olmaqla Sünik vilayətinin bütün ərazisini əhatə edirdi.

Məhəmməd bin Əbu-s-Sacın dövründən başlayaraq Dəbilə Sacilər, Salarilər, Şəddadilər və digər Azərbaycan hökmdarlarının nəsillərindən olan əmirlər yiyələnir. 1130-cu ildə Bitlis əmiri Kurt Dəbili ələ keçirsə də, Səlcuq sultanın göstərişi ilə Şəmsəddin Eldəniz 1146-1147-ci ildə Şimala Azərbaycanla birlikdə Dəbil əmirliyini də özünün Arrandakı mülklərinə birləşdirir. Dəbil əmirliyinin tərkibinə Naxçıvan, Dəbil və Zəngəzur daxil idi.

Monqolların ağalığı dövründə Zəngəzur Azərbaycan vilayətinin Naxçıvan tüməninin tərkibinə daxil idi. Belə vəziyyət Qaraqoyunlu və Ağqoyunlu dövrlərində, habelə ilk Səfəvilər dövründə davam etmişdir.

Son orta əsrlərdə, Sünikin parçalanması dövründə Zəngəzurun böyük hissəsi Qapanat və Naxçıvan əyalətlərinin tərkibinə düşür.

XVI əsrin sonlarında Səfəvi dövlətində yaranmış qeyri-sabit vəziyyətdən istifadə edən Osmanlı imperiyası yenidən dağıdıcı müharibəyə başlayaraq, Səfəvilər dövlətinin bir sıra ərazilərini işğal etmişdir. 1578-1586-cı illərdə aparılmış müharibələr nəticəsində Qərbi Azərbaycanın tərkib hissəsi olmuş Zəngəzur Osmanlıların tərkibinə keçir.

I Şah Abbas XVIII əsrin əvvələrində Azərbaycan torpaqlarını geri aldıqdan sonra Naxçıvan, Qapanat və Bərgüşadı yenidən Azərbaycan vilayətinin tərkibinə daxil etmişdi.

Məlumdur ki, Səfəvi dövlətinin dağılma mərhələsinə qədəm qoymasından istifadə edən osmanlılar XVIII əsrin 20-ci illərində yenidən Azərbaycanın çox hissəsini ələ keçirmişdilər. 20-30-cu illərin Osmanlı hakimiyyəti dövründə Zəngəzur torpaqlarının bir hissəsi – Sisyan və Meğri Çuxursəd vilayətinə, Bərgüşad, Həkəri,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

Keştaq, Guləndər nahiyələri Gəncə-Qarabağ əyalətinin tərkibinə daxil idi.

1735-ci ilə kimi bütün Azərbaycan torpaqlarını osmanlılardan geri alan Nadir Əfşar, 1736-cı ildə Muğan qurultayında şah elan edildikdən sonra onun şah seçilməsinə qarşı çıxdığına görə Qarabağ bəylərbəyliyi Ziyadoğullarının qüdrətini sarsıtmaq üçün Qarabağın beş xristian məliyini Bərgüşad və Zəngəzur mahallarının bəylərbəyliyinin tabeçiliyindən çıxarıb, yaratdığı bütöv Azərbaycan bəylərbəyliyinin hakimiyyətinə keçirdi.

Nadir şahın ölmündən sonra Azərbaycan xırda-xırda xanlıqlara parçalandı. 1750-ci illərdə Pənahəli xan Qarabağlı Mehri və Güney mahallarını Qaradağ xanının əlindən, Tatev və Sisyan mahallarını Naxçıvan xanının əlindən, Zəngəzur və Qapanı isə Təbriz xanının əlindən aldı. Nəticədə Zəngəzur bir neçə əsr əvvəl olduğu kimi, yenidən bir inzibati vahidin tərkibində birləşdirildi.

1822-ci ildə Qarabağ xanlığı ləğv edildi. Müsəlman əyalətləri hərbi dairəsinin tərkibində bir əyalətə çevrildi. 30-cu illərin əvvələrində bu əyalətin tərkibində 9 minbaşlığı birləşdirən iri Zəngəzur mahalı təşkil olundu.

1841-ci il yanvarın 1-dən tətbiq olunan yeni inzibati quruluşa görə Kaspi vilayətinin Qarabağ qəzasının tərkibində keçmiş Zəngəzur mahalı iki sahəyə − Zəngəzur və Meğri sahələrinə bölündü. 1846-cı ilin yeni ərazi-inzibati bölgüsünə görə Qarabağ qəzası Şuşa qəzası, Kaspi vilayəti isə Şamaxı quberniyası adlandırıldı. İrəvan quberniyasının təşkil olunması ilə əlaqəadar olaraq Zəngəzurun cənub hissəsi Meğri sahəsi 1850-1867-ci illərdə bu quberniyanın Ordubad qəzasının tərkibində oldu.

1868-ci ildə yeni Yelizavetpol quberniyasının təşkil olunması ilə əlaqədar Şuşa qəzasının tərkibindən Zəngəzur qəzası ayrıldı və İrəvan quberniyasının tərkibində olan Meğri sahəsi də ona qaytarıldı. Sonralar Zəngəzur qəzası sahələrə bölündü və sovetləşməyə qədər belə qaldı.

Nəticə olaraq Çar Rusiyası tənəzzül edənədək Yelizavetpol quberniyasının tərkibində oldu.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

1885-ci ildə İstanbulda “Armenakan” adlı inqilabçı – separatist təmayüllü erməni partiyası yaradıldı. Onun ardınca eyni məqsədə xidmət etmək üçün 1887-ci ildə Cenevrədə “Hınçak”, 1890-cı ildə isə Tiflisdə “Daşnaksütun” partiyaları fəaliyyətə başladı.

Hər üç partiyanın nizamnamə və proqram sənədlərində ali məqsəd olaraq “Böyük Ermənistan” dövlətini qurmaq məsələsi qarşıya qoyulmuş, bu məqsədə çatmaq üçün isə bütün vasitələrdən, o cümlədən, inqilab, silahlı üsyan və terror üsullarından istifadə etməyin mümkünlüyü qeyd olunmuşdur.

1905-ci illərin əvvələrində Daşnaksütun partiyası milli qırğına şərait yaradan terror və təxribatlara başladı. Fevral ayından etibarən Bakıda, Naxçıvanda, İrəvanda və Zəngəzurda qırğınlar törətməyə başladılar.

1905-ci il mayın 22-də Daşnaksütun partiyasının Qafqaz komitəsi adına verilmiş bir əmr daşnakların seçkiləri yolun mənzərəsini çox aşkar göstərir. Əmrdə deyilir ki, ermənin silahını əlindən almağa, evində axtarış aparmağa, onu həbs etməyə cəhd göstərən hər kəs amansızlıqla öldürüləcək.

1905-ci ildə Zəngəzurda erməni quldur birləşmələri şəhərin dinc əhalisinə qanlı divan tutmuşlar. Onlarca adam öldürmüşlər.

1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon yerli əhali həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kənd yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir.

Bölgə Osmanlı imperiyası ilə bağlanan müqaviləyə görə Fevral inqilabından sonra yaranan Ermənistan Xalq Cümhuriyyəti ərazisinə daxil deyildir, ancaq bu müqaviləni tanımayan Andranik Ozanyan Osmanlı ordusundan qaçaraq bölgəni işğal etdi və bundan sonra silahlı erməni dəstələrinin törətdikləri vəhşiliklər daha da amansız oldu.

Mudros müqaviləsi əsasında osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər AXC tərkibində yaradılan Qarabağ general qubernatorluğunu tanıdılar və Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Zəngəzur qəzası da bura daxil idi. Andranik

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bölgəni tərk etsə də Dronun qoşunları ərazinin bir hissəsini öz nəzarəti altında saxlaya bildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək üçün Zəngəzura qoşun hissələrinin göndərilməsini qərara aldı. Bu məqsədlə hərbi nazirlik 1919-cu il oktyabr ayının 30-da xüsusi Zəngəzur dəstəsi yaratdı. Dəstənin rəhbəri 1-ci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlinski idi. Dəstə oktyabrın 30-da ilkin mövqelər istiqamətində Xankəndindən Zəngəzura doğru hərəkətə başladı. Müxtəlif istiqamətlərlə hərəkət edən birinci, habelə sağ və sol dəstələr Dığ yaşayış məntəqəsinə doğru irəliləməli idilər. Dığın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyət daşıyırdı. Hücum zamanı dəstənin sağdan mühafizəsi Sultan bəy Soltanovun rəhbərliyi ilə yerli partizanlara tapşırıldı. Dığ istiqamətində aparılan döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlasa da, onu əldə saxlamaq mümkün olmadı.

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi.

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsinin Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında “mübahisəli ərazilər” elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu, hərçənd bölgələrdə daşnak hökuməti hələ tam süqut etməmişdi.

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Vedidə, İrəvanda, Dərələyəzdə – indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib.

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 273-276
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 273-276
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**İmran Bayramov**
Bakı Dövlət Universiteti
bakalavr
imranbayramov2003@mail.ru

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İNTENSİV KƏND TƏSƏRRÜFATINDA AĞILLI TEXNOLOGİYALARIN TƏTBİQİ

***Açar sözlər:*** *Qarabağ, Şərqi Zəngəzur, kənd təsərrüfatı, IoT, biotexnologiyalar, SMART texnologiyalar*

***Keywords:*** *Karabakh, Eastern Zangazur, agriculture, IoT, biotechnologies, SMART technologies*

Vətən müharibəsində əldə olunan şanlı zəfərdən sonra yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması, əhali məskunlaşması, təsərrüfat sahələrinin bərpa olunması mühüm əhəmiyyət kəsb edir və bu sahədə müxtəlif səviyyələrdə zəruri addımlar atılır.

Qarabağ və Şərqi Zəngəzur rayonlarında kənd təsərrüfatının intensiv inkişaf etdirilməsi üçün əlverişli aqroiqlim şəraitinin, əmək, yem və torpaq ehtiyatlarının, o cümlədən əhalinin tarixi ixtisaslaşması amillərinin mövcudluğu “yaşıl” quruculuq işləri fonunda ekoloji təmiz istehsal texnologiyalarının tətbiqi, tullantıların emal edilməsi və utilizasiyası, avtomatlaşdırılmış və insan faktoru olmadan idarəetmənin tətbiq edilməsinə ehtiyac yaradır. Dünyada və regionda baş verən aqrar inqilablar fonunda əhalinin davamlı qida təminatı və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə kənd təsərrüfatında informasiya və müasir idarəetmə texnologiyalarının tətbiqi daha geniş yer almışdır. Belə ki, aqrar təsərrüfatların intensiv istehsala keçməsi qısa zaman ərzində ərzaq ehtiyaclarının qarşılanması ilə xarici bazardan asılılığın minimum həddə endirilməsinə səbəb olacaqdır.

Kənd təsərrüfatında rəqəmsal və avtomatlaşdırılmış texnologiyaların tətbiqilə mexaniki əməkdən asılılıq azaldılmaqla yanaşı, həm də torpaq fondundan səmərəli istifadə ilə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

məhsuldarlığın artırılması mümkün olur. Bu hal yaylaq və qışlaq ərazilərinin müəyyən olunması, yem bazasının dayanıqlığı və emaledici təsərrüfatın formalaşması ilə heyvandarlığın da intensiv inkişafına gətirib çıxarır.

Aqrar təsərrüfatlarda ağıllı texnologiyaların tətbiqini bir neçə istiqamətdə izah etmək mümkündür. Ərazinin aqroekoloji monitorinqini həyata keçirən pilotsuz uçuş aparatlarının (PUA) tətbiqi qısa zaman ərzində böyük ərazinin müşahidəsinə imkan yaradır. Həmçinin pilotsuz kombaynlardan istifadə ilə əvvəlcədən müəyyən olunmuş marşrut üzrə məhsul yığımını həyata keçirmək mümkündür. Kənd təsərrüfatında geniş istifadə imkanına malik IoT (Əşyaların interneti texnologiyası) sensorları sahədə hava, yağıntı, günəş radiasiyası və digər hidrometeoroloji verilənlərin toplanması, o cümlədən mal-qaranın bioloji göstəricilərinin təyin olunması, iqlim və fenoloji şəraitə müvafiq suvarma işləri və texniki qurğuların yerinin müəyyən olunaraq optimal logistik marşrutun təyin olunmasında əvəzsiz vasitə kimi çıxış edirlər.

Ağıllı texnologiyaların siyahısına aqrotexniki tədbirlərin həyata keçirilməsinə şərait yaradan süni intellektin tətbiqilə kompüter müşahidəsi, xaritələşdirmə və modelləşdirməni aid etmək olar. Məhsuldarlığın artırılması istiqamətində gen mühəndisliyi işlərinin həyata keçirilməsi, bitki və heyvanlardan alınmış nümunələrin laborator şəraitdə öyrənilməsi məsələləri böyük aktuallıq kəsb edir (1).

Torpaq fondunun qorunması məqsədilə biopestisidlərin və bioremediasiyanın tətbiqi, o cümlədən kompleks meliorativ və rekultivasiya işlərinin həyata keçirilməsi əkinçilik və heyvandarlığın davamlı inkişafına əlverişli şərait yaradacaqdır. O cümlədən, bio və nanobiotexnologiyaların aqrar sahəyə inteqrasiyası gen modifikasiyası və xəstəliklərin müşahidəsi, təsərrüfat üçün təhlükəli mikrooraqnizmlərlə mübarizə, sanitar epizootik və enfitotik tədbirlərin həyata keçirilməsi üçün vacib əhəmiyyətə malikdir (1).

Kənd təsərrüfatında ağıllı texnologiyalardan istifadəsi SMART abbreviaturasına daxil olan anlayış və prinsiplərin kompleks tətbiqi ilə mümkündür: “Specific” – xüsusilik,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

“Measurable” – ölçülə bilmə, “Achievable” – əldə edilə bilmə, “Relevant” – müvafiqlik, “Time bound” – zamana bağlılıq. Kənd təsərrüfatında, bu prinsiplərə uyğun gələn aşağıdakı ağıllı texnologiyalar tətbiqi mümkündür (Anishchenko, 2019):

- İnformasiyanın toplanması və verilənlərin təhlili üçün: GNSS (Global Navigation Satellite System), GIS (Geographic Information System), RS (Smart Response Technology), Web (World Wide Web), Big Data, Yield monitoring, Soil-test və s.;
- İdarəetmə və qərarların qəbul edilməsi üçün: Crop-, Land-, Livestock-management;
- Qəbul edilən qərarların icrası üçün: Variable Rate Technology.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən “ağıllı kənd” layihələri də ağıllı aqrar təsərrüfat konsepsiyasını əhatə edir. “Ağıllı kənd” layihəsinin icrası 5 komponent üzrə aparılır. Bunlar məskunlaşma, istehsal, xidmət sahələri, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələridir. İlk olaraq bu layihə Zəngilan rayonunun Ağalı kəndində icra olunubdur.

“Ağıllı kənd təsərrüfatı” kooperativ və kompleks idarəetmə sistemini, innovativ texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, habelə PUA və dronlar vasitəsilə idarəetmə və nəzarəti özündə birləşdirir. “Ağıllı” təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verir. “Ağıllı kənd” layihəsi həm də müasir şəhərsalma standartlarının tətbiqi, küçələrin “ağıllı” işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, su elektrik stansiyalarının, günəş paneli stansiyalarının quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın əsas komponentləri sırasındadır (3).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

# Ədəbiyyat

1. Nano, bio, smart i ne tol'ko: sovremennoye sel'skoye khozyaystvo v 20 ponyatiyakh. (2020).
2. Anishchenko, A.N. (2019). «Umnoye» sel'skoye khozyaystvo kak perspektivnyy vektor rosta agrarnogo sektora ekonomiki Rossii. Prodovol'stvennaya politika i bezopasnost.
3. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər (president.az)

ZƏNGƏZURUN TARİXİ VƏ COĞRAFİYASI BEYNƏLXALQ ELMİ KONFRANSININ MATERİALLARI
19 may 2023 / 277-278
MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE HISTORY AND GEOGRAPHY OF ZANGAZUR
19 may 2023 / 277-278
DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

**Elvin Garayev**
Azerbaijan, Shaki
elvin_qarayev_1993@mail.ru
https://orcid.org/0000-0002-5496-744X

# ZANGAZUR − HISTORICAL LAND OF AZERBAIJAN

***Keywords:*** *Zangazur, Caucasus, Sunik, mountain, Barghusad, Araz river, Sisakan*
***Açar sözlər:*** *Zəngəzur, Qafqaz, Sünik, dağ, Bərğusad, Araz çayı, Sisakan*

Azerbaijan is one of the territories with a rich historical past. The historical lands of Azerbaijan, covering a wide geographical area from Darbend to Zanjan, from Kirkuk to Eastern Anatolia, have been divided from time to time and settled within the borders of the modern Republic of Azerbaijan. The modern state of Azerbaijan itself is divided into two parts through the Zangazur corridor.

The territory of Zangezur covers a part of the Zangazur range, the longest mountain range of the Lesser Caucasus, the south-west of the borders of the Republic of Azerbaijan, and the south-east of the territory of Armenia. The remaining part of historical Zangazur within the borders of Azerbaijan is called Eastern Zangazur, and the remaining part in the territory of the present Armenian state is called Western Zangezur. In ancient times and the early Middle Ages, the territory of Zangazur was part of the kingdom of Mada, the kingdom of Scythians and the state of Atropatena under the name of Sunik or Sisakan, and the state of Azerbaijan Albania. In the middle of the 6th century, as a result of the administrative reform of Khosrov I Anushiravan, the province of Adurbadagan was created, both the north and the south of Azerbaijan were united under a single name. Albanian historian Moisey Kalankatuklu in his work "History of Albania" provides information about the Albanian tribal associations living in this

DOI: https://doi.org/10.36719/2663-4619/2023/1/1

area, as well as about the Gargars, Khazars, Huns and other Turkic tribes.

Zangazur, which forms the eastern part of the state of Albania, covers a wide area starting from Megri along the Araz River, up to Akara, and towards the north to the Kapicic, Khustup mountains, from the Zangazur mountain range to the Bergushad mountains.

# İÇİNDƏKİLƏR


**Tofiq Nəcəfli**
Zəngəzur bölgəsi XV əsrdə ..........................................................7
**Məhəmməd Abduyev**
Qarabağ və Şərqi Zəngəzur ərazisi çaylarının
sülb axımına dair müşahidə məlumatlarının təhlili ......................12
**Camal Mustafayev**
Zəngəzur qəzasında xalça məmulatı istehsalı tarixindən ............17
**Tariyel Talıbov, Ənvər İbrahimov**
Naxçıvan Muxtar Respublika florasının
(Zəngəzur Milli Parkı) çəyirdəkli meyvə bitkiləri .......................21
**Şikar Qasımov**
Zəngəzurun tarixi, onun əzəli Azərbaycan torpağı
olmasına sübutdur ...........................................................................25
**Cəbi Bəhramov**
XX əsrin II yarısında Qərbi Azərbaycanın
Qərbi Zəngəzur bölgəsinin sosial-iqtisadi və
mədəni həyatı (1946-1991-ci illər) ..............................................37
**Hacı Həsənov, Zeynəb Qafarova, Elmar Məhərrəmov**
Zəngəzurun inzibati-ərazi quruluşu..............................................45
**Ənvər Məmmədov**
Zəngəzur qəzasında Sovet hakimiyyətinə qarşı müqavimət
hərəkatı (1924-1925-ci illər) .......................................................49
**Elçin Qarayev**
Zəngəzur qəzasının inzibati-ərazi bölgüsü.
İdarəçilik sistemi ............................................................................54
**Əsəd Qurbanlı**
Azərbaycanın Nüvədi və bir sıra kəndlərinin SSRİ tərəfindən
Ermənistana verilməsinin siyasi nəticələri ..................................58
**Sahibə Budaqova**
Zəngəzurun tarixi coğrafiyası və bu günü ...................................62
**Dilruba Əliyeva**
Zəngəzurun tarixi, coğrafiyası, bitkiliyi və bitkiliyinə
mənsub bəzi növlərin tədqiqi .......................................................65
**Emiliya Əliyeva**

Zəngəzur qəzası XX əsrin əvvəllərində ......................................69
**Hacı Həsənov, Zeynəb Qafarova, Ruqiyə Talıbova**
Zəngəzur torpaqlarının Rusiya tərəfindən işğalı .........................73
**Həmidə Seyidova**
Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında
yayılan yeməli göbələklər..........................................................77

**İradə Əliyeva**
Çar Rusiyasının Zəngəzur qəzasında apardığı müstəmləkəçi
pravoslavlaşdırma siyasətinə dair ................................................81
**Gültəkin Allahverdiyeva**
Zəngəzurun arxeoloji abidələri ...................................................85
**Taleh Əliyev**
Zəngəzurun Alban dövrü xristian məbədləri ................................89
**Elza Orucova**
Zəngəzur tarixi – geoqrafik mahaldır! ........................................95
**Təhminə Əliyeva**
Azərbaycanın əzəli torpaqları olan Zəngəzur
Cümhuriyyət dövründə ...............................................................99
**Teyyub Paşayev**
Naxçıvan MR-də Zəngəzur silsiləsinin şibyə florasının
coğrafi yayılması .......................................................................103
**Xatirə İlyasova**
Şərqi Zəngəzurdakı tarixi-memarlıq abidələrinə dair ...............107
**Yaqub Səmədov**
Zəngəzur tarixi Azərbaycan torpağıdır ......................................111
**Məhəmməd Hüseynov**
Zəngəzurda erməni vəhşilikləri və azərbaycanlıların
soyqırımı ...................................................................................115
**Namiq Abbasov, Arzu Məmmədov**
Naxçıvan Muxtar Respublikası florasının
(Zəngəzur Milli Parkı) nadir növü – *Tanacetum kotschyi*
(Boiss.) Grierson .......................................................................119
**Nurlana Həmzəyeva**
Zəngəzur mahalı: Azərbaycanlıların qədim tarixi-etnoqrafik
bölgəsi .......................................................................................122
**Rahibə Əliyeva**

İrəvanda Azərbaycanın tarixi mədəni irsinin məhvi .................126
**Ramil Niftəliyev**
Qaçaq Nəbinin dəstəsi haqqında .............................................130
**Zülfiyyə Salayeva**
Naxçıvan Muxtar Respublikası florasının (Zəngəzur Milli Parkı) nadir növü – *Merendera raddeana* Regel .................................134
**Sevda Abdullayeva**
Zəngəzur bölgəsinin tarixinə daha bir baxış .............................138

**Leyla Majidova, Khanim Ahadli**
Historical monuments of Zangazur ..........................................142
**Sənubər Həsənova**
Zəngəzurun tarixindən .............................................................146
**Nərgiz İbrahimova**
Zəngəzurda erməni qırğınları ...................................................149
**Xəyalə Əsgərova**
Zəngəzurun XIX əsrin 70-ci illərindəki inzibati-ərazi bölgüsünə dair ........................................................................153
**Gülcamal Sadıxova**
XIX-XX əsrin əvvəllərində Şuşa şəhərinin büdcəsi və abadlıq işlərinin tarixindən .......................................................157
**Ramin Əlizadə**
Qərbi Zəngəzurdan aşkar edilmiş Urartu kitabəsi haqqında tarixi gerçəklərin saxtalaşdırılması ...........................................161
**Sevinc Qurbanova**
Zəngəzur dəhlizinin beynəlxalq əhəmiyyəti .............................164
**Nigar Jamalova**
Armenia's military aggression and ethnic cleansing policy against Zangazur (1918-1920) .................................................167
**Kəmalə Sadıqova**
Zəngəzur mahalının əzəli torpağı Zəngilanın tarixi və təbiəti ........................................................................................171
**Huseynağa Əsədov, Kəmalə Sadıqova**
Zəngilan regionunun iqtisadi və coğrafi əhəmiyyəti .................174
**Könül Mikayılova, Gülnarə Şahmuradova, Tavat Muradlı**
“Gərək nəbzin Vətənin nəbzi ilə vursun” .................................178

**İsmayıl Faxtiyev**
Zəngəzur dəhlizi: milli iqtisadi inkişafin hərəkətverici qüvvəsi ........................................................................183
**Seyid Cabbarov**
1918-1920-ci illərdə İrəvan quberniyasi ərazisində Azərbaycan türklərinə qarşı törədilmiş qətliamlar ....................186
**Sədaqət Məmmədli**
Zəngəzurun epiqrafik abidələri haqqında ..................................189

**Seyidnisa Aliyeva**
Zangazur ...................................................................................191
**Ləman Muradova**
Qərbi Zəngəzur bölgəsində ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımı aktları və etnik ......................194
**Lamiyə Əliyeva**
Zəngəzurun coğrafiyası ............................................................199
**Lalə Allahverdiyeva**
XIX əsrdə İrəvan şəhərində sabun istehsalının tarixindən ........203
**Afərim Tağıyeva**
Zəngəzurda dinlərin yayılması .................................................208
**Aygün Kərimova**
Şərqi Zəngəzur iqtisadi rayonunda dayanıqlı kənd təsərrüfatının inkişaf prinsipləri ......................................212
**Gültəkin Hacıyeva, İlahə Seyidova**
Zəngəzurun tarixi coğrafiyası ...................................................216
**Aytən Əsədova**
Zəngəzurun Urud abidələri .......................................................219
**Dinarə Babayeva**
XIX-XX əsrin əvvəllərində Zəngəzurda mədrəsə və məktəblərin fəaliyyətinə dair ...................................................224
**Türkan Məmmədova**
Şərqi Zəngəzur bölgəsinin landşaft qurşaqları və onların müasir vəziyyəti .......................................................................227
**Seyyub Əsədov**
Qədim tarixi torpağımız: Zəngəzur ...........................................230
**Gülnarə Əhmədova**
Zəngəzurun ermənilərə verilməsi .............................................234

**Azadə Quliyeva**
Zəngəzur ədəbiyyatında tarixi və coğrafi anlayışlar .................238
**Nəzakət Qəhrəmanzadə**
Zəngəzurun tarixi coğrafiyası ...................................................242
**Seyyub Əsədov**
Zəngəzurda təhsil .....................................................................247
**Aydan Salmanova**
Sustainable tourism development in the Eastern Zangazur:
opportunities and challenges ....................................................250
**Gülnar İmamova**
Şəki-Zaqatala Alban abidələrinin Şərqi Zəngəzurun
Alban abidələri ilə regional xüsusiyyətləri ................................254
**Gülüm Əzizova**
Qarabağ və Qərbi Zəngəzurun erməni vandalizmə
məruz qalan arxeoloji-memarlıq abidələrinə dair .....................258
**Lalə Cəfərova**
Muzeylərdə qeyri-maddi mədəni irsin aktuallaşdırılması
məsələsi ....................................................................................262
**Turan Babayeva**
Ulu babalarımızın yurdu − Zəngəzur ……...............................266
**İmran Bayramov**
İşğaldan azad olunmuş ərazilərin intensiv
kənd təsərrüfatında ağıllı texnologiyaların tətbiqi ....................273
**Elvin Garayev**
Zangazur − historical land of Azerbaijan.................................277

İmzalandı: 30.05.2023
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 17.75 ç.v.
Sifariş: 641

---

“ZƏNGƏZURDA” çap evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru